# AQŞİN ƏLİZADƏ

## xatirələr işığında

*Aşiqəm şerə, sənətə və gözəl musiqiyə*
*Dillən ey sevgili tarım mən öləndən sonra*

**Əliağa Vahid**

**"Elm və təhsil"**
**Bakı - 2024**

**Tərtibçi - redaktorlar:** **Lalə Hüseynova,**
Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Fazilə Nəbiyeva,**
Azərbaycan Milli Konservatoriyası elmi tədqiqat laboratoriyasının baş elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Aqşin Əlizadə - xatirələr işığında.** Esse, oçerk, portret cizgiləri və foto sənədlər toplusu. Bakı, Elm və Təhsil, 2024, 360 s.

*Təqdim edilən kitabda bəstəkar Aqşin Əlizadəyə həsr edilmiş xatirələr toplanmışdır. Bu xatirələrin fonunda böyük sənətkarın həyat və yaradıcılığının müxtəlif dövrlərinə aid yaddaqalan anları çoxsaylı foto materiallarla təmsil edilib. Kitabın müxtəlif başlıqlarla təqdim olunan bölmələrindəki məqalələrdə o, xalq musiqisinin dərin bilicisi, böyük bəstəkar və həqiqi vətənpərvər insan, görkəmli ictimai xadim, gözəl pedaqoq kimi səciyyələndirilmişdir. Topluda bəstəkarın yaradıcılıq təmasında olduğu sənət dostlarının və tələbələrinin Azərbaycan və xarici dillərdə yazılmış məqalələri əksini tapmışdır. Aqşin Əlizadə haqqında ilk dəfə müasirlərinin xatirələrini önə çəkmiş bu kitab geniş musiqi ictimaiyyətinə və musiqisevər oxuculara ünvanlanır.*

***Kitabın forzesində rəssam İsmayıl Məmmədov tərəfindən çəkilmiş qrafik portretdən və Aqşin Əlizadənin "Hüzn valsı" əsərindən istifadə edilib.***

**ISBN** 978-9952-581-21-8

**© Lalə Hüseynova, 2024**
**© Fazilə Nəbiyeva, 2024**

***Deyirlər insan o zaman həyatdan gedir ki, onu tanıyan sonuncu insan da dünyasını dəyişir. Artıq 10 ildir ki, Aqşin Əlizadə fiziki olaraq aramızda yoxdur. Lakin onun işıqlı xatirəsi hafizələrdə yaşayır. Qoy, bu kitab böyük bəstəkar və şəxsiyyəti yaxından tanımaq istəyən yeni nəsillərə onun müasirlərindən kiçik bir ərməğan olsun.***

## TƏRTİBÇİLƏRDƏN

Tarixdə elə şəxsiyyətlər vardır ki, onlar həyatdan gedəndən sonra da böyük ehtiram və dərin sevgi ilə xatırlanırlar. Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" və "Şərəf" ordenli, Prezident təqaüdçüsü, novator bəstəkar, görkəmli pedaqoq Aqşin Əliqulu oğlu Əlizadə həyat və yaradıcılıq yolu ilə örnək olan belə insanlardan biridir. O, Azərbaycan musiqi xəzinəsinə bəxş etdiyi ilk qəhrəmani milli balet olan "Babək" monumantal səhnə əsəri, "Azərilər" kantatası, "Bayatılar" xor sisiləsi, "Pastoral", "Aşıqsayağı", "Kənd süitası", simfoniyaları, habelə "Qədim layla", "Muğam sədaları", "Dastan", "Qoca xanəndə" kimi ölməz əsərləri ilə xatırlanır. Onun müxtəlif janrlarda yazdığı bənzərsiz musiqi inciləri təkcə Azərbaycan bəstəkarlıq məktəbini zənginləşdirməmiş, hətta dünya mədəniyyətinə də töhfələr bəxş etmişdir.

Aqşin Əlizadə bütün yazdıqlarında fərdi üslubunu ortaya qoymuş nadir bəstəkarlardandır. Doğma vətən torpağı, vurğunu olduğu Abşeron bağlarının təbiəti ona daim ilham vermiş və bunları bəstəkar öz əsərlərində ifadə etmişdir. Aqşin Əlizadə yaradıcı təxəyyülə malik şəxsiyyət kimi yalnız doğma xalqına miras qoyduğu musiqi irsi ilə deyil, eyni zamanda yüksək insani keyfiyyətləri ilə də Azərbaycanın görkəmli simalarından biri kimi daim qəlblərdə yaşayır. Təqdim edilən toplunu nəşrə hazırlamaq zərurəti də məhz bundan irəli gəlmişdir.

Hazırki kitabın mündəricəsini Aqşin Əlizadənin müxtəlif illərdə yaradıcılıq təmasında olduğu şəxslərin xatirələri təşkil edir. Bu topluda böyük bəstəkarın mənalı ömrünün yaddaqalan anları əldə etdiyi yüksək nailiyyətləri, həm də çoxsaylı fotosənədlərdə, afişalarda əksini tapmışdır. Ustad sənətkar haqqında həmkarlarının düşüncələri, həmçinin novator bəstəkara ünvanlanan görkəmli dirijorların, musiqişünasların, rejissorların, eləcə də tələbələrinin dəyərli fikir və rəyləri kitabın səhifələrində əks olunub. Məqalə müəlliflərinin ürək sözlərində onun böyük vətənpərvərliyi, ailə şəcərəsindən irəli gələn

qəhrəmani ruhu, fədakarlığı, sənətdə güzəştə getməməyi, həmçinin üslub fərdiliyi, pedaqoji metodları, Azərbaycan musiqinə gətirdiyi yeniliklər səmimi xatirələr işığında təzahür edir.

Altı bölmədən ibarət olan toplunun quruluşunu Aqşin Əlizadə ilə daim yaradıcılıq təmasında olmuş həmkarlarının - musiqişünas, dirijor, rejissor, baletmeyster və ifaçıların, onun çoxsaylı tələbələrinin, habelə doğma insanlarının ayrı-ayrı bölmələrdə cəmlənmiş xatirələri müəyyən etmişdir.

**“Bəstəkar sözü”** adlanan ilk bölmədə Aqşin Əlizadənin həmkarlarının dilindən söylənən xatirələri onun həyat və yaradıcılıq məramına işıq salır.

**“Musiqişünas sözü”** başlığı ilə verilən ikinci bölmədə ustad sənətkarın müxtəlif janrlarda yazdığı musiqi irsini tədqiqat obyektinə çevirmiş araşdırmaçıların onun şəxsiyyəti və yaradıcılığı haqqında qiymətli fikirləri toplanmışdır.

Aqşin Əlizadənin əsərlərini ifa edən musiqiçilərin xatirələri “**İfaçı sözü**” adlanan digər bölmədə əksini tapıb.

**“Kino və teatr xadimləri xatırlayır”** adlı bölmədə isə onunla yaradıcılıq təmasında olmuş incəsənət xadimlərinin hafizələrindən süzülüb gələn fikirlər oxucuların nəzərinə çatdırılır.

Aqşin Əlizadəni tələbləri də böyük ehtiramla yad edirlər. Kitabın beşinci bölümü **“Tələbələrin düşüncəsində”** adlanır. Bu bölmədə o, tələbkar, ciddi, qayğıkeş və yaradıcı təbiətə malik böyük müəllim kimi səciyyələndirilir.

Nəhayət, toplunun **“Xatirələr sorağında”** adlanan sonuncu bölümündə Aqşin Əlizadənin digər parlaq cəhətləri üzə çıxarılır.

Təqdim olunan kitabda istifadə edilən foto sənədlərə görə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi **Əsgər Rəsulova**, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru sənətşünaslıq üzrə elmlər doktoru **Alla xanım Bayramovaya**, Azərbaycan Dövlət Film Fondunun rəhbəri **Cəmil Quliyevə**, Ü.Hacıbəylinin ev-muzeyinin direktoru Xalq artisti **Sərdar Fərəcova**, xatirələrini və şəxsi arxivlərindən fotoları təqdim edən məqalə müəlliflərinin hər birinə habelə Aqşin Əlizadənin şəxsi arxivindən istifadə etməyimiz üçün yaxından köməklik göstərən bəstəkarın oğlu hörmətli **Fuad Əlizadəyə** dərin minnətdarlığımızı bildiririk.

## BƏSTƏKAR SÖZÜ

*“Əsas məqsəd ürəkdən gələn musiqinin saflığını itirməməkdir.”*
*Aqşin Əlizadə*

**Фарадж КАРАЕВ**
Народный артист Азербайджана, профессор

### АГШИН-МОЙ ДРУГ, КОЛЛЕГА

Акшин был старше меня на шесть лет, поэтому в годы учебы мы с ним практически не пересекались. Закончивший консерваторию в классе Джевдета Исмайловича он был одним из самых его любимых учеников и естественно, что профессор оставил его у себя ассистентом. В 1966/67 учебном году я также стал ассистентом класса профессора Д.И.Гаджиева, и мы, сблизившись, со временем стали хорошими друзьями. Мы занимались в кабинете ректора, в кабинете, который в свое время занимали Узеир бек и Гара Гараев, сидели за письменным столом, который напоминал нам о наших великих учителях. Спокойный и рассудительный, Акшин нередко удерживал



***Азербайджанская Государственная Консерватория. Кафедра Композиции. Первый ряд слева: Джевдет Гаджиев, Ашраф Аббасов, Хайям Мирза-заде, Солтан Гаджибеков, Гара Гараев. Стоят: Эмин Сабитоглы, Фарадж Караев, Акшин Ализаде***

меня от резких оценок сочинений студентов-композиторов, показывая пример доброжелательного и чуткого отношения к творчеству молодых.

Коллеги Акшина, в частности, Олег Фельзер и я, восхищались его ранними сочинениями - **Сонатой для фортепиано** и особенно **Камерной симфонией**. Помню, как в Москве в зале Всесоюзного Дома Композиторов Камерный оркестра Радио и Телевидения Азербайджана под управлением своего бессменного руководителя Назима Рзаева репетировал эту Симфонию – предстоял ответственный концерт, и мы, естественно, тоже находились в Москве. В зале ВДК не было чембало – в те годы этот инструмент был большой редкостью, но в изящной и изысканной партитуре Акшина он занимал заметное место.

И мы – Акшин, Олег и я, посовещавшись, решились на небольшое преступление. За пару часов до концерта, когда из администрации в зале никого не было, мы прикрепили на молоточки рояля обыкновенные канцелярские кнопки – звук рояля стал отдаленно напоминать чембало. Концерт прошел прекрасно, Акшина несколько раз вызывали, и все были счастливы. Все, кроме администратора зала, который, разъяренный, бегал по всему ВДК, пытаясь найти преступников, подпортивших ему концертный рояль. Акшин пытался объяснить ему, что это якобы специальные кнопки, которые мы привезли из Баку, но наша уловка не прошла, и нам пришлось выслушать не только справедливые упреки, но и угрозы доложить о нашем поступке в секретариат Союза Композиторов СССР.



***Акшин Ализаде и Фарадж Караев***

Помню еще одно исполнение этой **Симфонии** в Тбилиси, в котором также участвовало несколько добровольцев – состав Камерного оркестра был меньше того, что требовала партитура автора. Акшин из-за этого очень нервничал, но все прошло, более или менее, благополучно - на чембало, в этот раз на настоящем, играла Фира Али-заде, партию второй флейты исполнял Джаник Караев – пианист, который по собственной инициативе научился играть на флейте.

Акшин пользовался заметным авторитетом не только среди своих азербайджанских коллег, его имя произносилось с неизменным уважением на Всесоюзных Пленумах и Съездах Союза композиторов СССР и всегда ассоциировалось с чем-то новым и прогрессивным. И, действительно, он всегда находился в творческом поиске, а его творчество – глубокое и многогранное - оставило заметный след в истории современной азербайджанской музыки.

Творческий портфель Акшина включает сочинения всех жанров, кроме оперного. Он автор пяти симфоний, балетов, вокально-симфонических и камерно-инструментальных сочинений, концертов - появление каждого его нового опуса становилось большим событием в культурной жизни Азербайджана.

В концерте проекта Министерства культуры Азербайджана «*Zamanla üz-üzə*» мы исполнили две его пьесы - «Ашугскую», которую мы в шутку



***На встрече молодых композиторов Закавказских республик. 1981 г. Справа Акшин Ализаде, Рустам Рустамзаде (третий), Фарадж Караев и др.***



*Гейдар Алиев и Г.Гараев среди деятелей искусств СССР и Азербайджана. Слева направо: Тахир Салахов, Джевдет Гаджиев, Имран Касимов, Нариман Мамедов, Акшин Ализаде, Хайям Мирза-заде, Муса Мирзоев, Сулейман Алескеров, Эмин Махмудов, Александра Пахмутова и др.*



*Слева направо: Солтан Гаджибеков, Хайям Мирза-заде, Ашраф Аббасов, Джевдет Гаджиев, Гара Гараев. Задний ряд: Акшин Ализаде и Фарадж Караев*



***60-летие Г.Гараева.***
***Слева направо: Ханали Кулиев, Борис Торадзе, Имран Касимов, Акшин Ализаде, Фирангиз Ализаде, Севда Ибрагимова, Фарадж Караев, Афак Джафарова, Кара Караев, Нариман Мамедов, Муса Мирзоев, Александра Пахмутова, Закир Багиров (министр)***

называли «Акшинская», и «Пастораль». И пьесы, исполненные через несколько десятилетия после создания, прозвучали свежо и одухотворенно и вызвали заслуженный успех у публики.

Говоря об Акшине, мне хочется сказать еще об одном талантливом композиторе, носящем фамилию Ализаде – это его сын Али - «Алишка», как мы все, друзья, ласково его зовем. Талантливый и работоспособный, упорный и знающий, он стал достойным продолжателем творческой линии своего отца. Его сочинения звучат не так часто, как они того заслуживают, но он – автор пишущий и надежда на то, что музыка Али Ализаде, как и сочинения Акшина Ализаде, обретет своего слушателя, не покидает меня.

*Москва, Российская Федерация.*
*31.01.2020*

**Афак ДЖАФАРОВА**
Профессор

## ЗАРИСОВКА В ПАМЯТЬ О КОМПОЗИТОРЕ

По прошествии определенного времени особенно четко осознается значимость того или иного явления, четче определяются очертания и грани освещающего нашу жизнь того самого значимого, что хранится в нашей памяти, в сознании и в душе.

Для каждого из нас некоторые из окружающих нас людей, которых мы обретаем или, к сожалению, теряем по жизни, могли оказаться нам “близкими и родными”, или только лишь “близкими по духу”, “порядочными или непорядочными”, “единомышленниками” и т.д. Кто из нас не оценил участие в нашей жизни единомышленников...Во многом, порой, процесс самовыражения, проистекающий в пространстве творческого соприкосновения, общения с людьми из этого окружения формируют в некотором смысле точки опоры, точки существования в едином мире, в данном случае в мире музыки.

Сегодня с уверенностью могу сказать, что в ряду моих единомышленников находился и Акшин Алиевич Ализаде - ярчайший азербайджанский композитор 60-х годов уже прошлого столетия, творчество которого вписывается в музыкальную культуру современности с ее прогрессивными завоеваниями.



*Акшин Ализаде и Г.Гараев. 1967 г*

А.Ализаде создал ряд ярчайших произведений, освещающих путь развития азербайджанской музыки. Он явился продолжателем тра-

диций, заложенных классиками азербайджанской композиторской школы - Узером Гаджибейли, Кара Караевым, Джевдетом Гаджиевым (в классе композиции которого учился А.Ализаде), Фикретом Амировым.

Вместе с тем, будучи композитором нового поколения, он внес новую струю в музыкальное творчество, основанное на ценностных завоеваниях мировой музыкальной культуры в синтезе с глубинным выражением корневых особенностей нашей национальной музыки. У А.Ализаде это получалось особенно броско и вместе с тем необычайно изысканно. Об этом свидетельствует и ярчайший музыкальный материал его произведений любого жанра, как в миниатюрах, так и в крупной сценической или хоровой форме.

Да, Акшин Алиевич был моим единомышленником в музыкальной сфере. Настолько, что иногда некоторые его произведения, близкие по духу и целенаправленности, увлекали настолько, что самой хотелось сотворить что-то подобное. И тогда у меня появились два хоровых цикла на стихи азербайджанских поэтов и некоторых народных баяты.



***Пленум СК СССР. Слева на право: Фарадж Караев, Рамиз Ибрагимов, Леонид Вайнштейн, Акшин Ализаде, Азиз Азизов, Емин Махмудов, Афаг Джафарова. 23.05.1971 г***

В 70-е-80-е и в последующие годы А.Ализаде представил целый ряд произведений, неординарных по подбору и развитию материала, по технике написания, по структуре, по яркой оркестровке, по содержанию. Все эти "неординарности" интегрируясь создавали тот мир, в котором существовал, обитал этот незаурядный композитор - т.е. мир глубоких идей, философских размышлений, находящих в музыке соответствующие смелые выражения. Поиск новых средств и форм изложения носили основополагающее значение в творчестве композитора... Таков вот всплеск воспоминаний о музыке Акшина Ализаде... Музыковеды же уже посвятили ряд своих работ, статей исследованию произведений композитора, раскрытию особенностей музыкального языка, формы, техники письма, связей его музыки с ценностями азербайджанской народной музыки...

Мне же больше хочется поделиться воспоминаниями о самом Акшине. Воспоминания о нем не могут ограничиться только лишь его композиторской значимостью. Композиторский облик зачастую формируется не без влияния и чисто человеческих характеристик личности. Говоря об этом, нельзя не отметить необычайную скромность, характеризующую Акшина Алиевича. Никогда и нигде он не выпячивал свое "Я". Общаясь с Акшин Алиевичем, сразу можно было разглядеть широко эрудированного человека со своим собственным взглядом на жизнь, на проблемы или волнующие нас вопросы. Сдержанность и корректность в обращении с коллегами и учениками, друзьями всегда характеризовала присущую ему истинную интеллигентность...

Иногда Акшин Алиевич приходил на наши уроки в класс профессора Гара Абульфазовича Гараева. После же, делился своими впечатлениями о неимоверно интересных, содержательных уроках нашего выдающегося Учителя. Позже Акшин Алиевич сам стал преподавателем кафедры композиции Азербайджанской Государственной Консерватории им. Узеира Гаджибекова. После А.Алиевича преподавателем кафедры композиции становится Фарадж Караевич Караев. Следом я с Исмаилом Гаджибековым пополнили молодой преподавательский состав кафедры композиции нашей консерватории. Нас всех, конечно же, переполняло чувство гордости и благодарности богу за то, что нам выпало счастье находиться и работать рядом с титанами старшего поколения композиторов Азербайджана, составляющими костяк кафедры композиции АГК. Это - Гара Гараев, Джевдет Гаджиев, Солтан Гаджибеков, Ашраф Аббасов, Хаям Мирза-заде и Ариф Меликов. Каждый из нас учился воспринимать луч-

шие традиции и новейшие достижения мировой и азербайджанской музыки, учились передовать обретенные из рук выдающихся мастеров знания следующим за нами поколениям композиторов...

С Акшин Алиевичем у нас сложились особо доверительные, дружественные отношения. Как-то придя ко мне в класс, он спросил может ли поговорить об очень важном. Оказалось, что хотел попросить меня о том, чтобы я попробовала занятия сочинением с его сыном, тогда еще альтистом Али Ализаде. Сын начал сочинять, родители же, как часто бывает, не воспринимаются детьми как помощники в этом деле. С первых же занятий Али сумел раскрыть свои незаурядные композиторские способности, конечно же унаследованные от отца. Позже завершив учебу в классе профессора Ф.Караева Али Ализаде стал успешным композитором....

В 1985-1990 году А.Алиевич возглавил Союз Композиторов Азербайджана. Мне он доверил возглавить Молодежную Секцию. До сих пор бывшая молодежь с большой ностальгией вспоминает наши регулярные встречи-прослушивания и обсуждения произведений молодых композиторов-членов СК Азербайджана и образцы мировой музыки XX века.... Акшин Алиевич знал, как молодежь всегда нуждается в моральной и творческой поддержке старших. Потому и секция наша всегда была в центре его внимания...

Нас с А.Алиевичем объединяло единство взглядов на широкий аспект актуально жизненных вопросов, единство взглядов относительно профессиональных ценностей, а также, скажем, единство в восприятии этического начала в человеческих отношениях, ну и конечно же, настоящее и будущее нашей музыки, творчества...

При жизни Акшина Алиевича каждое исполнение его нового произведения становилось событием музыкальной жизни нашей страны. Сегодня и в будущем музыка А.Ализаде будет жить в сердцах ценителей его искусства. Произведения композитора всегда будут украшать концертные программы как в нашей стране, так и зарубежом. Память об А.Али-заде и его ярчайшая музыка всегда будут жить в сердцах его друзей, коллег, единомышленников и конечно же всего азербайджанского народа.

Турция, Кайсери.
27.05.2020

**Oqtay RƏCƏBOV**
Əməkdar incəsənət xadimi, pedaqoji elmlər doktoru, professor

## AZƏRBAYCANIN MUSİQİ XƏZİNƏSİNİ ZƏNGİNLƏŞDİRƏN BƏSTƏKAR

Aqşin Əlizadə haqqında xatirələrim çoxdur. Mən, 1964-cü ildə Konservatoriyaya Cövdət Hacıyevin bəstəkarlıq sinfinə daxil olanda o, həmin kafedrada assistent işləyirdi. Biz beş il birlikdə yaradıcılıq təmasında olarkən mən A.Əlizadənin çox sadə, təmiz və öz vəzifələrini düzgün yerinə yetirən insan olduğunu müşahidə etdim. Aqşin müəllimin xarakteri yaradıcılığında əks olunduğuna görə onun təmizliyi yazdığı əsərlərdə də özünü göstərirdi. Məhz gərgin işləməyin və müəllimi C.Hacıyev kimi işə ciddi yanaşmağının nəticəsində o, irihəcmli simfonik əsərlərini, baletlərini yaratmaqla Azərbaycan musiqi xəzinəsini zənginləşdirmək sahəsində çox böyük əmək sərf etmişdir.

C.Hacıyev ezamiyyətdə və ya məzuniyyətdə olarkən Aqşin müəllim onu əvəz edir və yazdığımız əsərlərə görə bizə məsləhətlər verirdi. Əgər Cövdət müəllimlə ayda dörd dəfə görüşürdüksə, A.Əlizadə ilə səkkiz dəfə təmasda olurduq. Aqşin müəllim Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik etdiyi illərdə bəstəkarların, xüsusilə də gənclərin əsərlərinin səslənməsinə çalışırdı. Bu gün mənim bir bəstəkar, pedaqoq və Rusiya Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü kimi formalaşmağımda F.Əmirov, C.Hacıyev, T.Quliyev, D.B.Kabalevski ilə yanaşı A.Əlizadənin də böyük rolu olmuşdur.



***Aqşin Əlizadə Konservatoriyanın tələbələri Nigar Əliyeva, Səidə və İradə Köçərlilər ilə Azərbaycan Bəstəkarlarının V qurultayında filarmoniyada. Sentyabr, 1979-cu il***



***Soldan sağa: Cövdət Hacıyev, Qara Qarayev, Georgi Şaroyev, Kövkəb Səfərəliyeva. Arxa sırada: Səid Rüstəmov, İbrahim Quliyev, Emin Sabitoğlu, Aqşin Əlizadə və Arif Məlikov***



***Soldan sağa: Cövdət Hacıyev (ortada), Aqşin Əlizadə və başqaları***

Bu mənada A.Əlizadənin o dövrdə tələbələrə aşıladığı bilik, bacarıq və vərdişlər sonradan mənə də kömək etdi. Onun təsirini indiyə qədər hiss edirəm. A.Əlizadə böyük şəxsiyyət idi. O, həyatda hər şeyə tələsir, sanki nə isə baş verəcəyini hiss edirdi. Düşünürəm ki, onu xatırlamamaq və haqqında fikir söyləməmək halal olmaz. Allah ona rəhmət eləsin, bəstəkarlarımıza can sağlığı versin.

Bakı, Azərbaycan.
05.03.2019

**Gülnaz ABDULLAZADƏ**
Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor

## AQŞİN ƏLİZADƏ AZƏRBAYCANÇILIĞI, TÜRKÇÜLÜYÜ ÖZÜNDƏ DAŞIYAN BƏSTƏKAR İDİ

Mən Azərbaycan Dövlət Konservatoriyasında professor Cövdət Hacıyevin bəstəkarlıq sinfində 1963-1969-cu illərdə təhsil aldığım dövrdə müəllimimiz rektor vəzifəsində çalışırdı. Cövdət müəllimin vaxtı olmadığına görə bizimlə əsasən assistenti Aqşin Əlizadə məşğul olurdu. Əgər həftənin bir gününü C.Hacıyevin dərslərində iştirak edirdiksə, ikinci dəfəni Aqşin müəllimlə görüşürdük. O, bizə tez-tez Vitold Lütoslavski və həmişə avanqard musiqini ön planda tutan müxtəlif Polşa bəstəkarlarının müasir irsini təbliğ edirdi. Aqşin müəllim o vaxtlar kassetlərə yazılmış əsərləri dərsə gətirər və biz də qulaq asardıq. Sonra isə tanış olduğumuz həmin nümunələr əsasında Avropa musiqi mədəniyyətinə özümüz üçün pəncərə açırdıq. Aqşin müəllim özü də gənc bəstəkar idi və müasir musiqinin təbliği baxımından çox canfəşanlıq göstərirdi. Çalışırdı ki, tələbələr yeni musiqini eşitsinlər və Avropa musiqi mədəniyyətindən geri qalmasınlar. Dünya musiqisində nə baş verdiyindən xəbərdar olsunlar. O, öz yaradıcılığında da yeniliyə yol açır və möhkəm milli zəmində yazıb-yara-



*Aqşin Əlizadə. 1978-ci il*

dırdı. Onun müəllifi olduğu müxtəlif əsərlər çox maraqla qəbul edilirdi. Biz, xarici bəstəkarlarla yanaşı, Aqşin müəllimin yazdığı əsərləri dinləyir və onun əsasında özümüz də öyrənirdik. A.Əlizadə tələbələri orkestrləşdirməyə və müasir yazı texnikasına yönəldirdi. C.Hacıyev də bizi müasirliyə istiqamətləndirirdi. Ancaq o, klassikaya maraq göstərdiyi üçün Qara Qarayevdən fərqli olaraq yanaşması daha konstruktiv idi. Lakin bu o demək deyil ki, Cövdət müəllimin musiqisi sırf klassik ənənələr üzərində qurulmuşdu. Onun əsərlərində də yeni baxışlar duyulurdu. Bu mənada Aqşin müəllim ondan fərqlənirdi. A.Əlizadə etno cərəyanlara meylli bəstəkar idi və ona öz yaradıcılığında yeni nəfəs gətirirdi. O, tamam başqa üsulla, anlayışla ənənəvi musiqiyə yanaşırdı ki, bu da bizi çox cəlb edir və maraqlandırırdı. Aqşin müəllim gənc bəstəkarlara müasir texnikanı öyrətməklə yanaşı həm də etno ilə bağlı yeni üsulları meydana çıxarmağa yönəldirdi. O, bu məsələdə əsas təşəbbüskar idi. Xatırlayıram ki, həmin təşəbbüslər dalğasında biz Aydın Əzimovun prelüdlərini dinləmişdik. Cövdət müəllimin bu istiqamətdə axtarışlar aparan çox istedadlı tələbələrindən biri də Cavanşir Quliyev idi. Onun əsərlərində doğrudan da Aqşin müəllimin yolu ilə getməsi özünü göstərir. Maraqlı və gözəçarpan müxtəlif yanaşma tərzi sezilir, A.Əlizadənin dərin təsiri hiss olunur. Ümumiyyətlə, Aqşin müəllimin yaradıcılıq üslubunun Azərbaycan bəstəkarlarına təsiri mövcuddur.

Bildiyimiz kimi, Cövdət müəllimin sinfində təhsil alan tələbələr sonradan öz sözünü deyə bilən bəstəkarlar oldular. Həsən Adıgözəlzadə, Oqtay Rəcəbov və başqaları hərəsi bir istiqamət ilə gedərək öz yollarını tapdılar. Cövdət müəllimin tələbələrinin maraqlı cəhəti onların milliliyə çox bağlı olmasında və müasirliklə ənənəviliyi ortaya çıxarmasındadır. Əlbəttə ki, bu işdə A.Əlizadənin rolu çox böyük idi. Bu danılmaz faktdır. Q.Qarayevin tələbələrinin də maraqlı olduğunu vurğulamaq istəyirəm.

Aqşin müəllim tələbə vaxtı yazdığım trio, prelüdiya, sonata, üç hissəli simfoniyanı müsbət qiymətləndirir və "səndən yaxşı bəstəkar olacaq, sən yaza bilirsən, bunu bacarırsan" deyirdi. Amma həyat elə gətirdi ki, Moskvada aspiranturanı bitirdikdən sonra dissertasiya müdafiə etdim və pedaqoji fəaliyyətə başladım. Bir-iki ildən sonra Azərbaycan Dillər Universitetində kafedra müdiri kimi fəaliyyət göstərməyim yaradıcılıq axtarışlarıma çox maneə törətməyə başladı. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında prorektor kimi çalışdıqdan sonra isə kağızların içində tamamilə itib batdım.

Onu da deyim ki, tələbə olduğum dövrdən əvvəl Aqşin müəllimin ailə üzvləri ilə mənim valideynlərim yaxşı tanış idilər. Ümumiyyətlə, onun ailə üzvləri Bakıda tanınmış şəxslər olublar. Ata və anası ilə yanaşı dayısı faşizmə qarşı döyüşən Sovet

İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin (1918-1944) şücaəti onun vətənə, torpağa bağlı şəxsiyyət kimi formalaşmasında müstəsna təsir göstərmişdir.

Məlumdur ki, 1990-cı il hadisələrinin cəmiyyətimizə kəskin dəyişiklik gətirməsi ilə bağlı olaraq əhalinin çox qismi paytaxta yerləşdi və şəhər ənənəsi dəyişildi. İndi Bakıda tanınmış ailələri tapmaq qeyri-mümkündür. Amma əvvəllər belə deyildi. Təxminən 1950-ci illərin sonu, 60-70-ci illərdə ziyalı, tanınmış ailələr həmişə dəniz kənarı bulvarda bir-birlərilə görüşməyi, fikir mübadiləsi aparmağı və bu yolla həmrəy olduqlarını göstərməyi özlərinə şərəf bilirdilər. O vaxtlar əsasən belə bir ab-hava var idi. Onların hamısının iştirakçısı olmuş bir şəxs kimi bunu müşahidə etmişəm. A.Əlizadə də çox gözəl və nüfuzlu bir ailənin nümayəndəsi kimi vətənpərvərlik ruhunda formalaşmışdı. O, ümumiyyətlə azərbaycançılığı, türkçülüyü özündə daşıyırdı, qeyri-adiliyi ilə seçilirdi. Aqşin müəllim açıq fikirli insan idi, ürəyində olanı üzə söyləyərdi. Həmişə təəssüflə bildirirdi ki, biz öz sözümüzü axıra kimi deyə bilmirik. A.Əlizadə cəmiyyətdəki haqsızlıqları ürəyinə salır, baş verən proseslərə ağrılı yanaşırdı. Bütün bunlar ona psixoloji baxımdan çox pis təsir edirdi. Onun təbiətində romantizm var idi. Yaşadığı ağır həyat tərzi Aqşin müəllimin sonradan psixoloji gərginlik keçirməsinə və özünə qapanmasına gətirib çıxardı. Onda ruh düşgünlüyü yarandı və xəstələndi, bir müddət isə Şüvəlandakı bağında yaşadı. Mən onu bir növ romantik adlandırıram. Digər tərəfdən Aqşin müəllim hər şeyin halına yanan insan idi. Əfsus ki, yana-yana insan öz daxilini külə döndərir.



***Aqşin Əlizadə (sağdan altıncı) Andrey Balançivadzenin 80 illik yubileyində. 1986-cı il***



***Soldan sağa: Gülnaz Abdullazadə, Oleq Felzer, Firəngiz Əlizadə (dördüncü), Cövdət Hacıyev, Aqşin Əlizadə. Təxminən 1963-1964-cü illər***

A.Əlizadə təkcə gərgin və məhsuldar yaradıcılıq axtarışları aparan bəstəkar deyil, həm də ictimai işlərdə fəallıq göstərən və nailiyyətlər əldə edən şəxsiyyət idi. O, bir müddət Azərbaycan Bəstəkarlar İttifaqının katibi (1979-1985), sonradan I katib və SSRİ Bəstəkarlar İttifaqının katibi (1985-1990) olmuş, gənc bəstəkarların üzə çıxarılmasında və bütünlüklə musiqi mədəniyyətimizin inkişafı üçün var qüvvəsi ilə çalışmışdı. 2002-ci ildə onun “Qafqaza səyahət” baletinin premyerasından sonra “*Бакинский рабочий*” qəzetində “*Хореографическая встреча Александра Дюма и Натаван*” adlı məqalə dərc etdirmişdim. Həmin məqalədə Aqşin müəllimlə birlikdə foto şəkilimiz də var.



***“Qafqaza səyahət” baletinə ictimai baxışdan sonra. Soldan sağa: Nərgiz Şəfiyeva, Leyla Məmmədova-Fərəcova, Fərəh Əliyeva, Zümrüd Dadaşzadə, Aqşin Əlizadə, Lalə Hüseynova, Qalina Əlizadə, Gülnaz Abdullazadə. Bakı, 28.11.2002-ci il***

Təxminən 2003-2004-cü illərdə isə tələbəsi kimi mənə baletlərinin CD diskdə video yazısını, tamaşalardan fotoşəkilləri, əsərlərinin siyahısını, bəzi broşürləri və proqramları hədiyyə etmişdi. Öz əli ilə mənə bağışladığı bu materialları şəxsi arxivimdə qiymətli hədiyyə kimi qoruyur və bəzi fotoşəkilləri hazırkı kitabda oxucuların da nəzərinə çatdırıram. Aqşin müəllim müxtəlif janrlarda yazan çox istedadlı və böyük bəstəkar idi. Onun baletləri, simfonik əsərləri və ümumiyyətlə bütün yaradıcılıq irsi qızıl fondumuzda qalacaq və A.Əlizadə adı daima böyük hərflərlə dilə gətiriləcəkdir. Allahın əmrindədir. Düşünürəm ki, Allah ona rəhm eləyir.

Bakı, Azərbaycan.
13.07.2021

**Eldar MANSUROV**
Xalq artisti

## AZƏRBAYCANIN ƏN BÖYÜK BƏSTƏKARLARINDAN BİRİ OLAN AQŞİN ƏLİZADƏ HAQQINDA XATİRƏ SƏHİFƏM

Məndən kiminsə haqqında, nə isə soruşanda həmişə deyirəm ki, o şəxsin yaratdıqlarını mənə göstərin, düşündüklərimi söyləyim. Aqşin Əlizadə barədə fikir demək heç də çətin deyil. Çünki onun haqqında nə isə dilə gətirmək istəyirsənsə, əvvəlcə musiqisini dinləməlisən. Həmin musiqi bu insanın şəxsiyyəti və necə sənətkar olduğu barədə dinləyicidə fikir formalaşdıracaq.

A.Əlizadənin adı Azərbaycan musiqisində ən görkəmli bəstəkarlarla birlikdə çəkilir. Onu bu sıraya gətirən təkrarolunmaz və gözəl musiqi irsidir. Bu bəstəkarın əsərlərini dinləyərkən ilk növbədə özünəməxsus melodiyaları diqqəti cəlb edir. Bu onun irihəcmli əsərləri ilə yanaşı kino musiqisində də özünü büruzə verir. Mən Aqşin müəllimi bir bəstəkar kimi hələ konservatoriyaya qəbul edilməmişdən əvvəl tanıyırdım. Onun "Azərilər" kantatasını, xor üçün "Bayatılar"ını və bir neçə filmə yazdığı gözəl musiqi incilərini artıq dinləmiş və sevmişdim. Amma onunla şəxsi tanışlığım konservatoriyanın bəstəkarlıq kafedrasına daxil olandan sonra baş verdi.



***Azərbaycan Bəstəkarlar İttifaqının VIII qurultayı. 20.06.2007-ci il. Soldan sağa: Ruhəngiz Qasımova, Eldar Mansurov, Aqşin Əlizadə, Rauf Əliyev***

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

# FƏRMANI

**Aqşin Əliqulu oğlu Əlizadənin**
**"Şöhrət" ordeni ilə təltif edilməsi**
**haqqında**

Azərbaycanda musiqi sənətinin inkişafındakı xidmətlərinə görə xalq artisti Aqşin Əliqulu oğlu Əlizadə "Şöhrət" ordeni ilə təltif edilsin.

**Azərbaycan Respublikasının**
**Prezidenti** **Heydər Əliyev**

Bakı şəhəri, "22" may 1997-ci il

№ 586



*Cənab prezident İlham Əliyev, ailə üzvləri və bir qrup musiqiçi ilə birlikdə Azərbaycan Bəstəkarlar İttifaqının binasının təmir və yenidənqurmadan sonra açılışında. Bakı, 2009-cu il*



*Soldan sağa: Leyla Əliyeva, Mehriban Əliyeva, ölkə başçısı Cənab İlham Əliyev, Firəngiz Əlizadə, Aqşin Əlizadə, Lalə Hüseynova, Ramiz Zöhrabov və başqaları*



*Soldan sağa: Mehriban Əliyeva, Prezident İlham Əliyev, Eldar Mansurov, Firəngiz Əlizadə, Aqşin Əlizadə, Lalə Hüseynova və Ramiz Zöhrabov*



*Soldan sağa: Cənab İlham Əliyev, Mehriban Əliyeva, Firəngiz Əlizadə, Aqşin Əlizadə, Eldar Mansurov, Lalə Hüseynova, Ramiz Zöhrabov və b. Bakı, 2009-cu il*



***Prezident İlham Əliyev və Aqşin Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının binasının təmir və yenidənqurmadan sonra açılışında. Bakı, 2009-cu il***

Professor Cövdət Hacıyevin sinfində təhsil alarkən Aqşin müəllimi tez-tez orada görürdüm. Bəzi vaxtlar Cövdət müəllim xəstə olduğu üçün dərslərə gələ bilmirdi. Belə hallarda A.Əlizadə onun əvəzinə bizimlə dərs keçirdi. Aqşin müəllim çox sadə və təvazökar insan olduğu üçün onunla ünsiyyət qurmaq çətin deyildi. Onu tez-tez şəhərdə, daha dəqiq desəm, "*Tarqovı*" deyilən küçədə gəzişən görəndə yaxınlaşıb yol yoldaşı olurdum. Bu gəzintilər zamanı ondan musiqi haqqında bilmədiyim çoxlu məlumatlar öyrənirdim. Tale elə gətirdı ki, 2007-ci ildə mən də müəllimim A.Əlizadə kimi, Azərbaycan Bəstəkarlar İttifaqının katibi seçildim. Bizim işbirliyimiz 5 il çəkdi. Həmişə Azərbaycanın ən böyük bəstəkarlarından biri olan A.Əlizadə ilə bərabər çalışdığım üçün böyük qürur hissi keçirirdim. Lakin o, son illər səhhətində yaranan problemlərə görə işə gələ bilmirdi. Amma buna



***Azərbaycan Bəstəkarlar İttifaqının binasının təmir və yenidənqurmadan sonra açılışı. Soldan sağa: Eldar Mansurov, Ramiz Zöhrabov, Firəngiz Əlizadə, Aqşin Əlizadə, Lalə Hüseynova. Arxa sırada: Vurğun Vəkilov və Əli Məmmədov (Səməd Vurğunun nəticəsi). Bakı, 2009-cu il***

baxmayaraq tez-tez mənimlə zəngləşir və məsləhətlərini verirdi. Onun mənə olan bu münasibətini heç vaxt unutmayacağam. Bu gün A.Əlizadə aramızda olmasa da, ecazkar musiqisi, xoş xatirələri ilə hər birimizin könlündə yaşayır. Böyük şəxsiyyətlər yaratdıqları əsərləri insanlara əbədi olaraq ərməğan edib dünyadan köçürlər. A.Əlizadə də belə əvəzolunmaz simalardandır.

Bakı, Azərbaycan.
18.09.2021

**Məmmədağa UMUDOV**
Əməkdar incəsənət xadimi, professor

## AQŞİN ƏLİZADƏ AZƏRBAYCAN MUSİQİSİNİN İNKİŞAFINA BÜTÜN VARLIĞI İLƏ XİDMƏT EDİRDİ

Mən Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) həm ifaçı, ikinci dəfə isə bəstəkar kimi bitirmişəm. Bəstəkarlıq ixtisası üzrə professor, xalq artisti, ensiklopedik biliyə malik şəxsiyyət Cövdət Hacıyevin sinfində (1973-1977) təhsil almışam. Həmin illərdə Aqşin Əlizadə kafedrada həm müəllim, həm də C.Hacıyevin assistenti kimi çalışırdı. O, həmişə Cövdət müəllimin yanında olar, onun tələbələrə verdiyi tövsiyələrini həyata keçirərdi. İkinci kursda oxuyarkən Aqşin müəllimdən partitura qiraəti fənnini öyrənməyə başladım və beşillik bəstəkarlıq proqramını dörd ilə üç hissəli simfoniya təqdim etməklə bitirdim. O vaxt konservatoriyanın bəstəkarlıq kafedrası Qara Qarayev və C.Hacıyev kimi iki nəhəng bəstəkarın çiyinləri üzərində dayanmışdı. Qara müəllim dərslərdə az iştirak edirdi, onun işini oğlu bəstəkar Fərəc Qarayev aparırdı və mən də bir çox tələbələrlə birlikdə vaxtaşırı Qara müəllimin



*Aqşin Əlizadə. 27.11.1968-ci il*



***Bəstəkar Aqşin Əlizadə tələbəsi ilə məşğələ zamanı. 27.11.1968-ci il***

dərslərində iştirak edirdim. Ancaq Cövdət müəllim və A.Əlizadə ilə biz həmişə təmasda olurduq. Aqşin müəllim ilə ilk tanışlığımız bəstəkarlıq kafedrasında tələbə olduğum illərdən başlayıb.

Təhsilimi bitirdikdən iki ay sonra, təxminən sentyabr ayının sonu oktyabr ayının əvvəllərində sənədlərimi SSRİ Bəstəkarlar İttifaqına qəbul etdilər və mən üç ay sonra SSRİ Bəstəkarlar İttifaqının üzvü oldum. Bunun üçün böyük fəxr hissi keçirirəm, çünki indiki dövrdən fərqli olaraq o vaxtlar həmkarlarımın hamısını SSRİ Bəstəkarlar İttifaqına qəbul etmirdilər. Həmin dövrdə Bəstəkarlar İttifaqının yazılmamış nizamnaməsi də var idi ki, buna hamı riayət edirdi. Konservatoriyanı üç qiyməti ilə bitirən tələbənin diplomuna bəstəkarlıq fakultəsində oxuyub, amma musiqi nəzəriyyəsi müəllimi kimi bitirir sözlərini yazırdılar. Məni SSRİ Bəstəkarlar İttifaqına üzvlüyə qəbul edəndə Cövdət müəllimlə yanaşı Arif Məlikov, Aida Tağızadə və Tofiq Quliyev də təqdimatımı vermişdilər.

A.Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının katibi seçildiyi dövrdə (1979-1985) ondan başqa orada beş katib – Rauf Hacıyev, Firəngiz Əlizadə, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev və Elmira Abasova da var idi. 1980-1990-cı illərdə



*Cövdət Hacıyev və Aqşin Əlizadə*

A.Əlizadənin əvvəlcə katib, sonralar isə birinci katib olduğu dövrlərdə bəstəkarların yaradıcılıq həyatı coşqun keçirdi. Bəstəkarlar İttifaqının katibləri onların problemləri ilə maraqlanır və müəyyən köməklik göstərirdilər. Rəhbərlik də onların fikirlərinə qulaq asır və bəstəkarların təqdimatlarına fikir verirdilər.

Ümumiyyətlə, 1970-80-ci illərdə bəstəkarların Azərbaycan musiqisində dominant rol oynadığı, musiqi mədəniyyətinin inkişaf etdiyi vaxtlarda bizim musiqi sənəti çox yüksəklərə qalxmışdı. Onda Azərbaycan musiqi mədəniyyətinin başında Q.Qarayev, Niyazi, F.Əmirov, C.Hacıyev, S.Hacıbəyov, S.Rüstəmov, C.Cahangirov kimi şəxsiyyətlər dururdu. Onların sözlərinə ölkə rəhbərliyi çox diqqətlə yanaşdığına görə bu bəstəkarların fikirləri Azərbaycan musiqisinin bütün sahələrinə sirayət edirdi və böyük şəxsiyyətlərə hörmət edilir, diqqət göstərilirdi. Gənclik dövrümdə musiqi sahəsində problemim olanda yaş etibarilə məndən böyük bəstəkarlardan birinə fikrimi deyir, məsləhət alır, kömək istəyirdim və həqiqətən də dəstək görürdüm. Həmin dövrdə Azərbaycan musiqisinin qaymaqları SSRİ Ali Sovetinin deputatı seçilirdilər ki, onlardan biri də A.Əlizadə idi. Heydər Əliyev onu çox dəstəkləyirdi.

Həmin illərdə rəhbərlik tərəfindən I katib kimi seçilmiş A.Əlizadə və F.Əlizadə kimi bəstəkarlar gənclərlə iş aparırdılar. Hər ay gənc bəstəkarların bölməsi yığılır, yeni əsərlər göstərilir və müzakirələr edilirdi. Aqşin müəllim bilərəkdən konfranslarda çox qısa çıxış edir, gənclər bölməsinə rəhbərlik etdiyi vaxtlarda bəstəkarlara öz fikirlərini Azərbaycan, rus və ingilis dillərində sərbəst ifadə etmələri üçün şərait yaradırdı. O, Bəstəkarlar İttifaqının bölmə iclaslarında, gənc bəstəkarların əsərlərinə baxışlar zamanı hamını həmişə obyektiv olmağa çalışırdı. A.Əlizadə gənc bəstəkarlar arasında çox gözəl ünsiyyət yarada bilmişdi. Onunla yaradıcılıq barəsində - əsərin orkestrləşdirməsi ilə bağlı mübahisə etmək olardı. Ancaq mübahisənin nəticəsində gənc bəstəkar faydalanırdı. Aqşin müəllim təcrübəli bəstəkar kimi tələbələrə və gənclərə tövsiyələr verirdi. O vaxt yaradıcı şəxsiyyətlər arasında demokratik ab-hava var idi. A.Əlizadə Bəstəkarlar İttifaqının əvvəlcə katibi, sonra isə sədri olduğu üçün demək olar ki, bütün bəstəkarlarla təmasda olurdu.

1985-ci ilin qurultayında Aqşin müəllim birinci katib təyin edilmişdi. Həmin illərdə də H.Əliyev bəstəkarların qayğısına qalır, Moskvada yaşamasına baxmayaraq Bakıdakı qurultayların demək olar ki, hamısında, hətta plenumlarda da şəxsən iştirak edirdi. O, qurultaylarda, iclaslarda musiqiçilərlə saatlarla söhbətləşir, bəstəkarların əsərlərini təhlil edirdi. Onun həddindən artıq güclü hafizəsi və müşahidə qabiliyyəti var idi. A.Əlizadənin birinci katib seçilməsində və “Babək” baletinin səhnəyə qoyulmasında H.Əliyevin böyük dəstəyi olmuşdur. O, bu əsəri xüsusi ilə diqqət mərkəzində saxlayırdı. Həmin dövrdə Mərkəzi Komitəyə Kamran Bağırov rəhbərlik edirdi ki, o da A.Əlizadəyə dəstək olurdu. Aqşin müəllim buna layiq idi, çünki insanlarla yola getməyi bacarır, bəstəkarların qeydinə qala bilirdi. Çox xeyirxah insan olan A.Əlizadə əvvəlki nəsillə müqayisədə nisbətən gənc idi. Bəstəkarlığı ilə yanaşı insanlığı barədə də həmkarları onun haqqında yaxşı fikirdə idi. A.Əlizadə çox düzgün yol tutmuşdu. O, ürəklə Azərbaycan musiqisinin inkişafına kömək edirdi. Bir qədər əsəbi insan olsa da bunu heç vaxt büruzə vermirdi.

Yadımdadır, Aqşin müəllim təxminən 1983-1984-cü illərdə məni bir məsələ ilə bağlı F.Əmirova təqdim etdi. Başqa katibin sənədimə qol çəkməməsi ilə bağlı problemim var idi. O vaxt Bəstəkarlar İttifaqında hər gün katiblərdən biri olurdu. Bir gün Aqşin müəllim mənə dedi: “Sən fikir eləmə! Sabah Fikrət müəllimin günüdür. Gələrsən Fikrət müəllimlə baxarıq”. Səhəri günü gələndə Aqşin müəllimin məni kabinetin qarşısında gözlədiyini gördüm. Allah hər ikisinə rəhmət eləsin! Biz içəri daxil olduq. Çox mülayim insan olan F.Əmirovun siması da musiqisi kimi işıqlı idi. Məndən kimin sinfində oxudu-



*Soldan sağa: Nicat Hüseynov, Zöhrab Adıgözəlzadə, Cövdət Hacıyev, Aqşin Əlizadə, Vaqif Səmədoğlu. Moskva. Təxminən 1970-ci il*

ğumu və harada yaşadığımı soruşdu və bir qədər söhbət etdi. Sonra isə problemimi həll etdi və hətta zarafatyana sual da verdi. "Əgər mən indi katibəni çağırıb desəm ki, get sənədin altındakı familyanı poz və mənimkini yaz səni qane edər?" Mən isə cavabımda dedim ki, F.Əmirovun imzası hara, o birisi hara. Onda mən indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında müəllim işləyirdim. Bu hadisədən sonra Aqşin müəllim ilə daha da tez-tez görüşürdük.

A.Əlizadənin təkcə "Babək" baleti, bütün simfoniyaları, "Aşıqsayağı" pyesi, yaxud xor üçün yazdığı əsərləri hər biri sanballı sənət nümunəsidir. Onun yaradıcılığı musiqişünaslar tərəfindən araşdırılıb, düşünürəm ki, bundan sonra da tədqiq ediləcəkdir. O, çox ləyaqətli insan idi. A.Əlizadənin istər şəxsiyyəti, istərsə də bəstəkarlığı haqqında ancaq xoş sözlər demək olar.

Aqşin müəllim 2012-ci ilə qədər Bəstəkarlar İttifaqının katibi idi. Sonra səhhəti ilə əlaqədar olaraq işdən getməli oldu. Onun yolunu davam etdirən övladları Türkiyə Cümhuriyyətində çalışırlar. Böyük oğlu Əli Əlizadə bəstəkar kimi, kiçik oğlu Fuad isə dirijor kimi fəaliyyət göstərir.

Aqşin müəllimə Allahdan rəhmət diləyirəm.

Bakı, Azərbaycan.
04.03.2019

**Elnarə DADAŞOVA**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Əməkdar incəsənət xadimi, professor

## FÜSUNKAR TƏBİƏTLİ İNSAN

Etiraf etməliyəm ki, Aqşin Əlizadənin yaradıcı qələmi, düşüncə tərzi mənə son dərəcə yaxındır. Çünki təbiətinə görə o, Azərbaycan musiqisinin saf milli köklərindən qida alan nadir sənətkarlarımızdandır. Qeyd edim ki, fərdi yolla gedə bilmək səadəti heç də hər sənətkara nəsib olmur.

A.Əlizadə öz musiqi duyumu və sənətə yanaşma tərzi ilə Azərbaycan musiqisinə bir çox yeniliklər gətirə bildi, çünki öz yaradıcı siması var idi. Bununla bağlı bir önəmli kəlamı da xatırlatmaq istərdim: - "Başqasının yolu ilə addımlama. O ləpir heç zaman sənin öz izin olmayacaq". Bəli. Bu, danılmaz həqiqətdir! A.Əlizadə musiqisinin ecazkar dərəcəli təbii olması da elə onun qeyri-adi fərdi nəbzə, səmimi musiqi nəfəsinə malik olmasından irəli gəlir. Düşünürəm ki, bəstəkarın saf dəst-xəttinin mənə yaxın olmasının səbəbi də əsasən sadaladıqlarımla bağlıdır.



***Soldan sağa: Tofiq Quliyev, Xəyyam Mirzəzadə, Aqşin Əlizadə, Qara Qarayev, Oqtay Zülfüqarov. 1971-ci il***

Taleyin hökmü ilə 1970-1971-ci illərdə Aqşin müəllim bizə, yəni bəstəkarlıq ixtisasına yiyələnən o zamankı tələbələrə alətlşünaslıq fənnini təfərrüatı ilə, geniş və çox aydın tərzdə tədris edib. Aqşin Əlizadə öz dərslərində simfonik orkestrin bütün alətlərinin incəliklərini açıqlayırdı. Biz tələbələrə elə gəlirdi ki, onun özü bu alətlərdə mahiranə ifa etməyi bacarır, çünki hər birinin xüsusiyyətlərini dərindən, köklü şəkildə əyani və asan anladırdı. Onu da vurğulayım ki, hətta bir məşğələ boyunca bütöv şəkildə hər hansı alətə aid olan ifaçılıq vasitələrini tam çatdırmağa qadir müəllim idi. Onun dedikləri, izah etdikləri indiyə kimi yadımdadır. Buna görə də Aqşin müəllimə çox minnətdaram. Bu gün müəllim peşəsini icra edən bir insan kimi müşahidələrimə əsaslanaraq deyə bilərəm ki, tədris olunan fənnə aid mətləb çalarlarını tələbəyə tam aça bilmək bəzi təlimçilər üçün xeyli çətin məsələ olur. Bunu hər an tədris təcrübəsi də göstərir. A.Əlizadə isə bizə izah etdiyi materialı musiqi alətləri ilə sıx praktik ünsiyyətin nəticəsi kimi çatdırırdı.

Bir dəfə biz tələbələr onun sinfinə gələndən bir qədər sonra Aqşin müəllim qəfildən özünü çox pis hiss elədi və uzun müddətə xəstəxanaya düşdü. Bir dövr əsaslı və ciddi şəkildə müalicə də olundu. Səhhətindəki problemlərə görə işdən aralanmasına baxmayaraq, konservatoriyaya qayıdan kimi tədrisinin hər saniyə və dəqiqəsini çox səmərəli qurdu, təlimə ayrılmış zamanı praktik şəkildə real dəyərləndirə bildi və bilikləri ilə tam şəkildə səxavətlə paylaşdı. Bu yolda müvəffəqiyyət də qazandı, çünki təlimi elə təşkil edə bilirdi ki, dərslərimizə ayrılmış vaxt nəticə məhsuldar səmərə verirdi. Onun izahları çox aydın idi və təcrübəsiz olan bizlərə lazımi şəkildə, tam aydın çatdırılırdı. Aqşin müəllimin son dərəcə peşəkar tərzdə izah etmə üsulları da var idi. Bu cür yanaşma isə müəllimin böyük uğuru kimi dəyərləndirilməlidir. Onun gözəl bir kəlamını qeyd etmək istərdim: - “Bilikləri mükəmməl olanın izahları da aydın olar”. Nəticədə o, bütün alətlərin xüsusiyyətlərini bizə əsl bilici səviyyəsində usanmadan, gözəl bir tərzdə şərh edə bilmişdi.

Həmin dövrdə A.Əlizadənin əsərləri də mütəmadi olaraq konsertlərdə səslənirdi. O illərdə bəstəkarlıq fakultəsində təhsil alanlar təsdiq edə bilər: tədrisə cəlb olunmuş əksər müəllimlərimiz yaradıcılıqla fəal məşğul olan şəxslər idi. O zaman çox təqdirəlayiq layihənin də şahidi olduq. Belə ki, tədris ilimizin hər ayının sonunda konservatoriyanın (o zamanlar indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası konservatoriya adlanırdı) böyük zalında simfonik orkestrin ifasında bəstəkarlarımızın yeni yazılmış əsərlərini eşidə bilirdik. Yanılmıramsa, bu layihə Qara Qarayev və o zaman konservatoriyanın rektoru olan Soltan Hacıbəyovun gözəl təşkil olunmuş bir təşəbbüsü nəticəsində mümkün olmuşdu. Yaşca bizdən böyük olan sənətkarlarımız müdrik bir tərzdə gələcəyi düşünərək bu üsulla bizi, gənc bəstəkarları və daha təcrübəli olan yaşlı nəslin nümayəndələrini xalqımıza tanıdır və hələ səslənməmiş əsərləri nəfis tərzdə dinləyicilərimizə canlı şəkildə, mütəmadi olaraq çatdırırdılar. İstər konservatoriyada tədris işinə cəlb olunmayan həmkarlarımız olsun, istərsə də ali musiqi məktəbimizdə çalışan müəllimlərimizin yaratdıqları əsərlərinin canlı konsert ifasını biz tələbələr heç vaxt ötürməzdik, səmimi bir maraqla izləyər, dinləyərdik. Tələbəlik illərimdə A.Əlizadənin musiqisini ilk dəfə dinləməyim heç yadımdan çıxmır. Belə ki, keçən əsrin 1970-ci illərinin əvvəlində Azərbaycan Bəstəkarlar İttifaqının növbəti qurultayında A.Əlizadənin ifa olunmuş “Bayatılar”ından aldığım təəssürat əbədi olaraq hafizəmə həkk olunub. Əsər hamı kimi məni də məftun etmişdi. Folklora bağlı olan bir insan kimi mən o zaman düşündüm ki, A.Əlizadənin bəstələmək tərzini, milli musiqimizə yönəlmiş yaradıcı yanaşmasını gələcəkdə bacardığım qədər təbii və parlaq şəkildə özüm də fərdi və fərqli üslubda həyata keçirməliyəm. Bu arzu məni çox ruhlandırır, cəlb edir,

rahat buraxmırdı. Düşünürdüm: məhz Aqşin Əlizadə yazı ədası bizim insanlara daha təbii, çox yaxın, önəmli, vacib, gələcəyi olan, perspektivli yoldur. Bu səbəbdən də bütün təxəyyül imkanlarımı səfərbər etmək qərarına gəldim ki, özüm də bu yöndə fərdi “cığırımı” tapım. Məhz Aqşin müəllimin bəstəkar kimi tutduğu yolun mənə çox yaxın olduğunu o zamanlardan tam anladım, çünki ustadın yaratdıqlarının bənzərsiz təravətə malik olmasını dərk etdim, aydın eşitdim və duydum. Elə o vaxtdan da bu istəyimə görə konservatoriyanın folklor kabineti ilə sıx əməkdaşlığımı qurdum. Anlayırdım ki, orada qorunan səs yazıları mütəmadi olaraq Azərbaycanın bütün bölgələrinə gedən folklor ekspedisiyaları tərəfindən toplandıqca musiqi materialları ilə zənginləşir, yenilənir və tərəfimdən nota alınma və dinlənilmə ilə nəticədə məni öz soy kökümə ayrılmaz tellərlə, təbii tərzdə bağlaya bilər. Onu da etiraf edim ki, A.Əlizadə qələminin milli musiqi çalarlarını açıqlaya bilmək bacarığı, etnik kökümüzə yanaşma tərzi mənə son dərəcə fərdi və təbii gəlirdi. Elə indi də onun əsərlərini saatlarla dinləməkdən zövq alıram. Onlara qulaq asanda isə təəccüblü olsa da, hələ də hər dəfə yeni bir çalar və inci tapıram. Son dərəcə təsirli avazları var!

Onu da vurğulayım ki, Aqşin müəllim bir fərd olaraq qəribə energetikaya malik idi. Bu insan təbiətin özündən qopub gəlmiş füsunkar yaradıcı qüvvə təəssüratı yaradırdı. Sözü və əməli bütöv olan A.Əlizadənin dedikləri də, əməlləri də heç vaxt biri digərini təkzib etmirdi. Bir amalı, bir Allahı var idi: saatlarla yazıb-yaratmaq həvəsi. Bunu icra edirdi də! Özünün etirafına görə həyatında elə zamanlar olub ki, 18 saat usanmadan, ardıcıl yazıb, yaradıb, şövqlə çalışıb. Özünəməxsus yetkin harmonik düşüncə tərzi, obraz aləmi və azərbaycanlıların soy kökündə, qan, gen və musiqi yaddaşında hələ ki, mühafizə edilən, unudulmamış qatlar və bunlarla yanaşı hətta az qala yaddan çıxmaq təhlükəsi ilə uzlaşan bünövrə folklor “laylar”ımız daim Aqşin müəllimin musiqi yaradıcılığında öz fərdi əksini tapırdı. Tanıdılan və əksər insanlarımıza hələ də bu və ya digər səbəblə tanıdılmayan həmin incilər onun qəlbi və beynində dərin kök salmış “ana” qatlar idi. Bir daha vurğulamaq istərdim ki, onun yuxarıda sadaladıqlarımdan hörülüb-toxunan kompozisiyaları zənnimcə bənzərsizdir. Axı onlar müəllifin özünün qeyri-adi daxili aləmindən süzülüb gəlmiş incilərdir. A.Əlizadə Azərbaycan etnosuna təbii tərzdə bağlılıq nümayiş etdirirdi. Bəstəkarın insani keyfiyyətlərinə gəldikdə isə qeyd etməliyəm ki, o çox səmimi idi. İlk ünsiyyət dövrü olan tədris illərimizdə olduğu kimi, sonralar da Bəstəkarlar İttifaqında hər hansı şəxsi, yaxud da yaradıcılıq işimizlə bağlı yaranan problemlərlə əlaqədar ona müraciət ediləndə o, sanki öz övladı üçün bir iş görürmüş kimi həmin məsələlərin müsbət həllinə son dərəcə emosional tərzdə, saf ürəklə yanaşar və mütləq, nəyin bahasına olursa olsun, yaranmış



***Aqşin Əlizadə. 1980-ci il***

“düyünləri” həll etməyə çalışırdı. Özünün çözə bilmədiklərini isə İttifaqın sədri - Tofiq Quliyevə çatdırır, işin müsbət həll olunmasını şəxsən xahiş edirdi. Bütün bunları izləyən biz gənclər arxalı olmağımızdan qanadlanardıq. Anlayırdıq ki, bu insanda biganəliklə geri çəkilmək, həllini gözləyən məsələlərin üstündən xətt çəkmək və bu sayaq riyakarlıq əməlləri qəti surətdə olmur. Odur ki, Aqşin müəllim bizi qayğılarımızla başbaşa, yalqız buraxmayacaq. Hər necə məsələ olardısa, onu sona qədər tənzimləməyə hazır idi. İstər yaradıcılığında, istərsə də insanlara qarşı münasibətində ruhən də, cismən də saf, bütöv və mükəmməl idi. Hörmət bəslədiyi insana da, bədxaha da A.Əlizadə, təbii ki, fərqli tərzdə, lakin tam səmimi münasibət göstərirdi. Əgər kimdənsə xoşu gəlmirdisə bunu onun üzünə kəskin bir tərzdə deyirdi. Belə insanlar başqalarından deyil, Aqşin müəllimin özündən onun şəxsi münasibətinin nə yerdə olmasını eşidər, bilərdi.

Qeyd etdiyim kimi, keçən əsrin 1970-ci illərindən başlayaraq Aqşin müəllim səhhəti ilə bağlı vaxtaşırı narahat günlər, aylar yaşayıb. Bir zaman isə hətta maddi durumu ilə əlaqədar vətənindən və iş yeri olan Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasından xeyli uzaqda - Türkiyədə çalışıb. O dövrdə tez-tez qəfildən, heç bir ezamiyyəti gözləmədən bu qardaş ölkədən Azərbaycana,

Bakıya dönərdi, çünki qürbətdə üzülürdü, vətəni üçün kəskin, ağılasığmaz dərəcədə darıxırdı!

Aqşin müəllimin mənə altmış illik yubileyimlə bağlı yaşatdığı xoş bir olayla, heç zaman yadımdan çıxmayacaq xatirə ilə də bölüşmək istərdim. Bu hadisə belə olmuşdu. Yubileyim bir neçə gün müxtəlif məkanlarda qeyd olunurdu və o günlərin birində ev telefonumuza zəng gəldi. Dəstəyi götürdüm və dondum, çünki A.Əlizadənin təkrarsız, çox tanış və son dərəcə əziz olan səmimi səsini eşitdim. Doğrusu onun zəngini gözləmirdim, çünki uzun müddət idi ki, səhhəti ilə əlaqədar işə çıxmırdı, bu səbəbdən də görüşmürdük. Əksər həmkarları kimi mən də onun üzünə həsrət qalmışdım. Amma bütün bunlara baxmayaraq dəstəyi götürən kimi eşitdiyim ilk kəlmələrindən dərhal onun təkrarsız tələffüzünü və səsini tanıdım. O: - “Yəqin tanıya bilmədin məni. Çox qocalmışam”- deyəndə,

Mən: - “Aqşin müəllim, Siz nə danışırsınız?” kəlməsiylə cavab verdim.

O: - “Necə tanıdın?” - dedi. Hiss etdim ki, gülümsəyir.

Mən: - “Sizi tanımamaqmı olar? Səsinizin intonasiyasını və ancaq Sizə xas o sözlərinizi necə başqasının avazı və nəfəsi ilə səhv salmaq olar? Axı hər kəlməniz Sizə xas səmimiyyətdən doğulub!” Çox xatirələr söylədi, xoş sözlər dedi. Təvazökarlıqdan kənar olar deyə, mən onları yazmaq, təkrar etmək istəmirəm. Amma onun zəngi və mənə ünvanlanmış etirafları o demək idi ki, həmişə olduğu kimi kövrək qəlbi və həssas ürəyi bizlə, əziz saydıqları ilə idi. Bu səbəblə də mütəmadi olaraq mətbuat və efir vasitəsi ilə musiqili həyatımızda baş verənləri daim, ardıcıl izləyirdi. Teleradio “efir”i vasitəsi ilə bizlərlə əlaqələrini qırmırdı. Seçdiyi bu üsulla dəyər verdiklərinin, özünə ruhən yaxın olanların həyatı, yaradıcılığı ilə maraqlanar, onların xoş olaylarını, yuvarlaq yubileylərini, əsərlərinin premyeralarını diqqətindən qaçırmaz, zəng və təbrikləri ilə rövnəqləndirərdi. Düşünürəm ki, sözügedən zamanlarda onun canındakı nasazlıq olmasaydı, şəxsən özü əziz günlərimizdə özünəxas coşqu və həvəslə iştirak edərdi. Bunu da qeyd edim ki, lazımsız bildiyi, dəyərsiz saydığı bir çox işləri icra etməyə onu heç kim, heç bir vəcdlə məcbur edə bilməzdi. A.Əlizadənin pak ruhu düzgün “biçilmişdi”: nə yüksək vəzifəyə görə ləyaqətsizə ehtiram göstərərdi, nə də hörmət etmədiyi, nəcabətsiz olan kimsəni axtarıb-aramazdı. Bu səbəbdən də yubileyimlə bağlı məni təbrik etməsinin səbəbini bilirdim deyə, ruhum çox sevinirdi, çünki yalnız iç dünyasından, qəlbindən gələn hörmətinə və istəyinə görə telefon nömrəmi axtarıb tapmış və zəng etmişdi.

Bir müddət öncə yaşanmış hadisələrə qayıtsam, vurğulamalıyam ki, səhhətindəki nasazlığından çətinliklə də olsa “qurtulan” sənətkar içindəki gücünü tam səfərbər edib Bəstəkarlar İttifaqındakı fəaliyyətini davam etdirə

bilmiş və bu dəfə əyani olaraq fəxri ada layiq görüldüyümə görə çox səmimi tərzdə məni təbrik də etmişdi. Heç indi də bilmirəm təltifimə görə hansımız daha çox sevinmişdik - O, yoxsa mən?

Ümumiyyətlə, həmkarına qarşı ənənəvi qayğısını heç vaxt əsirgəmirdi. Bir hadisə də buna əyani misaldır. Gənc yaşlarım idi. İki royal və zərb alətləri üçün "Konsertino" əsərimin Moskvada ifa olunması gündəmə gətirilmişdi. Mən əsəri Bakıda təşkil olunmuş Bəstəkarlar İttifaqının müvafiq komissiyası qarşısında ifa etməli idim. Açığını deyim, işimin çoxluğundan, ailəmdə azyaşlı uşaqlarımın qayğısını kənardan kömək olmadan çəkdiyimə görə "Konsertino"nun not yazısına lazımınca baxmaq, onu çalmaq imkanım olmamışdı. Arxayın idim ki, bir pianoçu olaraq əsərimi rahatca, məşqsiz, birbaşa üzdən ifa edəcəm. Amma faktura baxımından iki royal və zərb alətlərini ehtiva edən əsərimin tək ifaçı üçün bütün təfərrüatıyla çalmaq xeyli çətin məsələ idi. Odur ki, "Konsertino"nu sönük bir tərzdə ifa etdim. Lakin notlarıma baxa-baxa ifamı izləyən A.Əlizadə çalğım bitən kimi dedi: - "Öz maraqlı əsərini bu qədər korlayan ikinci bir bəstəkar heç ağlınıza belə gəlməsin. Elnarənin "Konsertino" əsəri son dərəcə parlaq, maraqlı və dəyərlidir. Moskvada ifa olunması üçün notları paytaxt ifaçılarına göndərilməsini lazım sayıram."

Bax belə. Qısa və ədalətli, çünki peşəkar idi və sərrast gözü və qulağından heç nə yayınmırdı. Heç uzunmüddətli xəstəlik də onun xasiyyətini dəyişə bilməmişdi.

Bəstəkarlar İttifaqındakı görüşlərində ənənəvi olaraq, yenə və yenə, ömrü boyu tanıdığımız, həmişəki tərzdə davranırdı: uşaq kimi sadə və səmimi.

A.Əlizadə qeyri-adi, fitrən bənzərsiz, zəngin insan idi. Onun bir vaxt Qara Qarayevin ölümündən sonra təşkil olunmuş xatirə gecəsində Qara müəllimlə bağlı çıxışının əvvəlində ilk kəlmələri, etirafı belə idi: - "Mən Qara Qarayevin sinfində oxumamışam. Amma onu özümə müəllim sayıram. Qara Qarayevin adı mənim üçün duadır". Bir zaman deyilən bu sözlərdən sonra hamı üçün bir daha aydın oldu ki, o, həqiqətən qədirbilən sənətkar və ustaddır. Həm də istər yaradıcılığındakı hər not və çırpıntı, istərsə də dediyi söz və kəlamları aforizmlər qədər bənzərsiz və yetərincə dəyərli incilərdir, çünki bunlar ürəkdən süzülüb gələn kəlmələr idi.

Bu sırada Xəyyam Mirzəzadə barədə də dediklərini xatırlatmaq yerinə düşər: - "Xəyyam müəllimi çox dəyərləndirirəm. Onun dırnağının bildiyini mənim başım bilmir!"

Qəlbin dərin qatlarından gələn belə fikirləri yalnız böyük ürək və hünər sahibi, yaradıcı qələmi iti və işlək olan sənətkar və insan söyləyə, etirafı kimi bildirə bilərdi. A.Əlizadənin həmin sözlərini Xəyyam müəllimə çatdırmışdılar.

O da bunları eşidəndə qarşılıqlı olaraq çox emosional bir tərzdə söyləmişdi: - "Mən Aqşin Əlizadəni həmişə çox səmimi və saflığına görə seçilən insan bilirdim. İndi isə o, mənim gözümdə hədsiz dərəcədə ucaldı!"

Zənnimcə, hər ikisinin söylədiyi belə fikirlər heç də hər sənətçiyə xas deyil. Bu kəlmələr yalnız nəcib kökü, əsli olanların nadir xüsusiyyətlərindən və digərlərinə düzgün, səmimi dəyər verə bilməkdən yaranmış əvəzsiz ucalıqdır.

Əgər bəstəkar öz yaradıcılığında səmimidirsə onda özünün xasiyyətini, dünyagörüşünü, həyata olan münasibətini ifadə edərək öz pak və ülvi musiqisini yaratmağa qadirdir. Başqa sözlə desək, məhz belə bəstəkarın əsərlərindən onun "özünün", iç dünyasının düşüncələrinin, duyumlarının, ən nəhayətdə isə ürəyinin çırpıntılarını, qəlb səsini asan eşidə bilərik.

Bir zaman A.Əlizadə Bəstəkarlar İttifaqına başçılıq edərkən, demək olar, əksər musiqiçilər üçün daimi problem olan bir məsələni müəyyən dərəcədə müsbət yöndə çözə bilmişdi: bütün yaradıcı şəxslərin illərlə ifasını gözləyən, hətta bu və ya digər səbəbə premyerası baş tutmayan əsərlərinin ifasını təmin və təşkil edə bilmişdi. Ələlxüsus gənc nəslin taleyinə biganə deyildi. Cavanlara daha çox qayğı göstərir və yanılmıramsa "Gənclər bölməsini" də İttifaqda o yaratmışdı. Sözügedən illərdə A.Əlizadə necə olmuşdusa, ifaçı kollektivləri ilə razılığa gələ bilmişdi və gənclərin də yeni bəstələrinin tam şəkildə ifasına, yaxud da silsilə əsərlərinin qismən, yəni müəyyən hissələrinin səsləndirilməsinə nail ola bilmişdi. Hətta mənim illərdən bəri ifasını gözlədiyim 2 saylı simfoniyamın ikinci hissəsinin də səslənməsinə möcüzəli şəkildə imkan yaratmışdı.

Aqşin müəllimin nadir xüsusiyyətlərə malik bütöv, səmimi, həsədsiz sənətkar olması mənim üçün dəyərli və önəmlidir. O, ehtiram göstərdiyim insanlar sırasında öncül yerlərdən birində durur. Mən ona pərəstiş etdiyim bəstəkar, alətşünaslıq üzrə müəllimim və bədii yaradıcılığımın mayakı kimi hər zaman qəni-qəni rəhmət diləyirəm!

Bakı, Azərbaycan.
27.05.2019

**Sərdar FƏRƏCOV**
Xalq artisti, Üzeyir Hacıbəylinin
ev-muzeyinin direktoru

## QƏHRƏMANLIQ RUHUNU VƏSF EDƏN SƏNƏTKAR

Azərbaycanda dahi Ü.Hacıbəylidən sonra doğurdan da onun böyük yolunu əzmlə davam etdirən görkəmli şəxsiyyətlərimiz, bəstəkarlarımız oldu. Q.Qarayevin, F.Əmirovun, Niyazinin, S.Hacıbəyovun, C.Hacıyevin, A.Məlikovun və neçə-neçə tanınmış şəxsiyyətlərimizin adını həmişə fəxrlə çəkə bilərik. Sonrakı nəsil yetişən bəstəkarlar sırasında A.Əlizadəni də daima xüsusi hörmətlə yad edirik. O, Azərbaycan bəstəkarları arasında çox az insana qismət olan öz musiqi dilinə, yaradıcılıq üslubuna malik bir sənətkar kimi musiqi tariximizdə qalıb. A.Əlizadə gənc yaşlarından buna səy göstərib, həmişə öz yolunun olmağını istəyib. Bunun üçün çox öyrənib və geniş axtarışlar aparıb. Onun ilk əsərlərini mən hələ yeniyetmə yaşlarımdan sevmiş və bəyənmişdim. Sonradan isə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (hazırki Bakı Musiqi Akademiyası) təhsil alarkən alətləşdirmə fənnindən A.Əlizadə mənə dərs dedi. Haradasa münasi-



***Soldan sağa: Əşrəf Abasov, Süleyman Ələsgərov, Cövdət Hacıyev, Səid Rüstəmov, Qara Qarayev, Aqşin Əlizadə, Emin Sabitoğlu, Arif Məlikov. 1976-cı il***

bətlərimiz yaxınlaşdı, dost səviyyəsində oldu. Sonrakı illərdə də bizim isti ünsiyyətimiz davam etdi.

A.Əlizadə həmişə hər bəstəkara müyəssər olmayan böyük əzmkarlıqla yaradıcılıq axtarışları aparırdı. Axtarış həvəsi ayrı, istədiyini tapmaq isə tamamilə başqa məsələdir. A.Əlizadə musiqidə özünü tapa bildi. Ona görə də onun istər iri, istərsə lap kiçik həcmli əsərlərində əzəmət, vüsət hiss olunur. Bəstəkarın ilk əsərlərindən olan kamera simfoniyası musiqi ictimaiyyəti arasında elə böyük səs-səda yaratdı ki, Q.Qarayev onun haqqında məqalə ilə çıxış etdi. Dahi Q.Qarayevin həmin məqaləsi gənc bəstəkarın taleyini müəyyənləşdirdi. A.Əlizadə seçilmişlər sırasında oldu.

Hərdən gənc bəstəkarlar uğurlu əsər yazanda təriflər eşidirlər. Ancaq bəzilərinin onların haqqında deyilən xoş sözlərdən başı gicəllənir, həmin axtarışlar, uğurlar və yeniliklər bitir. Lakin A.Əlizadə onlar kimi olmadı. Axtarış yanğısı həmişə onun daxilində idi. Maraqlıdır ki, Aqşin müəllimin təqdim etdiyi hər yeni əsər şedevr kimi qəbul olunurdu. Onun kamera orkestri üçün “Pastoral”, “Aşıqsayağı” və “Cəngi” kimi üç, dörd dəqiqəlik əsərləri var ki, hərəsi bir şedevrdir. Həmin əsərlər Azərbaycan musiqisində yeni mərhələnin təzahürü olmuşdur. Bunun ən birinci göstəricisi o idi ki, A.Əlizadənin yaradıcılıq inciləri həmkarlarını, gənc bəstəkarları öz təsirinə salırdı. Əsərlərin




***Soldan sağa: İqor Oystrax, Aqşin Əlizadə, Janna Dozortseva, Əziz Əzizli, Hacı Xanməmmədov, Tofiq Bakıxanov, Rauf Hacıyev, Məmməd Quliyev, Oqtay Zülfüqarov, Firəngiz Əlizadə, Tixon Xrennikov, Nəriman Məmmədov, Ramiz Mustafayev, Emin Sabitoğlu, İbrahim Məmmədov. Sumqayıt, 1982-ci il***

parlaqlığından istər-istəməz onun təsirinə düşürdük. Lakin A.Əlizadə bu əsərlərlə kifayətlənməyib xor musiqisini yaratdı. Bu janrda ona qədər yaranmamış incəliklərə toxundu. Ardınca üçüncü simfoniyasını yazdı. Bu, onun nə birinci, nə də ikinci simfoniyasına bənzəyən musiqi deyildi. Daha sonra “Babək” baleti meydana gəldi. Bu əsər Q.Qarayevin, Ə.Bədəlbəylinin, A.Məlikovun və digər bəstəkarların yaratdığı baletlərdən çox fərqlənirdi. “Babək” baleti musiqidə yeni yanaşma və novator təfəkkür tərzinin təzahürü oldu. A.Əlizadə bu əsər üzərində çox çalışmışdı. Onun Opera və Balet Teatrında ilk təqdimatını xatırlayıram. O vaxt biz tələbə idik və A.Əlizadənin baletinin dinləməsinin keçiriləcəyi xəbərini eşitdik. F.Əmirov, R.Hacıyev kimi bəstəkarların iştirak etdiyi böyük komissiya təşkil olunmuşdu. Birinci dinləmə son dərəcə gözəl təsir bağışlayırdı. Lakin əsər həmin il tamaşaya qoyulmadı. Premyera 1986-cı ilə təsadüf etdi. Əsər səhnədə göstəriləna qədər bəstəkar onun üzərində çox çalışdı. Sanki yeni bir balet yazdı. Mən bunun şahidiyəm. Çünki ilk variantdakı musiqi nömrələrinin əksəriyyəti orada yox idi.

Ümumiyyətlə, A.Əlizadənin yaradıcılığında həmişə qırmızı xətlə keçən başlıca süjet vətənpərvərlik mövzusudur. Onun lirikasında da, simfonik və kamera əsərlərində də vətənpərvərlik mövzusu vardır. Aqşin müəllim daxilən olduğu kimi, zahirən də qəhrəman görkəmə malik idi. Xatırlayanlar onun duruşunu, qamətini yada salsalar məhz o obrazı görə bilərlər. Təsadüfi deyil ki, A.Əlizadə vətənpərvərlik mövzusunda xeyli əsər yazmışdı. Onun son əsərlərindən biri olan “Ana torpaq” odası da məhz vətəndaşlıq mövzusunda idi. Vətənə sevgi, onun uğrunda ölmək kimi fikirlər məhz həmin odada əks olunmuşdur. Odanın istər poetik mətnində, istərsə də musiqisində cəngavərlik və mübarizə ruhu duyulur. A.Əlizadə Azərbaycan xalqının cəsurluğunu və qəhrəmanlığını vəsf edə bilən böyük sənətkarımızdır.

Bəstəkarlar çox əsərlər yazırlar. Ancaq onların heç biri xalq mühakiməsindən çıxmağa layiq olmur. Çünki səslənən bəzi musiqi əsərlərini dinləyicilər eşidən kimi kobud da olsa qeyd edim, qulaqlarını tutub qaçırlar. Lakin A.Əlizadənin musiqisində möhtəşəmlik, gözəllik, incəlik və qəhrəmanlıq duyulur. Rəngarəng və əzəmətli musiqi onun daxili aləmini bir o qədər də açıb göstərir. Musiqidə yenilik və rəngarənglik vacib amildir. Bu baxımdan Azərbaycan musiqisində A.Əlizadə böyük bəstəkar kimi anılır. Onun varisi olduğum üçün özümü çox xoşbəxt hiss edirəm.

A.Əlizadə bütün yaradıcılığı boyu sanki işlənmiş yollardan çəkinir, onları təkrar etmirdi. Özünə aid olanları musiqisində göstərməyə çalışır və bunu bacarırdı. O, halal adını gərgin axtarışlar və yeniliklər sayəsində qazanmışdı. Aqşin müəllim bizim müasirimiz idi. Buna görə də onun kimi böyük musiqiçini, nəhəng bəstəkarı yaxından müşahidə edə bilirdik. Müəllimlərimizi, yaşlı bəs-



***SSRİ Bəstəkarlar İttifaqının sədri Tixon Xrennikov Üzeyir bəyin ev-muzeyində qonaq olarkən. Soldan sağa: İqor Oystrax, Rauf Hacıyev, Firəngiz Əlizadə, Aqşin Əlizadə, Tixon Xrennikov. 21.01.1982-ci il***

təkarlarımızı kənardan seyr etmək həmişə xoşuma gəlirdi. Hətta xarici ölkədə Aqşin müəllimlə bərabər uzun müddət birlikdə olarkən də onu diqqətlə izləyirdim. O, elə bil həmişə daxilən öz-özü ilə danışır, sanki əzab çəkirdi. Ona rahatlıq verməyən yaradıcı fikirləri idi. Çünki, A.Əlizadə daima yeni səslər sorağında olduğu üçün əldə etdiyi tapıntıların hansıları isə razılaşır, nələrisə isə qəbul etmirdi. Əgər bəstəkar əsl sənətkardırsa, ən böyük hakim və musiqi tənqidçisi onun öz iç dünyasında olur. A.Əlizadə də həmişə öz-özündə "*pro e kontra*" hə-yox, doğru-zidd bu qütblərlə elə bil ki, mübarizə aparırdı. Bir ortama gəlib çıxmaq istəyirdi.

Aqşin müəllim həmişə düşüncəli görünürdü. Baxmayaraq ki, "Babək" baletini uzun illər əvvəl yazıb təqdim etmişdi, ancaq hələ də onun daxilində bu mövzu yaşayırdı. Bir dəfə mənə dedi ki, "sən Ü.Hacıbəylinin ev muzeyində işləyirsən. Ü.Hacıbəyli də vaxtıkən "Babək" mövzusunda opera yazmaq istəyib. Bilmirsən həmin materiallardan, onun fikirlərindən "Babək" haqqında sözü var, ya yoxdur?". Bu məni çox təəccübləndirdi. Əslində əsər bitib, amma görünür hələ də qəhrəman haqqında düşüncələr onun ürəyində yaşayırmış.



***Aqşin Əlizadə Üzeyir bəyin ev-muzeyində, 1997-ci il***

Yəqin ki, “Babək” mövzusu ilə bağlı bəstəkar yenə də nəyisə ayırd etmək, incələmək istəyirdi. Onunla görüşlərimizdən yadımda qalan belə bir etirafını xatırlayıram. “Mən çox istəyirdim ki, bir pərdəli opera yazım, ancaq gücüm çatmadı, onu yaza bilmədim”. Əlini çiynimə qoyub “sən yazarsan” dedi. Mən isə hələlik bu yaşıma qədər onun öhdəsindən gələ bilməmişəm. Ancaq həmişə böyük ustadın sözünü xatırlayıram. Bəlkə də nə vaxtsa qismət olar.

Hərdən bəstəkarlar yeni mövzuda işləməyi arzulayır, özlərini buna səfərbər edirlər. Lakin səmimi olaraq öz süjetini tapmaq çox da asan olmur. Ü.Hacıbəylinin “Koroğlu” əsərini yaradana qədər neçə-neçə operalar yazmağa başladığını, sonra natamam qoyduğu faktını xatırlayaq. Burada “Babək”lə yanaşı “İsgəndərnamə” və “Dədə Qorqud” kimi böyük olduğu qədər, həm də ağır mövzular var idi. Lakin görünür “Koroğlu” qədər Üzeyir bəyə yaxın və rahat süjet olmamışdı. Xoşbəxt o bəstəkardır ki, öz süjetini tapır. Doğrudur, bəzən sifarişlə də əsər yazırsan. Ancaq onlar hərdən səmimi alınmır. Hiss olunur ki, bəstəkar qəlbini buna məcbur edib. Orada səmimilik olmayanda gözəlliklər də inandırıcı görünmür. A.Əlizadənin musiqisində isə səmimilik var.

Aqşin müəllim haqlı olaraq böyük klassiklərin sələfi kimi 1985-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqına rəhbər seçildi. Həmin dövr çox gözəl illər idi. A.Əlizadə rəhbər təyin olunandan sonra 1986-cı ildə məni gənc bəstəkar kimi İttifaqa üzvlüyə qəbul etdi. Beləliklə, həmkarlarımla birlikdə Azərbaycan Bəstəkarlar



***Aqşin Əlizadə Üzeyir bəyin ev-muzeyində çıxış edərkən***

İttifaqının çox işlərində iştirak etməyə başladım. Aqşin müəllim çox böyük fəallıq göstərirdi. O, bölmələrə həmişə yeni əsərlər daxil edir və dinləmələrdə fikirlərini söyləyirdi. Biz onun əməyini görürdük. 1980-cı illərdə Nazim Mirişlinin, Əli Əlizadənin və mənim simfoniyamın Moskvada ifa olunub lentə yazıldığını xatırlayıram. Bunlar hamısı A.Əlizadənin gördüyü işlərin nəticəsi idi.

A.Əlizadənin Moskvada, SSRİ Bəstəkarlar İttifaqı ilə sıx, yaradıcı əlaqələri də bəhrəli idi. Bəstəkarlarımız bir sıra yaradıcı ezamiyyətlərdə olur, gənclər isə ilk dəfə xarici ölkələrə səfər etmək imkanı qazanırdı. Azərbaycan bəstəkarları həmişə yaradıcılıq evlərinin olmasını arzulayırdılar. A.Əlizadə 1989-cu ildə buna da nail oldu. O, Zuğulba qəsəbəsində “Doqquz bağ” deyilən ərazidə bəstəkarlar üçün gözəl yaradıcılıq evi əldə etdi. Bəstəkarlarımız orada yaşayıb əsərlər yazırdılar. Mən də həmin yaradıcılıq evində bir neçə dəfə istirahət etdim. Təəssüf ki, Aqşin müəllim artıq rəhbərlikdə olmayanda o yaradıcılıq evi də əldən getdi. Lakin xatırlayanlar bilir ki, onun yaradılmasından ötrü Aqşin müəllim nə qədər böyük zəhmət çəkmişdi. Onda bütün qüvvəsini sona qədər sərf edib nailiyyət əldə etmək bacarığı var idi. Çox maraqlıdır ki, Azərbaycan Bəstəkarlar İttifaqının rəhbəri kimi o qədər gərgin işlər görə-görə paralel olaraq yaradıcılığını da yüksək səviyyədə apara bilirdi. Allah onun ruhunu şad eləsin.

Bakı, Azərbaycan.
19.11.2021

**Salman QƏMBƏROV**
Xalq artisti

## GÖZƏL MÜƏLLİM, BÖYÜK BƏSTƏKAR VƏ ÇOX TƏVƏZÖKAR İNSAN

Mən, 1978-1983-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasında (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) musiqişünas kimi təhsil aldığım dövrdə Aqşin Əlizadədən orkestrləşdirməni öyrənmişəm. O, bu fənni bizə iki il tədris edib. Tələbəlik illərimdə A.Əlizadənin yaradıcılığı bir musiqişünas kimi mənə təsir etmişdi. Aqşin müəllim bizə XVIII-XIX əsrdən başlayaraq müasir musiqi də daxil olmaqla müxtəlif bəstəkarların əsərlərini nümunə göstərmiş və onların partituralarını birlikdə təhlil etmişdik. Müasir musiqini çox sevdiyimə görə o vaxtlar Fərəc Qarayevin, İsmayıl Hacıbəyovun, Cavanşir Quliyevin musiqisi ilə yanaşı Aqşin müəllimin əsərlərini də dinləyirdim. Musiqişünasların da yazdığı kimi, Azərbaycan musiqisinə yeni nəfəs gətirən A.Əlizadənin yaradıcılığı avanqard çərçivəyə sığmır. O, yaradıcılığının həmin dövründə milli musiqi alətlərini simfonik orkestrə daxil etmir, xalq musiqisinin intonasiya çalarlarını yaratdığı əsərlərin orkestrləşdirməsində əks etdirirdi. Buna baxmayaraq onun musiqisi müasir səslənirdi və mən Aqşin müəllimin yaradıcılığına tez-tez müraciət edirdim. Onun müxtəlif janrlarda



***Soldan sağa: Nazim Mirişli, Aqşin Əlizadə, Lalə Hüseynova, Sərdar Fərəcov, Firudin Allahverdi, 2002-ci il***

yazdığı əsərlər çox gözəl səslənir. Öz yaradıcılıq dəsti-xətti olan A.Əlizadənin musiqisini hamı dinləyirdi.

Təhsil illərimdə A.Əlizadə ilə müəllim tələbə kimi ünsiyyətdə olmuşam və musiqisini daha çox dinləmişəm. Sonradan 1986-1990-cı illərdə bəstəkarlıq ixtisası üzrə İsmayıl Hacıbəyovun sinfində təhsil aldığım dövrdə A.Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının Birinci katibi vəzifəsində çalışırdı. Onda biz daha sıx əməkdaşlıq edirdik. Aqşin müəllimin təşəbbüsü ilə yaradılmış gənclər bölməsinin işində Rauf və Zaur Fərhadov qardaşları, Cahangir Səlimxanov, Əli Əlizadə, Cəlal Abbasov, Sərdar Fərəcov, Nazim Mirişli, Rəna Qədimova, Xanlar Novruzov, Yaşar Xəlilov, Məmməd Cəfərovla yanaşı mən də fəal idim. Həmin bölməyə Afaq Cəfərovanın rəhbərlik etdiyi dövrdə müntəzəm olaraq yığışır, yazdığımız yeni əsərləri bir-birimizə təqdim etməklə yanaşı həm də tənqidi fikirlər söyləyir və yaradıcılıq mübadiləsi aparırdıq. Buna görə də gənclər bölməsinin işi çox maraqlı keçirdi. Biz, bir-birimizə tənqiddən çəkinməmək, bundan inciməmək, yaltaqlıqla məşğul olmamaq üçün söz vermişdik və çalışırdıq ki, belə hallar baş verməsin. Bütün görüşlərimiz formal deyil, doğurdan da əsl musiqi yaradıcılığına xidmət edirdi. Görüşlərimizdə bir-birimizi mütləq tərifləməyi, yaxud da hökmən tənqid etməyi qarşımıza məqsəd qoymamışdıq. Kimin fikrinə nə gəlirdisə onu da dilə gətirirdi. Əgər hansısa əsər kiminsə xoşuna gəlmirdisə bunu mütləq əsaslandırmalı və səbəbini deməliydi.



***Ulu Öndər Heydər Əliyev Qara Qarayevin 60 illik yubileyində görkəmli incəsənət xadimləri ilə birlikdə. Aqşin Əlizadə sol tərəfdə arxadan ikinci***

Aqşin müəllim Bəstəkarlar İttifaqına rəhbərlik etdiyi dövrdə bizə çox inanır və etimad göstərirdi. 1989-cu ildə C.Səlimxanovun təşəbbüsü ilə "Üzü zirvəyə" beynəlxalq müasir musiqi festivalının keçirildiyi dövrdə ölkəmizə SSRİ ölkələrindən tutmuş dünyanın müxtəlif yerlərindən musiqiçilər qonaq gəlmişdilər. O vaxt indiki kimi restoranların sayı çox deyildi. Amma biz musiqiçilər həmişə harada ucuz və keyfiyyətli yeməklərin olduğunu yaxşı bilirdik. Onda da Aqşin müəllim bizə inandı və xarici musiqiçiləri yeməyə qonaq etmək işini gənclər bölməsinin üzvlərinə həvalə etdi.

Onun "Azərbaycan Bəstəkarlar İttifaqında yaradılan bütün imkanlar və sərbəstlik sizin peşəkar bəstəkar kimi inkişaf etməyinizə və formalaşmağınıza xidmət edir" deməyi indiyə kimi yaxşı yadımda qalıb. Elə də oldu. Ancaq onun getməyi ilə bizim bölmə dağıldı. Mən Aqşin müəllimin sözlərini həmişə xatırlayıram. Həmin vaxtlar böyük oğlu Ə.Əlizadə də bizimlə eyni musiqi dairəsində idi. Əli gözəl bəstəkar kimi hal-hazırda Türkiyə Cümhuriyyətində çalışır. Yəqin ki, Aqşin müəllim oğlunun da gözəl mühitə düşməsindən fəxr hissi keçirirdi. Çünki Əli də bizimlə birgə bu bölmənin işində fəallıq göstərir və öz əsərlərini təqdim edirdi. Gənclər bölməsinin üzvləri görüşlərimizdə bir-



***Aqşin Əlizadə Fikrət Əmirov ilə Niyazinin konsertində. 1980-ci il***

birimizi tənqid edəndən sonra çayxanada çay içib söhbətləşirdik. Mən belə bir mühit üçün indi çox darıxıram. O vaxt gənc bəstəkarlar var idi ki, bizim münasibətlərimizə yaxşı mənada qibtə edirdilər. Aqşin müəllimin sayəsində bizim vaxtımızda belə bir mühit mövcud idi.

Yadımdadır, həmin dövrdə "Zaqafqaziya baharı" musiqi festivalı keçirilirdi. Bu festival bir il Tiflisdə, növbəti il Bakıda, daha sonrakı il isə Ermənistanda





***Soldan sağa: Aqşin Əlizadə, Xəyyam Mirzəzadə, Adil Bəbirov. 1979-cu il***

təşkil olunmuşdu. Biz 1987-ci ildə Dilicanda keçirilən həmin festivalda iştirak etdik. Bu festival 1988-ci ildə Bakıda olmalı idi, ancaq məlum səbəblərə görə baş tutmadı və həmin vaxtdan festivalın işi dayandırıldı. "Zaqafqaziya baharı" musiqi festivalı gənc bəstəkarların inkişafında mühüm rola malik idi. Gənclər bölməsinin fəaliyyət göstərdiyi vaxtlarda festivalda iştirak etmək üçün əsərləri biz özümüz seçirdik. Heç kim bizim işimizə qarışmırdı, ancaq çalışırdıq ki, festivalda güclü əsərləri təqdim edək. O vaxtlar Azərbaycanın həm dostları,



***SSRİ Bəstəkarlar İttifaqının VI qurultayı 1969-cu il. Soldan sağa: Nailə Mehdiyeva, Nərminə Əliyeva, Cövdət Hacıyev (altıncı), Şəfiqə Axundova (səkkizinci), Ramiz Zöhrabov, Vasif Adıgözəlov, Musa Mirzəyev, Azər Rzayev. Arxa sırada - İsmayıl Quliyev, Aqşin Əlizadə (dördüncü), Tofiq Bakıxanov, Nəriman Məmmədov, Hacı Xanməmmədov, Oqtay Zülfüqarov, Emin Sabitoğlu, Ramiz Mirişli, Boris Yermolayev, Həsən Rzayev və başqaları***

həm də düşmənləri var idi. Güclü əsərlər arasında bir qədər zəif görünənlər olanda dərhal nöqsanlar axtarmağa çalışırdılar. Güclü əsərlər kənarda qalırdı, onlara həmin əsərlər haqqında fikir söyləmək sərf etmirdi. Buna görə də biz çalışırdıq ki, bir-birimizə fikirlərimizi söyləyək. Amma buna baxmayaraq, inciyənlər də olurdu. Mübahisəli söhbətdən sonra Aqşin müəllim həmin bəstəkara onun əsərinin də təqdim olunacağını dediyini xatırlayıram. Lakin qatarla qayıdanda orada deyilən iradların əvvəlcədən Bakıda vurğuladıqlarını həmin müəllifin nəzərinə çatdırmışdı.

Həmişə çox istiqanlı insan olan A.Əlizadə ilə sonralar konsertlərdə görüşürdük. Biz onun səsini ucaltmağını heç vaxt eşitməmişik. Aqşin müəllim mənim yadımda çox təmkinli xüsusiyyəti ilə qalıb. O, təmiz, böyük sima, gözəl pedaqoq və çox təvazökar insan idi. Onunla münasibətdə heç bir problem olmurdu. A.Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının idarə heyətinin katibi olduğu illərdə onunla görüşmək istəyən insanlarla sadə davranışı, səmimi münasibəti ilə fərqlənirdi. Mənə elə gəlir ki, A.Əlizadəni hamı gözəl insan və bəstəkar kimi xatırlayır. Bəzən olur ki, qarşındakı şəxs gözəl insandır, amma özünün də bildiyi kimi yüksək səviyyəli parlaq əsərlərin müəllifi deyil. Fikrimcə, A.Əlizadə həm gözəl insan, həm də böyük bəstəkar idi.

Bakı, Azərbaycan.
31.07.2019

**Арзу МАМЕДОВА**
Заслуженный учитель Азербайджана, доцент

## НАМ ВАС ОЧЕНЬ НЕ ХВАТАЕТ, ДОРОГОЙ АКШИН АЛИЕВИЧ

Воспоминания об Акшине Алиевиче вызывают самые светлые и теплые чувства, связаны с большим почтением к его творческой позиции, человеческим достоинствам. Он был крупным, высоким, не только внешне. Такой же масштабной была его личность.

Акшин Алиевич был невероятно требователен к себе, принципиален в творчестве, работал бескомпромиссно, придерживаясь основной избранной им линии, стараясь уходить от явных влияний великих, творивших с ним в одно время. Он шел нелегким, тернистым путем поиска своего «лица», своей «интонации», был очень деликатен и бережен в своем отношении к богатствам национального музыкального искусства. Обращаясь к народной музыкальной сокровищнице, отметал лежащие на поверхности пласты, настойчиво стараясь постичь суть, проникнуть в



*Ариф Меликов и Акшин Ализаде. 2007 г*

тайну той силы, которая рождает неповторимую красоту и особую энергетику напевов и ритмов его земли.

Музыка Акшина Ализаде напоена апшеронским солнцем, той особой палитрой красок, обжигающе-ярких и аскетичных одновременно, она вскормлена шумом прибоя на Каспии, гулом Хазри и Гилавара, мудростью старинных преданий и легенд – все это с суровой сдержанностью и тонкой поэтичностью бережно переплавлено его творческой фантазией.

Первое осознанное знакомство с его музыкой состоялось на съезде Союза Композиторов Азербайджана в 1985 году – Третья симфония заворожила с первых же звуков, безраздельно захватив внимание, поразила невероятным драматическим накалом студентку-первокурсницу. Позднее, слушала ее не раз, и гипнотическое воздействие музыки этого симфонического полотна ничуть не ослабевало, как это бывает иногда. Акварельно-изысканные «*Bayatılar*» с чарующим обаянием образов стали следующим покорившим меня открытием студенческих лет. Позже было немало ярких впечатлений, связанных с созданной им музыкой. Одним из них стал Концерт для скрипки с оркестром, который погрузил в пространство извечных поисков Истины, Добра и Красоты, волнующих каждого настоящего Художника, потряс проникновенным лиризмом, глу-



***Научная конференция и концерт в Союзе композиторов Азербайджана, посвященный Акшину Ализаде. 04.05.2015 г. Слева направо: Фуад Ализаде, Арзу Мамедова, Зюмруд Дадашзаде, Лала Гусейнова, Лейла Мамедова-Фараджова, Шейла Гейдарова, Али Ализаде***

бокой, пронзительно-щемящей грустью, покорил благородством выражения.

Мне посчастливилось работать с ним в консерватории. В Среду и субботу – дни наших занятий на кафедре композиции – он часто приходил до начала своего рабочего времени, а я нередко задерживалась. Мне памятны редкие моменты, когда Акшин Алиевич садился за рояль и ты становился свидетелем сокровенной сцены погружения в родную стихию: он исполнял полюбившиеся с детства народные мелодии, песни «*Sona bülbüllər*», «*Apardı sellər Saranı*» и др. У нас не мало прекрасных исполнителей народной музыки. Здесь же было совсем иное впечатление, не просто привычная ее интерпретация, прочувствование интонаций, нюансов, а подлинное проживание стоящего за ними сокрытого смысла, всех вековых переживаний и эмоций, подлинная сопричастность к ним и невероятное сопереживание.

Общение с Акшином Алиевичем было очень ценным для меня профессионально и раскрыло его человеческие качества. На первый взгляд он мог казаться очень суровым, даже грозным. На самом деле был отзывчивым, участливым, доброжелательным. При всем его опыте, огромном авторитете, званиях и занимаемых должностях в общении с молодыми коллегами, студентами никогда не было надменного взгляда свысока, неприступного снобизма, рекомендации его были благожелательными, уважительными, к нему всегда можно было обратиться за помощью и советом. И нередко такого рода инициативы исходили от самого Акшина Алиевича.

Он обращал внимание на творческие задачи, важные для меня, напоминал о них, если я откладывала их решение в долгий ящик, не упускал из виду и житейские вопросы – во всем этом чувствовалась отеческая забота.

Молодежь тянулась к нему, чувствуя его неподдельное внимание, радость их успехам. К нему с удовольствием приходили пообщаться те, кто вовсе не учился у него в классе.

Думаю, сегодня многим, кто был знаком с ним лично, не хватает его присутствия, как азербайджанской культуре в целом.

Баку, Азербайджан.
19.09.2021

**Rüfət RAMAZANOV**

## AQŞİN ƏLİZADƏ TƏVAZÖKAR VƏ İNTELLEKTUAL BİR ŞƏXSİYYƏT KİMİ BİZİM YADDAŞIMIZDA QALACAQDIR

Azərbaycanın görkəmli bəstəkarı, Respublikanın xalq artisti, professor Aqşin Əlizadə milli musiqi tariximizdə özünəməxsus iz qoymuş şəxsiyyətlərdən biridir. Bəstəkarın əsərləri həm Azərbaycan və eyni zamanda Avropa ölkələrində uğurla ifa olunmuşdur. A.Əlizadə haqqında söz demək həm çətin və eyni zamanda asandır. Bəstəkarla tanışlığım Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının bəstəkarlıq fakültəsində təhsil aldığım illərdə yaranmışdır. Onu həmin fakültənin professoru kimi fəaliyyəti dövründə yaradıcı şəxsiyyət və pedaqoq kimi tanımağım mənim həyatımda olduqca əhəmiyyətli rol oynamışdır. Məlumdur ki, hər bir sənətkar eyni səviyyədə insani keyfiyyətlərə malik olmur. Ancaq bu xüsusiyyət A.Əlizadənin şəxsiyyətində çox böyük para-



*Aqşin Əlizadənin 70 illik yubileyi münasibətilə Azərbaycan Dövlət Filarmoniyasında keçirilən konsertdən xatirə fotosu. Aprel, 2007-ci il*




*"Sizi dünyalar qədər sevirdim" filmindən səhnə*

lellik təşkil etmişdir. Aqşin müəllim şəxsən mənə dərs deməsə də, həmişə onu özümə müəllim saymışam. Çox məşhur bir deyim var. "Kimi özünə bilavasitə müəllim sayırsansa, əsl müəllim elə odur ".

A.Əlizadənin həyat və yaradıcılığı, dünyagörüşü, fəlsəfi düşüncələri qələmə aldığı əsərlərində əksini tapmışdır. Onun Azərbaycan və dünya sənət müstəvisində özünəməxsus yerini vurğulayaraq dövrünün yaradıcı şəxsiyyətlərinə həsr etdiyi əsərləri buna sübutdur. Bəstəkarın musiqi müəllifi olduğu "Bu Səttar Bəhlulzadədir" sənədli filmində yaratdığı obraz rəssamın daxili aləminin, fəlsəfi dünyasının səslər vasitəsilə çəkdiyi cizgilərin çox dolğun şəkildə tərənnümüdür. Sonralar A.Əlizadə zəmanəmizin görkəmli siması SSRİ xalq rəssamı T.Salahovla yaradıcı və şəxsi dostluğu, ona həsr etdiyi "Portret" adlı violin və fortepiano üçün əsərinin yaranmasına bilavasitə təkan vermişdir.

Bəstəkarın xalq musiqi ənənələrinə və eyni zamanda muğama dərindən bələd olması, onun demək olar ki, bütün əsərlərində özünü parlaq şəkildə göstərmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanda milli simfonizmin yaranması və inkişafında bəstəkarın olduqca böyük və əhəmiyyətli rolu olmuşdur. Onun müəllifi olduğu beş simfoniya buna çox layiqli bir sübutdur. Bəstəkarın bu sırada məşhur olan dördüncü simfoniyası simli orkestr üçün nəzərdə tutulmuş çox parlaq və orijinallığı ilə fərqlənən əsərdir. Bu əsər Sovetlər dönəmində yazılmasına baxmayaraq, simfoniyanın obraz-dramaturji quruluşunda Azərbaycanın azadlıq uğrunda mübarizəsi, onun tarixində baş

verən faciələrin yaradıcı ifadəsi öz əksini tapmışdır. Bu, bilavasitə A.Əlizadənin yaradıcılığında aparıcı bir prinsip kimi özünü göstərən və ilk növbədə uzaqgörənliyi ifadə edən xüsusiyyətlərdəndir. Müəllifin beşinci simfoniyası xalq musiqisinin ən parlaq nümunələrindən biri kimi musiqi tarixində özünəməxsus yer tutmuş "Kəsmə Şikəstə" ritmik muğamının obraz-dramaturji və sitat istifadəsi ilə yadda qalmışdır. Bu simfoniya xalq musiqisinin istifadəsi və onun işləməsi sahəsində ən maraqlı və fundamental nümunələrdən biridir.

A.Əlizadənin "Babək" baleti Azərbaycan musiqi tarixinə qızıl hərflərlə yazılmış əsərlər sırasındadır. Dahi Ü.Hacıbəylinin müəllifi olduğu "Koroğlu" operasından sonra qəhrəmani mövzuda yazılmış ikinci əsər məhz "Babək" baletidir. A.Əlizadə Azərbaycan musiqisinin milli-folklor nümunələrini ən yüksək səviyyədə, onun simfonik təfəkkürü çərçivəsində ifadəsini bu baletin musiqisində özünəməxsus şəkildə qələmə almışdır. Demək olar ki, əsərin musiqi-kompozisiya quruluşu olduqca orijinal və maraqlıdır.

Bildiyimiz kimi, A.Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının uzun illər ərzində katibi vəzifəsində çalışmışdır. Onun xüsusi qayğı ilə ittifaqın gənc üzvlərinə olan diqqəti mənim yaxşı xatirimdədir. Qeyd etmək lazımdır ki, A.Əlizadə hələ ittifaqın üzvlüyünə qəbul olmayan tələbə bəstəkarların əsərlərini də çox diqqət və qayğıkeşliklə dinləmiş və ifasına kömək etmişdir. Mən məhz həmin tələbə-bəstəkarlar sırasında professional yaradıcılığa qədəm qoyan şəxslərdən biri kimi Aqşin müəllimə çox minnətdaram.

Konservatoriyanı (indiki BMA) bitirdiyim il dövlət imtahanından sonra bir dəfə onunla foyedə rastlaşdıq. A.Əlizadə məndən müstəqil yaradıcılıq yoluna qədəm qoymuş bəstəkar kimi hansı istiqamətdə çalışacağımı soruşdu və bəzi məsləhətlər də verdi. O, həftənin iki gününü işə ayırmağımı, qalan zamanı isə sırf yaradıcılığa həsr etməyimi tövsiyə şəklində mənə bildirdi. Mən onun müdrik məsləhətlərini böyük minnətdarlıq hissi ilə qəbul etdim. Onu da bildirim ki, böyük bəstəkarımızın dəyərli tövsiyələrinə indi də əməl edirəm.

Onun "Sizi dünyalar qədər sevirdim" (1985) filminə musiqi yazması barədə maraqlı hadisəni mənə danışması faktını yaxşı xatırlayıram. Aqşin müəllimin söylədiyinə görə rejissor R.İsmayılov ona zəng vurub həmin filmə musiqi yazmasını təklif etsə də o, bundan imtina etmişdi. Rejissor A.Əlizadədən bunun səbəbini soruşduqda o, "Babək" baletinin musiqisi hələ qulağımdan getməyib, qorxuram ki, özümü təkrar edəm" cavabını vermişdi. R.İsmayılov isə "bilirdim ki, bu cavabı eşidəcəyəm, elə mənə də özünü təkrarlamağın lazımdır" deyə münasibətini bildirmişdi. Bundan sonra film üzərində bəstəkarla rejissorun uğurlu yaradıcılıq axtarışları başlamışdı.

Mənim xatirəmdə olduqca dərin iz qoymuş cəhətlərdən biri də A.Əlizadənin daima Avropa, Rus və eləcədə Azərbaycan musiqisinin aparıcı simalarından çox böyük pərəstişkarlıqla danışmağı, onların yaradıcılıqları barədə təhlil xarakterli mülahizələri olmuşdur. Amma, Aqşin müəllimin heç vaxt öz yaradıcılığı və əsərləri barədə söz deməsinin şahidi olmamışam. O, çox təvazökar və intellektual bir şəxsiyyət kimi bizim yaddaşımızda qalacaqdır. A.Əlizadənin musiqi dünyası milli Azərbaycan mədəniyyəti tarixində böyük hərflərlə yazılmışdır.

Bakı, Azərbaycan.
07.04.2019

**Elmir MİRZƏYEV**
SoNoR müasir musiqi ansamblının
yaradıcısı və bədii rəhbəri

## IV SİMFONİYA FONUNDA BİR PAYIZ XATİRƏSİ

Əziz müəllimimiz Aqşin Əlizadə barədə feilin keçmiş halında yazmaq çox çətindir əslində. İndi, onun əbədiyyətə qovuşmasından uzun illər sonra yaradıcılığı və şəxsiyyətinin miqyası bizə getdikcə daha da aydın görünür. Onun yaradıcılığı barəsində bundan sonra elmi əsərlər, dissertasiyalar, monoqrafiyalar yazılacaq, şübhəsiz. Amma bu dəfə kiçik bir şəxsi xatirəmi bölüşmək istəyirəm.




Aqşin müəllimlə 1989-cu ildə bəstəkarlıq üzrə qəbul edildiyim Azərbaycan Dövlət Konservatoriyasında tanış olmuşdum, təbii ki, bundan öncə əsərləri barədə məlumatlı idim, bir neçə simfoniyasını, piano əsərləri - “Qədim oyunlar” və “Dastan”ı, violin və piano üçün “Portret”i dinləmişdim. Onun bizim bəstəkarlıq məktəbində rolu və yaradıcılığının musiqimizdə miqyasını təbii ki, sonralar anlayacaqdım.

Şəxsi münasibətlərdə Aqşin müəllim olduqca yumşaq, mülayim, mədəni və təvazökar bir insan idi. Onunla ünsiyyətimiz 2002-ci ildə Türkiyə Cüm-

huriyyətindən Azərbaycana geri döndükdən, o zaman yenicə bitirdiyi “Qafqaza səyahət” baleti səhnəyə qoyulandan sonra bir qədər intensivləşdi – hərdən telefonla danışar, bəzən, çağıranda görüşərdik.

2003-cü ildə SoNoR Müasir Musiqi Təşəbbüs Mərkəzi kimi təşkil etdiyimiz “SoNoR Tellər: Mədəniyyətlər... Təmaslar” beynəlxalq festivalının bədii rəhbəri kimi açılış konsertinin proqramına onun möhtəşəm 5 saylı Simfoniyasını daxil etmişdim. Aqşin müəllim görkəmli dirijorumuz Rauf Abdullayevin idarəsi altında baş tutan ifadan razılığını bildirmişdi.




***




2005-ci ilin payızı idi, gələn il Bakıda keçiriləcək beynəlxalq “Şostakoviç Festivalı”nın koordinatoru kimi bərk məşğuldum ki, telefona (whatsapp, sosial şəbəkələrin hələ ki, mövcud olmadığı bir dövr idi) İsveçrə nömrəsindən zəng gəldi. Dəstəyi qaldırdım, isveçrəli dirijor Simon Kamartin idi, onunla Ukraynada 2000-ci ildə beynəlxalq müasir musiqi konfransında tanış olmuşduq, sonra dostlaşdıq və bir neçə layihədə birgə iştirak etdik. Telefonda şirin isveçrəli ləhcəsi ilə dedi ki, yeni layihəsi var. İsveçrənin bir mədəniyyət fondundan dəstək alaraq ölkəsinin çağdaş musiqisini *non-EU* (yəni qeyri-Avropa) ölkələrində təbliği

layihəsidir, artıq Ukrayna, Rusiya və Gürcüstanla razılaşıb, Bakıda da bir kollektivlə konsert təşkil etməyin mümkünlüyünü sordu. “Yaxşı olar ki, simli orkestr olsun, kamera orkestri” – deyə əlavə etdi. “Belə kollektiv var, Kamera orkestrimiz (Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri), amma asan məsələ deyil, Simon” – dedim, cavabında “Anlayıram, maliyyə məsələlərini nəzərdə tutursan yəqin ki. Amma bizə (yəni isveçrəli musiqiçilərə) dəstəyi buradan verəcəklər, sadəcə qarşılayan tərəfin bu iş üçün konsert zalı, kollektivi və reklamını təşkil etməsi gərəkdir”. “O yəqin ki, mümkün olar” – ehtiyatla dedim. “Bəs proqram? Onu necə edək? Şərtə görə konsertdə ən azı bir isveçrəli bəstəkarın əsəri səslənməlidir, onu artıq seçmişəm, Martin Derungs olacaq, bəs sizinkilərdən kim olsun? Yəqin ki, sənin əsərini ifa etməliyik, eləmi?” (təcrübəli adamdır Simon, adətən belə danışıqlarda bəstəkarlar öz əsərlərini təklif edir). “Yox” – dedim, “Aqşin Əlizadəni ifa etsəniz yaxşı olar, canlı klassikimizdir, inan ki, çox bəyənəcəksən onun musiqisini. IV simfoniyası elə simli orkestr və səs üçündür, yollaram sənə partituranı”. Bir ay sonra Simon Kamartin və həyat yoldaşı, rumıniyalı violin ifaçısı Oana artıq Bakıda idilər. Simon Aqşin müəllimin əsərindən valeh olmuşdu, ilk məşqdən sonra mənə “həqiqətən də klassik imiş” – demişdi. Aqşin müəllim yalnız baş məşqdə filarmoniyaya gəldi və dirijorla tanış oldular.



*Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, dirijor Simon Kamartin və bəstəkar Aqşin Əlizadə. 25.11.2005-ci il*



***Aqşin Əlizadə. 2005-ci il***

25 noyabr 2005-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında uğurla keçən bu konsert proqramına Aqşin Əlizadənin IV Simfoniyası (“Muğamvari”), Martin Derungsun simli orkestr üçün “Eisblume” (Buz çiçəyi), dünyaca məşhur eston bəstəkarı Arvo Pyartın violin, simli orkestr və zərb alətləri üçün “Fratres”, bir də ukraynalı bəstəkar Bohdana Frolyak tərəfindən kaman, viola və simli orkestr üçün yazılmış “Vestigia” əsəri daxil idi. Solist qismində dirijorun həyat yoldaşı, virtuoz Oana Milena Zaharıa-Kamartın və Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin solisti, gözəl viola ifaçısı Rəna Rəhimova çıxış etdilər. Konsertin sonunda səslənən Aqşin müəllimin IV simfoniyası dinləyicilər tərəfindən aramsız alqışlarla qarşılandı, bəstəkarla dirijor dəfələrlə səhnəyə döndülər...

Tədbir bitdikdən sonra ifaçılardan və təşkilatçılardan ibarət bir neçə nəfərlik heyətlə Bakının mərkəzində rezerv edilmiş restorana yollandıq. Aqşin müəllim də təkidlərimiz qarşısında razılaşıb bizimlə gəlmişdi. Gözəl bir məclis qurulmuşdu, masanın başında Aqşin müəllimlə yanaşı oturmuş isveçrəli dirijor tərcüməçisiz danışırdılar, belə ki, uzun illər Ukraynada yaşamış Simon rusca bir qədər bilirdi, Aqşin müəllim də bəzi ingilis sözlərindən istifadə etməklə ünsiyyət qurmağa nail olmuşdu. Məclisin gur vaxtında salona musiqiçilər – kamançaçıyla müşayiətçisi daxil oldu, restorandakı kiçik səhnədə əyləşib musiqi ifa etməyə başladılar. Kamançaçını tanıyırdım, Rafael idi, bizimlə konservatoriyada təhsil almışdı. Bir neçə həzin-lirik ovqatlı parçadan sonra cəld templi bir əsər ifa etməyə başladılar. Yanımda əyləşib siqaretini sümürə-sümürə diqqətlə onları izləyən Martin Derings mənə nədənsə ingiliscə: *“He*



***Soldan sağa: Oanna Milena Zaharıa-Kamartın, Simon Kamartin, musiqişünas, SoNoR Müasir musiqi təşəbbüs mərkəzinin meneceri Afət Məmmədova, Aqşin Əlizadə, isveçrəli bəstəkar Martin Derung, ingilis dilindən tərcüməçi Dilarə xanım və Elmir Mirzəyev konsertdən sonrakı ziyafət məclisində***

*plays like old gramophone"* – dedi. Doğrudan da XX əsrin əvvəlinin köhnə vallarındakı ifanı xatırladan bir tərz vardı bu səslənmədə. Qəflətən Aqşin müəllim stoldan qalxıb musiqiçilərə yanaşdı. İfa dayandı, pianoçu ayağa qalxıb yerini Aqşin müəllimə verdi, Rafael də səhnədən çıxdı. Bu dəfə pianonun arxasına Aqşin müəllim keçib ifa etməyə başladı! Tədricən restoranın zalında səs-küy, danışıqlar, hətta çəngəl-qaşıq səsləri kəsildi, əylənməyə gələn insanlar bəlkə də pianonun arxasında kimin oturduğundan xəbərsiz halda, bu böyük bəstəkarın ifasını səssizcə dinləyirdilər. Bəziləri qalxıb pianonun qarşısına gəldi. Aqşin müəllim isə gözləri yumulu ifa edirdi. Simon da masa arxasından qalxıb onun yanına, səhnəyə getdi, orada oturub dinləməyə başladı. İfa bitdikdən sonra bu tanınmış bəstəkarı bəlkə oradakı bütün insanlar ayaq üstə alqışlayırdı. Beləcə filarmoniyadakı konsertdən sonra alqışlar yenidən təkrar edildi. Bu dəfə alqışlar Aqşin müəllimin öz ifasına idi. Beləcə həmin payız gecəsi oradakı bütün insanların əbədi yaddaşına yazıldı...

Berlin, Almaniya.
13.12.2021

## MUSİQİŞÜNAS SÖZÜ

**Аида ТАГИЗАДЕ**
Заслуженный деятель искусств, профессор

### С ЛЮБОВЬЮ К РОДНОЙ ЗЕМЛЕ




***Тагизаде А.З. Акшин Ализаде. Монография. Баку, Ишыг, 1986, 136 с.***

Акшин Ализаде! Имя талантливого композитора вошло в азербайджанскую музыку как эталон высокого профессионализма художника-новатора, своеобразно и глубоко раскрывающего облик своей страны, своего народа. Человеческая скромность, серьёзность, человечность снискали А.Ализаде уважение и признание не только у коллег, но и у широкой слушательской аудитории.

Каждое из сочинений А.Ализаде было результатом долгих размышлений, вдумчивого отбора музыкальных средств.




Ранние произведения, начиная с Сонаты, Камерной симфонии, миницикла «Пастораль», «Ашугская» для камерного оркестра являют собой образцы подлинного обновления, сочетающегося с опорой на фольклор, интонационную основу современной его времени музыки.

Позже в его произведениях, явившихся новаторскими в хоровом творчестве Азербайджана – кантате «Празднество», особенно в



***Тихон Хренников во время посещения дом-музея Узеир бека. Слева на право: Рамазан Халилов, Тихон Хренников, Фирангиз Ализаде, Акшин Ализаде, Рауф Гаджиев, Игорь Ойстрах и др. 21.01.1982 г***

цикле «Баятылар», а также последнем хоровом цикле на слова Фикрета Годжа, - поражает широта стилистической ориентации – способность впитывать и переплавить язык разных, казалось бы, несовместимых пластов современного музыкального искусства с национальными традициями фольклора.




Глубоко связанный с прошлым, настоящим и будущим, А.Ализаде создаёт в них ёмкие, зримые образы природы, характер своего народа в масштабах высокой духовности, гуманизма, глубокого ощущения гармонии мироздания. При этом свойственная ему цельность поэтической на-

туры постигается как результат требования личности – открытой радостям и горестям земли, обладающей памятью и чувством долга перед прошлым и будущим.

Всё, сказанное выше, не менее ярко, чем в хоровых сочинениях, раскрывается в произведениях для симфонического оркестра. Это, прежде всего, «Сельская сюита», «Апшеронские картины», «Ширванские картины». В них ярко выражено своеобразие таланта А.Ализаде, свойственное именно ему умение метко выразить картину жизни, быта, характера своего народа.

В одночастной Третьей симфонии А.Ализаде, отталкиваясь от интонационного развития, принципов формообразования, драматургии мугама, создаёт сложное, монументальное полотно, посвящённое нравственно-философским проблемам, связанное с магистральной линией национального симфонизма, выдвигающей проблемы обновления композиции, музыкальной драматургии с помощью ресурсов древнего искусства Востока – мугама.

В Четвёртой симфонии, утверждающей этические идеалы добра и человечности, композитор завершает финал мелодией народной лирической песни.

Балет «Бабек», воскрешающий страницы народно-освободительного восстания IX века под предводительством легендарного народного героя Бабека – ярчайшая страница творчества Акшина Ализаде. Истоки музыки, характеризующие восставший народ, бабекидов и главного героя – народные танцы яллы, джанги, к которым не раз обращался композитор в своих произведениях. Джанги – любимый жанр композитора, и здесь как нельзя точно образно выражается мысль о величии и героической мощи азербайджанского народа. Джанги становится своего рода музыкально-образным символом Родины, её Свободы.

Музыка Акшина Ализаде в целом как бы излучает силу, чистоту, мудрость. Образ Родины – борющейся, выстрадавшей свою судьбы в труднейших испытаниях, вера в Человека, в вечность Добра, нетленную красоту Природы придают особую ценность и притягательность музыкальному наследию и самой личности композитора.

Баку, Азербайджан.
19.11.2019

**İmruz ƏFƏNDİYEVA**
Əməkdar incəsənət xadimi, sənətşünaslıq
üzrə elmlər doktoru, professor

## ŞƏXSİYYƏTİ ÖRNƏK OLAN BƏSTƏKAR, İCTİMAİ XADİM VƏ GÖZƏL PEDAQOQ

Aqşin Əlizadə müasir dövrümüzün parlaq simalarından biridir. Mən fəxr edirəm ki, onunla bir dövrdə oxumuşam. Bizim nəsil bəstəkarın əsərlərinin ilk dinləyicisi, ilk tamaşaçısı olub. Yaradıcılığını mənalı, dərin qüdrətinə, poetik gözəlliyinə görə sevirik. Musiqinin bir çox janrlarında bəstələdiyi nümunələrlə dəyərli bir irs yaratmış A.Əlizadənin irsinə müxtəlif nəzər nöqtələrindən yanaşıb təhlil etmək, onun teatr üçün yazılmış musiqi-səhnə əsərləri, simfoniyaları, kantataları, xor əsərlərini səciyyələndirərək, milli bəstəkar yaradıcılığında tutduğu yeri müəyyən etmək bizim, yəni musiqişünas-alimlərin borcudur.

Aqşin konservatoriyanı 1962-ci ildə bitirdi. Mən isə ondan iki il əvvəl "Tarix-nəzəriyyə" fakültəsini (musiqişünaslıq bölməsi) bitirmişdim və "Musiqi tarixi" və "Musiqi nəzəriyyəsi" kafedralarında müəllim və baş laborant işləyirdim.



A.Əlizadə görkəmli bəstəkarımız Cövdət Hacıyevin tələbəsidir. Bir dəfə bu sətirlərin müəllifinə o dedi: “Kompozisiyadan Cövdət müəllimin sinfində gözəl dərs keçdim. Mən minnətdarlıq hissi ilə o günləri xatırlayıram. Lakin Qara Qarayevin əsərlərini çalarkən ondan çox şey öyrəndim və o, mənim sanki ikinci müəllimimdir. Müasir bəstəkarlardan mənə Karl Orf və Bela Bartok yaxındılar, onların əsərlərinə həmişə qulaq asıram. Bu bəstəkarların xalq musiqisinə olan münasibəti məni heyran edir”[1].

Bəstəkarın yaradıcılığına bizim Konservatoriyada işləyən müəllimlər böyük həvəs göstərirdilər və biz bütün ilk ifalarda iştirak edirdik. A.Əlizadənin diplom işi Böyük simfonik orkestr üçün 1 saylı simfoniyası musiqi ictimaiyyətimizi olduqca cəlb etmişdi. Bir neçə ildən sonra kamera orkestri üçün 2 saylı simfoniya və 1969-cu ildə *a`capella* və qarışıq xor üçün “Bayatılar” (xalq sözləri əsasında) və qeyri-adi bir əsər 16 simli alət üçün “Ekspressiyalar” yarandı. Bəstəkar addım-addım zirvələrə doğru gedirdi. A.Əlizadənin “Baya-



***Soldan sağa: Rauf Hacıyev, Aqşin Əlizadə, Tixon Xrennikov, Ramazan Xəlilov Üzeyir bəyin ev-muzeyində***

tılar” əsəri xor-dirijorluq şöbəsində oxuyan tələblər üçün sözün əsil mənasında hədiyyədir. Bu əsərdə olan yenilik, incəlik, yüksək peşəkarlıq və milli musiqimizə bağlılıq hamını cəlb edir. Düşünürük ki, “Bayatılar”da Ü.Hacıbəylinin və müasir bəstəkarlarımızın tapıntıları orijinal surətdə qovuşur.

[1] İ.Əfəndiyevanın A.Əlizadə ilə söhbəti. May, 1979-cu il.

Bəstəkar A.Əlizadənin yaradıcılığının bəhrələndiyi mənbələrdən yazarkən bunların sırasında təkcə milli musiqimizdə xalqın şifahi musiqi yaradıcılığı və milli bəstəkar yaradıcılığında təşəkkül tapıb inkişaf etmiş ənənələri deyil, ümumilikdə Azərbaycan xalqının zəngin mədəni irsi, xalq ədəbiyyatının da adını çəkməliyik. Dediklərimizlə əlaqədar, aşağıdakı əsərləri yada salaq: “Pastoral” və “Aşıqsayağı” (kamera orkestri üçün), simfonik orkestr üçün “Abşeron lövhələri”, *a`capella* xor üçün “Qədim lay-lay” (sözləri xalqındır), fortepiano üçün “Dastan” və s.

A.Əlizadə milli və dünya musiqisinin ənənələrinə yanaşma tərzində özünəməxsus bir mövqedən çıxış edirdi. Bu baxımdan biz “Babək” baletini qeyd etməliyik. Libretto müəllifləri R.Axundova və M.Məmmədov İ.Selvinskinin əsərinin motivləri üzərində dramaturji baxımdan maraqlı konsepsiya yaradıblar. 1979-cu ildə yazılan balet bir çox musiqişünasların, tədqiqatçıların diqqət mərkəzində idi. Xüsusi olaraq gənc musiqişünaslar bu əsər haqqında mətbuatda, radio və televiziya verilişlərində öz səmimi münasibətlərini bildirirdilər. Bu sətirlərin



***Azərbaycan Dövlət Filarmoniyasında Türkmən bəstəkarı Vəli Muxatovun müəllif konsertindən sonra. Bakı, 1987-ci il***

müəllifinin tələbəsi Lalə Kərimova 1987-ci ildə Moskvada keçirilən ən yaxşı tələbə işinə görə” (musiqişünaslıq üzrə) Ümumittifaq müsabiqəsində “Aqşin Əlizadənin “Babək” baletində folklor” mövzusundakı tədqiqatına görə diplomla təltif olunmuşdur. Qeyd etməliyik ki, Ümumittifaq müsabiqənin ciddi, mürəkkəb qanunları var idi. Hər Respublikaya 1 diplom ayrılmışdı və bu sınaqdan (imta-

handan) keçmək Azərbaycan üçün böyük şərəf idi. Biz öz tələbəmizlə fəxr etdik[2]. Sonralar L.Kərimova həmin mövzuda diplom işini uğurla müdafiə etdi. Aqşin müəllim istəyirdi ki, mənim tələbəm bu işi geniş müstəvidə davam etsin, dissertasiya yazsın. Vaxtaşırı məndən soruşurdu, maraqlanırdı. Görünür, qismət deyildir. Lalə xanım hazırda Mədəniyyət və Turizm nazirliyində olduqca məsuliyyətli vəzifə daşıyır. O, regional siyasət şöbəsinin müdiridir. Lalə xanım musiqi məktəbləri ilə sıx əlaqədar olaraq A.Əlizadənin yaradıcılığını imkan daxilində təbliğ edir.

Aqşin müəllimin bir pedaqoq kimi yüksək peşəkarlığını qeyd etməliyik. Mənim qardaşım oğlu Ayxan Əfəndiyev Aqşin müəllimin sinfində "Simfonik əsərlərin oxunuşu" və "Orkestrləşdirmə" fərdi dərslərini keçirdi. Ayxan qeyd edir ki, dərslər olduqca maraqlı olurdu, çünki A.Əlizadə hər bir simfonik partitura üzərində bir neçə saat məruzə oxuyur, partituranı çox gözəl çalır və təhlil edirdi. Hər bir bəstəkarın simfonik musiqiyə gətirdiyi yeniliyi vurğulayır, onların yaradıcılığında bu əsərin tutduğu yeri müəyyənləşdirirdi. Ayxan deyir: "Biz video və audio vasitəsilə görkəmli bəstəkarların əsərlərini dinləyirdik (İ.Stravinski, V.Lyutoslavski, S.Prokofyev, D.Şostakoviç, Q.Qarayev, F.Əmirov, C.Hacıyev və başqaları), lakin Aqşin müəllim partituranı əlinə götürüb fortepianoya yaxınlaşanda çox sevinirdik, çünki o çalanda biz suallar verirdik, yəni ünsiyyətdə olurduq, dərsimiz daha maraqlı keçirdi. Mən Aqşin müəllimin tapşırıqlarına çox məsuliyyətlə yanaşırdım. Dərsləri müəyyən səbəblərə görə evində keçirdi. Bəstəkarın zəngin kitabxanası var idi. O, hamımıza klavirlərini, haqqında yazılmış kitabçaları hədiyyə etmişdi. Hər şey üçün A.Əlizadəyə minnətdaram. İlk növbədə tələbələrə qarşı səmimiliyinə, insanlığına və bir şəxsiyyət və peşəkar müəllim kimi minnətdaram. Heç də təsadüfi deyil ki, indiki zamanda mən Azərbaycan bəstəkarlarının simfonik əsərlərinin üslub xüsusiyyətlərini araşdırıram. Dissertasiyamı tamamlamışam və Aqşin müəllimin tövsiyələri daim mənə kömək edir. Yüksək peşəkarlıq və güclü pedaqoji prinsiplərin daşıyıcısı olan professor, xalq artisti A.Əlizadə gənclər üçün nümunədir".

A.Əlizadə haqqında müxtəlif səpgili məqalələr, kitabçalar, tədqiqat işləri, o cümlədən dissertasiyalar yazılıb. Bu baxımdan, Lalə Hüseynovanın tərtibçisi olduğu kitab sanballı, dəyərli, maraqlı və diqqətəlayiq işdir[3]. Həmin kitabda onun bir çox tədqiqat səciyyəli məqalələri çap olunub. Əgər həmin məqalələri ayrıca toplasaq bir kitabça alınacaq. Lalə xanım uzun illər müxtəlif arxivlərdə işləyib və zəngin material toplayıb. Ən çətin iş alim üçün bütün müsahibələri yığmaqdır.

---

[2] Musiqidə keçən ömür / İ.Əfəndiyevanın 75 illik yubileyinə həsr olunur. Tərtibçi S.Əsədova // Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2013, səh. 153

[3] Aqşin Əlizadə. Publisistik irs. Məqalələr. Müsahibələr. Tərtib edəni və redaktoru Lalə Hüseynova. Bakı. Avrasiya Press", 2012. 524 s.



***Azərbaycan bəstəkarlarının VIII qurultayında. Soldan sağa: Əhməd Yürür, Feyzulla Karomatov, Lola Karomatova, İqor Şerbakov, İmruz Əfəndiyeva, Vaja Azaraşvili, Aqşin Əlizadə. Bakı, 2007-ci il***

Çünki bəstəkar bəzi müsahibələrini nəinki qəzet və jurnallara verib, həmçinin radio və televiziyamızın müxtəlif kanallarında səsləndirib.

Düşünürəm ki, L.Hüseynovanın işi yüksək qiymətləndirilməlidir və başladığı işi davam etdirməlidir. Yəni A.Əlizadə haqqında doktorluq dissertasiyası çoxdan yazılmalı idi. A.Əlizadənin anadan olmasının 80 illiyi ərəfəsində xatirələri yazmaq, toplamaq və bu işi sistemləşdirmək də çox məsuliyyətli işdir. Bu işdə zəhməti olan musiqişünaslarımıza uğurlar arzulayırıq. Musiqi sənətimizə yeni nəfəs gətirmiş novator bəstəkar A.Əlizadə ölməz əsərləri ilə dinləyiciyə böyük estetik təsir bağışlayır. Burada xalq şairi B.Vahabzadənin sənətkar haqqında dediyi fikirlər yadımıza düşür. Bu sözləri Bəxtiyar müəllim dahi sənətkarımız R.Behbudov haqqında söyləmişdir, lakin səmimi deyək ki, A.Əlizadənin də yaradıcılığını ehtiva edir: "Xalq sənətini milli çərçivədən çıxarıb yeniləşdirərək təzədən xalqa qaytarmaq, həqiqi yaradıcılıq yolu olmaqla, həm də həqiqətən böyük rəşadətdir"[4].

Bakı, Azərbaycan.
24.06.2019

[4] Axtarış yollarının bəhrəsi (məqalələr toplusu). Bakı. "Zərdabi LTD" MMC, 2014, s. 156

**Həcər BABAYEVA**
Əməkdar incəsənət xadimi, professor

## MƏNİM ƏZİZ MÜƏLLİMİM



Aqşin Əlizadə - mənim əziz müəllimim, tanıdığım ən saf, təmiz qəlbli insan, istedadlı bəstəkar və Vətənini qəlbən sevən Azərbaycan övladı. O, Konservatoriyada mənə partituranı üzündən oxuma fənnini tədtis edirdi. Dərslərimiz müəllim tələbə münasibətindən əlavə dost, böyük qardaş münasibəti idi. A.Əlizadənin tövsiyələri, məsləhətləri mənim həyatda düzgün yol seçimimdə böyük rol oynamışdı. O zaman mənimlə bir qrupda oxuyan gələcək həyat yoldaşım Elxan Babayevlə birlikdə bu dərslərdə iştirak edirdik və o, bizim aramızda olan isti münasibəti hiss edirdi. Onun tövsiyələrindən biri də Elxanın ciddi, məsuliyyətli xasiyyətinə qarşı mənim diqqətli olmağım idi. (Çox-çox sonralar “səni qardaşım üçün alacaqdım, amma Elxan qabağa düşmüşdü” – deyib zarafat etmişdi mənimlə).

Sevimli müəllimimlə iş birliyim konservatoriyanın V kursunda oxuyarkən başladı. O vaxt “Azərbaycan musiqisində bayatı janrı” adlı diplom işimə Aida xanım Tağızadə rəhbərlik edirdi. Diplom işinin son fəsli Azərbaycan bəstəkarlarının yaradıcılığında bayatı janrı adlanırdı. A.Əlizadənin “Bayatılar” *a’capella* əsəri isə yenicə çapdan çıxmış, ancaq Azərbaycanda ifa olunmamışdı və bu əsər haqda heç bir mənbədə yazılmamışdı. Şübhəsiz, “Bayatılar” əsəri III fəsil üçün çox gözəl bir material idi. Beləliklə, 10 bayatını təhlil etdikcə Aqşin müəllimə yazdıqlarımı göstərirdim. Bəzən də mənə deyirdi ki, sən bunları haradan çıxardırsan, mən yazanda heç fikirləşmirəm, hiss etdiklərimi yazıram. Mən də deyərdim ki, elə ona görə də Aqşin Əlizadə musiqisi digər bəstəkarlardan fərqlidir. Yazdıqları əsərlər hisslərinin, ürəyinin məhsuludur.

Hər kəs bilir ki, A.Əlizadənin özünəməxsus dəsti-xətti vardır. İlk akkordlarından bəlli olur ki, bu A.Əlizadəyə məxsus harmoniyalardır. Bunlar hər bəstəkara nəsib olmur. Bəstəkarın əsərinin şəxsi ünvanı olmalıdır, özünəməxsus harmoniyası, intonasiyaları onu digərlərindən fərqləndirməlidir. A.Əlizadə məhz belə bəstəkardır. Bir çoxlarına məlumdur ki, yazdığı əsərlərində keçirdiyi

emosional gərginlik onun səhhətinə də öz təsirini göstərirdi. Bir sözlə əsl sənətkar, işinin fədaisi idi A.Əlizadə.

1974-cü ildə mən yenidən "Bayatılar" əsərinə qayıdıb "Qobustan" incəsənət toplusu üçün məqalə yazmışdım. Geniş həcmli məqalədə "Bayatılar"da gördüyüm incəlikləri bütün detalları ilə şərh etmişdim. "Bayatılar" məcmuəsinin 6-cı nömrəsi "Ağ alma" adlanır. Bu bayatını şərh edəndə qeyd etdim ki, onun mətni bəstəkar tərəfindən sərbəst işlənilmişdir, şeirin bir misrasını ixtisar etməklə mətnin məzmunu kasıblaşmışdır.

Tabaqda yarım alma
Qalıbdır yarım alma
Əlimdən yarım alma

bayatısında "Alırsan canımı al" misrası ixtisar edilmişdi. Bundan başqa, burada birinci misrada "alma" sözü vurğuların düzgün olmaması nəticəsində "alma" yəni əl vurma, bir şeyi götürmə mənasını almışdır. Əlbəttə ki, bu kiçik detal o boyda əsərin qiymətini öldürə bilməzdi. Amma biz musiqişünaslar da bu detallardan yan keçə bilməzdik (artıq mən konservatoriyanı bitirmişdim, özümü musiqişünas hiss edirdim). Məqaləni oxuyan sevimli müəllimim məndən bərk incimişdi. Necə ola bilər dünənki tələbə, bu gün öz müəlliminə irad tutur. Mən də çox peşman idim, çünki müəllimim məndən küsmüşdü. Bu halımı görən Aida xanım Tağızadə zarafatla "Həcər bundan sonra həyatda olan bəstəkarlardan yox, dünyasını dəyişənlərdən yaz" – demişdi.

İllər keçdi, əlbəttə ki, bu inciklik unuduldu. A.Əlizadə 1985-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının sədri seçildi. İttifaqın iclaslarının birində o, musiqişünasların tənqidi məqalələr yazmadığından şikayətlənirdi. Mən də ona məndən incidiyi vaxtı yadına saldım. Gülüb dedi ki: "Mən onda cavan idim. Tənqid olmasa inkişaf olmaz. Bəstəkar öz əsərində olan qüsurları musiqişünasdan eşitməlidir. Həcər, tənqidi məqalələrini elə mənim əsərlərimdən başla".

Allah sənə rəhmət eləsin böyük sənətkar.

Aqşin müəllim Azərbaycan Bəstəkarlar İttifaqının sədri seçildikdən sonra bir sıra yeniliklərə imza atdığı işlərdən biri də "Xaqani-27" verilişini açması oldu. Azərbaycan televiziyası və Bəstəkarlar İttifaqının birgə layihəsi olan "Xaqani-27" birbaşa Bəstəkarlar İttifaqının binasında lentə alınırdı. Verilişin hazırlıq dövründə müəllimim məni yanına çağırıb, bəzi məsləhətlərini verdi. O vaxtlar mən artıq Azərbaycan televiziyasında musiqiyə aid silsilə verilişlər aparırdım. "Bəstəkarların portreti", "Bəstəkarların iş otağında", "Musiqi xəzinəsi" və s.

Aqşin müəllim dedi ki: "Mən istəyirəm "Xaqani-27" öz ünvanını doğrultsun. Bu verilişlər Bəstəkarlar İttifaqının işini əks etdirsin. Ayrı-ayrı böl-



***Soldan sağa: Tofiq Quliyev, Cövdət Hacıyev, ərəb ölkələrindın birinin təmsilçisi bəstəkar Fetiş, Aqşin Əlizadə, Ramiz Mustafayev və Azər Rzayev***

mələrin işləri işıqlandırılsın. Bəstəkarlarımızın yaradıcılığı ilə tamaşaçı daha yaxından tanış olsun. Özü də bu veriliş təkcə azərbaycanca deyil, eyni zamanda rus dilində də tamaşaçıya çatdırılsın. Buna görə də verilişi Azərbaycan dilində sən, rus dilində isə musiqişünas Nəzakət Qasımova aparacaq. Oturun fikirləşin, iş planınızı qurun".

Beləliklə, "Xaqani-27" verilişi ayda iki dəfə efirə çıxdı. Əvvəlcə Azərbaycan, iki həftə sonra isə rus dilində. Hər veriliş isə Bəstəkarlar İttifaqının ayrı-ayrı sahələrdə apardığı işlərə, görüşlərə həsr olunmuşdu. Bir müddət mən bu verilişlərin aparıcısı oldum və sonra İraqın Bağdad şəhərində çalışan həyat yoldaşım E.Babayevin yanına getməyimlə artıq bu verilişləri istedadlı musiqişünaslar – Lalə Hüseynova və Zümrüd Dadaşzadə aparmağa başladılar. Uzun müddət "Xaqani-27" Azərbaycan Televiziyasının reytinqli verilişləri sırasında oldu.

Bağdadda çalışdığımız dövrdə oranın Mədəniyyət və Turizm naziri, məşhur ud ustası Münir Bəşir sovetlərdən gələn musiqiçilərə çox yüksək qiymət verirdi. Ələlxüsus da, Azərbaycandan gedənlərlə daha çox təmasda olur, Azərbaycan musiqisi ilə, bizim yaradıcılıq həyatımızla maraqlanırdı. Çünki bizdən əvvəl, artıq dahi bəstəkarımız Fikrət Əmirov Bağdadda olmuş, özünün ərəb mövzuları əsasında məşhur fortepiano konsertini Elmira Nəzirova ilə birlikdə yazmışdı. Bundan başqa, sovet musiqiçilər qrupunun dərs dediyi məktəbi zamanında yaradanlar arasında Tohid və Gövhər xanım Quliyevlər olmuşdular.

1987-ci ildə Bağdadda Beynəlxalq "Vavilon" Festivalının açılışı olmalı idi. Festival İraqın Babil şəhərində möhtəşəm Babil qapıları yanında keçirilirdi. Festival ərəfəsində M.Bəşir Bakıya işgüzar səfərə gəlmişdi. Mən də o zaman Bakıda idim.



***Soldan sağa Aqşin Əlizadə, İraq bəstəkarı Münir Bəşir, Tofiq Quliyev, Həcər Babayeva, Oqtay Zülfüqarov. Bakı. May, 1988-ci il***

Biz onunla qaldığı “Azərbaycan” (indiki Hilton) otelində görüşdük. Hər zamankı kimi Azərbaycanın mədəni həyatı ilə maraqlanırdı. Festivaldan söhbət düşdü və onun açılışı üçün möhtəşəm bir musiqi nömrəsi arzusunda olduğunu söylədi. Mən təklif etdim ki, gedək Azərbaycan Bəstəkarlar İttifaqına Aqşin Əlizadə ilə görüşün o, sizə məsləhətlər verər. Belə də etdik, Aqşin müəllim bizi çox gözəl qarşıladı. Maraqlı söhbətimiz bir xeyli çəkdi, söhbətin sonunda M.Bəşir Aqşin müəllimi Bağdada dəvət etdi və “Vavilon” festivalının açılışı üçün əsər yazmağı sifariş etdi. Sonralar Elxan müəllimin məktublarından A.Əlizadənin “Dostluq odası” simfonik əsərinin Bağdadda “Əl-Mənsur” konsert salonunda böyük müvəffəqiyyət qazandığı xəbərini aldım. Əsəri Yuri Əliyevin idarəsi ilə İraq milli simfonik orkestri ifa etmişdi.

Ömrünün sonuna qədər bizim Aqşin müəllimlə iş birliyimiz davam edib və artıq müəllim-tələbə münasibətlərimiz dostluq və həmkarlığa çevrilmişdi. Ancaq Aqşin Əlizadə mənim üçün həmişə əziz müəllimim olaraq qalmışdı. İnsan dünyasını dəyişdikdən sonra onu nə qədər yada salırlarsa, həmin şəxs o qədər də yaşayır. Bir də yaradıcı insanın özündən sonra yaradıcılığı qalır və o əsərlər səslənirsə, deməli, o daim sevdiklərinin, pərəstişkarlarının yanındadır. Aqşin Əlizadə də belə ölməz sənətkarlardandır.

Bakı, Azərbaycan.
08.04.2019

**Рейхан АЛИЕВА**

## ИМЯ, ОПРЕДЕЛИВШЕЕ СУДЬБУ



***Наби Хазри и Акшин Ализаде. 1982 г***

Как неумолимо быстротечно время... В повседневной суете мы порой не замечаем, как летят годы и за плечами незаметно набирается не один десяток прожитых лет. Наступил новый век, сменяются поколения, направления, ориентиры в искусстве... Мне вспоминаются 60-70-е годы XX века, годы нового яркого расцвета азербайджанской музыки. Именно в это время в наше искусство стремительно ворвалась плеяда молодых талантливых композиторов, среди которых был и Акшин Ализаде. Его формирование проходило под влиянием двух корифеев азербайджанской музыки - Джевдета Гаджиева, в классе которого он постигал секреты мастерства, и Кара Караева, с которым он был близок по духу, много общался с ним, обсуждая наболевшие проблемы. От своих учителей юноша получил главное - основательность и серьезность в решении творческих проблем, обостренное ощущение современности, тяготение к смелым экспериментам, поиски своего пути. В интервью газете «Неделя»

(24.08 2000) композитор исчерпывающе ответил на вопрос о том, что дало ему общение с этими великими музыкантами: “От Кара Караева я унаследовал новые мысли, новые мелодические решения, новые линии. Его взрывной романтизм и его отношение к объемной, глобальной музыке не могли не подействовать на каждого из учеников... Очень важное качество, взятое от Джевдета Гаджиева - непримиримость в отношении к музыкальному материалу и беспощадность к себе. С ним можно было не соглашаться, но это качество - самое важное в нем. Я считаю, что в то время каждый, кто учился у Кара Караева, одновременно с этим непременно учился и у Джевдета Гаджиева, и наоборот. Это очень важно знать.” Первые победы и успехи молодой композитор познал уже в годы учебы. Его Соната для фортепиано (1959) была удостоена диплома первой степени на Всесоюзном смотре творчества молодых композиторов в Москве. Дипломная работа Ализаде - Первая симфония (1962) также принесла успех автору и была исполнена на фестивале “Закавказская весна”. Когда в 1966 году прошла премьера Камерной симфонии, она сразу же привлекла пристальный интерес к молодому композитору и заставила говорить о нем. Это было свежее дыхание «новой фольклорной волны», время смелых напряженных поисков своего пути в искусстве. Неоклассицистская по духу, Камерная симфония была пронизана радостным юношеским мировосприятием и самобытным воплощением народно-песенного мелоса, здесь молодой композитор обратился к самым древним, исконным пластам народных напевов. И это будоражило и оставляло след в памяти слушателей.




Мое знакомство с творчеством Акшина Ализаде началось именно с Камерной симфониии, когда я была еще студенткой музыкального училища им. Асафа Зейналлы. Потом, уже поступив в консерваторию, я старалась следить за новинками и не пропускать премьеры его сочинений, которые становились значительными событиями в жизни республики, а он сам органично вошел в передовой отряд творческой молодежи композиторов -

«шестидесятников». Этот композитор смолоду отличался «лица необщим выраженьем». С самого начала его творческая палитра и богатство выразительных приемов были всегда индивидуальными, неповторимыми, а масштабность мышления знаменовала раннюю зрелость. Помню, как очаровала меня уже при первом прослушивании прелестная импрессионистически тонкая прозрачная звукопись его изумительных миниатюр для камерного оркестра – «Пастораль» и «Ашугская». А вскоре и красочная «Сельская сюита», перекликающаяся с необыкновенными в своей звуковой чистоте и кажущейся внешней простоте оригинальными хоровыми миниатюрами «Баятылар». Кстати, с «Баятылар» связано одно забавное приключение в моей жизни. После окончания консерватории я работала по распределению в Сумгаитском музыкальном училище, здесь же преподавал хоровое дирижирование молодой педагог Фазиль Алиев, который помимо этого возглавлял самодеятельный хоровой коллектив завода им. лейтенанта Шмидта. Этот коллектив получил приглашение принять участие в традиционном празднике песни, проводимом в столице Эстонии Таллине. Естественно, учитывая ответственность предстоящего выступления, было принято решение «укрепить» самодеятельный коллектив профессионалами! Не помню, были ли представлены там певцы-любители, но точно знаю, что часть певцов из азербайджанской хоровой капеллы, а также несколько педагогов и студентов училища были включены в состав этого коллектива, который мы в шутку окрестили «детьми лейтенанта Шмидта»! В репертуаре «заводского хора» была представлена интересная программа: хоровой мугам «Баяты Шираз» Назима Аливердибекова, хор «Эй вэтэн» Узеира Гаджибекова и две миниатюры из хорового цикла Акшина Ализаде «Баятылар» - “Аг алма” и “Агач агача йовуг”. Так мое знакомство с замечательной музыкой Акшина Ализаде продолжилось уже в довольно неожиданном для меня самой «исполнительском ключе»! Исполнение этих изумительных, временами наивных, бесхит-



**Акшин Ализаде. Апрель, 2007 г**

ростных, а порой бойких остроумных зарисовок доставляло истинное удовольствие. Лаконизм, изобретательность в воплощении народных образов, искрометность юмора и изящество музыкальных тем покоряли и исполнителей, и слушателей! Совершенно другие задачи были воплощены в кантате «Азерилер» (сл. Ф.Годжа, 1976, первоначально «Двадцать шесть»). Грандиозная фресковость, плакатная монументальность, эпический звуковой размах и драматизм отличали кантату «Азерилер» и многие хоровые полотна композитора: «Празднество» и «Песнь о благословенном труде» на стихи Наби Хазри. Камерно-инструментальное творчество Ализаде - Портрет художника для скрипки и фортепиано, Дастан для фортепиано, Диалог для скрипки и органа - также насыщено поисками новых решений. Огневой энергией стихии народного танца пронизано великолепное Джанги для симфонического оркестра. Особой, плодотворной и привлекательной для композитора и чрезвычайно успешной областью творчества Ализаде была музыка к кинофильмам и театральным постановкам, их было свыше пятидесяти. Но главным делом жизни композитора было по его словам - найти свою азербайджанскую симфонию. И надо сказать, что его поиски увенчались успехом. Его последние три симфонии –Третья (1982), Четвертая – “Мугамная” (1984) и Пятая (1989) составляют своеобразный триптих, в ко-



тором каждый раз композитор как бы заново трактует симфонический цикл, находит его новое воплощение. Медитативность, погруженность в себя, свой внутренний мир, напряженные поиски разрешения конфликта в каждой следующей симфонии получают новое решение. Эти симфонии представляют собой своеобразный диалог автора со временем, стремление осмыслить непростые реалии современного мира и дать ответ на многие, порой мучительные раздумья о жизни и о себе, их музыка, побуждающая к сопереживанию и содействию, захватывает слушателя своей эмоциональной глубиной, драматизмом и передает беспокойный дух времени, в котором мы живем. Объединяет их обращение к мугаму, ставшему для композитора неисчерпаемым источником вдохновения. Акшин Ализаде был убежден: «После Корана мугам — это наше священное богатство, источник новых идей и достижений». Мугамность в произведениях Ализаде всегда исповедальна, философски насыщена и всегда трактуется как напряженный процесс, главный стержень всей композиции.

В первые дни 2002 года мне посчастливилось взять интервью у Акшина Алиевича для студенческого журнала «Шярги», издаваемого Бакинской Музыкальной Академией. Это было время, когда он успешно и плодотворно работал в Турции, преподавал в университете города Ван. Отвечая на мой вопрос о перспективах развития национальной композиторской школы, сможем ли мы гордиться азербайджанской музыкой XXI века, будет ли она столь же яркой, значительной и содержательной как музыка прошедшего века, он особо подчеркнул: « ...прежде всего изменились время и страна, в наше время были другие ценности и ориентиры. Мы, то есть поколение 60-70-х, были полны идеями, желанием творить. Когда рядом большой композитор (К.Караев, Дж.Гаджиев - прим. автора), который может оценить, дать совет, то это и обязывает, и вдохновляет. Мы трудились не для званий, не для дипломов. Для меня важен был сам процесс, вся жизнь была своеобразной войной за прорыв нашей музыки, т.е. то, что впервые сделал Узеир Гаджибеков, а за ним те, кто составляет гордость нации! У нас в музыке еще много белых пятен, мы еще не знаем, как сложится ее судьба, необходимы новые оперы, симфонии... Я считаю, что азербайджанские музыканты прошлого столетия свой долг перед народом выполнили». Композитор ощущал себя воином, преданно защищающим завоевания родной национальной культуры, боровшимся за сохранение национальной идентичности азербайджанской музыки. В то же время он выступал за ее органичное вхождение в общемировой процесс,



*Слева направо: Галина Ализаде, Акшин Ализаде, Рейхан Алиева. Шувелан, 25.11.2009 г*

он был против изолированного существования национальной культуры, используя в своем творчестве весь обширный арсенал современных композиционных приемов и выразительных средств. Путеводной звездой для Акшина Ализаде было творчество и личность великого классика Узеира Гаджибекова. Вот и в этой беседе во время подготовки интервью он говорил о своем преклонении перед человеческими качествами и творчеством гениального Узеирбека, заложившего крепкий фундамент нашего музыкального искусства, о своих детских впечатлениях от оперы «Кероглы», на представлении которой присутствовал сам автор. Опера «Кероглы» и музыкальная комедия «Аршин мал алан» на всю жизнь остались самыми любимыми, глубоко почитаемыми сочинениями для Акшина Ализаде. Среди произведений, особо близких ему, Акшин муаллим с восхищением называл балет «Семь красавиц» Кара Караева, Симфонические мугамы – «Раст» Ниязи и «Кюрд Овшары» Фикрета Амирова. А в музыке XX века его ориентирами были «Весна священная» Стравинского, «Дафнис и Хлоя» Равеля, Третья симфония Прокофьева, «Кармина Бурана» Орфа, Серенада для скрипки соло, струнных и ударных Бернстайна.

Человеческое и профессиональное кредо Акшина Ализаде можно охарактеризовать так независимость, принципиальность, честность, ответственность за написанное, строгость в отборе тем, композиционных приемов, верность своим идеалам. Его позицию по отношению к собственному творчеству четко выражают такие его слова: “Я не люблю говорить о себе, надо писать музыку, а не говорить о ней! Моя музыка без моих усилий сама привлекает внимание. Ее знают и за пределами страны. Я профессионал и пишу музыку в любой ситуации. Если композитор не может творить, он обдумывает новые замыслы, вынашивает новые сочинения. Композитор не должен сочинять до ста лет! Человек с возрастом сочиняет с трудом, это тяжелый изматывающий процесс. Вообще много музыки писать не надо, не стоит сравнивать музыкантов старого времени с современными. Композитор должен чувствовать ответственность за сочиняемое!” Обостренное ощущение пульса современности, чуткая интуиция позволили этому композитору предвосхитить поворотные знаковые события в жизни своей страны и народа, предсказав будущие трагические катаклизмы отечественной истории, показав прошлое через призму настоящего времени, современных реалий. Будучи лидером по характеру, он никогда не шел на поводу у публики, справедливо считая, что творец должен вести ее за собой, воспитывать слушателя и поднимать его до уровня восприятия настоящего искусства. Акшин Ализаде был твердо убежден, что музыка должна трогать слушателя, задевать самые тонкие и чуткие струны души и сердца и, самое главное, она должна быть КРАСИВОЙ... И он неукоснительно следовал этому принципу в своих сочинениях. На ум приходят такие выразительные пронзительные в своей искренности элегии композитора-музыка к кинофильму «Звук свирели», романс для флейты из киноновеллы “Рягибляр”, миниатюра для фортепиано “Сакит гюн”, “Гарабах хавасы”... А как нежно и проникновенно звучит в финале Четвертой симфонии тема народной песни “Гюль ачды”... Говоря о народной музыке, тонким интерпретатором которой был Акшин муаллим, верный рыцарь, бесконечно преданный ей, он подчеркивал свойственную народной песне печаль, грусть, элегический характер, даже в любовных песнях, таких как “Апарды селляр Сараны”, “Вагзалы”, “Сона бюльбюлляр”... Мне довелось услышать в исполнении Акшин муаллима на фортепиано народные песни. Это было незабываемо - так трепетно, с восхищением и любованием каждым звуком он играл! Музыка звучала как исповедь, как рассказ о самом дорогом, ценном, непрехо-

дящем. А еще он всегда с благодарностью говорил о важной роли народного искусства в своем творчестве: “В том, что я мало ошибался в своей музыке, - заслуга народной музыки и мугама, которые не дали мне отклониться и уйти в сторону. Впрочем, если бы я сегодня начинал сочинять музыку, я бы делал это иначе, ибо композитору свойственно искать свой язык выражения, адекватный тому, что его интересует и времени, в котором он живет». Музыкальный язык Акшина Ализаде был глубоко индивидуален, узнаваем, самобытен! Это качество нашло яркое выражение в сценической музыке, в частности в его замечательных балетах. На премьере балета «Бабек» (1986) в силу тяжелых испытаний в тот период моей жизни я, к сожалению, не смогла присутствовать. Но уже последующие премьеры балетов «Путешествие на Кавказ» (2002) и «Вальс надежды» (2008) я не пропускала, получая персональное приглашение от уважаемого автора. Акшин Алиевич гордился балетом «Бабек», в создание которого было вложено много труда и сил, была проделана огромная подготовительная работа. Он всегда подчеркивал, что это первый азербайджанский героико-эпический балет. Как композитор патриот, гражданин, он жил болью и чаяниями своей родины, а образ Бабека стал в его творчестве символом свободы, мужественной борьбы за нее! Я вспоминаю юбилейный концерт в Филармонии в честь семидесятилетия композитора весной 2007 года. В этот праздничный вечер юбиляр был подтянут, жизнерадостен, молод душой и дарил окружающим заряд бодрости и оптимизма! А перед слушателями предстала впечатляющая панорама творчества композитора. Прозвучали знаковые сочинения Акшина Ализаде - драматичная Третья симфония, монументальная фреска - кантата “Азериляр”, тогда же прошла премьера Концерта для скрипки с оркестром, сочинения сложного, остро современного по музыкальному языку и выразительным средствам. В год юбилея Акшина Ализаде мне довелось рецензировать концерты, в которых были исполнены лучшие произведения автора. Это был своеобразный отчет творца перед своими слушателями, перед народом. Мои статьи были опубликованы в газетах «Наш век», «Хазри», а позже в газете «Азербайджанские известия». По инициативе Акшина Алиевича одна из моих статей была напечатана в виде буклета и преподнесена мне лично. Уже после кончины композитора в мае 2014 года была опубликована статья «Памяти мастера» в «Азербайджанских известиях» и в Москве в издании Азербайджанского конгресса России. К восьмидесятилетию Акшина Ализаде в 2017 году в газете «Наш век» в рубрике Линия жизни вышла моя статья «Диалог со временем».

Это был мой скромный вклад в сохранение памяти о нашем замечательном композиторе - гражданине, патриоте, подвижнике Музыки, которого всегда вела по жизни вера в правду, справедливость и добро!

И напоследок хочу рассказать еще об одной, как мне представляется, важной встрече Акшина Алиевича с учениками специальной музыкальной школы имени Бюльбюля, которую он в свое время успешно закончил. Будучи известным композитором и наставником творческой молодежи, он всегда с огромной благодарностью и теплотой вспоминал своих школьных педагогов-первую учительницу Зивяр ханум Алиеву, Анну Яковлевну Горбачеву (теория и сольфеджио), композитора Митхата Ахмедова, преподававшему ему азы композиции, учительницу литературы Марию Георгиевну Савицкую, благодаря которой он приобщился к хорошей литературе и чтению. А вообще, Акшин муаллим был убежден, что человек должен учиться сам, искать, находить новые интересные, пока неизвестные ему произведения, изучать их и пополнять свой композиторский арсенал. Мне выпала честь предварять эту встречу вступительным словом о жизни и творчестве уважаемого мэтра, затем в исполнении учащихся школы прозвучали сочинения композитора. Завершилось все беседой Акшин муаллима с детьми, во время которой кто-то из них спросил его, а кем бы он стал, если бы вдруг не был композитором. Ни минуты не раздумывая, он ответил - садовником! И в этом был весь Акшин Алиевич, влюбленный в родную землю, ее природу и людей, в песни и легенды, воспевавший героев прошлого и настоящего, одним из которых был и легендарный партизан Мехти Гусейнзаде, его дядя, кумир по жизни! Любимым местом на земле считал дачу в апшеронском Шувялане, в звонкой тишине которой ему так хорошо работалось и творилось! Именно здесь из-под пера композитора вышла его Камерная симфония, принесшая ему успех и признание слушателей.

Говорят, что ничто в этой жизни не бывает случайно. Считается, что имя играет немаловажную роль в судьбе человека. Значение имени Акшин - сильный, смелый и, думаю, недаром это имя оказалось созвучным натуре композитора и получило подтверждение всей его последующей жизнью и творчеством.

Баку, Азербайджан.
23.12.2019

**Fəttah XALIQZADƏ**
Əməkdar incəsənət xadimi, AMK-nın professoru

## İGİD OĞLAN DAYISINA OXŞAYAR

(Aqşin Əlizadənin unudulmaz xatirəsini anarkən)

**I**

Ötən əsrin ikinci yarısında Azərbaycan bəstəkarlıq sənətinin qızıl dövrünü layiqincə davam etdirmək hər igidin işi deyildi. Lakin əminliklə demək olar ki, bu xoşbəxtlik Azərbaycanın xalq artisti, professor Aqşin Əlizadəyə tam mənada nəsib olmuşdur. Mən görkəmli bəstəkar, müəllim və gözəl insanla müəyyən ünsiyyət saxladığım üçün çox məmnunam. Tale belə gətirdi ki, əvvəlcə onun ailəsi barədə söhbətləri dinləmiş, sonra da adını eşitmişdim. Musiqisi ilə tanışlığım tələbəlik dövrünə təsadüf etmiş, onun bir əsərini – "Bayatılar" xor silsiləsini tədqiq etdikdən sonra, yəni yaşım əlliyə yaxınlaşanda onun özü ilə də şəxsi əlaqələrim quruldu. Bu səbəbdən əvvəlcə həmin münasibətlərin tarixçəsini yada salmaq istəyirəm.



***Soldan sağa: ön sırada - Tofiq Quliyev, Elmira Nəzirova, Süleyman Ələsgərov, Aqşin Əlizadə. Arxa sırada: Ramazan Xəlilov, əcnəbi qonaq, Vasif Adıgözəlov, əcnəbi qonaq, Arif Məlikov, Musa Mirzəyev***

Aqşin Əlizadənin sənət yollarında atdığı ilk uğurlu addımları onun böyük ustadları, görkəmli sənətkarlarımız Qara Qarayev və Cövdət Hacıyev tərəfindən qiymətləndirilmişdi. O zaman mən məktəbə yenicə qədəm qoymuş bir şagird kimi nə özünü görmüş, nə də musiqisini dinləmişdim.

"Altmışıncılar" kimi tanınan istedadlı gənclər sırasında A.Əlizadə hər bir yeni əsəri ilə özünü təsdiq edərkən, sevimli müəllimlərindən başqa, öz ata-anasına da baş ucalığı gətirirdi. Bəstələrindən qabaq sevimli valideynləri - Əliqulu və Bikəxanım Əlizadələr barədə çoxlu təriflər dinləmişəm. Anası Azərbaycan Tibb İnstitutunun dosenti, əfsanəvi Mixaylonun - Mehdi Hüseynzadənin doğma bacısı bizim ailə üzvlərinin müəllimi, sonra da həmkarı və məsləkdaşı olmuşdu.



***Aqşin Əlizadə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında***

Atam 1940-cı illərin sonunda bir cərrah və səhiyyə işçisi kimi İsmayıllı rayonuna gedəndə orada məhz Bikəxanım Əlizadəni əvəz etmişdi. İxtisasca pediatr-həkim olmuş anam isə şeir və ədəbiyyata dərin məhəbbət hissini ahıl çağlarına qədər unutmamışdı. O, muğam, təsnif və xalq mahnılarını dinləyəndə ilk növbədə sözlərin məna və gözəlliklərinə diqqət yetirər, onları yaddaşına həkk etdirməyə çalışardı. Eyni zamanda ciddi musiqi janrları, xüsusən milli bəstəkarlarımızın şah əsərləri barədə də müəyyən anlayışları var idi. Digər tərəfdən isə o, Aqşin müəllimin ata qohumu – İsfəndiyar adlı

əmisi oğlu ilə bir sinifdə oxumuşdu. İsfəndiyar məni ilk dəfə (təxminən otuz beş yaşımda olarkən) görsə də, sifət cizgilərimdən dərhal tanıya bilmişdi.

Ailəmizdə bəstəkarın əsl-nəcabətinə və ailəsinə qarşı münasibəti göstərən kiçik bir epizodu hələ də yaxşı xatırlayıram.

Günlərin bir günündə Televiziyada "Babək" baletinin fraqmentləri göstərilirdi. Mən maraq xatirinə anamdan xəbər aldım.

- Mama, bilirsən bu kimin musiqisidir?

- Hm, deyəsən Bikəxanımın oğlunundur.

Bir qədər düşünsəydi, sözsüz ki, müəllifin adını da tapa biləcəkdi. Lakin əvvəlcə anası gəldi gözünün önünə. Çünki, onun üçün istedadlı bəstəkar, xalq



***Aqşin Əlizadə oğlu və həmkarı Əli Əlizadə ilə***

artisti A.Əlizadə ilk növbədə sevimli müəlliminin oğlu idi. Mənə isə dosent Bikəxanım Əlizadəni başqa yöndən tanıtmışdılar - əvvəlcə xalqımızın qəhrəman oğlu M.Hüseynzadənin doğma bacısı, sonra da A.Əlizadənin anası kimi.

Bizim ailədə Bikəxanımın kiçik bacısı, ixtisasca həkim olmuş Suriyyə xanımı da yaxşı tanıyırdılar. Təxminən yarım əsr bundan qabaq Şüvəlanın aşağı bağlarında dincəlirdik. Əlizadələrin də bağları o ətrafda idi. Hərdən anamla böyük xalam axşamçağı Sura xalagilə qonaq gedərdilər.

Necə deyərlər, söz sözü çəkər. Anamın söylədiyi bir hadisəni də xatırlatmaq istəyirəm. 1958-ci ildə "Nizami" kinoteatrında "Azərbaycanfilm" studi-

yasının istehsalı olan "Uzaq sahillərdə" bədii filminin premyerası keçirilirdi. Həmin nümayiş bütün xalqımız tərəfindən sonsuz milli qürur mənbəyi kimi qarşılandısa, Bikəxanım və Suriyyə xanım üçün əzab-əziyyətlərə səbəb olmuşdu. Onlar filmin əvvəlindən axırına qədər özlərini hönkür-hönkür ağlamaqdan saxlaya bilməmişdilər. Lakin tezliklə müharibə meydanında şücaətlər göstərmiş igid partizanı sənət aləmində Aqşin əvəz etdi. Yaxşı deyiblər: igid oğlan dayısına çəkər.

Mən isə musiqini özümə bir peşə kimi seçəndə, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi olduğum vaxtdan (1973) bəstəkarın özünü də tez-tez görür, yaradıcılığını da maraqla izləyirdim. Lakin onun tədris etdiyi "Partitura oxunuşu"ndan digər bir gözəl bəstəkarın - İbrahim Məmmədovun sinfinə düşmüşdüm. Buna görə də Aqşin müəllimi kənardan görsəm də, ona heç bir tanışlıq verməmişdim. Aradan xeyli vaxt keçdi. Yalnız ötən əsrin sonunda *a capella* xoru üçün "Bayatılar"[5] silsiləsini tədqiq etdikdən sonra ona yanaşıb məqaləm barədə rəyini öyrənmək istədim və beləliklə də, münasibətlərimiz bir qədər yaxınlaşmış oldu.

**II**

***Bizi birləşdirən "BAYATILAR".*** Əsər bizim aramızda olmuş şəxsi münasibətlərimizi bir qədər də yaxınlaşdırdı. Məqalə üzərində işin əsas hissəsi onun nəşr olunduğu 1999-cu ilin yanvar və fevral aylarına təsadüf etmişdi. Lakin bu mənim əsərə ilk müraciətim deyildi. Təxminən iyirmi il qabaq, 1980-ci illərin başlarında böyük Sovet (Rusiya) musiqişünas-alimi professor V.Xolopovanın rəhbərliyi ilə xalq musiqisinin ritmikasını tədqiq edirdim. Ritmika o zamanlar nisbətən yeni və perspektivli olduğu qədər, həm də çətin və işlənilməmiş bir sahə idi. Elmi rəhbərim dəyərli məsləhətlərini heç vaxt öz tələbələrindən əsirgəməz və həmişə onları yeni ideyalarla təmin edərdi. Məsələn, teatr tamaşalarında səhnə hərəkətlərinin tempi, memarlıq binalarının mütənasibliyi, şeir sənətinin ahəngdarlığı, rəqslərin dinamikası və s. amillər də tədqiqatçının düşüncəsini qidalandıra bilərdi. Bundan başqa, bəstəkarların təfsirində xalq musiqisinin həmin ünsürü özünün maraqlı təzahürlərini tapır, musiqişünaslara müəyyən yol göstərirdi. Bu baxımdan, "Bayatılar"da bəstəkarın novator üslubu və ritmik tapıntıları da son dərəcə maraq oyadırdı. Bütün deyilənlərə baxmayaraq, əsərdə ritmik aspektin tədqiqi, görünür hələ tam yetişməmişdi və mən elmi işimdə xor əsərindən bəhs etmədim.

Xatirat (memuar) janrının hüdudlarından haşiyə çıxıb sırf elmi axtarışların məzmununu qısaca şərh etməli oluram. 1980-ci illərdə əsasən Rusiya

---

[5] F.Xalıqzadə. Aqşin Əlizadənin musiqisində ritmin ifadəliliyi və milli kökləri ("Bayatılar" xor silsiləsi əsasında). // Azərbaycan milli musiqisinin tədqiqi problemləri. IV buraxılış. Bakı. Elm, 1999, s. 166-185

alimləri V.Xolopova və M.Xarlapın musiqi ritmi nəzəriyyəsinə gətirdikləri yeni ideyalar Azərbaycan musiqişünasları qarşısında da məsul vəzifələr qoymuşdu. Bu sənətin metrik və ya bəhrli (Ü.Hacıbəyli) tipli zaman təşkili daxilində iki tarixi prinsip – modal (formul) və tonal (xanə və ya takt) ritmikası bir-birindən dəqiq şəkildə fərqləndirilməyə başladı. Azərbaycan xalq musiqisinə gəlincə, burada oyun havaları, mahnı, təsnif və rəng kimi yaxşı məlum olan janrlarda sözügedən ritmik prinsiplərin qovuşuq halda çıxış etməsi tezliklə aydın dərk olundu. Görkəmli musiqişünas-alim, sənətşünaslıq üzrə elmlər doktoru professor E.Babayev bu cəhəti dəqiq göstərmişdi. "Formulun (yəni, ritmik formulun - F.X.) özünəməxsus vurğuları olsa da, takt xəttinə asanlıqla uyuşur"[6]. Bu müddəa başqa bir deyimlə, "xanə içərisinə yazılan formul" (*"формула, вписанная в такт"*) şəklində də tez-tez ifadə olunurdu.

Aydındır ki, tarixən xanə (takt) prinsipindən meydana gəlmiş modal və ya formul prinsipinin saf nümunələri də mövcud idi və müxtəlif xalq musiqi mədəniyyətlərində öxünəməxsus formalarda təzahür edirdi. Belə bir məntiqi mülahizələrin doğruluğu Azərbaycan arxaik folklorunda müvafiq nümunələrin aşkar olunması ilə sübuta yetirildi. Həmin ritmik üslubla A.Əlizadənin öz intuisiyası vasitəsilə ortaya qoyduğu prinsiplər bir-birini çox gözəl tamamlayırdılar. Xanə içrə yazılmış formullar isə modal və tonal ritmika mərhələləri arasında qərar tutan keçid kimi dəyərləndirilmiş oldu.

Həqiqətən, "Bayatılar"ın ritmik cəhəti tədqiqatçılar qarşısında çətin vəzifələr qoyurdu. Əsərin sirlər aləmi əvvəlcə adekvat şəkildə qavranılmırdı. Belə ki, 1970-lərdə onun qarışıq və dəyişkən xanə ölçüləri xalq musiqisi üçün "elə bil az səciyyəvi"[7] görünürdü. Lakin növbəti onilliklərdə görkəmli tədqiqatçılar diqqəti "hələ aşkar edilməmiş daha qədim arxaik qatlara" çəkir[8] və ya "ulu rəqslərin, el nəğmələrinin ritm və avazlarının bərpa olunduğunu"[9] qeyd edirdilər. Təbii ki, əsərin izahatındakı bu irəliləyişlər problemin çözümünə yol göstərir, sözügedən arxaik janr və üslubların axtarışlarına sövq edirdi.

1999-cu ilin qış tətilləri zamanı yaranmış nisbətən asudə vaxtımdan istifadə edib yeni həvəslə (bəlkə də yenicə açılmış ikinci bir nəfəslə) həmin əsərin təhlillərinə başladım. Getdikcə əsər məni daha çox özünə cəlb edir və ruh yüksəkliyi gətirirdi. Nə isə, məqalənin qaralama variantını demək olar,

[6] E.Ə.Babayev. Şərq monodiyasının musiqi ritminin təkamülü ilə bağlı tarixi inkişaf mərhələləri. // Ənənəvi musiqimiz. Müşahidələr və mülahizələr. Bakı, Elm, 2000, 100 s. Bax: s. 57-99.

[7] «С.Агаева» 10 «Баяты» для хора А.Ализаде». Ученые записки Азгосконсерватории. 1975 № 1 (серия XIII), с. 65

[8] А.Тагизаде. Акшин Ализаде. Баку, Ишыг, 1986, с. 121

[9] Z.Dadaşzadə. Aqşin Əlizadə. Bakı, Şur, 1992, s. 7

bitirdim. Onun əsas təhlillərini açıqlaya bilən not misallarını kompüterdə yığmaq qayğıları isə nəşr olunma imkanından asılı idi. Xoş təsadüf üzündən elə həmin ilin payız aylarında gözəl tədqiqatçı, musiqişünaslığımızın cəfakeşi Ariz Abduləliyev "Azərbaycan milli musiqisinin tədqiqi problemləri"nin IV buraxılışını tərtib etməyə çalışırdı və yazımı həmin topluya daxil etdi. Çox keçmədən həmin layihə də baş tutdu və qaldı bir məsələ - təhlillər və onun nəticələri barədə müəllifin öz rəyini öyrənmək.

**III**

***İmtahan qarşısında.*** O zamanlar Aqşin müəllim Türkiyədə işləyirdi - bu, bəlkə də, məqalənin müstəqil yazılmasına müsbət təsir göstərmiş, yaradıcılıq niyyətimin sərbəst inkişafına imkan vermişdi. Lakin nəşr olunduqdan sonra məqaləni mütləq bəstəkara göstərmək lazım idi və bizim görüşümüz 2000-ci ilin yay aylarına, daha doğrusu avqust ayına təsadüf etdi. Aqşin müəllim Bakıya gələrkən adətən sanki yayın bürkülü havasından qurtulmaq üçün Şüvəlandakı bağlarına gedərdi. Mən həmin bağda heç vaxt olmamışdım. Bu dəfə üçün mənə bələdçilik edən qonşuluqda bağları olan kiçik xalam oldu. O zamana qədər yazdığım işlərin heç biri sənətkar üçün bu qədər yaxın deyildi. Buna görə də onun görüşünə getmək mənə bir imtahan kimi gəlirdi. Aqşin müəllim məni çox gülərüz və sevincək qarşıladı. Çay və qarpız süfrəsi arxasında maraqlı söhbətlər etdi. Yeri gəlmişkən, bəstəkarın həyat yoldaşı Qalina xanım, oğlanları Fuad, Əli, gəlini Gülnarə xanım (o, qızımın sinif rəhbəri olmuşdu) və ola bilsin, daha kimlərsə bağa toplaşmışdılar. Bəstəkarın rəyini tezliklə öyrənməyə nə qədər tələssəm də, təbii ki, məqaləni oxuyub rəy bildirmək təxirə salındı. Əvəzində çay süfrəsi ətrafında Aqşin müəllimin maraqlı söhbətlərini dinlədim... Bir səhvimi boynuma alıram. Belə görüşlərə gedərkən müsahibə götürməyə hazır olmalıydım. Doğrudur, o zamanlar mobil telefon hələ təzə-təzə çıxırdı, diktofon isə əsasən jurnalistlərin əlində olurdu. Hər halda söhbətin səs yazıları olsaydı indi mənim əlimdən tutar və bəstəkarın söhbətləri deyərdim ki, tarixi bir sənədə çevrilərdi. Lakin Aqşin müəllim elə həvəslə danışırdı ki, sözlərinin bütün təfərrüatını yada sala bilməsəm də, əsas məzmununu indiyə qədər yaxşı xatırlayıram. Ən başlıcası isə, o axşam müsahibimin döyüşkənlik, sənətkarlıq, vətəndaşlıq və s. keyfiyyətlərinin bilavasitə şahidi olurdum.

Döyüşkənliyini musiqisində də, insani simasında da açıq-aydın görə bildiyim üçün çox məmnunam. Bu igidliyi o, "savaş, döyüşkənlik və mübariz" sözlərilə dəfələrlə dilə gətirmiş, ən əsası isə əməlləri ilə təsdiq etmişdir. *"Biz (...) təhsildə xüsusi bir döyüşkən ovqata köklənmişdik"* - deyə Aqşin müəllim

Bülbül adına musiqi məktəbində oxuduğu illəri xatırlayırdı[10] "Bəstəkarlığa savaş kimi baxmışam və qəti qərara gəlmişəm ki, bu savaşda mütləq qalib gəlməliyəm". "Mübariz olmaq vacib şərtlərdəndir. Sənətkar üçün professionalizmdən əlavə döyüşkənlik də vacibdir[11].

A.Əlizadə dahi Üzeyir bəyin bədii və elmi yaradıcılığından, musiqi tarixində oynadığı rolundan ağız dolusu danışırdı. O, unudulmaz sənətkarın yaradıcılığını "əlçatmaz zirvə və əsl möcüzə hesab edirdi". Onun fikrincə, Üzeyir bəy Azərbaycan musiqi təfəkkürünün tamamilə dəyişmiş, onun inkişafında yeni bir dövr açmışdı.

Aqşin müəllim Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsini görkəmli bəstəkar, professor Cövdət Hacıyevin sinfində bitirmişdi. Müəllimi kimi A.Əlizadə də Azərbaycan simfoniyası sahəsində məhsuldar və səmərəli çalışmışdı. Lakin o, özünü digər ustadların da tələbəsi hesab etmiş, Q.Qarayev, Niyazi, F.Əmirov, S.Hacıbəyov və başqalarının partituralarından həmişə nələrisə əxz etməyə çalışmış, eyni zamanda fərdi üslubunu yaratmağa nail olmuşdur. Musiqişünas Leo Raaben müasir milli musiqimizin iki böyük qolunun Aqşin sənətində birləşdiyini gözəl sezə bilmişdir. "Aqşin Əlizadə Azərbaycanın ən böyük bəstəkarlarından biridir. Öz yaradıcılığında o, milli musiqinin bir tərəfdən Fikrət Əmirov, digər tərəfdən Qara Qarayevin başçılıq etdiyi iki qolunu özünəməxsus tərzdə qovuşdura bilmişdir"[12].

A.Əlizadə böyük müəllimlərinə qarşı dərin ehtiram və məhəbbət bəsləməklə yanaşı azərbaycançılıq ideyalarından çıxış edərək bəzən onların arasında olan sərin münasibətləri həll etməyə çalışırdı. Bu özü də cəsarət və mərdlik tələb edirdi. Belə söhbətlərdə döyüşkənlik və mübarizlik ruhu onun simasından da asanlıqla oxunurdu. Məncə, əfsanəvi qəhrəmanın bacısı oğlu dayısına çox oxşayırdı.

Bildiyimiz kimi, Aqşin müəllimin əsas ilham mənbəyini xalq musiqisi təşkil edirdi. O, uşaqlıqda aldığı ilk musiqi təəssüratları barədə də danışdı. Atası şəhərin adlı-sanlı adamlarından olan Əliqulu Əlizadə musiqini çox sevər, asudə vaxtlarında piano və qarmonda çalmaqla məşğul olardı. Bu sevgi və məhəbbət onun bəstəkar oğluna da keçmişdi. Gənc Aqşin muğamları, xalq mahnı və rəqslərini sadəcə kənardan dinləməz, bu gözəl nümunələri pianoda praktiki qaydada çalmaqdan böyük zövq alarmış. Demək

[10] Aqşin Əlizadə. Publisistik irs. Məqalələr. Müsahibələr. Tərtibçi-redaktor Lalə Hüseynova. Bakı, Avrasiya Press, 2012, s. 16
[11] Yenə orada. s. 29
[12] Aqşin Əlizadə. Publisistik irs. Məqalələr. Müsahibələr. Bakı, Avrasiya Press, 2012.

olar ki, o əsasən şəhər musiqi mədəniyyətinin yeni formalarını mənimsəmiş, özünün ifalarındakı təkrarsız versiyalar vasitəsilə musiqi qabiliyyətini daha da cilalamışdır.

Bəs görəsən, qədim və arxaik musiqi laylarını bəstəkar necə və harada kəşf etmişdi?. Axı, onun musiqi təlim-tərbiyəsi şəhər mühitində baş vermişdi. Onun folklor ekspedisiyalarında iştirak etməsi bizə bəlli deyil. Zənnimcə, bu məsələdə sevimli ifaçılıq məşğələlərindən başqa yaradıcılıq intuisiyasını da vurğulamaq lazımdır. İntuisiya - bəzən eyni bir predmetin diqqətlə izlənilməsi nəticəsində meydana gələn anlayış və təsəvvürlər kimi izah olunur. Yəni bir obyektin uzun-uzadı seyrinə dalsan, onun mahiyyətini də anlaya bilərsən. Zənnimcə, A.Əlizadə milli musiqi, şeir və sənət inciləri arasında bayatıların zəngin bədii dünyasına dalaraq onların arxaik aləminə də nüfuz etmiş, ritm və intonasiyalarını kəşf edə bilmişdir.

A.Əlizadə hamı kimi, sənət aləmində müşahidə edilən mənfi halları görür, lakin bir çoxlarından fərqli olaraq, cəsarət edib özünün etiraz səsini də ucaldırdı. O, bozumtul və istedadsız insanların irəliyə getməsi ilə heç cür barışa bilmirdi. Başqa iradları isə bayağı ifaçılıq hallarına yönəlmişdi. Məsələn, xalq sənətkarları xanəndə və sazəndələrin Kamera orkestrilə ifalarına qarşı qəti iradını bildirərdi. Doğrudur, bizim yeni musiqi mədəniyyətimiz, xüsusilə şan-



*Aqşin Əlizadə. Bakı. Şüvəlan, 2003-cü il*

şöhrətli milli bəstəkarlıq sənətimiz də klassik və xalq musiqi ənənələrinin sintezindən meydana gəlmişdir. Lakin söhbət yalnız üzvi sintezdən gedə bilər, müxtəlif mədəniyyətlərin eklektik tərzdə birləşməsindən yox.

Aqşin müəllim 2000-ci ilin payızına doğru Türkiyəyə qayıtmalı idi. Biz bir daha görüşdük (bu dəfə onun şəhər mənzilində). Məqaləni özü də, oğlanları da oxumuşdu. Müsbət rəylərini səmimi söhbətlərindən anlamaq olurdu. Bəstəkar mənə üzərində foto-şəkli olan konsert proqramını da əbəs yerə hədiyyə etmədi. Əlbəttə, bu məni sevindirməyə bilməzdi.

Xeyli vaxt keçmiş növbəti görüşümüz zamanı belə bir xəbər aldım: "Sənin məqalənin surətlərini çıxarıb musiqişünaslara və müəllimlərə təqdim edirəm".

***Kiçik bir Son söz əvəzi.*** Bu gün məqalənin nəşrindən düz iyirmi il keçir: elə yeni minillikdən də təxminən bir o qədər. A.Əlizadənin "Bayatılar"ında deyəsən, ritmin milli kökləri və ifadəliliyi məsələləri üstünlük təşkil etmişdi. Bu səylərim onun adında da öz əksini tapmışdı. Eyni zamanda bəstəkarın ənənələrə yaradıcı münasibətini müasir yazı texnikası kontekstində daha ətraflı öyrənmək olardı. O zaman ən köhnə ilə ən müasirin yoğrulmasından meydana gələn neofolklorizm təmayülü də öz aydın təzahürünü tapardı - deyə düşünürəm.

Bakı, Azərbaycan.
01.01.2019

**Наталья ДАДАШЕВА**
Доктор философии по искусствоведению

## ТАКИМ МЫ ЗАПОМНИЛИ ЕГО НАВСЕГДА
(вспоминая композитора Акшина Ализаде)

С именем и творчеством Акшина Ализаде мне впервые довелось вплотную соприкоснуться в 1976 году. Согласно учебному плану у нас, студентов второго курса историко-теоретического факультета консерватории, появился новый предмет – «инструментоведение и инструментовка». Преподавателем его в расписании значился композитор А.А. Ализаде. О новом предмете мы уже имели некоторое представление, так как в Музыкальном училище, которое я с отличием окончила годом раньше, основы инструментоведения были в числе изучаемых дисциплин. Но вот фамилию преподавателя – композитора Акшина Ализаде – довелось услышать впервые.

В середине сентября мы получили расписание занятий и вскоре были вызваны на предварительное собеседование с педагогом. Сразу



*Акшин Ализаде. 1966 г*

же после первой встречи с Акшином Алиевичем (именно так он просил его называть), стало ясно, что педагог он очень строгий и требовательный, что для музыковедов он ставит не менее «высокую планку», чем для студентов-композиторов.

Имея очень «скромную» информацию о его творчестве, направляюсь в библиотеку и прочитываю все имеющиеся о нем статьи и очерки (их тогда было не очень много). Оказывается, что за его плечами уже 15-летний творческий и педагогический стаж и что он является автором таких сочинений, как «Пастораль и Ашугская», «Сельская сюита», хоровой цикл «Баяты», а также двух симфоний. Что он лауреат премии Ленинского комсомола и Всесоюзного конкурса композиторов, и сам Кара Караев дал ему замечательную характеристику, цитата из которой приводится в статьях и рецензиях, посвященных его произведениям.



Пролетарии всех стран, соединяйтесь!

ПОЧЕТНАЯ ГРАМОТА

Награждается тов.Али-заде Агшин Аликулу оглы – секретарь правления Союза композиторов Азербайджана, лауреат Государственной премии Азербайджанской ССР, лауреат премии Ленинского комсомола республики за активное участие в проведении Дней литературы и искусства Украинской ССР в г.Кировабаде Азербайджанской ССР

Секретарь ГК КП Азербайджана Г.Гасанов

Председатель горисполкома С.Мамедов

октябрь 1979 года

г.Кировабад

Еще больше заинтересовавшись, иду в кабинет звукозаписи – и … здесь, прослушав несколько сочинений, навсегда попадаю под необыкновенное обаяние его музыкального мира, отмеченного яркой индивидуальностью. С тех пор встреча с каждым новым музыкальным опусом замечательного композитора становится для меня большой радостью и открытием.

А потом были интересные уроки, беседы, слушание му-

зыки, занятия, где мы, студенты, получали не только навыки инструментовки, но и постигали секреты оркестровки великих композиторов прошлого и настоящего, знакомились с новейшими партитурами, с особенностями современной техники композиторского письма.

Если студент или студентка с отдачей относились к предмету, Акшин Алиевич уделял ему больше внимания. Помимо узкой специфики урока он интересовался всем - из какой ты семьи?, что читаешь, что слушаешь, чем увлекаешься, какой видишь свою дальнейшую жизнь? Такая его заинтересованность порождала ответную положительную реакцию, сглаживала формальность взаимоотношений и способствовала дальнейшему, естественному раскрытию потенциала студента. Зачастую эти интересные уроки из индивидуальных плавно переходили в групповые или наоборот, и затягивались так, что «пропадала» следующая двухчасовка по иностранному языку или философии. Когда официальный курс занятий был завершен, многие из нас приходили в класс к Акшину Алиевичу и в последующие годы консерваторского обучения. И хотя его нельзя было назвать человеком слишком «открытым», легким в общении, с некоторыми из своих бывших студентов он имел впоследствии самые теплые, дружеские отношения.

В этом же, 1976 году, к премьере готовилось новое сочинение А.Ализаде - кантата «Азериляр». Зал Филармонии… Идет утренняя репетиция оркестра… Проникнув в это святое для всех музыкантов место, сижу, вжавшись в кресло в последнем ряду бельэтажа. Центральный вход в зал открыт, и ослепительный солнечный свет пробивается оттуда, ярким «прожекторным» лучом доходя до спины дирижера. За пультом - неподражаемый Ниязи. Подвластные пластичным движениям его незабываемых рук, звенят, искрятся и играют, соединившись с солнечным светом, мотивы третьей части кантаты «Голос Весны», бьются и пульсируют в своем стремительном восхождении энергичные возгласы финала…

Кантата «Азериляр» поразила меня тогда совершенно необычным, оригинальным музыкальном языком, совершенно не схожим с каким-либо другим композитором. Поразило и новое отношение автора к жанру кантаты, лаконичность высказывания, чуждая помпезности и высокопарного пафоса. Вскоре после премьеры сочинение получило высокое общественное признание и принесло композитору звание лауреата Государственной премии республики. Как одно из лучших произведений



***Слева направо: Ариф Меликов, Серафим Туликов (третий), Тофик Кулиев, Октай Зульфугаров, Акшин Ализаде***

подобного жанра, она ярко представляла творчество А. Ализаде в концертах V съезда композиторов Азербайджана и VI Всесоюзного Съезда в Москве, на котором мне, в числе еще нескольких студентов консерватории, довелось присутствовать. На республиканском съезде Акшин Алиевич был избран секретарем Союза композиторов Азербайджана, а на следующем, в 1985 году, - руководителем творческого Союза, его Первым секретарем.

Мне же, сразу после окончания консерватории, выпала честь быть принятой на работу в Союз композиторов, в организацию, где председателем был Кара Караев - уникальная личность, гениальный композитор и педагог, которого еще в студенческие годы я имела счастье видеть в стенах консерватории, присутствовать на его незабываемых уроках. Союз композиторов был эпицентром в музыкальной жизни республики, здесь впервые звучала новая азербайджанская музыка, велись «горячие» творческие дискуссии, проводились музыкальные фестивали, смотры. С тех пор общение с А.Ализаде проходило уже на «коллегиальном уровне» в стенах этой творческой организации, секретарем которой он стал в 1979 году.

Начало 80-х годов… Подходит к концу многолетняя работа над созданием балета «Бабек». Сам автор считал его главным трудом своей жизни. Уже готов предварительный сценарий, разработанный компози-



***Акшин Ализаде в Конго. 1984 г***

тором по трагедии И. Сельвинского «Орла на плече носящий», записан весь музыкальный материал, и балетмейстеры Рафига Ахундова и Максуд Мамедов приступают к сценическому воплощению давней мечты композитора. В ходе совместной с балетмейстерами работы нередко возникала необходимость в переработке музыкального материала, в перегруппировке уже написанных номеров и сочинении дополнительной, новой музыки. Напряженность, с которой работал композитор в последнее перед премьерой время, требовала поистине полной мобилизации всех душевных и творческих сил. Одна только переписка много атно меняющегося нотного материала занимала львиную долю времени. В то время еще не существовало аппаратов ксерокопирования, и Акшин Алиевич нередко доверял мне (поскольку у меня был аккуратный нотный почерк) переписку новых номеров балетной партитуры. Он очень ценил эту помощь, и впоследствии неоднократно с блгодарностью вспоминал об этом.

Премьера балета прошла в мае 1986 года. Май... Особый для композитора месяц. В этом месяце он родился, в этом же месяце покинул этот мир. Акшин Алиевич любил май. Именно в мае он переселялся на дачу в Шувелянах - самое дорогое, милое сердцу место на всей Земле. Здесь и только здесь, в уединении, в обстановке тишины и естествен-

ности родных пейзажей, он мог широко дышать, спокойно работать, создавать свою прекрасную музыку. Прожив несколько лет в Турции, невзирая на прекрасные условия, созданные там для педагогики и творчества, он спешит возвратиться в Баку. «Я уже дома», - эта фраза с оттенком облегчения выразительно прозвучала в одном из его интервью сразу после приезда. Именно здесь, на Апшероне, на даче в Шувелянах, на широком пленэре, где открываются необозримые перспективы вокруг и ввысь, он у самой природы черпал идеи для жизни и творчества.

В пестрой разноголосице азербайджанской музыки композитор сумел сотворить свой узнаваемый, яркий и неповторимый стиль. Вершинное воплощение его мы видим в балете «Бабек», кантате «Азериляр», в «Баятылар», в его симфониях. В симфониях композитора ведет за собой неисчерпаемый для музыкальных открытий и идей богатейший источник - азербайджанский мугам. Моделируя его импровизационную стихию, композитор демонстрирует «высший пилотаж» в построении крупной симфонической формы. Чутким и безошибочным интерпретатором симфоний (как, впрочем, и других произведений композитора) был маэстро Рауф Абдуллаев. Композитор с легкостью доверял ему свои партитуры, ибо знал, что найдет в лице дирижера (с которым дружил со школьной скамьи) самого лучшего интерпретаторы своих замыслов. «Свои симфонические сочинения я всегда писал с расчетом на то, что ими будет дирижировать Рауф Абдуллаев. Это тот дирижер, которого я всегда жду», - говорил А. Ализаде.

Требовательный к себе, не допускавший тиражирования уже найденных музыкальных идей, Акшин Ализаде сумел организовать свой творческий процесс таким образом, что мы не найдем в нем «перепевов» однажды услышанного. Приоткрывая тайны своей творческой лаборатории, он рассказывал: «Наверное, Бог подсказал мне, что нельзя работать подряд в одном и том же жанре, ибо в таком случае неизбежны повторения самого себя. Поэтому, закончив Камерную симфонию, я обратился к хоровой музыке и в дальнейшем продолжал подобные жанровые переключения».

Характерной чертой творческого облика Акшина Ализаде была неторопливость воплощения своих замыслов. Он никогда не гнался за количеством, не стремился писать много. На обдумывание замысла у него уходили месяцы, на воплощение – годы. Завершив произведение, композитор откладывал его в ящик письменного стола и на некоторое время



забывал о нем. Потом вновь доставал и, по прошествии времени, как бы заново оценивал, уже со стороны. И только в том случае, если его все удовлетворяло, партитура отдавалась для исполнения. К примеру, Третья симфония появилась через 16 лет после Второй, а над балетом «Бабек» композитор работал 17 лет. Более 20 лет отделяет «Бабек» от двух других балетов – «Путешествие на Кавказ» и «Вальс надежды». Это, однако, не означает, что все эти годы он молчал. Нет. Было написано немало сочинений, но более мелких форм и других жанров. Ответственность перед самим собой за каждую написанную ноту, такт, и в целом, партитуру, была в крайней степени присуща работе композитора. И, как следствие, можно констатировать тот факт, что среди произведений А. Ализаде мы не найдем ни одного, имеющего вторую редакцию. В пересмотре написанного не было необходимости и потребности. Ни это ли является высшим мерилом ответственности художника за свое творчество!

Чувство ответственного отношения к избранной специальности прививал он и своим студентам в Бакинской Музыкальной Академии, где полвека преподавал композиторам и музыковедам. Оно же двигало им на посту секретаря, а потом Первого секретаря Союза композиторов, возглавлявшего его в сложные, переломные 1985-1990-е годы.

И все же главным и любимым делом его жизни было сочинение музыки. Туда, в Шувеляны, в свой любимый уголок природы торопился он в любое время годы, чтобы, вновь прикоснувшись к клавишам рояля, погру-

зиться в тот мир, куда уводят творческие мечты. И так - изо дня в день, из года в год, беспрерывный обязательный труд, непрерывающаяся ни на мгновение работы мысли. «Композитор должен быть серьезным. Композитор — это рабочий, каменотес Фархад, - любил повторять А.Ализаде.

Когда готовилась к изданию книга, посвященная 70-летию композитора, ее составитель – музыковед Лала Гусейнова – предложила мне написать статью для этого сборника, на что я с удовольствием согласилась. Мощным импульсом для этой работы послужил авторский юбилейный концерт А.Ализаде в Филармонии, состоявшийся в марте 2007 года. Его программа, замечательно представленная Государственным симфоническим оркестром под управлением маэстро Р.Абдуллаева и Хоровой капеллой Азербайджана (художественный руководитель и дирижер Г.Иманова), еще раз предоставила возможность окунуться в музыкальный мир самобытного композитора, внутренним взором охватить весь его творческой путь. Так появилось «Маленькое эссе, рожденное большой музыкой», запечатлевшее как впечатления от юбилейного концерта, так и мои общие размышления о стиле и характере музыки А.Ализаде.



***На авторском концерте, посвященном 70-летию Акшина Ализаде. 2007 г. Слева направо: Ханлар Новрузов, Наиля Шафиева, Лейла Мамедова-Фараджева, Лала Гусейнова, Акшин Ализаде, Наталя Дадашова, Октай Зульфугаров, Нариман Мамедов***

Прошло немало времени … В один из прекрасных весенних дней раздался телефонный звонок, и Акшин Алиевич пригласил меня в назначенный день зайти к нему домой (в то время он уже болел и не выходил из дома). Дверь открыла супруга - Галина Анатольевна, любезно пригласившая пройти в его кабинет. Мы долго беседовали, он заинтересованно расспрашивал о работе, о коллегах, общих знакомых. И вдруг – «Ты помнишь свое эссе?.. Мне очень понравилось, как ты написала. Это – один из лучших очерков всего сборника. Ты не возражаешь, что я издал его отдельной брошюрой. Вот посмотри». И он вручил мне один из экземпляров, разложенных на журнальном столике. Перелистывая брошюру, я сразу заметила, что к моему тексту здесь добавлены еще и многочисленные фотографии, которых не было в начальном варианте. А это значит, что Акшин Алиевич сам, затратив немало времени, поработал над подготовкой к изданию – выбирал фотографии, сканировал их, располагал, находя им соответствующее тексту место… Факт этот тронул меня до глубины души, а расставаясь, я тогда и не предполагала, что это последняя встреча с ним. 3 мая 2014 года его не стало…

Высоко эрудированным, бескомпромиссным музыкантом, нетерпимым к фальши, халтуре, бесталанности – таким запомнился Акшин Ализаде нам, всем тем, кому долгие годы довелось общаться с этим неординарным человеком и большим композитором.

P.S.

Акшин Ализаде глубоко верил в будущее азербайджанской композиторской школы. Он говорил: «У азербайджанской культуры очень сильная композиторская платформа, которая создана нашими великими композиторами, и в первую очередь Узеиром Гаджибековым. Это главное. Мы единственное государство и единственный народ во всем восточном и исламском мире, чья композиторская школа находится на мировом уровне. Сегодня в Азербайджане есть как минимум 4–5 очень сильных композиторов. Я не могу перечислить их имена, это было бы неправильно. Главное, что они есть. Вы их всех знаете, слушаете их произведения. Их любят и в Азербайджане, и в бывших советских республиках, и во всем мире”[13].

Баку, Азербайджан.
05.05.2019

[13] URL:https://www.trend.az/life/interview/2270258.html?fbclid=IwAR1-RikMDgYYiiAkHh9pEbyJ6T8_OU2y0nI5VLuhvkh1yaaXmNXAmZ4pXPk

**Lalə HÜSEYNOVA**
Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə fəlsəfə
doktoru, professor

## AQŞİN ƏLİZADƏ - SƏNƏT YOLUMUZU NURLANDIRMIŞ BÖYÜK BƏSTƏKAR VƏ ŞƏXSİYYƏT

İnsanın həyatında elə anlar, şəxsiyyətlər olur ki, onun ömür yoluna, bu yolun axarına gur işıq tək daxil olur, sözün əsl mənasında taleyüklü bir hadisəyə çevrilir. Mənim nəslimin bir sıra nümayəndələrinin - musiqişünas və bəstəkarların, habelə şəxsən mənim həyat və peşəkar yolumda belə insanlardan biri Aqşin Əlizadə olub.

Aqşin müəllimlə ilk görüşümüz 1981-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında oxuyan zaman baş verdi. O, Bəstəkarlıq kafedrasında alətşünaslıq fənnindən dərs deyirdi və biz, II kurs musiqişünas-tələbələr onun sinfinə düşmüşdük. Yaxşı xatırlayıram ki, Aqşin müəllimin ilk dərsinə bizdən asılı olmayan səbəbdən gecikmişdik və sinfə daxil olarkən müəllimin son dərəcə sərt reaksiyası ilə qarşılaşdıq: son sözü isə bu oldu ki, növbəti dərsə gəlmək üçün dekanlıqdan icazə almaq lazımdır. Çox pərt olduq, axı kiçik qrupumuzun (5 nəfər) əksər tələbələri əlaçı idi və belə münasibətə heç alışmamışdıq. Dərsdən qovulmuş əlaçı tələbə necə olar? Göz yaşı da axdı, bundan sonra necə olacaq? – suallarına tələşlı cavab axtarışları da oldu. Növbəti dərsə ürkə-ürkə getdik və....qarşımızda tamamilə yeni bir insan canlandı. Aqşin müəllim, sanki öz əvvəlki münasibətindən peşman olmuş kimi dərsi elə səmimi, qayğıkeş bir tərzdə apardı ki, hamımızın ürəyini ələ aldı. İlk qəzəbinin səbəbini isə o bizə təxminən belə anlatdı: “İstəyim odur ki, yaxşı mütəxəssis, musiqişünas olasınız. Konservatoriyanı yalnız diplom xatirinə bitirməyəsiniz. Sizin kimi tələbələrə dərs keçirəm, sonra isə bütün səylərim boşa gedir. Ailə qurub sənətinizi unudursunuz”. Beləcə, böyük bəstəkar və müəllim olan Aqşin Əlizadə ilə mehriban ünsiyyətimiz yarandı.

Aqşin müəllimin dərsləri ancaq fənnimizin mövzusu ilə məhdudlaşmırdı. O, ən müxtəlif incəsənət sahələri ilə bağlı məsələlərə toxunurdu, bizdən də yaxşı erudisiya tələb edirdi. Ümumiyyətlə, o dövrdə musiqiçi tələbələrin geniş dünyagörüşünə malik olmasına xüsusi fikir verilirdi. Bu ənənə konservatoriyada çoxdan yaranmışdı, çünki vaxtilə rektor işləmiş Qara Qarayev, Cövdət Hacıyev belə məsələlərə böyük önəm verirdilər. Buna görə hətta konser-

vatoriyaya qəbul imtahanları sırasında ayrıca kollokvium imtahanı da var idi. Bu imtahanda məhz tələbənin dünyagörüşü səviyyəsi yoxlanılırdı. Nəinki musiqi, habelə teatr, ədəbiyyat, rəssamlıq, memarlıq, heykəltəraşlıqla bağlı suallar da verilirdi və bu imtahana abituriyentlər çox ciddi hazırlaşırdı. Aqşin müəllim də dərsdə bəzən bizə bu sayaq "kollokvium sualları" verərdi. Məsələn, yadımdadır ki, bir dəfə dərsdə qəfildən soruşdu ki, bilirsiniz Roden kimdir? Bilən də oldu, bilməyən də... O vaxtdan, bu dahi heykəltəraşın adı heç yadımdan çıxmır və hər dəfə Ogüst Rodenin adı gələndə Aqşin müəllimi xatırlayıram. Son illərdə isə bir gözəl mədəniyyət hadisəsi ilə bağlı Parisdə səfərdə olarkən yaxın rəfiqəm və tələbə dostum Zümrüd Dadaşzadə ilə Rodenin ev-muzeyinə getmək də qismət oldu və yenə Aqşin müəllimin o sualı qulağımda səsləndi...

Alətşünaslıq dərsimiz iki il çəkdi və biz Aqşin Əlizadəyə həm müəllim, həm də öz dəst-xətti olan bir bəstəkar və gözəl insan kimi çox böyük ehtiram bəsləyirdik. Xatırlayıram, bir dəfə dərs zamanı müəllimimiz bizdən soruşdu ki, kimin yaxşı xətti var, partituralarımın bəzi hissələrini qaralamadan ağlamaya



***Soldan sağa: Eldar Mansurov, Firəngiz Əlizadə, Aqşin Əlizadə, Ramiz Zöhrabov, Natalya Dadaşova, Lalə Hüseynova. Arxa sırada: İltifat Hacıxanoğlu, Ülviyyə İmanova. Azərbaycan Bəstəkarlar İttifaqının binasının təmir və yenidənqurmadan sonra açılışında. Bakı, 2009-cu il***

köçürmək lazımdır, bu işlə peşəkar məşğul olan köçürməçilər (onları adətən rusca "*переписчик*" adlandırırdılar ) mənim qeydlərimi bəzən başa düşmürlər. Düşünmədən dedim ki, bunu edə bilərəm. Müəllimin mənə köçürməyə verdiyi partitura "Babək" baletindən bir fraqment idi. İş kifayət qədər çətin olsa da, öhdəsindən gələ bildim və lazım olan vaxta çatdırdım. Özüm isə hələ ifa olunmamış "Babək" baletinin bir parçası ilə tanış olmaq fürsəti qazandım. Sonralar da beləcə, bəstəkarın bir neçə tamamilə yeni əsərinin əlyazmasını ilk görənlər sırasında oldum.

Əgər partitura köçürmək tapşırığının Aqşin müəllimin bizə keçdiyi "orkestrləşdirmə" dərsinə müəyyən aidiyyəti var idisə, onun hələ tələbə ikən mənə verdiyi digər bir tapşırığını vaxtında yerinə yetirsəm də, göstərməyə uzun müddət ürək eləmədim. Aqşin müəllimi televiziyada musiqinin aktual məsələləri, dinləyici zövqü ilə bağlı bir verilişə dəvət etmişdilər və o, bu barədə dərsdə bizimlə bölüşən zaman birdən dedi ki, bu haqda sənin də fikrini bilmək istərdim, bir məqalə yaz, görək gənc musiqişünas nə fikirləşir. Yazmağına yazdım, amma uzun müddət onu Aqşin müəllimə göstərməyə cəsarətim çatmadı. Bir gün özü söhbət açdı və soruşdu ki, nə oldu o məqalə? Mən də



***Soldan sağa: Fərəh Əliyeva, Lalə Hüseynova, Aqşin Əlizadə, Xanlar Novruzov bəstəkarın 60 illik yubileyində. 1997-ci il***

məcbur olub elə hey çantamda özümlə gəzdirdiyim əlyazmanı ona verdim və həyəcanla Aqşin müəllimin fikrini gözləməyə başladım. Şükür ki, məqaləm xoşuna gəlmişdi və bu, mənim bir musiqişünas kimi görkəmli bəstəkar Aqşin Əlizadənin qarşısında sanki peşə imtahanından layiqli tərzdə çıxmağıma bir sübut idi.

İki il müddəti başa çatdıqdan sonra da müəllimimizlə əlaqə kəsilmirdi, çünki konsertlərdə görüşür və ya sinfinə gəlir, maraqlı söhbətlərimiz davam edirdi. O, yaxşı tələbələrini itirmək istəmirdi və hər dəfə deyirdi ki, "qızlar, itməyin, sənətinizi atmayın, işinizdə fəal olun".

Aqşin müəllimi bir şəxsiyyət kimi tanıdıqca, onun yaradıcılığını sanki daha aydın başa düşürdüm. Musiqisindəki saflıq, şəffaflıq, qəribə bir hüzur hissi, kədər qarışıq nisgil, eyni zamanda "Babək" baletində qabarıq özünü göstərən güclü iradə və əqidə - bütün bunlar onun öz dolğun və bütöv təbiətindən, şəxsiyyətindən irəli gəlirdi. Bəstəkarın 3-cü və 4-cü simfoniyalarının premyerası isə bizim tələbəlik illərinə təsadüf etmişdi. Bu əsərlərdə artıq başqa əhval-ruhiyyə hökm sürürdü, gərginlik və hətta deyərdim, müəyyən bir bədbinlik. Aqşin müəllim III Simfoniyada şər mühitini rəqslə təsvir etmişdi: möhkəm təşkilatlanmış şər qüvvələr cəmiyyətə



***Soldan sağa: Gülşən Ənnağıyeva, Nazim Mirişli, Aqşin Əlizadə, Sərdar Fərəcov, Fərəh Əliyeva***

hökmran kəsilib şıdırğı rəqsdə sanki ekstaza girir və sonda.... qalib gəlirlər. Özü deyirdi ki, Azərbaycan musiqisində ilk dəfə milli rəqsi şər qüvvənin təzahürü kimi vermişəm (*«я написал злой танец»*). Bu tərz bədbin düşüncələrin səbəbini özündən soruşanda cavab vermişdi ki, "Siz hələ bilmirsiz ki, bizi necə ağır zamanlar gözləyir...mən bunu aydın hiss edirəm". Bu sözlər o vaxt mənə elə qəribə gəldi ki, hafizəmə həmişəlik kəsildi. İllər sonra isə xalqımızın, cəmiyyətimiz başına gələnlər Aqşin müəllimin sənətkar hissiyyatının necə də güclü olduğunu əyani şəkildə göstərmiş oldu...

A.Əlizadəni bir şəxsiyyət kimi gözümüzdə ucaldan əsas keyfiyyət o idi ki, həm həyatda, həm də yaradıcılıqda eyni adam idi, yəni, şəxsiyyəti və əməlləri yaradıcılığı ilə üzvi vəhdət təşkil edirdi. Bu zaman bir deyim də yadıma düşür: igid oğul dayısına oxşayar. Aqşin müəllim qəhrəman dayısı Mehdi Hüseynzadənin ruhunu sanki özündə və musiqisində yaşadırdı. Prinsipial və əqidəli idi, nadürüst, istedadsız və sənətə dolayı yolla gəlmək istəyənlərə qarşı amansız ola bilərdi. Buna görə də başı çox ağrımışdı...

İş belə gətirdi ki, Aqşin müəllim 1979-1985-ci illərdə Bəstəkarlar İttifaqının katibi oldu və bu dövr də bizim tələbəlik illərinə təsadüf etdi. Xatırlayıram, o zaman biz tələbələr hətta Aqşin müəllimin tövsiyəsi ilə İttifaqa, yeni əsərlərin dinləmələrinə gedirdik. Bununla da o bizi İttifaqın işinə yaxından cəlb etmək, sənətimizə həvəsləndirmək istəyirdi.



***Lalə Hüseynova, Ramiz Quliyev və başqaları Aqşin Əlizadənin 70 illik yubileyində. 2007-ci il***




*Lalə Hüseynovanın tərtibçi-redaktoru olduğu Aqşin Əlizadə haqqında kitab*

Aqşin müəllimi gənclərin taleyi çox maraqlandırırdı, istər bəstəkar olsun, istərsə də musiqişünas və ya ifaçı. Hələ 5-ci kursda oxuyan zaman, 1985-ci ilin fevral ayında Azərbaycan Bəstəkarlar İttifaqına yenicə sədr seçilmiş A.Əlizadə məni öz yanına işə dəvət etdi. Yaxşı xatırlayıram, axşam vaxtı bəstəkarın vəfalı ömür-gün yoldaşı Qalina xanım evimizə zəng etdi və sabah İttifaqa, Aqşin müəllimin yanına getməli olduğumu bildirdi. Təbii ki, bu xəbər məni çox həyəcanlandırmışdı. Aqşin müəllim iş başında savadlı kadrları görmək istəyirdi və bu məsələdə onun üçün başqa meyar yox idi. Tanışlıq və qohumluq əlaqələri işə keçmirdi. Mənim üçün isə bu təklif çox gözlənilməz və təbii ki, şərəfli oldu. Aqşin müəllim mənə təklif etdi ki, İttifaqda öz komandamı yaradım və kiminlə işləmək istədiyimi soruşdu. Beləcə, mənimlə bir kursda oxuyan istedadlı həmkarlarım – Zümrüd Dadaşzadə və Xanlar Məlikovla birgə işə başladıq. Daha sonra bu siyahı genişləndi və həyat göstərdi ki, Aqşin müəllim seçdiyi kadrlarında yanılmamışdı.

Aqşin müəllimin İttifaqa sədrliyi dövrü 1985-90-cı illəri əhatə etdi və o illər çox maraqlı və unudulmaz məqamlarla yadda qaldı. Festivallar, görüşlər, yeni əsərlərin ifası bir-birini əvəz edirdi. Mənim və digər həmkarlarımın musiqişünas kimi yetişməyimdə isə həmin dövrün həlledici rolu oldu. Çünki biz nəinki Bəstəkarlar İttifaqının gündəlik işlərini görürdük, eyni zamanda çox fəal surətdə yaradıcılıqla məşğul olurduq: daim qəzet və jurnallara yazılar yazır, konsertlərə ön söz deyir, televiziya və radioda çıxışlar edirdik. Mənim



***Azərbaycan Bəstəkarlar İttifaqında Aqşin Əlizadəyə həsr edilmiş elmi konfrans və konsert. 04.05.2015-ci il. Soldan sağa: Lalə Hüseynova, Zümrüd Dadaşzadə, Qalina Əlizadə, Leyla Məmmədova-Fərəcova, Lalə Darvin, Arzu Məmmədova, Maya Qafarova, Şeyla Heydərova***

isə hər yeni tapşırığa müəyyən tərəddüdlə yanaşdığımı görəndə biləərəkdən, – bunu məhz sən yazacaqsan və ya bu verilişi sən aparacaqsan,- deyirdi.

Yadımdadır, Bakıda Zaqafqaziya Respublikaları gənc bəstəkarlarının növbəti Festivalı keçirilmişdi. Tədbir başa çatandan sonra Aqşin müəllimin kabinetinə yığışıb onun necə keçdiyini müzakirə edirdik. Festival haqqında "*Sovetskaya muzıka*" jurnalına resenziya yazmaq məsələsi gündəmə gəldi. Masada əyləşdiyim yerdə böyük bir stolüstü lampa var idi və mən də sanki onun arxasından boylanırdım. Aqşin müəllim birdən dedi ki, elə bilirsən lampanın arxasında gizlənmisən, səni görmürəm? Məqaləni Lalə yazacaq. Beləcə, növbəti tərəddüdə yer qalmadı və təbii ki, resenziyanı da yazmalı oldum.

Aqşin müəllim bizə çox inanırdı, musiqi həyatında müəyyən mövqe tutmaq əzmini, öz sözümüzü demək və bu zaman cəsarətli olmağı təlqin edirdi. Mən indi də tam əminəm ki, o zaman müəllimimizin bizlərə bu tərz münasibəti və inamı olmasaydı, kim bilir, şəxsən mənim peşəkar həyat yolum hansı səmtə üz tutacaqdı. Çünki musiqişünaslığın ən müxtəlif vacib istiqamətlərinə, o cümlədən, tətbiqi musiqişünaslığa bizi yönəldən, televiziya məkanına daxil edən də Aqşin müəllim oldu. Gənc ikən aparıcılarından biri olduğum "Xaqani, 27. Azərbaycan Bəstəkarlar İttifaqının zalından" verilişi bu sahədəki fəaliyyətimin ilk böyük layihəsi idi.



***Azərbaycan Milli Konservatoriyasında Aqşin Əlizadənin anadan olmasının 80 illiyinə həsr edilmiş elmi-praktiki konfrans. Soldan sağa: Zəhra Qarayeva, Lalə Hüseynova, Qalina Əlizadə, Leyla Məmmədova-Fərəcova, Fəttah Xalıqzadə, Aybəniz Növrəsli, Arslan Növərsli. Arxa sırada: Fərdin Məmmədli, Gülnarə Manafova, Fazilə Nəbiyeva və AMK-nın tələbələri. 03.05.2017-ci il***

Deyirlər ki, həyatda heç bir olay təsadüfən baş vermir. İllər keçdikcə ən ağlasığmaz təsadüflərin izahını anlayıb hər şeyin uca Tanrının hökmü ilə baş tutmasına bir daha əmin olursan. Aqşin müəllimin vəfatı zamanı mən bu həqiqəti, sanki bir daha dərk etdim. Onun məzar yeri təsadüfi ola bilməzdi: Aqşin müəllim yaxın əhatəsinə hər kəsi buraxmazdı. O, sevdiyi insanlara, hər zaman böyük ehtiramla yad etdiyi ana-atasına son dərəcə bağlı insan idi. Müsahibələrinin birində demişdi ki, "əgər iki azərbaycanlı seçsəydiniz ki, onlar nümunə olub xalqı təmsil etsinlər, mən ata-anamı deyərdim". Əlbəttə, çox insanlar öz valideynlərinin yanında dəfn edilmək istəyini dilə gətirir, vəsiyyət edir, lakin xalqımızın görkəmli şəxsiyyətlərinin son mənzili olan Fəxri Xiyabanda bu, təbii ki, mümkünsüzdür. Lakin, Aqşin Əlizadənin yanındakı məzarların birində görkəmli qadın xanəndəmiz Sara Qədimovanın adını görəndə, açığı sarsıldım. Axı bəstəkarın gənc ikən anasına həsr etdiyi mahnısının ilk ifaçısı məhz Sara xanım olmuşdu, onun səsində indi də bu övlad sevgisi, sayğısı yaşayır... Belə təsadüf ola bilərmi? Çətin. İnanmıram. Deməli, Aqşin müəllim yenə də əzizlərinin, onu sevənlərin əhatəsindədir. Buna qətiyyən şübhə etmirəm. Ruhun şad olsun, əziz Aqşin müəllim!

Bakı, Azərbaycan.
15.04.2024

**Zümrüd AXUNDOVA-DADAŞZADƏ**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Əməkdar incəsənət xadimi, professor

## "İSTƏRDİM XƏZƏRİN SAHİLLƏRİNDƏ OLUM..."

*(Aqşin Əlizadənin əziz xatirəsinə ithaf)*

Aqşin Əlizadə... Bu ad qırmızı xətlə mənim həyatımdan – araşdırma və məruzələrimdən keçir və burada bir sıra "ilklər" də var. Konservatoriyanı bitirərkən təqdim etdiyim diplom işi – bəstəkarın Üçüncü simfoniyası, ilk iri məqalələrim, ilk kitabçam (Bakı: Şur, 1992), simfonizmə dair dissertasiyam (1997) və onun əsasında işıq üzü görmüş kitabımın ən önəmli hissələri (2012; burda Üçüncü və Dördüncü simfoniyalar müfəssəl təhlil olunub) və, nəhayət, "Azərbaycan musiqi tarixi" beşcildliyinin IV cildində Aqşin Əlizadə yaradıcılığına həsr olunmuş geniş oçerk (2019).

Aqşin Əlizadənin adını ilk dəfə kiçik ikən evimizdə - atam Araz Dadaşzadənin dostu Xəyyam Mirzəzadədən eşitdim. Qardaşımın adı da Aqşin idi – söhbət diqqətimi çəkdi. Əlbəttə, təfərrüatları xatırlamağa çətinlik çəkirəm, amma Xəyyam müəllimin öz həmkarı haqqında xoş sözlər deməsi, onun əsərləri barədə həvəslə danışması yadımdadır.

Ara-sıra A.Əlizadənin musiqisini kinofilmlərdə eşidirdim, əsərlərinin adlarını da bilirdim, amma bu, səthi informasiya idi və həmin informasiya arxasında konkret məzmun durmurdu.

Aqşin Əlizadə ilə bir müəllim kimi görüşümüz 1981-ci ildə, konservatoriyanın ikinci kursunda baş tutdu: o, alətləşdirmə fənnindən bizə, musiqişünaslara dərs deyirdi. Əvvəl-əvvəl Aqşin müəllimdən çəkinirdik – sərt idi, hətta bir az qaraqabaq, ciddi nizam-intizam tələb edirdi. Qəfil sualı ilə naşı tələbəni çaşdıra, utandıra bilərdi. Bir dəfə dərsə gecikdiyimiz üçün (başqa müəllim yubandırmışdı) bizi möhkəmcə tənbeh etmişdi, az qala ağlamaq dərəcəsinə çatdırmışdı. Amma tədricən münasibətlərimiz mülayimləşdi, kursun sonunda gərginlikdən əsər-əlamət belə qalmadı.

Müəllimimiz orkestrin quruluşu haqqında yığcam məlumat verdikdən sonra, konkret - qısa, lakonik – göstərişlərlə məhdudlaşırdı. Bizi fəal olmağa, müntəzəm mütaliə etməyə, sərbəst çalışmağa səsləyirdi.

Bir növ deyirdi: özünüz axtarışlar aparın, musiqini dinləyin, mövcud ədəbiyyatı araşdırın. Mən isə ancaq bəzi məsləhətlər verəcəyəm – ehtiyac yaranarsa. Biz də müəllimin təklif etdiyi qısa fortepiano pyeslərini, prelüdləri rəngarəng orkestr "qiyafəsinə" salmağa çalışırdıq.

Aqşin müəllimin bir çağırışı da yadımdadır: "Gedin kitabxanaya, Leyla xanımın yanına. Orda öyrəniləsi, kəşf ediləsi nə qədər şey var!" Leyla xanım konservatoriya kitabxanasının müdiri idi. Soyadı Usmiyeva olan bu xanım məşhur nəslin – Xasay xan Usmiyev Xurşidbanu Natəvanın həyat yoldaşı olmuşdu - təmsilçisi idi. Zəhmi ilə seçilirdi. Geyim tərzi də məxsusi - paltosundakı xəz boyunluq onun görkəminə əcaiblik, "qədimlik" gətirirdi. Biz ondan – açığını deyim – çəkinirdik, hətta qorxurduq. Kimsəni bəyənməsə, o adamın aqibəti acınacaqlı ola bilərdi. Amma biz ehmallı olmağa, nəzakətlə davranmağa çalışırdıq, çünki gecə-gündüzümüzü kitabxanada keçirdiyimiz üçün Leyla xanımın xoş münasibəti çox önəmli idi. Sonralar bildim ki, Aqşin müəllim Xan qızı Natəvanın həyatına dair material toplayır, onun obrazını balet səhnəsində canlandırmaq barədə düşünür və o səbəbdən də Leyla xanımla vaxtaşırı görüşüb söhbətləşir[14].

Aqşin müəllim elə təhsil illərində bizi çağdaş musiqi ilə tanış etməyə çalışırdı. Heç yadımdan çıxmaz: 1981-ci ilin noyabrı idi gərək ki. Bəstəkarlar İttifaqında gənc moskvalı müəlliflərlə görüş keçirilirdi. Aqşin müəllim bizi o görüşlərdə iştirak etməyə təşviq etdi. Necə də heyrətamiz səslər aləmi açıldı qarşımızda! Bütün müəlliflər yadımda deyil, amma ikisini dəqiq xatırlayıram: Sergey Berinski və Nikolay Korndorf. Korndorfun piano üçün "Yarilo"su öz arxaik obrazı və məxsusi musiqi dili (sonradan bildim ki, bu müəllif minimalizm texnikası məcrasında çalışır) ilə hamını ovsunlamışdı. Yadımdadır ki, moskvalılar auditoriyanı polemikaya, tənqidi qeydləri çəkinmədən, açıq şəkildə bildirməyə səsləyirdilər. Biz də, tələbələr, o fikir mübadiləsini izləyərək, tamamilə yeni emosiyalar yaşayır, təəccüblənir, valeh olur, və, əlbəttə, dərs alır, öyrənirdik.

Konservatoriyanın 3-cü kursunda buraxılış işi üçün mövzu seçmək lazım idi. Heç də asan olmadı o seçim. Tərəddüd edirdim. Aqşin Əlizadənin kino ilə bağlı yaradıcılığı haqqında düşünürdüm. Məhz kinomusiqiyə üz tutmağımın səbəblərindən biri elmi rəhbərim Nailə Mehdiyevanın araşdırdığı mövzu ilə birbaşa əlaqədar idi: onun Qara Qarayevin kino musiqisinə həsr olunmuş tədqiqatı ilə həvəslə tanış olmuşdum. Kinoya sevgim də hədsiz idi. Bir gün Nailə xanım mənimlə bahəm mövzuya dair məsləhətləşmək məqsədilə musiqi elmimizin ustadı – İzabella Vladimirovna Abezqauza yaxınlaşdı. Sənətdə meyarları çox yüksək olan, tanınmış müəllifləri belə bəyənməyən İ.Abezqauz

---

[14] A.Əlizadə öz arzusunu illər sonra gerçəkləşdirə bildi. 2002-ci ildə librettosu Aleksandr Dümanın "Qafqaza səyahət" əsərinin (burada Düma Natəvanla görüşünü də təsvir edir) motivləri əsasında yazılmış eyniadlı balet (xoreoqraf Tamilla Şirəliyeva) Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının səhnəsində tamaşaya qoyuldu.



***Soldan sağa: Aqşin Əlizadə, əfqan bəstəkarı Hafizulla Xəyal, tacik bəstəkarı Şodmon Pulodi, onun xanımı, Xanlar Novruzov, Zümrüd Dadaşzadə, Ramiz Quliyev. Bakı, Xalça Muzeyi. İyul, 1987-ci il***

Aqşin müəllimin yaradıcılığına yüksək dəyər verirdi, onu Üzeyir Hacıbəyli ənənələrinin davamçısı kimi nəzərdən keçirirdi[15]. O, bir neçə başqa mövzu da (məsələn, “Azərbaycan musiqisində valsvarılıq”) təklif edib, Aqşin Əlizadəyə müraciətimizi dəstəklədi.

Sonra müəyyən problemlər üzə çıxdı. Bəlli oldu ki, kino üçün yazılmış musiqinin partituraları onların ifa olunub yazıya alındığı Moskvadadır. Mən qış tətilində Moskvaya səfər edib, o, notları əldə etməyə cəhd göstərsəm də, alınmadı. Amma “Aqşin Əlizadə” mövzusu gündəmdə qalmaqda idi.

1984-cü ilin martı idi gərək ki. O zaman Konservatoriyanın Böyük zalında əlamətdar bir hadisə baş verdi: A.Əlizadənin Üçüncü simfoniyası ilk dəfə ifa olundu. Aqşin müəllimin hər bir əsərinin premyerasını mütəxəssislər səbirsizliklə gözləyirdilər. Bu opusa maraq isə həm də ondan irəli gəlirdi ki, bəstəkarın ilk həqiqi uğuru, Aranovskinin “Simfonik axtarışlar” kitabında da yer almış İkinci Kamera simfoniyası (1966) ilə yeni əsəri təxminən 16 illik məsafə bir-birindən ayırırdı. Janrın ənənəvi yozumundan uzaq bu simfoniya, açığını deyim, birmənalı qəbul edilmədi. O zaman bəzi həmkarlarının nəza-

[15] Konservatoriyada uzun illər nəzəri fənləri, o cümlədən “Musiqi əsərlərinin analizi”ni parlaq tədris edən bəstəkar və musiqişünas Süzanna Fyodorovna Şeyn də Aqşin Əlizadə yaradıcılığına diqqət yetirirdi. Yadımdadır, Üçüncü simfoniya üzərində araşdırma apararkən mən S.Şeyndən əsərin quruluş özəlliklərinə dair konsultasiya aldım və onun partituraya maraq göstərdiyini gördüm, Aqşin müəllimin digər əsərlərinə yaxşı bələd olduğunu da yəqin etdim.



***Bakıda Xalça Muzeyində əfqan bəstəkarı Hafizulla Xəyal ilə görüş. İyul, 1987-ci il. Soldan sağa: Aqşin Əlizadə, tacik bəstəkarı Şodmon Pulodinin xanımı, Hafizulla Xəyal, tacik bəstəkarı Şodmon Pulodi, Zümrüd Dadaşzadə və başqaları***

kətli, amma soyuq – üzdə riyakar təbəssümlə - təbrikləri A.Əlizadəyə ağır təsir bağışlamışdı. Onun bir ifadəsini - sonralar həmin laqeydliyi öz təcrübəmdə də müşahidə etdiyim üçün - tez-tez xatırlayırdım: “sanki səni görməməzliyə vururlar” (rusca: «*словно тебя и не замечают*»)...

Əsər məni çağdaş dövrün təcəssüm müxtəlifliyi ilə fərqlənən simfoniyaları haqqında düşüncələrə sövq etdi. Elə həmin dönəmdə Mark Aranovskinin artıq xatırladığım “Simfonik axtarışlar” adlı fundamental tədqiqatı əlimə keçmişdi. Alim müasir simfoniyanın səciyyəvi əlamətlərini üzə çıxarıb tədqiqə məruz qoyaraq, öz fərqli təhlil metodunu – simfoniya İnsan konsepsiyasının təcəssümü kimi - təklif etmişdi. Mən də Aranovskini diqqətlə mütaliə edərək, Üçüncü simfoniya üzərində işə başladım.

Əsər 1985-ci il, 22-28 yanvar tarixlərində keçirilən Bəstəkarlar İttifaqının VI qurultayında ikinci dəfə səsləndi. Qurultayın konsert proqramları elə zəngin idi! Bir həftə ərzində təxminən 70 müəllifin əsəri təqdim olundu. Onların arasında Cahangir Cahangirovun “59” oratoriyası, Arif Məlikovun Altıncı simfoniyası, Vaqif Mustafazadənin Piano konserti... Üçüncü simfoniyanın ifa olunduğu yanvarın 26-sında proqrama Fərəc Qarayevin “1791” serenadası, İsmayıl Hacıbəyovun “Memorial”ı, Azər Dadaşovun Yeddinci simfoniyası, Oleq Felzerin Viola konserti daxil idi. Mən böyük həyəcanla Üçüncü simfoniya

haqqında qurultayın yekun diskussiyasında – qonaqların iştirakilə - səslənəcək fikirləri gözləyirdim. A.Əlizadənin qəlibdən kənar birhissəli Üçüncü simfoniyası necə qarşılanacaq, qiymətləndiriləcək? Diskussiya çox coşqun keçdi. Amma, demək olar ki, hamı ən yaxşı əsərlər sırasında A.Əlizadənin simfoniyasını qeyd edirdi və mən necə də sevinirdim! Yaxınlarda qurultayla bağlı materialları araşdıranda ukraynalı bəstəkar Janna Kolodubun qeydləri rastıma çıxdı. O, diskussiyada çıxış etməmiş, öz təəssüratlarını yazılı şəkildə təqdim etmişdi. J.Kolodub A.Əlizadənin simfoniyası haqqında belə yazırdı: “Yanvarın 26-sında baş tutan simfonik konsertdə Aqşin Əlizadənin Üçüncü simfoniyası parlaq təəssürat yaratdı. Müəllif keçilməmiş yollar axtarır. Bu axtarışlar onu folklordan qaynaqlanan kəşflərə (kursiv mənimdir. – *Z.A.-D.*) gətirib çıxarır”.

Qurultayda müzakirələr olduqca kəskin bir şəkil almışdı. Əvvəlki rəhbərliyin passiv və bəzi məqamlarda qərəzli fəaliyyəti narazılıq doğurmaya bilməzdi. Xəyyam Mirzəzadə, Fərəc Qarayevin çıxışları xüsusən sərt və prinsipial xarakter daşıyırdı. Gizli səsvermə zamanı bir çox tanınmış bəstəkar İdarə Heyətinə seçilmədi. Səsvermə ilə bağlı informasiyanı biz baş musiqi salonumuz olan Sarayda – qurultayın mahnılardan ibarət son konsertində alırdıq. Bir tərəfdən gözəl musiqiyə qərq olurduq, digər tərəfdən isə həyəcanlanır və bəstəkarlar arasında yaşanan gərginliyə təəccüb edirdik. Nəhayət, nəticələr elan olundu: Aqşin Əlizadə İttifaqın birinci katibi seçildi!

Aqşin müəllimin Bəstəkarlar İttifaqına rəhbərlik etdiyi 5 il, məncə, bu yaradıcılıq təşkilatının çox önəmli və maraqlı bir dönəmi adlandırıla bilər. Xoşbəxtəm ki, həmin dövrdə – çox intensiv, zəngin, bir ili azı iki ilə bərabər - mən Aqşin müəllimin yanında oldum. O, vəzifəsini icra etməyə başlayan kimi Lalə Hüseynovanı və məni – konservatoriyanın 5-ci kurs tələbələrini - işə qəbul etdi. Məni – təəccüblənməyin! – o zaman yeganə boş iş yeri - fəhlə ştatına. Əlbəttə, mən doğma konservatoriyamızda işə düzəlmək, dərs demək haqqında arzularla yaşayırdım. Hələ məktəb illərindən müəllimliyi ən uca peşə hesab edirdim. Musiqi tarixi kafedrasının müdiri Aida Tağızadə də məni çox dəstəkləyirdi. Həm də müəyyən uğurlarım var idi – “Tələbə və elmi-texniki tərəqqi” Leninqrad Ümumittifaq olimpiadasında “İncəsənətin tarixi və nəzəriyyəsi” bölümü üzrə laureat adını qazanmışdım. Amma konservatoriyanın o zamankı rektoru müraciətlərimizi cavabsız qoydu. Aqşin müəllim isə təkid edirdi: “Bəstəkarlar İttifaqında sən bütün musiqi həyatının episentrində olacaqsan - ən yeni musiqi ilə daim təmasda. Əvəzolunmaz təcrübə qazanacaqsan”. Mən də onun çağırışlarına hay verdim, ona inandım və yanılmadım: Bəstəkarlar İttifaqında Aqşin müəllimlə çalışdığım 5 il mənim üçün həqiqətən də bir məktəb oldu.

Aqşin Əlizadənin əsas amalı İttifaqda yüksək sənət, əsl yaradıcılıq, canlı diskussiya ab-havasını bərqərar etmək idi. İttifaqı bir ev, doğma ocaq kimi görürdü, Q.Qarayev demişkən, "dostluq görüşləri və söhbətləri üçün bir məkan" kimi. Sənətin "zəruri məsələləri haqqında mübahisələr meydanı" kimi. İllərlə ifa olunmayan əsərlərin səsləndirilməsi də onun məqsədlərindən bəlkə də başlıcası idi. Deyirdi ki, "qoy konsert salonumuzdan daim musiqi sədaları gəlsin!" O, ilk öncə İttifaqın müxtəlif yaradıcılıq şöbələrinin işini aktivləşdirmək niyyətində idi. Şöbələrə başçılıq etməyi elə musiqiçilərə həvalə etmişdi ki, iş səmərəli, konstruktiv olsun, həqiqətən dəyərli əsərlər üzə çıxarılsın.

İttifaqın gənc bəstəkar və musiqişünaslar birliyinə rəhbərlik Q.Qarayevin ən etibarlı tələbələrindən biri – ali peşəkar, prinsipial insan Afaq Cəfərovaya tapşırıldı. Və bu, çox uğurlu seçim idi. Birliyin işi iki-üç il ərzində çiçək açdı. Müntəzəm görüşlər, yeni əsərlərin dinləyişi və qızğın müzakirəsi unudulmaz idi. Toplantılarımız bəzən gecə saat 11-əcən davam edirdi. Burada biz daha təcrübəli həmkarlarımızdan – A.Cəfərovadan başqa, Cavanşir Quliyevdən, Elnarə Dadaşovadan, Rəhilə Həsənovadan çox şey öyrənirdik: fikirləri necə əsaslandırmaq, hansı dəlillərə arxalanmaq, ən əsası da açıq danışmaq, düzü düz, əyrini əyri demək – bütün bunlar həmin görüşlərdə əxz olunurdu. Birliyimizin təşəbbüsü ilə gənc rəssamlarla, kinematoqrafçılarla keçirilən görüşlər xüsusən maraqlı və zəngin olmuş, yeni ideyaların yaranmasına təkan vermiş, müxtəlif sənət təmsilçiləri arasında səmərəli təmasların qurulmasına gətirib çıxarmışdır. Milli irsimizin təqiq olunmasının bəstəkarlar üçün də vacib olması Birliyimizdə dəfələrlə vurğulanmışdır. Məsələn, Tahirə Kərimovanın folklorumuzun nisbətən az araşdırılan hissəsi - qədim laylalarımıza həsr olunmuş əhatəli prezentasiyası indiyədək yadımdadır.

Yadımdadır: 1986-cı ildə biz, bir qrup gənc – Tbilisidə vaqe olan Gənc Zaqafqaziya bəstəkarlarının VI festivalına ezam olunduq. Bu festivala ev sahibliyini ardıcıl olaraq Cənubi Qafqaz respublikalarından biri edirdi. Belə, ki V festival 1985-ci ilin fevralında Bakıda keçirilmişdi. O zaman yekun diskussiyanın moderatoru bizə "Müasir musiqi" fənnindən mühazirələr oxuyan Maura Şahbazbəyova idi. Tbilisiyə ezam olunan qrupumuza bəstəkarlarla yanaşı dörd musiqişünas da daxil edilmişdi. Yekun diskussiyada musiqişünaslar dəstəmizin üzvlərinin bir-birindən kəskin çıxışları gürcü musiqisinin metrlərinə (O.Taktakişvili, S.Nasidze, S.Tsintsadze, G.Kançeli), deyəsən, güclü təsir bağışlamışdı. G.Kançeli hətta Afaq xanıma söyləmişdi ki, "bəstəkarlarınız da yaxşıdır, amma musiqişünaslarınız necə də dişlidir!" (rusca: *«музыковеды у вас такие зубастые!»*).

Yeri gəlmişkən, Aqşin müəllim musiqişünasların İttifaqda nüfuzunu artırmağa çalışar, onlara dəyər verər, fəal olmağa sövq edərdi. 1988-ci ildə o, məni kabinetinə

çağırıb gözlənilməz bir qərarı ilə bölüşdü. Bəlli oldu ki, respublikada gənclər üçün ən prestijli mükafat olan Lenin komsomolu mükafatına bu dəfə həmişəki kimi bəstəkar yox, musiqişünasın namizədliyini irəli sürmək niyyətindədir. "Düşündüm ki, həmin musiqişünas sən olmalısan", - deyə bütün etirazlarıma rəğmən israr etdi. - Yaşı 40-a yaxınlaşan yox, İttifaqımızın məhz gənc, fəal, perspektivli üzvü". Xülasə, mən də Aqşin müəllimin sözündən çıxmayaraq sənədlərimi toplamağa başladım. Bütün mərhələləri uğurla keçsəm də, oktyabrın 28-də Mərkəzi Komitə aparatında çalışan bir tanışımız atamı təbrik etsə də, ertəsi gün – laureatlar isə məhz oktyabrın 29-da, komsomolun yaranışı günündə elan olunurdu - adımı mükafatçılar siyahısında oxumayıb, pərişan oldum. Aqşin müəllimdən də, doğrusu, incimişdim. Çünki onun təşəbbüsü ilə bu oyuna qatılmışdım. Yaxınlarda köhnə qovluqları saf-çürük edərkən Aqşin müəllimin özünün (o, mükafatların verilməsi üzrə komissiyanın üzvü idi) qərarına rast gəldim. Onun siyahısında məndən başqa muğam ustası Alim Qasımov, yazıçı Natiq Rəsulzadə, rəssam Səhhət Veysov, habelə S.Rəhman adına Şəki Dram Teatrı da var idi. Onu da deyim ki, mənim qəm-qüssəm uzun çəkmədi və tez bir zamanda xoşhallıqla əvəzləndi. Sovetlər Birliyi rəhbərliyinin qərəzli mövqeyi, mənfur əməllərini müşahidə edib, 20 yanvarda törədilən qırğından sarsılaraq düşündüm ki, komsomol mükafatı laureatı olmaq kimi bişərəflikdən yaxşı qurtuldum... İllər ötəndən sonra o hadisəyə dönərkən, belə qənaətə gəlirəm ki, məni məhz partiyanın yüksək vəzifəli məmurları – azadlıqsevər, millətpərəst, onların nəzərincə, "etibarsız" olduğuma görə siyahıdan xaric etdilər.

Aqşin müəllimin İttifaqa rəhbərlik etdiyi dövrdə neçə-neçə əlamətdar hadisə - Skandinaviya ölkələri, Bolqarıstan, keçmiş sovet məkanının müxtəlif respublikalarının bəstəkarları ilə görüşlər, festival, plenum və konsertlər keçirildi. İndi belə hadisələr adi bir hal alıb, amma o zaman Qərb dünyası ilə əlaqələr hələ də məhdud xarakter daşıyırdı, odur, hər bir təmas o qədər yeni informasiya və emosiya bəxş edirdi!

Müntəzəm baş tutan Plenumlarda iri əsərlərin premyerası təqdim olunurdu. Bu baxımdan gənclərin yaradıcılığına həsr olunmuş 1986-cı il Plenumunu xüsusi qeyd etmək lazımdır. Artıq yaşı 40-a yaxınlaşan (hətta bu həddi azca adlayan) bəstəkarlar öz simfonik əsərlərini ilk dəfə eşidə bildi. Çox sanballı bir plenum idi: Moskvadan *"Sovetskaya muzıka"* jurnalının aparıcı əməkdaşı - tanınmış musiqişünas, müəllimimiz Lüdmila Vladimirovna Karagiçevanın qızı Alla Bretanitskaya da təşrif buyurmuşdu. "Forum gənclərindir – problemlər isə ümumi" («*Форум молодежный – проблемы общие*») başlığı altında dərginin 1987-ci il 8-ci sayında dərc olunmuş məqalədə A.Əlizadənin əzmlə söylədiyi sözlər yer almışdı: "Mən arzulayardım ki, bu plenuma, ümumən indiki zamana xas fəal yaradıcılıq nəbzi gündəlik həyatımızın normasına çevrilsin".

Burda kiçik haşiyə çıxıb, deməliyəm ki, o dönəmdə biz həqiqətən də böyük bir ruh yüksəkliyi, hətta eyforiya yaşayırdıq, yenidənqurmanın həyatımızda köklü dəyişikliklər doğuracağına, tariximizdə keyfiyyətcə yeni - azad, yaradıcı, quruculuqla dolu mərhələnin başlanmasına sidqi-ürəkdən inanırdıq. Amma 1988-ci ildə Dağlıq Qarabağla bağlı separatçı hərəkat, onun SSRİ rəhbərliyi tərəfindən, faktik olaraq, dəstəklənməsi, Azərbaycana qarşı ədalətsiz, misli görünməmiş qarayaxma kampaniyasının intişar tapması hamını sarsıtdı. Amma gənclərin Plenumu hələ xoşbəxt 1986-cı ildə keçirilirdi...

Aqşin müəllim həmişə hamını açıq söhbətə, canlı müzakirələrə dəvət edirdi, özü də nümunə göstərirdi, tanınmış müəlliflərin əsərlərindəki qüsurları göstərməkdən çəkinmirdi. Sözügedən Plenumun yekun diskussiyasında mən kifayət qədər sərt danışdım, simfoniya janrında yazılmış əsərlərin nöqsanlarına - mövzu cılızlığına, musiqi materialının solğunluğuna, dramaturji "xətalara" xüsusi diqqət yetirdim. "Çəhrayı" rəngə boyanmış bir sıra çıxışlardan sonra, iclasın sonuna yaxın söz götürdüyüm üçün auditoriyaya sadəlövhcəsinə üz tutub, hamını səmimi olmağa – "İttifaqımızın gənclik şöbəsində olduğu kimi" - səslədim. Bu çağırışımı hətta A.Bretanitskaya öz məqaləsində sitat gətirmişdi. Amma onu da deyim ki, mənim Plenumdan sonra durumum gərginləşdi – inciyən çox idi. Tənqidi maraqla qarşılayan tək bir Cavanşir Quliyevi çıxmaq şərtilə. Başqaları isə - kimi salam vermirdi, kimi qəzəbli baxışlarla məni süzürdü... Hiss edirdim ki, Aqşin müəllim də narahatdır, çünki mənə deyə bilmədiklərini ona - İttifaqın rəhbərinə pretenziya, şikayət şəklində - açıq bəyan edirdilər.

Plenum konsertlərində səslənən bütün əsərlərin videoyazısını sonra televiziya translyasiya etdi – musiqişünasların şərhi ilə. Əlbəttə, geniş auditoriyaya ünvanlanarkən əsərlərin məziyyətlərinə daha çox diqqət yetirirdim ki, bu da gərginliyin dərəcəsini azca zəiflətdi.

Buradaca Aqşin müəllimin təşəbbüsü ilə yaradılan "Xaqani, 27" (İttifaqın ünvanıdır) televiziya verilişinə dönmək istərdim. O dövrün televiziya panoramında özəl bir hadisə idi! Verilişlərin məhz Azərbaycan dilində efirə çıxmasının bir şərt kimi irəli sürülməsi də səciyyəvi idi. İndi qəribə görünə bilər, amma o dönəmdə ana dilində sərbəst danışan musiqişünasların sayı hələ də çox deyildi. Odur, çağdaş Azərbaycan musiqisi ilə auditoriyanı tanış edən bu verilişlərin televiziyamızın tarixində yeri xüsusidir.

Bizim "Xaqani, 27" silsiləmizə *"Sovetskaya muzıka"* da maraq göstərmişdi. İttifaqımızın əməkdaşı Nailə Həsənovanın "Tanış olun, Xaqani, 27" adlı məqaləsində (1989/2) aşağıdakı sətirləri oxuyuruq. "Efirdəki hər çıxış – Azərbaycanın müasir sənətinin problemləri, onun təbliğatı, milli irsin qoru-

nub saxlanması və tədqiqi, bəstəkar yaradıcılığı və folklor, musiqi kadrlarının yetişdirilməsi, müasir dinləyicinin mədəniyyət səviyyəsinin yüksəlməsi kimi çeşidli problemlərə dair ciddi söhbətdir".

Bəli, hər ay İttifaqın salonunda yeni musiqi və bəstəkarlarımızın yaradıcılığı, başqa aktual mövzular haqqında söhbət aparılırdı. Televiziyanın işçiləri, həvəssiz olsa da, *PTS-i* (səyyar televiziya stansiyasını) İttifaqın qarşısına sürüb, çəkilişlər aparırdılar. Verilişin yaradıcılıq heyətinin üzvləri sırasında müəllif və aparıcılar Lalə Hüseynova, Nəzakət Qasımova və Həcər Babayeva, habelə televiziyanın Musiqi şöbəsinin redaktoru Salehə Əfəndiyeva də xatırlanmalıdır. Hərənin öz zövqü və ədası var idi ki, bu da hər bir proqramın özəlliyini şərtləndirirdi.

Əvvəlcədən onu vurğulayım ki, "Xaqani, 27" mənim televiziya ilə uzunsürən – həyəcanlı duyğular, sevgi dolu, güman etmək istərdim ki, səmərəli əməkdaşlığımın təməli oldu. Burada yenə də xeyirxah sehrbaz – Aqşin Əlizadəni minnətdarlıqla yad etməliyəm. Onun təşəbbüsü idi və, açığını deyim, daha yaşlı həmkarlarım tərəfindən bir qədər qısqanclıqla qarşılanmışdı: axı o zaman ekrana çıxmaq olduqca şərəfli idi, odur, bir çoxları tərəfindən vəcdlə arzulanırdı. Öz verilişlərimdə mən daha çox gənclərə diqqət yetirməyə çalışırdım: onların musiqisi, qayğıları, müxtəlif xarici ölkə festivallarında çıxışları diqqət mərkəzində idi. Ən yaddaqalan qonaqlarım sırasında ünlü ədəbiyyatşünas Gülrux Əlibəylini və məşhur cərrah Nurəddin Rzayevi qeyd etmək istərdim. Gülrux xanımın çağdaş sənətimizə dair fikirləri, Q.Qarayev haqqında xatirələri, Nurəddin müəllimin efirdə səslənən bayağı musiqi ilə bağlı narahat düşüncələri necə də maraqlı və ibrətamiz idi. Məsələn, Gülrux xanım deyirdi ki, bir çoxlarının sənət haqqında fikri sanki keçmişdə ilişib qalıb, sənətin dinamikasını qəbul edə, qavraya bilmirik. O, tamaşaçını yeni musiqini dinləməyə - təkrar-təkrar – çağırırdı. Dinləyib, araşdırıb, anlamağa... Qara Qarayev II Beynəlxalq Müasir Musiqi festivalı haqqında hazırladığım veriliş (1988) də əlamətdar oldu. O zaman mən sovet musiqisi üzrə mütəxəssis, tanınmış alman musiqişünası Hannelora Qerlax (*Gerlach*) ilə söhbətləşə bildim.

"Xaqani, 27"nin 1988-ci il 18 iyun buraxılışının - XIX Ümumittifaq Partiya konfransı ərəfəsində - qonaqlarından biri həmin konfransın nümayəndəsi olan A.Əlizadə idi. Bu verilişdə "yenidənqurma" dönəminin entuziazm aşılanmış – hələ də - ab-havası duyulmaqdadır. Mən konfransın aşağıdakı tezislərindən birini o zaman sitat gətirmişdim: "Ölkənin müqəddəratı üçün sənətkarın məsuliyyət daşıması xüsusi bir qüvvə ilə qarşıya çıxır". A.Əlizadə də konkret olaraq Bəstəkarlar İttifaqının həll etməli olduğu məsələlərə toxunmuşdur. Azərbaycan musiqisinin geniş miqyasda tanınması haqqında mövcud rəyi

təkzib edən Aqşin müəllimlə ədəbiyyatımızın, incəsənətimizin nüfuzunun Ümumittifaq miqyasda zəifləməsi, Mərkəzi televiziyanın Azərbaycana biganə münasibəti, yaranmış vəziyyətə görə həm də özümüzün cavabdeh olması kimi məsələləri müzakirə etdik. Aqşin müəllim milli musiqi qaynaqlarına laqeyd yanaşmadan da danışaraq belə bir fikri vurğulamışdı: "Bizim rəqs havalarımız, mahnılarımız çox zaman Azərbaycan musiqisi adı altında ifa olunmur. Nə üçün biz xalq musiqi incilərimizi yolda gedə-gedə bir-bir çantadan itiririk? Çünki bu məsələyə göz bağlamışıq. Təəssüf, nüfuzlu sənətkarlarımız da vaxtında yüksək tribunadan buna öz münasibətini bildirməyib..." Aqşin müəllim XX əsrdə yaranan əsərlərin, lap elə Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun bir sıra işarəvi yaratmalarının və tamdəyərli təfsirlərinin keyfiyyətli səsyazılarının olmamasını narahatlıq doğuran problem adlandırmışdı. Nə qədər acınacaqlı olsa da deməliyəm ki, Aqşin müəllimin qaldırdığı məsələlər hələ də gündəmdə...

Sonuncu verilişi də xatırlayıram. Bakıda çox gərgin bir dönəmdə – 1989-cu ilin noyabrında gerçəkləşdirilən beynəlxalq "Üzü zirvəyə" adlı o parlaq və zəngin palitrası ilə seçilən festivala həsr olunmuş verilişi. Paytaxtımızın mərkəzi küçələrində yürüşlər, mitinqlər, biz isə Aqşin müəllimin xeyir-duası ilə festival keçiririk. Axşamlar konsertlərdə yeni musiqi ilə tanış oluruq, gündüzlər İttifaqın salonunda Polşa və Kuba bəstəkarlarının, norveçli Kyell Şulstadın, yuqoslav Duşan Mixalekin mühazirələrini dinləyirik, özbək, gürcü, ukraynalı həmkarlarımızla fikir mübadiləsi aparırıq. Jazz da oldu, muğam da ... Diskussiyalar da... Sonra da... iki ay keçər-keçməz – 20 yanvar faciəsi... Daha sonra da yanvar şəhidlərinin 40 günü çıxmamış Bəstəkarlar İttifaqının tələm-tələsik yapılan növbəti VII qurultayı.

Qurultay ərəfəsindəki durumu xatırlamaq çox ağır. Sarsıntı, çaşqınlıq, bədbinlik, məyusluq, amma eyni zamanda bütün neqativ emosiyalara rəğmən, çətinliklərə sinə gərib yaşamaq, daha sıx birləşib irəliləmək istəyi. Mənə elə gəlirdi ki, biz bir xalq kimi 20 yanvar faciəsindən sonra daha mərd olacağıq, gələcəyimiz naminə əl-ələ verib önəmli məsələlərin həllinə hədəflənəcəyik. Bəli, belə də oldu. Amma, təəssüf, dar düşüncəli adamlar da tapıldı – şəxsi mənafedən çıxış edənlər, vəzifə naminə nəyə desən qadir olanlar. Qurultayın həmin çaşqınlıq atmosferində keçirilməsi, doğrusu, məni daha çox sarsıdan, məyus edən hadisə oldu.

Aqşin müəllimin o zamankı ovqatı da, mülayim desək, nikbinlikdən çox uzaq idi. İttifaqa rəhbərlik etməyə başlayanda o, Q.Qarayevin aşağıdakı göstərişini tez-tez sitat gətirərdi: "Heç vaxt heç kimdən qorxma. Qalxa bilsəm,

gücüm çatsa, sənə yardım edərəm. Qalxa bilməsəm, yumruqlarınla vuruşarsan, yumruqların zədələnərsə, dirsəklərinlə: sən cəsarətlisən, amma bir qədər təmkinsiz. Buna diqqət yetir". Həqiqətən də, Aqşin müəllim Ustadın tövsiyəsinə var qüvvəsi ilə riayət etməyə çalışırdı. Müzakirələrdə açıq danışardı, zəif əsərlərin qarşısına sədd çəkərdi. Əsas nailiyyətlərindən biri – İttifaqın aparatına həqiqətən savadlı, təmiz və zəhmətkeş adamları cəlb etməsi idi. Kollektivimizdə qarşılıqlı etibara əsaslanan çox mülayim bir iqlim bərqərar olmuşdu.

Amma, təəssüf, Aqşin müəllimin İttifaqda əsl həmfikirləri çox az idi. Və ona qarşı açıq-aşkar təzyiqlər də, gizli intriqalar da dönmədən artırdı. Bəzi özündən müştəbeh bəstəkarların pressinqi, Q.Qarayevin sözü olmasın, Kanada xokkeyçilərini xatırladırdı[16]. Həmkarlarından, bəzi halda həmfikirlərindən belə əməli dəstək görməyən Aqşin müəllim, nəhayət, dözməyib 1989-cu ilin sentyabrında "*Muzıkalnaya qazeta*"nın səhifələrində belə bir etirafla çıxış etdi: "Nə üçün mən İttifaqın birinci katibi olmaq istəmirəm?" O yazını ürəyin ağrımadan oxumaq mümkün deyil. Nədən yazır Aqşin müəllim? Simasız, rəngsiz çoxluğun istedadlara basqısından, İttifaqda intriqa və konfliktlərin əsl yaradıcılıq ab-havasını məhv etməsindən, gənclərə yardımın labüdlüyündən. Həmin məqalənin az qala hər cümləsini sitat gətirmək olar. Məsələn: "Mən İttifaqı insanların bayramsayağı ovqatla - yaradıcılıq ünsiyyəti, dəstək və obyektiv tənqid eşitmək ümidi ilə – təşrif buyuracağı bir təşkilat kimi görürəm". Və ya: "Əgər istedadlara təzyiq edən, mane olan boz aqressiv çoxluqdan yaxa qurtarmasaq, biz heç zaman həqiqətən yaradıcı təşkilat ərsəyə gətirə bilmərik". Daha sonra: "Musiqişünasların da vəziyyəti, onlara yanaşma da - bəstəkarlara "xidmət edən" insanlar kimi - məni narahat edir". Və daha bir sitat: "Necə etməli ki, layiqli insanlar özlərinə layiq - həyatda və yaradıcılıqda - yer tutsunlar? Əsas məsələ budur. Onu həll etmək gərəkdir (kursiv mənimdir. – *Z.A.-D.*) ".

İllər ötüb, amma Aqşin müəllimin dedikləri hələ də arzu olaraq qalır, suallar da cavabsız. Birəng təcavüzkarların da sıraları dönmədən artır. Və onlar artıq öz iradəsini sayı get-gedə azalmaqda olan nəcib peşəkarlara diktə edirlər. Çox acınacaqlıdır...

Bəstəkarlar İttifaqı mənim ilk iş yerim idi. Bu, elə ilk məhəbbətə bənzəyir. Aqşin Əlizadə, artıq qeyd etdiyim kimi, konservatoriyanın ən bacarıqlı, ən zəhmətkeş məzunlarını İttifaqın aparatına dəvət etmişdi. Aqşin müəllimlə biz, əməkdaşlar arasında qarşılıqlı ehtiram və sevgiyə əsaslanan münasibətlər

[16] Qara Qarayev Moskvadan Tofiq Quliyevə "Zaqafqaziya baharı" festivalına hazırlıq ərəfəsində (1975) yazdığı məktubda Bəstəkarlar İttifaqında yaranan ajiotajı təsəvvür etdiyini bildirib yumorla yazırdı: "Kanada xokkeyinin professionalları bəzi özündən ifrat dərəcədə razı müəlliflərimizlə müqayisədə körpə uşaqdırlar".

bərqərar olmuşdu. O qədər bizə inanırdı ki, imzaladığı İttifaq blanklarını hər birimizə, hər ehtimala qarşı, ötürmüşdü – onun Bakıda olmadığı zaman biz həmin blanklarda müvafiq mətn yazıb istifadə edə bilərdik. Biz təkliflərimizi də verir, müəyyən addımlarından narazı olduğumuz halda bunu müdirimizə deməkdən də çəkinmirdik. Belə məqamlarda İttifaqın rəhbəri bəzən sinirlənər və deyərdi: "Əyləş, öz istəyinlə işdən azad olunmaq barədə ərizəni yaz!" Amma onu da deyim ki, qəzəbi tez soyuyardı.

Əlbəttə, çox tələbkar idi. Lazım olanda biz istirahət günlərində də işə çıxırdıq, az qala 10-12 saat çalışırdıq. Bəzən elə tapşırıqlar verirdi ki, onların icrası əsnasında biz o zamankı bilik səviyyəmizi üstələməli olurduq: nəticədə peşəmizdə, kiçik də olsa, yeni yüksəkliyi fəth edirdik. Amma onu da deməyə bilmərəm ki, Aqşin müəllim bizimlə fəxr edirdi[17]. Özü də söyləyirdi ki, 5 il ərzində gerçəkləşdirilən bütün əhəmiyyətli işlər əməkdaşlarının zəhməti hesabına mümkün olub. 1989-cu ildə yazırdı: "İttifaqımızda hal hazırda gənc, yüksək erudisiyaya malik, peşəkar adamlar çalışır". Bu sözləri indi oxumaq



***"Üzü zirvəyə" Yeni Musiqi Günləri. Azərbaycan Bəstəkarlar İttifaqının foyesi. Soldan sağa: Aleksandr Şetinski (Ukraynalı musiqiçi), Zümrüd Dadaşzadə, Aqşin Əlizadə. Noyabr, 1989-cu il***

[17] Mən o zaman İttifaqda çalışan cavan əməkdaşları - Natalya Dadaşova, Lalə Hüseynova, Xanlar Novruzov, Nailə Həsənova (Şəfiyeva), Leyla Fərəcova (Məmmədova), Azadə Mehdiyeva, İrina Libets, Lalə Kərimova, Sevda Hüseynova, Səidə Abdullayeva, Ülviyyə Məmmədovanı qeyd etmək istərdim. Kimi isə unutmuşamsa, üzr istəyirəm. Bizim birliyimiz gözəl idi - tam amal vəhdətinə əsaslanırdı.

necə də xoş və bir qədər də kədərlidir. Həqiqətən, zər qədrini zərgər bilər. Zərgərlərin sayı isə yox dərəcəsində...

Xronologiyadan sapınaraq İttifaq həyatımın bəzi əlamətdar məqamlarına üz tutmaq istərdim. 1985-ci ilin sonunda Aqşin müəllim Bəstəkarlar İttifaqının rəhbəri qismində öz ilk böyük Plenumunu keçirtdi. Təsəvvür edin, o forumda A.Məlikovun N.Hikmətin şeirlərinə bəstələdiyi romansları, X.Mirzəzadənin Arfa üçün sonatası, C.Cahangirov və R.Mustafayevin oratoriyaları, M.Quliyevin Ə.Salahzadənin sözlərinə vokal silsiləsi, D.Dadaşovun dramatik simfoniyası, gənclərin kamera əsərləri səslənmişdi. Mən də o zaman çox populyar olan "*Molodyoj Azerbaydjana*" qəzeti üçün "Yaradıcılıq nailiyyətlərinə baxış" adlı məqalə yazıb redaksiyaya aparmışdım. Amma qəzetin mədəniyyət şöbəsinin müdiri - gənc, istedadlı jurnalist materialla tanış olub, onun kifayət qədər tənqidi olmadığını bəhanə gətirərək – daha kəskin yazmaq lazımdır! - dərc edilməyəcəyini söylədi. Doğrusu, pərt olmuşdum, çünki məqalə yuxusuz gecə hesabına ərsəyə gəlmişdi, həm də sevgi ilə yazılmışdı. Aqşin müəllimi narahat etmək istəmirdim, amma o, özü, 1-2 gün sonra məndən yazımın aqibətini soruşdu. Astaca ona cavan redaktorun materialı rədd etdiyini söylədim. Aqşin müəllim çox sinirləndi və dərhal qəzetin baş redaktoru ilə əlaqə saxlayıb, məqaləmin çap olunması məsələsini həll etdi. Mənim həyəcanım isə səngimədi, çünki Aqşin müəllimin yazdıqlarıma münasibətinin necə olacağını gözləyirdim. Reaksiya bütün gözləntilərdən fərqli oldu. O, mənə zəng çalıb: "Doğrusu, ürəyimdə xal qalmışdı, düşünürdüm, bəlkə məqalənin çatışmazlıqları var, amma axı gözəl və dəqiq yazmısan! Belə məqalədən redaktor nə haqla imtina edib?"

Resenziyada A.Əlizadənin Bakıda ilk dəfə səslənən Dördüncü "Muğamvarı" simfoniyası haqqında belə sətirlər yer almışdı: "Simfoniya qədim Azərbaycan muğamının estetikasının yenidən dərk olunmasına, onun intonasiyalar çevrəsinin, emosional aləminin duyğusal təcəssüm olunmasına bir nümunədir. Birmənalı təfsiri mümkünsüz olan bu fəlsəfi əsər eyni zamanda müasir dünyanın gərgin ritmi və nəfəsi ilə aşılanıb. Və simfoniyanın təşviş dolu ovqatına - onun səlis dramaturgiyasını tamamlayaraq - həzin və kövrək xalq nəğməsini təkrar-təkrar səsləndirən vokal qatılanda (A.İslamzadə) dinləyici onu əsl insan dəyələrinin yenilməzliyi və əbədiliyinə inamın ifadəsi kimi qavrayır"[18]. Buradaca deyim ki, belə bir yozum Akif İslamzadənin bənzərsiz tembri və məxsusi lirik ifa ədası ilə bağlı idi. Yadımdadır: filarmoniyadakı konsertdən sonra biz müğənnini hərarətlə təbrik edəndə, o, təvazökarcasına: "Axı mən nə etmişəm? Oxuduğum cəmi bir neçə

[18] Дадашзаде З. Смотр творческих достижений// Молодёжь Азербайджана, 26.12.1985

dəqiqə iri bir əsərin müqabilində nədir ki?" - deyib sanki sıxılaraq sürətlə bizdən aralandı. Bəli, 3-4 dəqiqə, amma necə dəqiqələr - sarsıdıcı! 1987-ci ildə III Beynəlxalq Səmərqənd musiqişünaslıq simpoziumunda A.Əlizadənin simfoniyasında vokal partiyanı Alim Qasımov ifa etmişdi. Və başqa anımlar sırası yaranmışdı. "Simfoniyanın fəzası" kitabında mən müqtədir xanəndənin səsinin doğurduğu emosiyaları belə qələmə almışdım: "... Sanki uzaq əsrlərdən bir səs eşidilir. Bu səs bizim tarixi yaddaşımıza ünvanlanıb. Bu səsdə həm təlatüm, həm xəbərdarlıq, həm də çağırış var. O, əsər bitdikdən hələ çox-çox sonra təqib edir, həyəcanlandırır, bizi xalqımızın mənəviyyatı, mədəniyyəti qarşısında bütün məsuliyyətimizi dərk etməyə səsləyir..." [19]

"Babək" baletinin tamaşaya qoyulması mühüm bir hadisə oldu. Ən böyük konsert salonumuzda iki dəfə baleti həyəcanla seyr etdik. Musiqi (partituranı dirijor Rauf Abdullayev səsləndirmişdi) Rəfiqə Axundova və Maqsud Məmmədovun xoreoqrafiyası ilə birləşib, əzəmətli bir sənət əsərinin meydana gəlməsini doğurmuşdu. Üstəlik də Babək partiyasında Vitali Axundov olduqca cazibədar idi – həm qəhrəmanlıq səhnələrində, həm lirik epizodlarda eynilə inandırıcı. Elə baleti açan plelüdün tersiya və kvartalardan "biçilən" mövzusu arxaika ruhunu bərqərar edərək, bizi enerjisi xüsusi olan möhtəşəm sənət aləminə qərq edirdi.

"Babək"lə bağlı mənim özəl xatirələrim də var. Balet böyük rezonans doğurmuşdu, demək olar ki, bütün qəzetlərimizdə premyeradan sonra rəylər dərc olunmuşdu. Müəlliflər arasında A.Tağızadə, R.Fərhadova, R.Zöhrabov, H.Qaşqay, N.Qasımova, H.Babayeva, F.Əliyeva, L.Hüseynova qeyd edilməlidir. Moskvadan da tanınmış musiqişünas, sənətşünaslıq doktoru Yelena Dolinskaya Bakıya xüsusi olaraq dəvət olunmuşdu: onun dolğun, sərrast müşahidələrlə zəngin resenziyaları az sonra "*Sovetskaya muzıka*" (1987/1) və "*Muzıkal'naya jizn'*" (1987/8; D.Borisova təxəllüsü ilə) jurnallarında dərc olundu.

Bir gün Aqşin müəllim məni kabinetinə çağırıb, etiraz qəbul etməyən tonla söylədi: "Zümrüd, "Babək" barədə məqaləni "*Sovetskiy balet*" üçün sən yazmalı olacaqsan". Bəlli oldu ki, Bakıdan göndərilən resenziya redaksiyanı qane etməyib. Mən vəziyyəti xilas etməli, qısa müddət ərzində yeni məqalə yazıb, Moskvaya

[19] 1987-ci il Səmərqənd simpoziumunda A.Əlizadənin Dördüncü simfoniyasını eşidən Cahangir Səlimxanov maraqlı bir əhvalat danışmışdı. Belə ki, Alim Qasımov sonda "Gül açdı" xalq mahnısını partirura üzrə deyil, başqa bir tonallıqda səsləndiribmiş. Və Cahangir bu ifanı simfoniyanın ikinci redaksiyası kimi qavrayaraq, sonradan A.Qasımovun improvizə etdiyini anlayıbmış. Amma, musiqişünasın firkincə, o ifa da simfoniyanın obrazına fərqli rənglər qatmışdı. Səciyyəvidir ki, A.Əlizadənin musiqisi konsertin sonunda – M.Bafoyev, A.Serkebayev, Ç.Nurımovun əsərlərindən sonra – konsertin ən önəmli tamamlayıcı "akkordu" kimi ifa olunmuşdur. Həmin simpoziumda Azərbaycan bəstəkarlıq musiqisini habelə A.Məlikov, R.Mirişlı, C.Quliyev və F.Hüseynov təmsil etmişdilər.

ötürməli idim. Gərgin bir dönəm yaşadım, balet sənətinə dair kitabları tökdüm qabağıma – oxudum, araşdırdım, tamaşa zamanı apardığım qeydlərimi də emal edib bilgilərimlə birləşdirərək, məqaləni vaxtında yazıb göndərdim və həyəcanla jurnaldan məlumat gözləməyə başladım. Məqaləm qəbul olundu və 1987-ci ilin 2-ci nömrəsində «*Возрождая героику прошлого*» adı ilə işıq üzü gördü. Açığı, çox sevindim – bu, mənim ilk sanballı publikasiyam idi. Və onun ərsəyə gəlməsi Aqşin müəllimin mənə inamı nəticəsində mümkün oldu. Sonralar "Azərbaycan bəstəkarları" seriyası üçün onun haqqında kitabçanı yazmağı A.Əlizadə məhz mənə həvalə etdi. Bu da mənim həyatımda bir ilk oldu. Kitabçanın poliqrafik icrası, açığı, bərbad idi: sarımtıl kağız, nəşriyyatın yığdığı mətndə yolverilməz "pintilik". Amma Aqşin müəllim məxsusi yumorla deyirdi: "Üz qabığında fotoportretim qara-qura olsa da - məni tanımaq mümkünsüz! - mətn gözəldir". O, hətta həmin nəşrin yeni bir nəfis tərtibatını hazırlamış və kitabxanalara göndərmişdi.

A.Əlizadənin 60 illik yubileyi üçün əsas məqaləni də mən yazdım: həmin məqalə («*Мир музыки Агшина Ализаде*») bəstəkara "Şöhrət" ordeninin verilməsi sərəncamı ilə bahəm 1997-ci il mayın 27-də "*Bakinski raboçi*" qəzetində dərc olundu. Publikasiyada bəstəkarın İsmayıl Məmmədov tərəfindən çəkilmiş qrafik portreti, habelə Aqşin müəllimin aşağıdakı deyimi yerləşdirilmişdi: "Xalqımın tarixi əslində musiqidə öz ifadəsini tapmışdı. Qəmgin səsləri daha çoxdur... Amma biz gələcək nəsillərimizdə qələbəlik hisslərini oyadan əsərlər yaratmağa çalışdıq"...

Burada mən Aqşin müəllimin Azərbaycan musiqisində unikal mövqeyini açıqlamağa cəhd göstərmişdim. Məsələn, yazırdım, ki, o, musiqimizi "Şosta-



***Zümrüd Dadaşzadə və Aqşin Əlizadə***

koviç irsinin nəhəng basqısından" (məşhur musiqişünas M.Tarakanova məxsus bu müşahidəni mən A.Əlizadəyə şamil etmişdim) xilas edə bildi. Ən əsası da A.Əlizadəni zəmanəmizi ən ünlü (rusca: *выдающийся*) siması adlandırmışdım. Sonra o, mənə zəng çalıb dedi ki, "bu epiteti ilk dəfə mənim adım önündə yazan sən oldun".

Həmin məqalədən bir səciyyəvi fraqmenti burda sitat gətirmək istərdim: "Biz bəzən müasirlərimiz olan sənətçilərin xidmətləri haqqında danışmaqdan, onların yaradıcılığına həqiqi qiymət verməkdən çəkinirik. Mən bu ənənəni pozmaq istərdim, çünki A.Əlizadə sözün əsl mənasında böyük bəstəkardır. Onun bədii kəşfləri haqqında müxtəlif illərdə azərbaycanlı, ukraynalı, gürcü, rus, türk, ingilis musiqişünasları fikir söyləmişdilər. A.Əlizadənin yaradıcılığı neçə ildir ki, musiqi təhsil ocaqlarında tədris olunur, əsərləri müasir milli musiqinin problemlərinə həsr olunmuş sanballı tədqiqatların elmi nəticələrinə əsaslı təsir göstərir..."

Aqşin müəllimin ibrətamiz söhbətləri də bir başqa. Gənclik dövründə o, məlahətli, təravətli melosu ilə seçilən mahnılar bəstələmişdi. Həmin mahnıları hətta Şövkət Ələkbərova, Sara Qədimova ifa etmişdilər. Yadımdadır, bir dəfə bəstəkar piano arxasına keçib, "Ötən ilin son gecəsi" bədii filminə təzə bəstələdiyi mahnını çalıb zümzümə etdi. Elə həmin an mən ona belə bir sual verdim: "Aqşin müəllim, nə üçün Siz, sözü həssas duyan, özgün melodiyalar yaratmaq bacarığına malik bir bəstəkar, mahnı janrına, demək olar ki, üz tutmursunuz? "O, dərhal cavab verdi: "Bilirsənmi, mən kiçik, cəmi üç-dörd dəqiqəlik mahnıya simfoniya kimi eynilə ciddi yanaşıram. Odur, nədənsə imtina etməli olursan..." Bu sözlərdə



***Soldan sağa: Zümrüd Dadaşzadə, Qalina və Aqşin Əlizadələr***



***Aqşin Əlizadə və Zümrüd Dadaşzadə***

A.Əlizadənin sənətkar mövqeyi, böyük məqsədlərə hədəflənməsi, peşəkar kimi dürüstlüyü, şərəfliliyi öz əksini tapıb.

Başqa bir dəfə tanınmış, lakin son zamanlar asan yollar seçən bir bəstəkara həsr olunmuş verilişimi görüb, mənə zəng etdi və narazılığını bildirdi: “Sən cavansan, amma artıq tanınmağa başlamısan. Çalış həqiqətən layiqli sənətkarlar haqqında yaz, söz de. Əgər bütün təklifləri qəbul etsən, nüfuzunu itirərsən”. Onu da deyim ki, indinin özündə hazırladığım o verilişin qəhrəmanını dəyərli bəstəkar hesab edirəm və onun haqqında söz açdığım üçün əsla peşman deyiləm. Amma Aqşin müəllimin sözləri ürəyimə ox kimi sancıldı... və mən “Ədəbiyyat və incəsənət” qəzetindən aldığım bir sifarişi həmən ləğv etdim.

Aqşin Əlizadə ilə ara-sıra söhbətləşməyi sevirdim. Çox əfsus ki, o söhbətləri vaxtında qeydə almamışdım. Amma təxminən 22 il öncə, yenicə nəşr olunmuş “Simfoniyanın fəzası” kitabımı (1999; bu kitabımda A.Əlizadənin 3-cü və 4-cü simfoniyalarını müfəssəl araşdırmışdım) və Tehranda işıq üzü görən “Varlıq” jurnalını (1998-ci ildə redaktoru məşhur Cavad Heyət olan bu dərginin 3-cü nömrəsində bəstəkar haqqında məqaləm yer almışdı) Aqşin müəllimə təqdim etmək üçün onun xudmani mənzilinə gəlib, doyunca söhbətləşdim. Aqşin müəllimin ömür-gün yoldaşı Qalina xanım həmişəki kimi qonaqpərvərlik və həssaslıq sərgilədi. O, vaxtaşırı nəzakətlə söhbətimizə qoşulur, bəzi sərrast əlavələr edirdi.

Burda haşiyə çıxaraq deməliyəm ki, bir dəfə Aqşin müəllimin Niyazi haqqında xatirələrini qələmə almışdım. Sonra tərtib etdiyim mətni A.Əlizadə, görünür, həyat

yoldaşına göstərmişdi. Doğrusu, Qalina xanımın qeydləri – o qədər sərrast, o qədər qabarıq – məni heyrətə gətirdi. Cəmi bir neçə düzəliş mətni necə də canlandırmışdı! Onu da deyim ki, bu mənzildə Aqşin müəllimin dayısı Mehdi Hüseynzadənin - əfsanəvi Mixaylonun fotoşəkli diqqətimi çəkdi. O saat məndə belə bir fikir yaranmışdı: bəstəkarın xarakterindəki bir sıra cəhətlər – onun mərdliyi, möhkəm iradəsi, prinsipiallığı heç də təsadüfi deyil.

Söhbətə qayıdaraq, onu söyləməliyəm ki, Aqşin müəllimin düşüncələrini dəftərçədə qeyd etmişdim. O dəftərçə, xoşbəxtlikdən, sağ-salamatdır və mən bəstəkarın bəzi fikir və deyimlərini bu yazımda ilk dəfə bölüşürəm.

Həmsöhbətim ona xas səmimiyyətlə bildirmişdi ki, indi onu “gözəl musiqi” yazmaq məsələsi xüsusən məşğul edir: “İnsanlar gözəl musiqi eşitmək arzusundadır. Odur, dinləyiciyə doğru addım atmaq gərəkdir”, - deyən bəstəkar cavanlıqda həmin gözəl musiqini yazmaqdan qorxduğunu, özünü qəsdən müəyyən çərçivəyə saldığını xatırlayırdı.

Aqşin müəllimin fikrincə, bəstəkar yaradıcılıq prosesini izah etmək iqtidarında deyil. Ancaq total hazırlıq ona öz ideyalarını reallaşdırmaq imkanı verir. Əgər bəstəkar yazdığı musiqini izah edirsə, deməli, onun qüvvəsinə inanmır. Bu fikri təsdiq etmək üçün o, belə bir müqayisəyə əl atırdı: “Məgər müntəzəm məşq edən futbolçu necə qol vurduğunu izah edə bilərmi?”

Bu sətirləri oxuyanda istər-istəməz çağdaş musiqi festivallarında bəstəkarların öz əsərləri haqqında uzun-uzadı çıxışları, bu əsərlərə dair qəliz açıqlamaları yadıma düşür. Və səmimi deyim ki, çox zaman həmin söhbətlər onların ardınca səslənən musiqidən daha maraqlı olur...

“Çalışmaq lazımdır, elə ki, bel pas atmasın”, - bu da A.Əlizadənin bir növ həyat devizi idi.

Aqşin müəllim tez-tez “səslər” axtarışında olduğunu deyirdi: “Bax simfoniyanın əvvəli, ortası, sonu üçün **xüsusi səslər** tapmalıyam. Bu, baş verərsə, onda simfoniya alınacaq”. Ümumiyyətlə, o öz “simfoniya yazmaq” qorxusu barədə fikirlərini mənimlə bölüşmüşdü – bu, “ali ümumiləşdirmələr” janrına elə bir özgün, elə ciddi yanaşma idi! Əsas məqsədi də “Azərbaycan simfoniyasını tapmaq” idi. Düşünürəm, bəstəkarın “fərdi layihə” (Y.Xolopovun terminidir) əsasında meydana gələn son üç simfoniyası (III-V) həmin mürəkkəb axtarışların uğurlu nəticəsidir.

Əlbəttə, A.Əlizadənin bütün yaradıcılığının kvintessensiyası - “Babək” baleti barədə də o zaman söz düşdü. Musiqili teatr tariximizdə yeni bir hadisə olan ilk qəhrəmani-epik baletdə yeni obrazlar, misilsiz kütləvi səhnələr, nadir gözəlliyi ilə seçilən iki zərif, kövrək və ekspressiv *Adagio*



***Azərbaycan Bəstəkarlar İttfaqının 70 illiyi ilə bağlı keçirilən festivaldan. Soldan sağa: Sevda Hüseynova (ikinci), Zümrüd Dadaşzadə, Qalina Əlizadə və başqaları. 2014-cü il***

yaradılmışdı. Aqşin müəllim bu əsərdə Üzeyir Hacıbəyli ruhunun - sitatlar əsla yoxdur - hökm sürdüyünü vurğulamışdı. Son səhnələrdə isə Qara Qarayevlə bağlantıların olmasını da qeyd etmişdi. Əlbəttə, o, Azərbaycan musiqisinin ən müxtəlif ənənələrinin tam müstəqil xəlitəsini yaratmağa qadir unikal sənətkar idi.

Aqşin müəllim Azərbaycan bəstəkarlıq sənətinin əsas əsərlərini - sütunlarını da qeyd etmişdi. Bu, onun nəzərincə, “Koroğlu”, “Arşın mal alan”, “Yeddi gözəl” və “Kürd-ovşarı”dır. Azərbaycan musiqisinin böyük nailiyyətlərindən, Üzeyir bəy fenomenindən heyrətlə danışaraq, A.Əlizadə eyni zamanda bu musiqinin dünyada az tanındığına görə pərişan olduğunu bildirmişdi. “Yəqin bizim də nə zamansa Dyagilev kimi xadimimiz peyda olmalıdır ki, Azərbaycan sənətini geniş miqyasda təbliğ etsin. Qırğızıstanı tək bir yazıçı Çingiz Aytmatova görə tanıyırlar. Əgər Ü.Hacıbəylini, Q.Qarayevi dünya musiqi meydanında təsdiqləyə bilsək, onda




Azərbaycan da tanınar. Bu sənətkarlar varsa, Azərbaycan da var", - deyə o, vurğulamışdı.

"Bütün fəxri adlar sıfra bərabərdir", - deyən A.Əlizadə bəstəkar tərəfindən böyük, sanballı bir əsərin ortalığa qoyulmasının əsas məqsəd olduğunu xüsusi qeyd etmişdi. "Bəstəkar 30 yaşına qədər dinləyicini heyrətləndirə bilən yaratma ərsəyə gətirməlidir. Əgər bunu bacarmasa, bəstəkarlıq peşəsindən vaz keçməlidir". Onun musiqimizin gələcəyinə dair proqnozları o qədər də ürəkaçan deyildi. A.Əlizadənin fikrincə, getgedə həqiqətən bədii dəyərə malik əsərlərin sayı azalacaq.

Bəstəkarlar İttifaqında mitinq atmosferinin hökmranlığı da Aqşin müəllimin ovqatını təlx edirdi. O, gənclərin basqılanması, passivliyi və cəsarətsizliyini də mənfi bir hal adlandırmışdı.

Eyni zamanda Aqşin müəllimin aşağıdakı fikri də səciyyəvi idi: "Musiqi əsərləri yaradaraq öz missiyamı icra edəcəyəm, musiqimlə məqsədlərimi həyata keçirəcəyəm".

A.Əlizadə amerikalı şair *John Gracen Brown*' un yaradıcılığı ilə tanış olub, onun sonetinə "Bu, məhəbbətdir" kompozisiyası – bəstəkar onu "Pavarotti üçün ariya" da adlandırırdı – üzərində həvəslə çalışdığını söyləmişdi.

O zaman A.Əlizadə Türkiyədə çalışırdı. "Türkiyədə sanki öz evimdəyəm", - deyən Aqşin müəllim türk musiqisi və folklorunun qohumluq əlaqələrinə toxunmuş, məsələn, türkülər və bayatılar arasında bağlantıların olmasına nəzərdiqqətimi yönəltmişdi. Onun bu fikri də səciyyəvi idi: "Türkiyədə nə ingilis, nə də rus olmaq lazım deyil..." Yəqin bu cümlənin davamını oxucu özü də qura bilər.

Aqşin müəllim olduqca həssas adam idi – bəzi sözləri, deyimləri də yadda saxlayırdı. Bir dəfə mən ona gəncliyə xas sadəlövhlüklə demişdim ki, İkinci Kamera simfoniyasını ən mükəmməl əsəri hesab edirəm. Hər dəfə söhbətləşəndə o, kinayə ilə: "Hərçənd sənin Kamera simfoniyasından daha çox xoşun gəlsə də..." deyib, məni maraqlandıran mətləbə - başqa əsərlərin müzakirəsinə keçərdi...

Bu sətirləri yaza-yaza əsas qəhrəmanım – Aqşin Əlizadə ilə bağlı topladığım sənədləri nəzərdən keçirirəm. Bu, bir neçə qovluqdan ibarət böyük bir materialdır.

Hər yazı, hər not, hər foto arxasında da o qədər emosiya, o qədər xatirə durur. Məsələn, mənim Dördüncü simfoniya, violin və piano üçün "Portret", piano üçün "Dastan" - "Melodiya" firmasında işıq üzü görməsi planlaşdırılan val üçün annotasiyam. "Portret" 80-ci illərin sonunda Arif Manaflı və Nigar Hacıyeva kimi violinçalanların ifasında Vilnüs, Odessa, Maynts, Bostonda təqdim edilmişdi. Və "*Allgemeine Zaitung*" (Mainz) qəzeti N.Hacıyevanın şövqdolu ifasını təqdir edərək, "melanxolik, düşüncələrə sövq edən - ən müasir səslənmələrin müdaxiləsi ilə səciyyələnən musiqini" də nəzərdən qaçırmamışdı. Dördüncü simfoniyanı 1984-cü ildə Almatıda, SSRİ Bəstəkarlar İttifaqının İdarə Heyətinin Plenumunda eşidən musiqişünas Erna Geyzerin muğamın simfonik potensialını üzə çıxaran bu əsər haqqında sevgi dolu qeydləri də qovluğumdadır – Aqşin müəllimin həmin rəyə - ilk rəyə - xüsusi münasibəti var idi. Təəssüf, o val nəşr olunmadı – 1990-cı il idi artıq, SSRİ adlı imperiya xaos içində boğulurdu...

Aqşin müəllimin notları... onlardan birini ("Dastan". "Qədim oyunlar". "Portret". Bakı: Şur, 1994) bəstəkar mənə belə bir xatirə yazısı ilə hədiyyə etmişdi: "Babasının nəvəsi, atasının qızı, mənim tələbəm - istedadlı Zümrüd Dadaşzadəyə..." ( 22.09.1994)...

Və ya bəstəkarın 60-cı illərdə çəkdiyi akvarel rəsmlərindən bir neçəsi də mənə bağışlanıb. Həmin rəsmlərdən biri "...yarım suya gələndə, səhəngi mən olaydım..." bayatı misralarına illüstrasiyadır.



***Aqşin Əlizadə. Akvarel. 1965-ci il. "...yarım suya gələndə, səhəngi mən olaydım..."***

Rəsmin arxasında 1965-ci il qeyd olunub. Bəllidir ki, *a cappella* xor üçün "Bayatılar" silsiləsini bəstəkar 1969-cu ildə bitirib. Rəsm ona dəlalət edir ki, A.Əlizadə onun yaradıcılığında, ümumən bütün sovet musiqisində hadisə olmuş bu əsər (bəstəkarların Ümumittifaq müsabiqəsində I mükafata layiq görülmüşdü) üzərində illər öncə işləməyə başlamışdı. Yeri gəlmişkən, bir məqamı da yaddaşım canlandırır. 1986-cı ilin oktyabrında Aqşin müəllimin təşəbbüsü ilə Bakıda ilk dəfə *"Sovetskaya muzıka"* jurnalının redaksiya heyətinin bəstəkarlarımızla bahəm "dəyirmi masa"sı keçirilmişdi. Yadımdadır, o dönəmdə jurnalın baş redaktoru olan Yuri Korev "Bayatılar"a qulaq asandan sonra bu dəyərli əsərin az tanındığına görə təəssüfləndiyini söyləmişdi...

Ən əziz sənədlərdən biri də Aqşin müəllimin mənə ünvanladığı məktubdur. Mən o zaman İranda - Tehranda idim, o, Türkiyədə - Vanda. "... Biz hər zaman məktublarına çox sevinirik. Buradan çox məmnunam. Bakıda və başqa yerlərdə (əlaqəm var) əsərlərim səslənir... Əlbəttə, istərdim Xəzərin sahillərində olum! Sənin kimi adamlar mənə ən böyük dəstəkdir..." (14.01.1999).

O zaman, Tehranda bu qısa, amma çox səmimi, Vətənə sevgi aşılanmış sətirləri oxuyarkən Aqşin müəllim haqqında 1992-ci ildə işıq üzü görmüş kitabımdakı bəzi düşüncələrim, landşaft və musiqinin sıx bağlılığı barədə müşahidələrim xatirimdə oyandı: "A.Əlizadənin əsərlərindən Abşeron torpağının, Xəzər dənizinin ətri gəlir. <...> bəstəkarın musiqi lövhələri Səttar Bəhlulzadənin həmişə işıq dolu peyzajları ilə müqayisə doğurur. Səttarın tablolarında təbiət bərbəzəkdən məhrum, əzəli və əbədidir. Aqşin musiqisi də belədir. Onu dinlədikcə gözümüz önündə uşaqlıqdan tanış, doğma, ürəyi göynədən bir mənzərə canlanır: qızmar günəş, qızılı qum, tək-tük səpələnmiş üzümlüklər..."

Əlbəttə, A.Əlizadənin yaradıcılığı elə ilk addımlarından başlayaraq diqqət mərkəzində olmuşdu. Az qala əsərlərinin hər birinə, musiqi dilinin komponentlərinə dair – ayrı-ayrılıqda – məqalə, dissertasiya, kitablar həsr olunub. Bu da təsadüfi deyil. Çünki Kamera simfoniyasından (1966) başlayaraq, A.Əlizadənin hər bir yaratması hadisəyə çevrilirdi. O tədqiqatlar arasında şərəfli alimimiz, istəkli müəllimimiz Aida xanım Tağızadənin məqalələri və 1986-cı ildə nəşr etdirdiyi monoqrafiya xüsusi önəm kəsb edir. Məhz Aida xanım bəstəkarın bədii kəşfləri haqqında ilk dəfə - aydın və qabarıq – söz deyə bilmişdi. "Böyük o kəsdir ki, istiqamət yarada bilsin", - filosofun bəlli kəlamıdır. Aqşin müəllim belə bir böyük sənətkar idi.

Maraqlı bir ştrix. A.Əlizadə Konservatoriyada ixtisas fənnindən dərs deməmişdi. Amma indi neçə-neçə bəstəkar onun musiqisini özləri üçün bir

örnək adlandırır. Yadımdadır, Bəstəkarlar İttifaqında işləyərkən xarici ölkələrdən müxtəlif anketlər alırdıq. Orda belə bir sual verilirdi: "XX əsr bəstəkarlarından kim Sizə daha çox təsir göstərib?" Bir neçə halda mən Stravinski, Bartok, Şönberqlə yanaşı A.Əlizadənin də adını oxudum.

A.Əlizadənin yaradıcılığı Azərbaycan musiqi tarixinin ən önəmli və fərəhli səhifələrinə aiddir. Onun əsərləri həmişə ifa olunub və gur əks-səda doğurub. "Cəngi"si xalqımızın musiqi simvollarından biridir. 80-ci illərin sonunda ərsəyə gələn "Qarabağ havası" saf Vətən sevgisinin mücəssəməsidir. Son zamanlar bəstəkarın irsi sanki ikinci həyatını yaşayır. "Babək" baletinin əsl simfonik keyfiyyətlərə malik musiqisinin 2021-ci ilin oktyabrında - xalqımızın 44 günlik Vətən




***Birinci Fəxri Xiyabanda Aqşin Əlizadənin məzarı.***
***Bakı, 19.03.2022-ci il***

müharibəsində tarixi qələbəsinin birinci ildönümü münasibətilə "Zəfərə aparan yol" devizi altında Filarmoniyada tam şəkildə ifa olunması parlaq olaya çevrildi. Mən bu baletin teatr səhnəsində bərpa olunması məsələsini 2022-ci ildə - 20 yanvar faciəsi ərəfəsində keçirilən xatirə gecəsindən əvvəl verdiyim müsahibədə qaldırdım. Ümidvaram, əsas saytlarımızda dərc olunan bu çağırışım da eşidiləcək. Xocalı soyqırımının 30 illiyinə həsr olunmuş anım konsertində isə illər ifa olunmayan Beşinci simfoniya təqdim edildi. Simfoniyanın təşviş dolu – ovsunlayıcı, hər səslənəndə yeni çalarlar əldə edən leytmövzusunu, milli mədəniyyətin konsepti qismində çıxış edən xalq çalğı alətləri – balaban, zurna və telli sazlarımızın sədalarını eşidərkən, bu musiqinin 30 il ərzində yeni məzmunla yükləndiyini, özündə həmin illərin dramatizmini, gərginliyini, ən müxtəlif yaşantılarını, sarsıntılarını da ehtiva etməsini bir növ fiziki duyaraq həyəcanlanmamaq qeyri-mümkün idi. Böyük sənət əsərlərinin belə bir keyfiyyəti var – hər dəfə səslənəndə sanki yenidən kəşf olunur, yeni emosiya və düşüncələr doğurur - yaşadığımız məqama uyğun. A.Əlizadə musiqisinin dərin təfsirçisi Rauf Abdullayevin əlindən estafeti almış gənc dirijor Mustafa Mehmandarovun – o, A.Əlizadə sənətinin vurğunu, çılğın pərəstişkarıdır - səyləri nəticəsində əzəmətli sənətkarın əsərlərinin "həyatı"nda yeni bir mərhələnin başlanmasını da xüsusi qeyd etmək zəruriyyətini duyuram.

Aqşin müəllim – böyük amallarla yaşayan, mədəniyyətimiz üçün can yandıran şəxsiyyət - bəstəkar, müəllim, İttifaqın rəhbəri haqqında daha çox xatirələrim və düşüncələrimlə bölüşə bilərəm. Ona minnətdarlığım sonsuz! Bu qeydlərimi qələmə aldığım günləri, saatları da sanki mənəviyyat aləminə səyahət kimi dəyərləndirirəm. Amma yəqin ki, durğu işarəsi - yekunlaşdırıcı, təsdiqləyici yox - qoymaq vaxtıdır. Və sonda belə bir xatirə.

Aqşin müəllim bəzi müvəffəqiyyətlərimdən sonra mütləq deyərdi: "Amma arxayın olma, fəxarət hissinə uyma..." Çox düşündüm yazım bu barədə, yoxsa... 10 il əvvəl (2012-ci ildə) həyatımda yuvarlaq tarix qeyd edirdim. Ad günümdən bir gün öncə Aqşin müəllim zəng çaldı. Mən həmin an hay-küylü bir məkanda idim, amma sanki təcridolunma səhnəsi – kinematoqrafdakı kimi – yaranmışdı, müəllimimin səsi də elə aydın eşidilirdi: "Bilirəm, sabah sənə çox adam telefon açacaq, odur əvvəlcədən təbrik etmək qərarına gəldim..." Xoş diləklərini ifadə etdikdən sonra o, aramla söylədi: "Onu da bil ki, haqqımda ən yaxşı yazını sən yazmısan"... Başa düşürəm ki, bu sözlər, çox ehtimal, Aqşin müəllimin böyük ürəyinin diktəsi ilə deyilən sözlər idi - ad günümdə məni sadəcə olaraq sevindirmək istəyirdi... Amma axı çox incə məqamdır... Duyğusal... Kövrək... Unudulmaz...

Bakı, Azərbaycan.
14.04.2022

**Cahangir SƏLİMXANOV**
Əməkdar incəsənət xadimi

## AQŞİN ƏLİZADƏNİN MUSİQİ İRSİ AZƏRBAYCAN BƏSTƏKARLIQ MƏKTƏBİNİN ƏN DƏYƏRLİ SƏHİFƏLƏRİ İÇƏRİSİNDƏ



Aqşin Əlizadə haqqında məlumatım hələ onunla əyani tanışlığımdan uzun müddət əvvəl var idi. Məktəbli yaşlarımdan müasir musiqi ilə maraqlandığım üçün Xəyyam Mirzəzadə, Fərəc Qarayev, Arif Məlikov ilə yanaşı A.Əlizadənin də əsərlərini dinləmişdim. Obrazları gözlərimdə canlanan həmin bəstəkarlarla sonralar canlı şəkildə tanış olub ünsiyyət qurdum. A.Əlizadəni ilk dəfə təsadüfən konsertlərin birində onu mənə göstərəndə zahirən tanıdım.

Aqşin müəllimdən bir neçə yaş böyük olan anam Güllü Haqverdiyeva onun haqqında danışarkən ilk harmoniya müəllimi olduğunu yarı zarafat, yarı doğru şəkildə qeyd edirdi. “Güllü xanım mənim harmoniya müəllimim olub” deməklə bunu həmişə Aqşin müəllim özü də təsdiqləyirdi. Konservatoriyada arfa sinfində oxuduğu illərdə xüsusi təqaüd alan, göz önündə olan aparıcı tələbələrdən biri hesab edilən anam bütün digər fənlərlə yanaşı musiqi nəzəriyyəsi və harmoniyadan da əla biliklərə malik idi. Aqşin müəllimin anası Pikə xanım Tibb Universitetində anatomiya kafedrasının professoru olduğu dövrdə anamın dayısı respublikamızda anatomiyanın əsaslarını qoyan, ilk dəfə Azərbaycan dilində anatomiya dərsliyi tərtib edən alim Kamil Balakişiyev həmin kafedraya rəhbərlik edirdi. Bu iki ailə bir-birini yaxşı tanıyırdı. Pikə xanım oğlunun harmoniyadan əlavə dərslərə ehtiyacı olduğunu demiş və Güllü xanımdan onunla məşğul olmasını xahiş etmişdi. “Əslində çox böyük istedada malik Aqşinin məktəbli uşaq ikən bizə gəldiyini və ona sadəcə yol göstərmək lazım olduğunu” deyən anam onun bir neçə dərsə mövzuları qavradığını qeyd edirdi. Sonralar böyük bəstəkar olan A.Əlizadə haqqında onun harmoniya müəlliminin Güllü xanım olduğunu zarafatyana söyləyərkən Aqşin müəllim özü də həmişə bunu etiraf edir və hər dəfə çox minnətdarlıqla bu faktı yada salırdı.

A.Əlizadənin orkestrləşmə sinfində təhsil aldığım illərdə onun çox tələbkar müəllim olduğunu müşahidə etmişəm. O, bizim tələbə əli ilə yazdığımız qeyri-sərrast cızma-qaralarımıza baxarkən dərhal bütün nöqsanları üzə çıxarırdı. Belə bir hadisəni indi də yada salıram. Bir müddət dərsə gedə bilmədikdən sonra partituraya hansısa kiçik düzəlişlər edib yenidən həmin əsərlə onun yanına gedəndə "bax indi tamam başqa məsələ. Görürəm ki, bu partituranın üzərində işləmisən" deyib öz fikrini bildirmişdi. Bunun məni ruhlandırmaq məqsədilə bağlılığını və ya etdiyim cüzi düzəlişlərin orada əhəmiyyətli təsirə malik olduğu ilə əlaqəsini indiyə qədər hələ də müəyyən edə bilməmişəm.



***Soldan sağa: Hacı Xanməmmədov, Bəxtiyar Kərimov, Firəngiz Əlizadə, Tixon Xrennikov, Musa Mirzəyev, Aqşin Əlizadə, Polad Bülbül oğlu***

A.Əlizadə musiqisinin ən üstün cəhətlərindən birinin onun orkestrləşdirməsi ilə əlaqəli olduğu bizə hələ o vaxtlar da məlum idi. Bununla bağlı belə bir faktı yada salıram. "Babək" baletinin Azərbaycan Bəstəkarlar İttifaqında fortepiano ilə təqdimatındakı dinləmədən sonra xeyli tənqidi fikirlərin səsləndiyini qeyd etmək istəyirəm. Həmin təqdimatdan əvvəl mən Azərbaycan Bəstəkarlar İttifaqında çalışdığım üçün bu barədə müəyyən qədər məlumatlı idim. Dinləmə zamanı musiqinin çox sadə melodik və harmonik dilə malik olduğu və o qədər də maraq kəsb etmədiyi söylənmişdi. XX əsrin sonuna uyğun dövrdə, özü də qəhrəmanlıq

mövzusuna qarşı o qədər də gözləniləcək mürəkkəb simfonizm inkişafı və s. keyfiyyətləri çoxları üçün elə bil ki, kifayət deyildi. Əvvəllər Lenin sarayı adlanan indiki H.Əliyev adına Sarayda bu baletin premyerası keçiriləndə (1986) həqiqətən də hər kəs üçün möcüzə baş verdiyi yaxşı yadımdadır. Əsərin premyerasında sadə melodik xətlər, şəffaf, aydın harmoniyalar, öz-özünə çox təbii səslənən ahənglər möcüzə yaradırdı. Sanki ona heç bəstəkar əli dəyməmişdi və səslənən musiqi insanın qəlbindən süzülürdü. Bu musiqi bir konstruksiya kimi qurulmamış, elə bil özü bir ağac kimi bitmişdi. Bunun sirri isə A.Əlizadənin qeyri-adi orkestrləşdirməsində idi. Bütün bunlar onun orkestri çox yüksək səviyyədə bilməsi, müxtəlif tembrləri duyması, ayrı-ayrı səsləri yerində tapması və bir-birilə uzlaşdırmasından irəli gəlirdi. Bir daha vurğulamaq istəyirəm – pianoda hədsiz sadə səslənən musiqi orkestrdə sanki əlvan cazibədar sima kəsb etməyə başlayırdı.

A.Əlizadə ilə bağlı digər xatirəm 2014-cü ildə Bakıda Mədəniyyət Nazirliyinin YUNESKO ilə bağlı böyük bir beynəlxalq tədbirin keçirilməsi ilə əlamətdardır. Məndən bu mötəbər beynəlxalq toplantının qonaqları üçün iclaslardan sonrakı axşamın musiqi proqramına təklif verməyim sifariş olunmuşdu. O zaman mən



***"Babək" baletindən səhnə. 1979-cu il.***
***Babək rolunda Vitali Axundov***

simfonik əsərlərdən ibarət və özündə işıq effektləri, hərəkət, dekorasiya və musiqini birləşdirən sintetik konsert-tamaşanın keçirilməsini təklif etdim. Əsərləri seçməyə başladıqdan sonra bu işə hollandiyalı rejissor xanım Rozvita Berqmanı da cəlb etmək qərarına gəldik. Rozvita xanım ilə yazışmağa başladıqdan sonra ona Ü.Hacıbəyli, Q.Qarayev və nəzərdə tutduğum digər bəstəkarlarımızın əsərlərinin siyahısını göndərdim. Əvvəllər Azərbaycan musiqisi haqqında heç bir məlumatı olmayan xanım R.Berqmanın öz tapıntısı barədə mənə bildirdiyi təklifi ürəyimcə oldu. Bu onun valeh olduğu A.Əlizadənin IV "Muğamvari" simfoniyası idi. Azərbaycan musiqisi ilə tanış olmayan bu xanım simfoniyanı dinləyəndən sonra "bu əsər mənim üçün çox sevindirici tapıntıdır. Doğurdan da bu sizin musiqinin əsl şah əsəridir" dedi. Həmin əsəri həqiqətən sevdiyimi ona söylədikdən sonra onu proqrama daxil etdik. Çox gözəl meditativ ab-havası olan bu musiqi həmin tədbir üçün səhnə vasitələri ilə bir qədər də gücləndirilmişdi. Heykəltəraş Rəşad Ələkbərovun kiçik bir heykəli əsasında qurulmuş beş mərtəbəli məftillərdən bir-birinə bağlanmış xaotik görünən nəhəng bir konstruksiyanın üstünə bucaqdan işıq salınır və həmin instalyasiya özlüyündə bir yazı əmələ gətirirdi. Yalnız atılan



***"Babək" baletindən kütləvi səhnə. "Babəkilərin bayramı". 1979-cu il***

kölgə əsasında onun mənası aydın olurdu. Bunu xarici rejissor R.Berqman R.Ələkbərovun emalatxanasında görəndən sonra tapıntısı barədə bizə məlumat vermişdi. Nəhəng səhnədə on dəfəyə qədər böyüdülən bu görüntü beş mərtəbəli konstruksiyadan ibarət idi ki, içindəki körpülərdə və keçidlərdə rəqqaslar, aktyorlar, musiqiçilər və ən yuxarıda beşinci qatda isə xanəndə yerləşirdi. Simfoniyanın sonunda xanəndə Teyyub Aslanov tərəfindən ifa edilən fraqment həm əsərə, həm də səhnədəki görüntülərə unudulmaz effekt verirdi. Beşinci qatda əks olunan möcüzəli işıq effektləri sanki xanəndəni minbərdəki müəzzinə bənzədirdi.

Yeri gəlmişkən, haşiyə çıxıb maraqlı bir faktı da yada salıram. A.Əlizadənin IV simfoniyasının Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən premyerasında (1985) xanəndə partiyasının ifasına tanınmış muğam ustadımız Alim Qasımov cəlb olunmuşdu. Eşitmə duyumu çox səlis olan görkəmli xanəndə sanki vəcdə gələrək daha da zil səsdən, amma ahəngi pozmadan, harmoniyaya uyğun olaraq öz partiyasını



***Rövşən Əmrahov, Aqşin Əlizadə və başqaları.***
***Aqşin Əlizadənin 70 illik yubiley gecəsi. Aprel, 2007-ci il***

bir kvarta yuxarıdan oxumağa başlamışdı. Məlumdur ki, A.Qasımov ən dramatik və həyəcanlı anları çox zildə oxuyur. Güman ki, həmin tonallıq ona kifayət etmədiyi üçün o, başqa yüksəklikdə bu fraqmenti ifa etmişdi. Bu hadisə onu dinləyən musiqiçilərin hamısının çox yaxşı yadındadır!.

Aqşin müəllimlə gündəlik ünsiyyətdə olmamağıma və tez-tez görüşməməyimə baxmayaraq, mənə həmişə böyük qayğı və hörmətlə yanaşdığını müşahidə etmişəm. Son illər onunla söhbətlərimizin birində Fərəc Qarayevlə qurduğumuz "Yeni Musiqi" Müasir musiqi cəmiyyəti vasitəsi ilə bizim bəstəkarlar üçün xarici ölkələrdə ifalar, sifarişlər və s. təşkil etdiyimi bildirmiş və bəstəkarlarımızdan biri ilə aramızda yaranmış mübahisəli söhbəti onun nəzərinə çatdırmışdım. Həmin bəstəkara bu sifarişi "Yeni Musiqi" Cəmiyyəti təşkil etdiyinə görə sizə düşən qonorardan bizim də xidmətimizi nəzərə almalı olduğunu söyləyəndə "bu mənim yaradıcılığımdır" deyib razılaşmamışdı. Mən həmin şəxsə Almaniyada Hans Sikorskinin fəaliyyətini diqqətinə çatdıranda "axı sən mənə o qədər sərmayə qoymamısan" deyərək etiraz etmişdi. Mən bunu Aqşin müəllimə sözarası danışanda o, "sən mənim üçün həm Hans Sikorskisən, həm Schott, həm Ricordi, həm də başqa nəşriyyatlarsan. Hesab elə ki, mən sənə öz yaradıcılığımın təbliğini - əsərlərimin nəşrini və ifalarını tam həvalə edirəm. Alınan gəlirdən nə qədər əldə etməlisənsə o da sənə halaldır". Əfsuslar olsun ki, mənə verilən həmin tövsiyəni yerinə yetirməyə fürsət tapmadım. Amma bunu A.Əlizadə tərəfindən mənə olan bir mənəvi dayaq hesab edirəm.

Həmin görüşdən xeyli müddət keçdikdən sonra, rəhmətə getməmişdən təxminən yarım il əvvəl mənim mobil telefonuma Aqşin müəllim zəng vurdu və özünü təqdim edərkən belə dedi: "Tanıdın? Aqşin Əlizadədir. Mən öz telefon kitabçamı vərəqləyəndə sənin nömrən qarşıma çıxdı. Çoxdandır ki, səninlə əlaqəm yoxdur. Özün necəsən, işlərin necə gedir?" Bu qayğını və nəvazişi mən heç vaxt yadımdan çıxarmıram. Adətən biz bir-birimizi işimiz düşəndə yada salırıq və zəng vururuq, hətta qohumlar arasında da son vaxtlar belə olub. Bir-birindən hal-əhval tutmaq dəbdən düşüb. Aqşin müəllimin məndən asılı bir işi yox idi. Amma məni necə dəyərləndirirdi ki, işlərimin necə getdiyini, nə ilə məşğul olduğumla maraqlanmağı özünə lazım bilmişdi. Çox əfsuslar ki, telefon əlaqəmizdən bir neçə ay sonra A.Əlizadəni itirməyimizlə bağlı bəd xəbər gəldi. Allah bu böyük insana rəhmət eləsin, onun parlaq siması daim yaddaşlarda qalacaq.

Bakı, Azərbaycan.
12.01.2020

**Лейла МАМЕДОВА-ФАРАДЖЕВА**
Заслуженный учитель,
доктор философии по искусствоведения, профессор

## «ОДЛАР ЙУРДУНУН СЕСИ»

«Вечером никто не знает,
доживет ли до утра,
Посему необходимо
сеять семена добра»
Низами Гянджеви
(перевод В. Кафарова)



***Акшин Ализаде. 1994 г***

...Это было в конце 1989 года, в очень тяжелые дни для нашей республики, в период, когда царил полнейший хаос, когда дойти до дома или до работы без происшествий - стало особой радостью. Развал СССР, брожение умов, митинги и толпы недовольных, начало притока беженцев с территории Нагорного Карабаха, господство досады и недовольства... И, да! Чувство безысходности, тотальной незащищенности перед потенциальным «врагом», перед неясным, туманным будущим. Нас, молодежь, подобная ситуация особенно удручала. Мы были полны сил и энергии, но, наблюдая происходящее вокруг, потеряли веру в сегодняшний день и не верили в счастливое, безоблачное будущее. К сожалению, предчувствия нас не обманули. На пороге стоял кровавый черный январь 1990 года...

Так сложилось, что именно в этот период произошло наше личное знакомство с Агшином Ализаде - я тогда впервые переступила порог Союза Композиторов в качестве сотрудника коллектива. С высоты прожитых лет, нужно признать, что это был день, который изменил всю мою жизнь. И я всегда буду благодарна нашей коллеге, замечательному музыковеду Заслуженному деятелю искусств, профессору Зюмруд ханум Дадашзаде за оказанное мне доверие и за то, что именно она порекомендовала меня А.Ализаде.

Об А.Ализаде можно говорить очень много. Это тема для долгих и серьёзных размышлений, требующая основательного аналитического подхода. Причем, всегда найдется что-то новое, всегда есть за что «зацепиться», - настолько глубок и совершенен музыкальный язык композитора. И даже небольшое эссе о нем равносильно написанию симфонической увертюры или увертюры к крупномасштабной опере.

Честно признаюсь, что порой меня коробит от смелости некоторых некомпетентных авторов, берущихся за анализ творчества наших выдающихся мастеров, таких как А.Ализаде. Ибо его личность, уникальность его композиторского дарования не терпит произвольность выбора исследования, и, тем более, стереотипность, поспешность и усредненность выводов. Агшин Алиевич – глыба, Персона, до которой, как говорится, так просто рукой не достанешь. Нужно постоянно думать о том, насколько правильно ты пишешь о нем, насколько профессионально анализируешь его творчество. И даже


Д И П Л О М

II степени

Композитор АЛИ-ЗАДЕ АКШИН АЛИ-КУЛИ оглы удостоен Второй премии и звания лауреата III Всесоюзного смотра творчества молодых композиторов за 9 хоров без сопровождения "БАЯТЫЛАР"

ПРЕДСЕДАТЕЛЬ ЖЮРИ

ЧЛЕНЫ ЖЮРИ

МОСКВА, 1968–1969

Копия верна: Ст. консультант Союза композиторов Азерб. ССР

сейчас, спустя годы, очень хочется заслужить его одобрение, что всегда было очень сложно, и вместе с тем лестно.

Тем не менее, мне хотелось бы хотя бы коротко, тезисно остановиться на некоторых, на мой взгляд, очень важных, ключевых моментах характеризующих Акшина Ализаде с профессиональной точки зрения:

- Во-первых: вклад А.Ализаде в историю развития азербайджанской музыки неоценим. Его наследие – наше национальное достояние. Главной и первостепенной заслугой А.Ализаде следует признать то, что он сумел найти и создать свой особый стиль. Стиль, который можно прочувствовать и распознать, стиль, которому сейчас уже подражают (и это не так плохо, ведь именно так молодой композитор может многому научиться), и, наконец, стиль - как знамение времени, эпохи замечательных мастеров.

- Во-вторых: в современной азербайджанской композиторской школе найдется не так много авторов, у которых национальное музыкальное мышление воплощалось бы в творчестве посредством современной композиторской техники так высокопрофессионально, как у А.Ализаде. И, по моему глубокому убеждению, именно у него это слияние выражается самым есте-



***Мероприятие в Государственном музее музыкальной культуры Азербайджана. Слева на право: Севда Мамедалиева, Мурад Адыгезал-заде, Акшин Ализаде. Задний ряд: Лала Гусейнова, Фуад Мамедов и др.***

ственным, неподдельным, безыскусственным образом. Вся эта, казалось бы, непринужденность, плавность течения композиторской мысли А.Ализаде не может не восхищать! Здесь нет вымученной надуманности, а есть главное – хрустальная прозрачность интонации, в то же самое время мощность и пронзительность силы выражения.

- В-третьих: необходимо отметить особую близость автора к народному фольклору, его бережное отношение к нему. В его сочинениях никогда не встретишь беспощадного тиражирования, эксплуатации материала народной музыки. В каждом случае это скрупулезная работа, на грани изящества и величественности. Он бесконечно и глубоко народный композитор.

- В-четвертых: очень важно то, что его музыка всегда находит горячий отклик в сердцах широких масс, была, есть и будет очень популярна среди азербайджанского народа. И это одно из главных достижений для творческого человека, ведь именно в этом его предназначение.

- В-пятых: творчество А.Ализаде - весомый вклад не только в азербайджанскую музыку, она понятна и интересна во всем мире. Ибо в каждом своем сочинении он пытался выявить глубинные процессы человеческой души, которые видны только художественномувзгляду, человеку с большим сердцем и богатым внутренним миром.




Стоит подчеркнуть и то, что затронув в своем творчестве практически все жанры, А.Ализаде обошел только жанр оперы. Он слишком много сил отдал балету «Бабек», поэтому не стал «перестраиваться». Считая себя специалистом в области хоровой музыки, могу лишь сокрушаться по этому поводу, ибо уверена, что это был бы очередной шедевр. Такой же, как и каждое хоровое полотно А.Ализаде - «Баятылар» для хора a`cappella (1968г.), кантата «Азерилер» (1976г.), кантата «Празднество» (1977г.), «Старинная колыбельная» для хора a`cappella (1984г.), ода «Ана торпаг» (1993г.) и др. Все эти сочинения абсолютно разные как по масштабам, так и по художественно-эстетической значимости, и, вместе с тем, каждое из них – новое слово в азербайджанской хоровой музыке, более того, именно они характеризуют новую волну в её развитии.



***Союз Композиторов Азербайджана. Слева на право: Рауф Алиев, Яшар Иманов, Азер Рзаев, Октай Зульфугаров, Фирангиз Ализаде, Рамиз Зохрабов, Акшин Ализаде, Земфира Кафарова, Рена Мамедова***

Сейчас очень грустно вспоминать, что в последние годы Агшин Алиевич часто сетовал, что наши молодые композиторы довольно редко обращаются к хоровому жанру, и что давно не появлялись хоровые сочинения нового качества, нового мышления. А ведь в его опыте есть немало поучительного! В первую очередь - мастерское владение фактурой, и при этом - мудрая простота в выборе музыкально-выразительных средств и приёмов хорового письма и др. Хоровая музыка А.Агшина – кладезь интереснейших находок в области хоровой звучности, там есть и акварельная пейзажность, и архаичность музыкального языка, есть и торжественный подъем, и монументальность, и искрометный юмор, и праздничный фейерверк и мн.др. И это порой при довольно «прозрачной» партитуре! В этом и есть весь Агшин Ализаде! Он и сам был немногословен, и вся его музыка может говорить без лишних слов. Как тут не вспомнить известную фразу А.П.Чехова: «Краткость – сестра таланта»!

Именно таких качеств и не хватает многим современным хоровым опусам. Речь идёт не о сетовании по поводу отсутствия партитур. Речь

идёт о необходимости создания ярких, колоритных, подлинно современных хоровых сочинений, в которых можно было бы почувствовать веяние 21 века.

…Обыватели и люди далекие от музыки часто полагают, что искусство приносит его служителям легкий хлеб. Но нет, это не так, скорее, с точностью до наоборот. Люди творческих профессий ведут жизнь полную труда и самоограничения. Они все время находятся в борьбе и в исканиях, со своими мыслями, со своими идеями. Глядя на А.Ализаде можно было сказать то же самое. Личный пример Агшина Алиевича был и остается для нас непререкаемым образцом. Он не допускал никаких снисхождений к себе, ни к своим близким. Никогда и ни в чем. Всем своим поведением А.Ализаде учил нас, молодежь, не только профессиональным навыкам, но и творческой самокритике. Если он говорил «хорошо», — это всегда означало лишь одно: оценку того, что сделано им или его учениками сегодня, сейчас, в данный момент. Ибо нет и не может быть решения, которое человеку, находящемуся в творческом поиске, удавалось бы исчерпать до конца, в котором бы не оставалось каких-либо неизвестных, потайных ходов, и которое бы не вдохновляло его на новые искания.

…Вспоминается одна из наших последних бесед с Агшином Ализаде, о его 5 симфонии. Нужно сказать, что меня очень впечатлило это сочинение. Я сказала: «Агшин Алиевич! Слушая ее, я как будто читала Ваши мысли, как будто ощущала перед собой Ваш образ, раскрывающий безмерную печаль в Вашем сердце… Это и скорбь, и трагедия человека, живущего во времена варварской оккупации родных земель… Это и боль уставшего, много что повидавшего в жизни человека… Это и горечь о том, что жизнь проходит, и все что Вы смогли сделать в этой жизни, как композитор и гражданин, Вы уже сделали, исчерпав свою душу до конца… ». Про себя я думала, что музыка этой симфонии своего рода завещание и наставление молодым, но вслух этого, конечно же, не высказала… Но, я думаю, он меня понял. До сих пор помню, как пристально он тогда посмотрел на меня, неожиданно улыбнулся и сказал: «*Я рад, что ты так правильно меня поняла. Мне трудно говорить о самом себе, о том, что я сделал, но мне очень радостно, когда люди сами догадываются и понимают то, о чем я хотел сказать в том или ином сочинении. Значит, мой труд не пропал даром. Значит, я не зря живу… Я считаю, что я уже что-то сделал для азербайджанской музыки. И даже на старо-*

*сти лет, лично я ничего выше музыки в жизни человеческой не вижу*».

Его нет среди нас вот уже более 10 лет, и с каждым годом мы все больше и больше понимаем его роль и значение в азербайджанской музыкальной культуре. Уверена, что с каждым годом это будет все заметнее. Как писал С. Есенин - «Большое видится на расстоянии». Бесконечно жаль терять таких мастеров, учителей, людей… Спасибо им за то богатое наследие, которое они оставили нам, вписав свое имя навечно в историю музыки Азербайджана!

…В кантате «Азерилер» 4 часть называется «Одлар Йурдунун сеси» - «Голос Страны Огней». Размышляя сегодня об Агшине Алиевиче, подумалось, что голос Страны Огней – это и его голос. Голос человека, всю свою жизнь посвятившего Родине, Азербайджану, Стране огней. И если и есть у этой страны голос, то это – голос Музыки. Музыки наших выдающихся композиторов, в числе которых Агшин Ализаде занимает самое почётное место.

Баку, Азербайджан
22.11.2019

**Sevda HÜSEYNOVA**

## GÖRKƏMLİ BƏSTƏKAR, ƏSL VƏTƏNDAŞ, MÜBARİZ İNSAN

Aqşin Əlizadə müasir Azərbaycan musiqi mədəniyyətinin ən parlaq simalarından biridir. Bəstəkarın dünyagörüşünə xas olan əsas cəhətlər – gerçəkliyin obyektiv inikası, təbiətlə insanın ümumbəşəri vəhdəti, insanpərvərlik, mübarizlik ideyaları onun bütün yaradıcılığı boyu inkişaf etdirilmişdir. Bütün bu xüsusiyyətlər A.Əlizadənin bir şəxsiyyət kimi – görkəmli bəstəkar, əsl vətəndaş və mübariz insan kimi formalaşmasına sirayət etmişdi.

Belə bir görkəmli şəxsiyyətlə tanışlığım tələbəlik illərimə - Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) "Tarix-nəzəriyyə" fakultəsinin IV kursunda təhsil aldığım illərə (1987-1988) təsadüf edir. İxtisas üzrə elmi rəhbərim professor Gövhər xanım Hüseynova mənə A.Əlizadənin simfoniyaları haqqında diplom işi yazmağı məsləhət gördü. Bu çox maraqlı və çətin mövzu idi. Çünki A.Əlizadə haqqında yazılmış ədəbiyyat çox az idi, əsərləri təhlil olunmamışdı. Hətta dördüncü simfoniyası yeni ifa edilmişdi. Bu simfoniyanın filarmoniyada baş



*Aqşin Əlizadə. 1978-ci il*



*Soldan sağa: Aqşin Əlizadə, Hacı Xanməmmədov, Dadaş Dadaşov, Ramiz Ağazadə, Nazim Əliverdibəyov, Ramiz Mustafayev, Rövşən Məmmədov. Bakı. İyun, 1981-ci il*

tutmuş premyerasını dinləmək mənə də nəsib olmuşdu. Simfoniyaların notları nəşr edilməmişdi. Mən ilk növbədə bu əsərlərin notlarını və lent yazılarını əldə etməli idim.

Həmin dövrdə A.Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının Birinci Katibi (1985-1990) vəzifəsində çalışırdı. Bəstəkarlar İttifaqında Aqşin müəllim məni səmimiyyətlə qarşıladı. Onun simfoniyaları haqqında diplom işi yazmalı olduğumu öyrəndikdə, böyük məmnuniyyətlə öz simfoniyalarının partituralarını mənə təqdim etdi və yaradıcılığı haqqında, ümumiyyətlə, musiqi incəsənəti və bəstəkarlıq barədə maraqlı fikirlər söylədi. Mən müəyyən bir müddət ərzində Bəstəkarlar İttifaqının “Səsyazma otağı”nda bu simfoniyaların lent yazılarını dinlədim, lazımi qeydlər apardım, simfoniyaların geniş təhlilinə başladım.

A.Əlizadənin simfoniyalarını təhlil etdikcə, bəstəkarın “yaradıcılıq laboratoriyası”na daha dərindən daxil olduqca, onun musiqi təfəkkürünün prinsiplərini, yaradıcılığının üslub əsaslarını qavramağa, musiqişünaslıq nöqteyi-nəzərindən tədqiq etməyə çalışdım. İş prosesində bilavasitə, bəstəkarın yaradıcılıq kredosunun əsas qayəsini - xalq musiqi ənənələrinin simfonik musiqi orbitinə daxil edilməsi, bu ənənələrin yenilik, müasirlik baxımından inkişaf etdirilərək, əsil novator sənətkar kimi özünəməxsus tərzdə ifadə olunmasını müəyyənləşdirdim.

Millilik prinsipi bəstəkarın nəinki simfoniyalarında, eləcə də bütün yaradıcılığı boyu “qırmızı xətlə” keçir. A.Əlizadənin xüsusilə, simfoniyalarında millilik daha geniş anlayış kimi şərh olunur. Milli qaynaqlarla bağlılıq yalnız xalq musiqi elementlərinin istifadə olunmasında deyil, həmçinin təfəkkür tipində, materialın inkişaf üsulunda, obrazlar aləminin emosionallığında özünü büruzə verir. Musiqi folkloruna olan münasibətini bəstəkar özü belə ifadə edirdi: “Hər bir bəstəkarın milli siması olmalıdır. Çünki əsl sənətkar yalnız öz xalqı tərəfindən yüksək qiymətləndirilə bilər. Buna görə də millilik onun bütün mənəviyyatına, dünyagörüşünə hopmalıdır”.

Öz fərdi yaradıcılıq üslubunu təkmilləşdirməyə, hər hansı bir musiqi janrında “yeni söz” deməyə çalışaraq, A.Əlizadə ənənəvi vasitələr üçün yeni bədii ifadə üsulları axtarırdı. Bəstəkarın yeniliyə, novatorluğa doğru meyli onun zamanın tələbi ilə ayaqlaşmaq istəyilə, dövrünün nəbzini tutmaq bacarığı ilə səsləşirdi. Məhz buna görə də bəstəkarın yaradıcılığında ənənə və novatorluq müasirlik baxımından həyata keçirilmişdir.

...1988-ci il iyunun 7-də “Aqşin Əlizadə simfoniyalarının melodikasına musiqi folklorunun təsiri və onun inkişaf üsulları” mövzusunda diplom işimi müvəffəqiyyətlə müdafiə etdim. Dövlət İmtahan Komissiyasının sədri – P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru Yelena Dolinskaya tədqiqat işimi yüksək qiymətləndirdi. Hətta, Aqşin müəllimə müraciət edərək,




***Aqşin Əlizadə maestro Niyazinin anadan olmasının 90 illik yubileyi münasibətilə onun mənzil muzeyində çıxış edərkən. Bakı, 05.12.2002-ci il***

gələcəkdə mənim Bəstəkarlar İttifaqında çalışmağımı məsləhət gördü. Elə həmin ildən mən Azərbaycan Bəstəkarlar İttifaqında əmək fəaliyyətinə başladım. 30 ildən artıqdır, Azərbaycan Bəstəkarlar İttifaqında müxtəlif vəzifələrdə, hazırda isə baş məsləhətçi kimi çalışıram. Bəstəkarlar İttifaqında Aqşin müəllim öz ətrafına peşəkar, istedadlı, çalışqan, vətənpərvər gənc bəstəkarları və musiqişünasları toplamışdı. Aqşin müəllimin rəhbərliyi ilə çalışmaq böyük məsuliyyət tələb edirdi. O, çox tələbkar, nizam-intizama ciddi nəzarət edən, eyni zamanda peşəkarlığa yüksək qiymət verən, yeni ideyalara, maraqlı fikirlərə geniş yol açan əsl maarifpərvər insan idi.

2007-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının VIII Qurultayında Aqşin Əlizadə ABİ İdarə Heyətinin Katibi seçildi. Aqşin müəllim yenidən həmkarımız olaraq dəyərli tövsiyələri və məsləhətləri ilə təşkilatımızın fəaliyyətinə öz töhfəsini verdi.

A.Əlizadə öz millətinin təəssübünü çəkən, bütün qəlbi ilə xalqına bağlı olan əsl vətəndaş idi. O, Vətənimizin ağrılı-acılı illərində - milli dirçəliş və azadlıq hərəkatı dövründə, qanlı 20 Yanvar faciəsi, Qarabağ müharibəsi illərində öz vətəndaşlıq mövqeyini açıq şəkildə ifadə edərək, daima xalqımızın azadlıq mübarizəsinin ön cərgələrində olmuş, böyük əzmlə bütün həmkarlarını milli



*Soldan sağa: Sevda Hüseynova, Leyla Məmmədova-Fərəcova, Leyla Zöhrabova, Aqşin Əlizadə, Ramiz Zöhrabov və Lalə Hüseynova*



*Azərbaycan Dövlət Opera və Balet teatrında. "Qafqaza səyahət" baletinə baxışdan sonra. 28.11.2002-ci il. Soldan sağa: Sevda Hüseynova, Zümrüd Dadaşzadə, Rəhilə Həsənova, Qalina Əlizadə, Nərgiz Şəfiyeva, İsmayıl Hacıbəyov, Aqşin Əlizadə, Natalya Dadaşova, Fərəh Əliyeva, Lalə Hüseynova, Leyla Məmmədova-Fərəcova*

azadlıq hərəkatına səsləmişdir. Mübarizlik onun genetik kodunda var idi. Onun doğma dayısı Mehdi Hüseynzadə - Azərbaycanın əfsanəvi igid kəşfiyyatçısı Böyük Vətən Müharibəsi illərində qəhrəmanlıqla həlak olmuşdu...

Ümumiyyətlə, A.Əlizadənin yaradıcılığının əsas dramaturji qayəsini təşkil edən qəhrəmanlıq mövzusu onun müxtəlif janrlı əsərlərində, xüsusilə, Azərbaycan musiqi mədəniyyəti tarixinə ilk qəhrəmanlıq baleti kimi daxil olmuş "Babək" baletində öz parlaq təcəssümünü tapmışdır. Çox xoşbəxtəm ki, bu möhtəşəm əsərin premyerasını görmək səadəti mənə də nəsib olmuşdur...

Görkəmli bəstəkar, əsl vətəndaş və mübariz insan - Aqşin Əlizadənin əziz xatirəsi daima qəlbimizdə yaşayacaq. Onun əsrarəngiz musiqisi həmişə səslənərək, xalqımızı yeni hünərlərə ruhlandıracaq.

Bakı, Azərbaycan.
30.01.2020

**Рауф ФАРХАДОВ**
Доктор искусствоведения, профессор

## АКШИН АЛИЗАДЕ: ВЕРСИИ И ПРЕДПОЛОЖЕНИЯ

Сказать, что близко знал Акшина Ализаде, или, что регулярно ходил на его занятия в консерватории, или, что нечастые наши общения были всегда творчески, интеллектуально, информативно насыщенными и захватывающими, значит, явно преувеличить и ввести читателя в заблуждение. Нет, не дружили (что, собственно, и не было возможным в силу 20-летней возрастной разницы), нет, не числил себя его пусть даже косвенным учеником, нет, не являлся особым приверженцем его творчества. Правда, он был в хороших отношениях с моими родителями, которые всегда с большим интересом и теплом относились к его искусству. Но то родители! Моя же благодарность к этому человеку, чаще всего, сводилась к тому, что в бытность, когда Ализаде возглав-



*Акшин Ализаде. 1991 г*



***Слева на право: Задний ряд: Акшин Ализаде, иностранные гости, Игорь Ойстрах (пятый); Фирангиз Ализаде (второй слева), в первом ряду в середине Тихон Хренников, Рамазан Халилов и др. 1982 г.***

лял Союз композиторов Азербайджана, был принят в его ряды (и, следовательно, в ряды Союза композиторов СССР).

Тогда почему же вдруг про АА? Как ни странно, но дело в Бартоке. Писал тут текст о музыке венгерского мастера, о том, как складывалось, формировалось его уникальное полифольклорное мышление.

Мышление, основанное на новаторском претворении полиладовых, полиритмических, полиметрических, политональных композиционных принципах, близких нестандартным и несинхронным структурам этнографического жанра. О парадоксальном сочетании метроритмических, ладовых и тембровых сдвигов, фольклорных параллелизмов, кварто- секундовости гармонического языка, об органическом сочетании диатоники и хроматики вкупе со строгим рационализмом, конструктивизмом и современной композиторской технологией. Писал про Бартока, а после поймал себя на мысли, что ведь многое из того, что связано с искусством великого венгра, напрямую соотносится и с творчеством АА?! При всем том, что в музыке Ализаде больше влияний и ассоциаций с К. Караевым, Ф. Амировым, Дж. Гаджиевым, И. Стравинским, К. Орфом, В. Лютославским, К. Пендерецким (тут вам




и стравинско-караевский неоклассицизм, и произрастание всей музыкальной ткани из начальной ритмо-попевки, и амировские, гаджиевские мугамные принципы в качестве формообразующей мысли, и орфовская оркестро-хоровая прозрачность и ясность, и сонорные вокальные приёмы, секундовые расщепления-наслоения польских авангардистов…), в своей глубинной основе, в глубинном понимании и опоре своей музыки ни на какой один фольклорный жанр и источник, в осознании своего музыкального языка как многоладового и многофольклорного, АА гораздо ближе к музыкальной философии автора «Музыки для струнных, ударных и челесты».

Более того, в случае с А.Ализаде и Бартоком вполне соглашусь с мыслью о том, что не всегда следует отслеживать всю цепь причин того или иного следствия, когда вполне достаточно знать ближайшее его основание. Потому что в этом ближайшем заключена и вся цепь причин, и все прежние осознания в своей целостности и совокупности. Да, конечно, истоки творчества А.Ализаде лежат в древнейших пластах национальной музыкальной традиции: от мугама, ашыгского искусства до песенно-танцевальной стихии и ренгов с теснифами. И конечно, многое пришло к нему и от классиков азербайджанской музыки, в частности, Узеира Гаджибекова. И доминирующая пасторальность, живописательность произведений А. Ализаде – тоже связана с картинами народной жизни, природы, празднеств, сказаний и историй. Плюс наверняка влияние на эту буквально зримую звукопись музыки АА оказало искусство азербайджанских художников, таких, например, как Т.Нариманбеков или С.Бахлулзаде. Можно даже, при особом желании, разглядеть в его Третьей и Четвёртой («Мугамной») симфониях некие параллели в толковании национального элемента с опусами С.Слонимского и Б.Тищенко,



***Ариф Меликов, Акшин Ализаде, Сабир Рустамханлы, Мамед Исмаил, Халида Хасилова, Мирварид Дильбази и другие на декаде 1978 года в Украине***

или с «монтажными» симфониями Г.Канчели, когда одна картина сменяет другую, а один эпизод монтируется со следующим. Всё это, безусловно, есть и присутствует в самых разных сочинениях АА. А тут и новаторские хоровые опусы,[20] и непохожие по строю и толкованию вокально-симфонические полотна, и различные по оркестровым и тембровым наполнениям симфонические произведения (где возможно и введение подлинных национальных инструментов, и имитация настройки тара), и героико- эпический балет «Бабек», лишённый претенциозного пафоса и патетики.

В общем, причинно-следственные связи и основания музыки АА велики и многогранны. Спорить тут не о чём. Однако, если вспомнить И.Канта, то даже разум должен иметь некую точку, к которой восходит вся причинно-следственная связь. Так и с музыкой АА, где точкой, к которой всё восходит и одновременно берёт начало, есть творчество Бартока.

[20] К слову, кажется, именно Ализаде является создателем первого в истории азербайджанской музыки а каппельного цикла «Баяты». Именно цикла, а не отдельно взятого хора.

И даже понимая, что высказанное предположение не более чем гипотеза, причём весьма дискуссионная и полемическая, всё же возьму смелость посоветовать молодым музыковедам, тем, кто станет изучать и заниматься искусством азербайджанского мастера, обратить и заострить внимание на этой параллели: Бела Барток – Акшин Ализаде.

А вообще-то, удивительно, столько прожить, и прийти к музыке АА через музыку географически далёкого венгра?! Это я о себе.

И еще кажется, хотя это тоже, скорее, из области домыслов и догадок, однако, судя по рассказам родителей и друзей Ализаде, был он в и жизненных позициях близок с Бартоком.

Никогда не искал тесных общений с известными, авторитетными людьми и уж, тем более, с людьми, наделёнными властью или к ним приближёнными. И вдохновение черпал не из чего-то сверх естественного, неземного, но из того, что рядом, из того, что совсем близко и очень родное.

*P.S. Перечитал написанное. Вышло, что сплошь версии и предположения, и ничего точного, ничего истинного. С другой стороны, кем-то, но явно умным, сказано, что искусство для того только и дано, чтобы не умереть от истины.*

Москва, Российская Федерация.
09.12.2019.

**Nigar ƏSGƏROVA**
Əməkdar incəsənət xadimi,
fəlsəfə elmləri doktoru, professor

## VURĞUNU OLDUĞUM SƏNƏTKAR

Aqşin Əlizadə həddindən ziyadə rəğbət bəslədiyim bəstəkarlarımızdandır. Vaxtı ilə rəhbərlik etdiyim Bülbül adına Orta İxtisas Musiqi Məktəbində bir çox bəstəkarları həmin təhsil ocağına dəvət edər, onların yaradıcılıq günlərini keçirərdik. Məktəbdə görkəmli simalarla təşkil olunan gözəl görüşlər, yaddaqalan yaradıcılıq gecələri, unudulmaz sənətkarların örnək həyat və yaradıcılıq yolu gələcək musiqiçilərin hafizəsinə həkk olunurdu. Aqşin Əlizadə də şəxsiyyətinə və sənətinə yüksək dəyər verdiyim yaradıcı şəxsiyyətlərdən biri kimi dəvətimizlə gənc musiqiçilərin görüşünə təşrif buyurmuşdu. O, çox ziyalı və kübar ailənin oğlu idi. Sovet İttifaqı Qəhrəmanı kimi tanınan dayısı Mehdi Hüseynzadənin adı bu ailənin

nə qədər yüksək intellektə malik olmağından xəbər verir. Atalar demişkən "igid oğlan dayısına oxşayar". Aqşin müəllim çox sanballı insan olmaqla yanaşı həm də ağır Bakı kişilərindən idi. O, özünü tərifləyən, hər yerdə yaradıcılığını təbliğ edən bəstəkarlardan deyildi. Ağayanalığı, ziyalılığı və təvazökarlığı ilə digər sənət insanlarından seçilirdi.

Mən Aqşin müəllimlə yanaşı qardaşı Hənifə ilə də tanış idim. Onun həyat yoldaşı Alla xanım Əliyeva çalışdığım musiqi məktəbinin fortepiano sinfində pedaqoji fəaliyyətlə məşğul olurdu. O da ziyalı ailənin qızı idi. A.Əlizadənin qardaşı ilə tanışlığım Alla xanımın sayəsində baş vermişdi. Hənifə də çox təvazökar və gözəl insan olmaqla yanaşı həm də dəyərli və yüksək səviyyəli həkimlərimizdəndir. Atalardan miras qalmış "ot kökü üstə" bitər deyimi həqiqətən də bu ailənin üzvlərinə tam uyğundur.

A.Əlizadə konservatoriyada oxuyarkən (1955-1962) Cövdət Hacıyevin tələbəsi olsa da, Qara Qarayevin dərslərində iştirak edir, bəstəkarlığın çağdaş üslublarını ondan öyrənirdi. O, Q.Qarayevi çox sevirdi, onun pərəstişkarı idi. Qara müəllim də ona hər barədə dəstək olurdu. Ümumiyyətlə, Q.Qarayev bütün tələbələrinin qayğısına qalan insan idi. C.Hacıyevlə yanaşı Qara müəllimin də dərslərini həmişə izləyən A.Əlizadə onun yeniliklərini qəbul edirdi. A.Əlizadə mənəvi atasına – Qara müəllimə ruhən daha yaxın olduğu üçün ondan həm böyük insan olaraq, həm də tanınmış bir bəstəkar kimi qidalanırdı. Amma buna baxmayaraq sənətdə öz yolunu tapmağa müvəffəq olmuşdu. "Sən çox güclü insansan. Mən sənin gücünə bələdəm. Bilirəm ki, hər şeyin öhdəsindən gələcəksən" söyləyən Q.Qarayevin ona çətin məqamda necə mənəvi dayaq olmasını hər zaman xatırlayırdı. Qara müəllimin ona dəstəyi sanki A.Əlizadənin bütün gələcək bəstəkarlıq həyatını dəyişmiş, özünə inamını qüvvətləndirmişdi. Böyük və unudulmaz müəlliminin ona hər baxımdan təkan verməsini həmişə minnətdarlıq duyğusu ilə yada salırdı.

Məlumdur ki, XX əsrdə Azərbaycan musiqi mədəniyyətində bir-birindən gözəl bəstəkarlar nəsli yetişdi. Onların arasında dahilər meydana gəldi. Ən gözəli isə həmin bəstəkarların biri o birinə oxşamadı. Baxmayaraq ki, onlar eyni dövrdə yaşayıb yaratdılar, amma hər biri öz fərdi siması ilə seçildilər. Bu baxımdan A.Əlizadə də bənzərsizliyi və yeniliyi ilə musiqi tariximizdə silinməz izlər qoydu. Özünəməxsus yaradıcılıq üslubunun olması onu başqa həmkarlarından fərqləndirən başlıca cəhətlərdən birinə çevrildi. Əgər Q.Qarayevin musiqisində çağdaşlıq çox güclü idisə, A.Əlizadə sənətində avanqardizm üstünlük təşkil edirdi. Amma bununla yanaşı o ənənəyə çox sadiq bəstəkar idi. Musiqisi səslənən kimi ilk intonasiyadan bu melodiyanın A.Əlizadəyə məxsusluğu və onun Azərbaycan bəstəkarı olması dərhal hiss edilir.




***Soldan sağa: Fikrət Əmirov (üçüncü), Tofiq Quliyev, Aqşin Əlizadə, Aram Xaçaturyan, Cövdət Hacıyev və başqaları. 1973-cü il***

Aqşin müəllimin müxtəlif janrlarda bir-birindən gözəl və bənzərsiz əsərlər yaratdığı hər kəsə bəllidir. İri həcmli səhnə əsərlərindən tutmuş, simfonik və kamera orkestri üçün yazdığı qiymətli nümunələr musiqi xəzinəmizin inciləri sırasındadır. O, kəmiyyət etibarilə çox yazmasa da özündən sonra keyfiyyət baxımından yüksək səviyyəli parlaq əsərlər miras qoyub. A.Əlizadənin yaradıcılığı Azərbaycanın hüdudlarından kənarda da tanınır. Əsərləri Avropada, Amerikada, Türkiyədə uğurla səslənir.

Bunu dilə gətirmək xoş deyilsə də, yaradıcı insanların bir-birlərinə münasibətlərində qısqanclıqları, paxıllıqları olduğu məlum həqiqətdir. Ancaq A.Əlizadə belə hisslərdən uzaq böyük şəxsiyyət idi. O, çox maraqlı və qəribə insan olmaqla yanaşı həm də barışdırıcı mövqenin tərəfdarı kimi xatirimdə iz qoyub. Aqşin müəllim həmişə həmkarları arasında xoş münasibət yaratmağa təşəbbüs göstərirdi. Ancaq buna müvəffəq olmayanda məyusluq hissi keçirir, kənara çəkilir və özünə qapanırdı. O, bu dünyada hamının yeri olduğunu bilirdi. Mən həm də buna görə A.Əlizadənin vurğunu idim.

Aqşin müəllim ailəsinə çox böyük dəyər verirdi. Övladlarına, doğmalarına həddindən artıq gözəl münasibət bəsləyirdi. O, vətənpərvərlik ruhunda iki gözəl övlad tərbiyə edib. Böyük oğlu Əli Əlizadə atasının yolunun davamçısıdır. Fuad isə xormeysterdir. Onun dirijorluğu ilə A.Əlizadənin "Bayatılar" silsiləsi fərqli interpretasiyada səslənir və bu əsər həqiqətən də öz təsdiqini tapır. *A capella* xor üçün



***Aqşin Əlizadə deputat kimi fəaliyyəti zamanı...***

silsiləni dinlədikdə A.Əlizadənin avanqard musiqi ilə ənənəni birləşdirərək necə möhtəşəm əsər yaratdığı qənaətinə gəlirik. Məhz F.Əlizadənin təfsiri ilə əsərdəki avanqardizm parlaq duyulur. "Bayatılar" silsiləsindəki maraqlı ritmik yeniliklər və təkrarsızlıqlar dinləyicini cəlb edir. İlk dəfə olaraq Fuad bizə təkcə sekundalar arasında olan zərif nüansları deyil, bütün incə çalarları, ritmik keçidləri təqdim edə bildi. Həmin ifadan sonra A.Əlizadənin yaradıcılığının hansı səviyyədə olduğu bir daha müəyyənləşdi. Aydındır ki, təqdimatdan asılı olaraq əsərin dəyəri xeyli fərqli görünə bilər. XX əsr Azərbaycan bəstəkarlarının yaradıcılıq nümunələrinin maestro Niyazinin təfsirində yaşarlılıq qazandığı məlum həqiqətdir. Maestro bütün bəstəkarlarımızın simfonik əsərlərini konsert proqramlarına daxil edirdi. Onun həssas duyumu və bənzərsiz təfsiri ilə səslənən əsərlər tamamilə fərqli təsir bağışlayırdı.

A.Əlizadə tənhalığı sevən bəstəkarlardan idi. Tənhalıq hissi onun son dövr yaradıcılıq nümunələrində də özünü göstərməyə başladı. "Noktyurn"da, "Vals"larında nisgili, hüznü duymaq mümkündür. Ancaq qan yaddaşı ilə ötürülən vətənə məhəbbət hissi onda o qədər güclü idi ki, "Babək" kimi qəhrəmanlıq mövzusunda balet yazmışdı. Allah böyük bəstəkara rəhmət eləsin.

Kayseri, Türkiyə.
17.01.2022

**Güllü İSMAYILOVA**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

## AQŞİN ƏLİZADƏ HAQQINDA DÜŞÜNCƏLƏRİM



*Aqşin Əlizadə. 1967-ci il*

Azərbaycan bəstəkarlıq məktəbinin layiqli nümayəndəsi Aqşin Əlizadə haqqında yazarkən, ilk növbədə onunla olan bir neçə görüşlə bağlı xatirələr yaddaşımda canlanır. Belə ki, bəstəkar A.Əlizadə ilə ilk dəfə Konservatoriyada oxuduğum dövrdə rastlaşmışdım, onunla ünsiyyətimin "səbəbkarı" isə o zaman yaradıcılığını tədqiq etdiyim bəstəkar Ramiz Mirişli olmuşdu. O dövrdə A.Əlizadə, Bəstəkarlar İttifaqında birinci katib, R.Mirişli isə Kommunist partiyası komitəsinin rəhbəri idi. 1987-ci ildə yazmağa başladığım diplom işim "Bəstəkar Ramiz Mirişlinin yaradıcılığı" ilə bağlı idi və həmin dövrdə müəyyən notları bəstəkardan götürmək üçün Xaqani 27-də yerləşən Bəstəkarlar İttifaqına getmişdim. Çox səmimi insan olan Ramiz Mirişli, Aqşin müəllimlə qarşılaşarkən söylədi ki, gənc musiqişünas Güllü xanım, diplom işini



*Aqşin Əlizadə Ramiz Zöhrabovla birgə*

mənim yaradıcılığım haqqında yazır. Bəstəkar həmkarlarına hər zaman böyük hörmətlə yanaşan A.Əlizadə isə təbəssümlə və böyük səmimiyyətlə dedi: "Çox sevindiricidir, niyə də yazmasın, Cövdət Hacıyev məktəbi keçmiş professional bir bəstəkar, mahnı janrına bu qədər töhfə vermiş xalqın sevimlisisən". Sonra o maraqla diplom rəhbərimin kim olmasını soruşdu, Ramiz Zöhrabov cavabını eşidəndə isə üzündə təbəssüm yarandı və "qızım, diplom işini bitirdikdən sonra, çalış tədqiqatın kağız üzərində qalmasın, onu geniş məqalə və ya kitab şəklində çap etdir" söylədi.

Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetindəki Konservatoriyada işlədiyim dövrdə Aqşin müəllimlə ikinci dəfə rastlaşdım. A.Əlizadə Türkiyənin Van universitetində çalışırdı və o zaman rektor İsa Həbibbəyli çox istəyirdi ki, Aqşin müəllim NDU-da da dərs versin. Növbəti dəfə Vandan Bakıya dönərkən Aqşin müəllim universitetin qonağı oldu və onun şərəfinə təşkil olunan konsertdə iştirak edərək söylədi: "Mən, Vanda "Yüzüncü Yıl" Üniversitesi Müzik bölümündə çalışıram, inanın ki, sizin Konservatoriyada olan şərait,



*Aqşin Əlizadə görkəmli mədəniyyət və incəsənət xadimləri ilə birlikdə dahi bəstəkar Üzeyir bəyin 100 illiyi münasibətilə ucaldılan abidənin açılış mərasimində. Şuşa, 05.10.1985-ci il*

mühit Van universitetində yoxdur. Azərbaycanda ikinci belə bir konservatoriyanın açılması, istedadlı tələbələrin olması, savadlı müəllimlərin burada çalışması çox sevindiricidir". Konsertdən öncə isə Aqşin müəllim, auditoriyalara daxil olaraq dərslərin gedişi ilə də maraqlandı və bu zaman onunla kiçik bir dialoqumuz baş tutdu. Mən sevinclə, Azərbaycan Bəstəkarlar İttifaqına üzv qəbul olunduğumu və onun tövsiyə etdiyi kimi "Bəstəkar Ramiz Mirişli" adlı monoqrafiyamı çapa hazırladığımı Aqşin müəllimə söylədim. Onun cavab olaraq söylədiyi aşağıdakı fikirlər bu günədək tam olaraq yadımdadır: "Təbrik edirəm, əlbəttə, professional bəstəkarların yaradıcılığı musiqişünaslar tərəfindən geniş miqyasda təbliğ olunmalıdır. Bəstəkar isə, əsl mənada fəaliyyəti və yazdığı əsərlərlə öz millətinin güzgüsü olmalıdır, dahi Üzeyir bəy bizə ən böyük nümunədir. Türkiyədə çalışmaqda məqsəd, yalnız müəllimlik etmək deyil, həm də Azərbaycan bəstəkarlarının əsərlərini onlara tanıtmaqdır. Mən baxanda ki, Türkiyə ensiklopediyasında Azərbaycan bəstəkarlarının adları yoxdur, bu məni çox narahat etdi və narazılığımı bildirdim, düşünürəm ki, onlar bizi kommunist hesab etdikləri üçün bəstəkarlarımıza qarşı belə bir münasibət olub".

Mən 2000-ci ildə C.Hacıyevlə görüşərkən, onun çoxsaylı bəstəkar tələbələrinin yaradıcılığı ilə bağlı fikirlərini də soruşdum və o, novator bəstəkar adlandırdığı A.Əlizadənin məhz özünün sevimli tələbələri sırasında yer aldığını, onu əsl simfonist təfəkkürə malik davamçısı kimi gördüyünü, eləcə də onların hər ikisi haqqında yazılan monoqrafiyaların müəllifinin Aida xanım Tağızadə olduğunu vurğuladı. Sonuncu dəfə isə mən, 3 may 2014-cü ildə A.Əlizadəni son mənzilə yola salarkən, BMA-nın böyük zalında onunla vida mərasimində iştirak etdim, bəstəkarın yaradıcılığını səciyyələndirən nitqləri dinlədim, gözəl insan haqqında danışılan xoş xatirələrə qulaq asdım və sağlığında bu görkəmli bəstəkarın əsərləri ilə bağlı tədqiqat aparmadığım və onunla müsahibəyə çox gecikdiyim üçün özümü məzəmmət etdim.

Bakı, Azərbaycan.
25.04.2019

**Səadət TƏHMİRAZ qızı**
Əməkdar mədəniyyət işçisi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru

## AQŞİN ƏLİZADƏ ÖMRÜNÜN KİTABA KÖÇƏN SƏHİFƏLƏRİ

Kimin haqqındasa xatirə yazmaq o insanın böyüklüyünün, xeyirxah əməllərinin, öz xalqına, vətəninə nə qədər gərəkli olmasının təzahürüdür. Bəlli olur ki, o insan cismani yoxluğundan sonra xatirələrdə yaşayır. Bu da insanın ruhən əbədiyaşarlığının ifadəsidir. Etiraf etməliyik ki, xatirələrdə yaşamaq və əbədiyaşar olmaq da hər kəsə nəsib deyil. Bu keyfiyyət yalnız Tanrının sevib-seçdiyi bəndələrinə aiddir. Unudulmaz sənətkarımız Aqşin Əlizadə də məhz belə seçilənlərdən idi. O, istedadı, özünəməxsus fərdi və yaradıcılıq xüsusiyyətləri, yüksək humanizmi, sadə səmimi rəftarı, böyük sənət düşüncələrinin reallaşması uğrunda yorulmadan çalışaraq öz üslubunu yarada bilmək bacarığı və bu kimi dəyərli keyfiyyətləri ilə özü kimi yaşadı və indi də necə vardısa, elə də xatırlanır. Gərəkli insan, layiqli vətəndaş, əsl ziyalı, görkəmli sənətkar, ictimai xadim - bir sözlə bütöv bir şəxsiyyət kimi. A.Əlizadə haqqındakı xatirələrdə sanki o, ömrünün davamını yaşayır. Bəli, xatirələrdə, düşüncələrdə və əsərlərində yaşayır Aqşin müəllim. Bəzən belə sənətkarlar haqqında danışanda özümdə bir qürur hissi duyur və düşünürəm. Nə yaxşı ki, onları tanımaq, ünsiyyətdə olmaq mənə də nəsib olub. Bəlkə də sənət və həyat haqqında düşüncələrimin formalaşmasında belə müdriklərin böyük rolu olub. Bəlkə yox, elə həqiqətən də belədir. İlk yaradıcılıq dövrlərimdə, tələbə çağlarımda tanıdığım A.Əlizadə məhz belə müdriklərdəndir. Onun hər sözü, hər kəlməsi kamil insan düşüncəsinin ifadəsi idi.

İndi Aqşin müəllim haqqında xatirə yazmaq sanki məni o günlərə qaytarır. Tələbəlik illərimi, Azərbaycan radiosunda fəaliyyətə başladığım ilk dövrləri, Aqşin müəllim haqqında verilişlər hazırlayıb, məqalə yazdığım vaxtlarda onunla olan görüşlərimizi, söhbətlərimizi yadıma salır. Bu söhbətlərin hər birində onun sənətlə bağlı maraqlı fikirləri vardı. Bu məqamda böyük sənətkarla olan söhbətlərimizə istinad etmək istəyirəm.

Azərbaycan Radiosunda hazırladığım “Bəstəkarlarımızın iş otağında” silsiləsindən bir veriliş Aqşin müəllimin doğum günü ilə əlaqədar olaraq ona həsr edilmişdi. Vəfatından bir müddət əvvəl onunla telefon söhbətimizdə həmin verilişi çox bəyəndiyini söylədi. Mən əlavə etdim ki, Aqşin müəllim, bu il doğum gününüzdə daha bir veriliş hazırlayarıq. O isə müsahibəmizin dövrü



*Soldan sağa: Aqşin Əlizadə, Süleyman Ələsgərov, Tofiq Quliyev, Andrey Ştoqorenko, Elmira Nəzirova, Musa Mirzəyev və Ukrayna bəstəkarları*

mətbuatda dərc etdirməyimi təklif etdi. İndi mən müdrik bir sənətkarın vəsiyyətinə əməl edərək həmin söhbətdən bəzi məqamları oxucularımıza tədqim edirəm.

**- Aqşin müəllim, müsahibələrinizin birində deyirsiniz ki, mən bu sənətə gələndə qarşıma məqsəd qoydum ki, ya öz yolumu tapmalıyam, ya da geri çəkilməliyəm. Bəstəkarlığa da bir savaş kimi baxmışam. Bu nəyin savaşı idi: istedadınızla, yoxsa bəstəkarlıq texnikası ilə?**

- Bəstəkar özü-özü ilə savaş etməlidir. Əvvəla, anlamalıdır ki, bu çox ağır və müqəddəs sənətdir. Yəni sənətə heç vaxt soyuq yanaşmaq olmaz. Ona görə də sanki özün-özünlə savaş edirsən. Amma məlum deyil ki, qalib gələcəksənmi, səsləri tapa biləcəksənmi, ya yox. Əsas odur ki, sən öz üzərində daim çalışasan, özü də fədakarlıqla.

**- 1943-cü ildə dərslərə başlayanda 6 yaşınız olub. O dövrdən zəmanənin ağırlığını anlamağa və ciddi olmağa çalışmısınız. Keçmişlə indi arasındakı fərqi necə xarakterizə edərdiniz? Yəni bu gün sənətə gələnlərdə də o ciddilik varmı?**

- Bəzən yaşlılar elə bilirlər ki, uşaqlar çox şeyi başa düşmür. Amma uşaqlar hər şeyi çox gözəl anlayırlar, sadəcə ifadə edə bilmirlər. Məsələn, 5-6 yaşlı uşaq çox yaxşı bilir ki, kim yalan danışır, kim səmimidir. Uşaqlığımı yada salanda görürəm ki, çox şeyi başa düşürdüm, ancaq deyə bilmirdim.



***Aqşin Əlizadə Ramiz Abutalıbovla***

Ciddilik məsələsində valideynlərimin də rolu az deyildi. Xoşbəxtliyim ordan başlayıb ki, valideynlərim qədəm qoyduğum sənətin ciddiliyini mənə düzgün başa sala biliblər. Buna görə də əvvəldən mənim sənətə münasibətim çox ciddi oldu. Bu ciddi münasibətə ikinci təkan verən müəllimdir. Mənim ilk müəllimim görkəmli djazmen Vaqif Mustafazadənin anası Zivər xanım olub. O da çox ciddi və tələbkar idi. Oxuduğum müddətdə heç vaxt məni üzümə tərifləmədi. Elə bilirdim ki, məndən razı deyil. Sonra bəlli oldu ki, valideynlərimə haqqımda yaxşı sözlər deyirmiş. Müəllim gərək tələbəni gərgin saxlasın. Çünki bir-iki dəfə tərifləsə, tələbə arxayınlaşıb özündən razı olacaq.

**- Qeyd edirsiniz ki, həyatım iki yerə bölünür: ailəm və sənətim. Bu bölgünü necə tənzimləmisiniz?**

- Təəssüf ki, təbiətin qanunu belədir, ata-ana həmişə səninlə qalmır. Amma gərək onlardan sonra evində, həyatında elə adam olsun ki, səni başa düşə bilsin. Bu mənada mən həyat yoldaşıma çox minnətdaram. O, mənə yaradıcılığımla məşğul olmaq üçün daim dəstək olub. Əgər ailədə bir sənət adamı varsa, bütün ailə üzvləri ona mənəvi dayaq durmalıdır. Sənətkar həmişə çox qazana bilmir, maddi cəhətdən çətinlikləri olur. Ailə üzvləri belə olduqda dözüm nümayiş etdirirlər. Ailədəki mühitin yaradıcılığa çox təsiri var. Həmişə



***Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində tədbir. Soldan sağa: Lalə Hüseynova, Zemfira Qafarova, İmruz Əfəndiyeva, Aqşin Əlizadə. Arxa sırada: Pərviz Quliyev (ayaqüstə), Azad Zahid, Səadət Təhmirazqızı, Ülviyyə Məmmədova və başqaları. 01.07.2009-cu il***

axtarışda olmaq lazımdır. Gərək sənətin bir növ qulu, əsiri olasan. Əgər bir əsər yazıb, özünü şah kimi hesab etsən, onun yaxşı nəticəsi olmaz. Sənətkar həmişə yazıb-yaratmağa məhkumdur. O ki, qaldı ilham verən qüvvələrə, onlar mənim müəllimlərimdir. Başda mənəvi müəllimim Üzeyir bəy, sonra Qara Qarayev və Cövdət Hacıyev.

**- Hər bir bəstəkar kimliyini yaxşı bilir deyirsiniz. Onu tərifləsələr də, tənqid etsələr də, o, özü-özünü hamıdan yaxşı tanıyır. Bəs Aqşin Əlizadə özünü necə tanıyır?**

- Mən özümdən heç vaxt razı qalmıram. Hər əsərdən sonra nigarançılıq çəkirəm. Ümumiyyətlə, mən nə təriflərə, nə də tənqidlərə fikir verməmişəm. Çünki zaman hər şeyi süzgəcdən keçirir, öz yerinə qoyur. Mən sırf Azərbaycan bəstəkarıyam və daim bu amalla çalışmışam.

**- Bəstəkarlıqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olursunuz. Deyirsiniz ki, dərs keçəndə bəstəkar özü də öyrənir. Tələbələrinizə nəyi öyrədib, onlardan nəyi öyrənmisiniz?**

- Məcbur deyil ki, tələbə müəllimin dediyini olduğu kimi təkrarlasın. Müəllim tələbəyə necə axtarışda olmağın yollarını başa salmalıdır. Çalışmışam ki, tələbələrimə bunu öyrədim. Qaldı ki, onlardan nələrsə öyrənməyimə, cavanlar həyatsevər, qaynar təbli olurlar. Onlara baxanda ruh yüksəkliyim həmişə artıb. Onlar bulaq suyu kimi təmiz olurlar. Bu da ruhuma daha bir gözəllik qatır.

**- Gənc bəstəkarların əsərlərinə qulaq asanda hiss olunur ki, milli üslub müəyyən qədər arxa plana keçib. Siz isə elə bir nəsli təmsil edirsiniz ki, əsərlərinizdə milliliklə müasirlik üzvi şəkildə qovuşur. Bu baxımdan gənc bəstəkarlara nələri tövsiyə edərdiniz?**

- İlk növbədə onu deyə bilərəm ki, bəstəkar çox məsuliyyətli olmalıdır. Bəllidir ki, görkəmli bəstəkarlar –Üzeyir bəy, Qara Qarayev, Dmitri Şostakoviç və başqaları ən məşhur əsərlərini cavan ikən yazıblar. Sadəcə təcrübə məsələsi var. Milliliyə gəlincə isə, hər bir bəstəkar fikirləşməlidir ki, onun əsərini ilk növbədə öz xalqı dinləyəcək. Ona görə də əvvəlcə öz xalqının milli xüsusiyyətlərini, musiqisini yaxşı mənimsəməlidir. Əgər Azərbaycan bəstəkarı olmaq istəyirsənsə, gərək Azərbaycan musiqisi yazasan.

**-Yaradıcı adamların mətbəxindən heç kimin xəbəri olmamalıdır – bu fikir də Sizə məxsusdur. Bu məsələyə bir qədər aydınlıq gətirərdiniz?**

- Bu mətbəx çox böyük bir sirdir. Hər yaradıcı insanın öz mətbəxi var ki, zənnimcə, onu açıqlamaq olmaz. Məsələn, elə bilin ki, uzaqdan bir bəstəkarı müşahidə edirsiniz. Bəstəkar otaqda o başa, bu başa gəzir, gah masa arxasında oturub nə isə fikirləşir, gah divara, gah tavana baxır. Fikirləşirsiniz ki, bəs bu nə vaxt yazır? Bax, əsl sirr budur. Əslində isə bu bir yaradıcılıq fəaliyyətidir. Eyni zamanda hər insanın həyatında bir sirr var. Hər bir insan açılmayan bir sirlə yaşayır. Qaldı ki, yaradıcılıq sirri, onu da açıqlamaq olmaz. Əgər açıqlasan, nağıllarda olduğu kimi, tilsim qırılar.

***

Aqşin Əlizadə ilə müsahibəmiz burada bitmir. O, çox maraqlı mətləblərdən danışmışdı. Amma bu cavabdan sonra yazımın son məqamlarını qələmə almaq istəyirəm. Düşünürəm ki, onunla nə qədər söhbət etmiş olsaq da, bütün sirlərini öyrənə bilməmişik. Neçə-neçə sirr də Aqşin müəllimlə birgə əbədiyyətə qovuşdu. Amma o sirlərin əksəriyyəti bəstəkarın musiqisindədir. Duyumlu bir insan bu musiqiyə diqqətlə qulaq asarsa, orada A.Əlizadənin dünyagörüşünün zənginliyini, vətən, torpaq, xalq sevgisini, fəlsəfi düşüncələrini hiss edəcək. O özü ilə hansı sirlərini əbədi dünyaya aparsa da, bizə və gələcək nəsillərə böyük bir musiqi irsi yadigar qoyub. Bu da A.Əlizadənin sirli dünyasından doğan sirli-sehirli musiqi aləmidir. O aləmə baş vurduqca bəstəkarın böyüklüyünü və açılmayan sirlərini onun ölməz musiqisi açacaq, illəri, əsrləri adladıqca ölməz sənətkarı da öz ardınca aparacaq.

Sonda unudulmaz sənətkara tanrıdan rəhmət diləyir və təəssüf edirəm ki, onun növbəti doğum günündə arzusunu yox, vəsiyyətini yerinə yetirmiş oldum. Ruhu şad olsun.

“Mədəniyyət” qəzetinin 21 may 2014-cü il tarixli sayında nəşr olunan məqaləmin son cümlələrindən sonra düşündüm ki, Aqşin müəllim haqqında toplanan

bu xatirə kitabını da sənətkarın daha bir əsəri kimi qəbul etmək olar. Çünki bu kitabda A.Əlizadənin "ömür kitabı"nın səhifələri yer alacaq. Odur ki, bu kitabı tərtib edənlərə təşəkkür edirəm. Axı, bu A.Əlizadə ömrünün kitaba köçən səhifələridir.

Bakı, Azərbaycan.
30.01.2020

**Aytən İBRAHİMOVA**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru

## "XALQ MUSİQİSİ MƏNİM QANIMIN İÇİNDƏDİR"

*Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini,*
*mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.*
*Ziyalılıq kütləvi ola bilməz.*
*Alim, şair, bəstəkar, rəssam, yazıçı, artist –*
*bunlar fitri istedada malik olan nadir adamlardır*.
*Heydər Əliyev*

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi, Azərbaycan SSRİ xalq artisti, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, respublika



***Ümummilli Lider Heydər Əliyev Aqşin Əlizadəyə "Şöhrət" ordeni təqdim edərkən. Bakı, 1997-ci il***



Dövlət mükafatı laureatı, professor, “Şöhrət” və “Şərəf” ordenli Aqşin Əliqulu oğlu Əlizadə özünəməxsus dəsti-xətti ilə seçilən simalardandır. O, milli ənənələrə dayaqlanaraq, bəstəkar yaradıcılığında klassik təfəkkür tərzini yeni müasir səpkidə əks etdirib və gözəlliklə dolu əsərlər təqdim edərək musiqi xəzinəmizə töhfələr vermişdir. Bəstəkarlıqla yanaşı o, həm ictimai xadim, həm də çoxlu sayda tələbə yetişdirən pedaqoq idi. Aqşin müəllim söyləyirdi: “Bəstəkar hərtərəfli musiqi fəaliyyəti ilə məşğul olmalıdır”. Aqşin – güclü, cəsarətli deməkdir və o, ömür boyu cəsarətli, xeyirsevər və güclü insan olub.

Məlumdur ki, A.Əlizadə bəstəkarlıqla yanaşı ictimai iş və pedaqoji fəaliyyətlə də məşğul olurdu. O, uzun illər Azərbaycan Dövlət Konservatoriyasının (hazırda BMA) Bəstəkarlıq kafedrasında dərs demişdi. Xoşbəxtəm ki, onunla 2012-2014-cü illərdə eyni kafedrada birlikdə çalışmışam. Baş laborant vəzifəsində işlədiyim dövrdə o, fortepiano kafedrasının tələbələrinə partitura qiraəti fənnini tədris edirdi. Həmin illərdə Aqşin müəllimi yaxından tanıdım. O, çox səmimi, xeyirxah və alicənab şəxsiyyət idi. Tələbələrə və əhatəsində olan insanlara hörmət və məhəbbətlə yanaşırdı. Onlar da Aqşin müəllimi çox sevir və onunla ünsiyyətdə olmaqdan qürur duyurdular. Aqşin müəllimin dərsləri çox maraqlı keçirdi. O,

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

**A.Ə. Əlizadənin**
**«Şərəf» ordeni ilə təltif edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Aqşin Əliqulu oğlu Əlizadə «Şərəf» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası • Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, " 21 " may 2012-ci il

№ 2231



***Soldan sağa: Aqşin Əlizadə, Arif Məlikov, Aminə Məlikova, İmruz Əfəndiyeva, Aytən İbrahimova və Gülzar Mahmudova***

dərslərində tarixi şəxsiyyətlərlə bağlı söhbətlər də edirdi. “Uşaqlıqdan radionun yanında oturub saatlarla Xan Şuşinskiyə, Seyid Şuşinskiyə, Zülfü Adıgözəlova qulaq asardım. Bunlar mənimçün əsl məktəb idi... Xalq musiqisi mənim qanımın içindədir. “Babək”ə, “Azərilər” kantatasına qulaq assanız, bunu duya biləcəksiniz. Dünyanın əksər bəstəkarları öz əsərlərini xalq musiqisi üzərində qururlar... Bu, bizim əlifbamızdır. Musiqi xalqın tarixidir. Bəstəkarda fədakarlıq olmalıdır. Mən razıyam, adımı pozub, əsərlərimin qarşısında xalqın adını yazsınlar, təki bu əsərlər yaşasın...” Aqşin müəllimin xatirəsinə dərin hörmətlə...

Bakı, Azərbaycan.
31.01.2019

## İFAÇI SÖZÜ

*“Biz yazırıq və bunlar hamısı not vərəqində səssiz işarələrlə qalır. Ancaq ifaçı, orkestr, dirijor onu canlandıra bilər”.*
***Aqşin Əlizadə***

**Maqsud MƏMMƏDOV və Rəfiqə AXUNDOVA**
Balet ustaları, Azərbaycan və SSRİ Xalq artistləri

## “BABƏK”LƏ BAŞLANAN YARADICILIQ TANDEMİ VƏ DOSTLUQ TELLƏRİ

**Rəfiqə Axundova:** Azərbaycan musiqi tarixində ilk epik-qəhrəmanlıq məzmunlu balet Aqşin Əlizadənin İlya Selvinskinin poeması əsasında yazdığı “Babək” (1979) əsəridir. Bəstəkarın müraciət etdiyi bu mövzu Babəkin ilk xilaskar və milli qəhrəman kimi Azərbaycan xalqı üçün böyük əhəmiyyətinin bariz nümunəsidir. A.Əlizadənin fikrincə, Babək obrazı xalqımızın azadlıq



***Rəfiqə Axundova, Maqsud Məmmədov və Aqşin Əlizadə “Babək” baleti üzərində işləyərkən***

uğrunda mübarizəsinin tərənnümüdür. Bu baxımdan belə mövzuda işləmək quruluşçu xoreoqraf və libretto müəllifləri kimi bizim üçün həm çətin və eyni zamanda maraqlı idi.

"Babək" baleti üzərindəki iş prosesinə qədər A.Əlizadənin yaradıcılığı ilə müəyyən qədər tanış idik. Maqsud Məmmədovla birlikdə dinlədiyimiz bir neçə əsərindən sonra onu çox böyük şəxsiyyət kimi özümüz üçün kəşf etdik. Aqşin müəllimin maraqlı və novator bəstəkar olduğunu və bu mövzunun diqqətimizi cəlb etdiyini nəzərə alaraq onunla "Babək" əsəri üzərində birgə işləmək təklifinə razılıq verdik. Əlbəttə ki, bu bizim üçün həm yeni, həm də maraqlı sınaq idi. Adətən balet əsərlərinin məzmunu lirik planda olur, məhəbbət mövzusu dramaturji inkişafı zənginləşdirir. Ancaq qəhrəmani mövzuda işləmək isə maraqlı olduğu qədər, həm də çətindir. Çünki bu, sənin qəhrəmanları xoreoqrafiya vasitəsilə necə təsvir etməyindən, onların obrazını hansı vasitələrlə yüksəltməyindən və daxili dünyalarını açmağından çox asılıdır. A.Əlizadənin xalqa yaxın mövzuda yazdığı "Babək" əsəri isə sırf qəhrəmani məzmundadır. Bu baletdə lirik süjet xətti azlıq təşkil edir.

**Maqsud Məmmədov:** "Babək" əsərinin səhnəyə gəlişi sadə və hamar tərzdə olmamışdı. Bu baletin tamaşaçılara təqdimi uzun müddətli addımlarla, üzü zirvəyə doğru yüksələn uğur pillələrini tədricən qalxmaqla baş verdi. Biz əsər üzərində məqsədyönlü istiqamətdə axtarışlar aparır, musiqinin rəqsin dili ilə necə əks olunacağını aktyorlara göstərərək izah etməyə çalışırdıq.

**Rəfiqə Axundova:** Əlbəttə, bunun üçün çox ciddi və dəqiqliklə işləyir, yenidən həmin mövzuya qayıdırdıq. "Babək" - milli qəhrəmanımız haqqında yazılmış ilk balet olduğuna görə libretto müəllifi və baletmeyster kimi əsərdə nələrisə ixtisara salmaq, yaxud yersiz əlavələr etmək istəmirdik. Aqşin müəllimlə birlikdə çalışarkən onun balet haqqında özünəməxsus fikirlərinin olduğunu müşahidə etdik. Bu, balet musiqisi yazan bəstəkar üçün çox vacib və müsbət amildir. Onunla görüşərkən məsləhətləşir, birlikdə işləmək üçün kimləri dəvət edəcəyimizi müəyyənləşdirirdik. Fikirlərimiz üst-üstə düşdükdən sonra işə başladıq. Onun xoreoqrafiyanın incəliyini dərindən duyan və əks etdirə bilən çox gözəl sənətkar olduğunu aşkar etdik.

**Maqsud Məmmədov:** A.Əlizadə çox axtarışlar aparan bəstəkar idi. O, xoreoqrafiya üçün dəqiq nə tələb olunduğunu özü üçün müəyyən etməsəydi musiqi yazmırdı. Aqşinlə teatrda görüşəndə neçə illərdir "Babək" baleti üzərində gərgin axtarışlar apardığını, uzun müddətdir ki, bu qəhrəman haqqında materiallar topladığını bildirmişdi. A.Əlizadənin təbiətinə məxsus olan xasiyyəti var idi. O, həmişə çox fikirləşəndən sonra qəti qərarını söyləyərdi. Biz onunla əsər üzərində



***Aqşin Əlizadə və baletmeyster Rəfiqə Axundova "Babək" baleti üzərində işləyərkən. Bakı, 1980-ci il***

dörd, beş ilə yaxın müddətdə işlədik. O vaxtlar tez-tez xarici ölkələrə yaradıcılıq səfərləri edir, qayıdanda isə onun yazdığı musiqi ilə tanış olurduq. Sonuncu dəfə baletin partiturasına baxandan sonra Aqşinə bu işi yekunlaşdırmaq istədiyimi söylədim. Çox çətinliklə əsəri tamaşaya hazırladıq. İşin çətinliyi onda idi ki, Aqşinin musiqisi kimi, əsərə özünəməxsus xoreoqrafiya tapmaq lazım idi. Elə etməli idik ki, bu əsər Yuri Qriqoroviçin quruluş verdiyi "Spartak", "Stepan Razin" kimi qəhrəmani mövzuda olan baletlərə oxşamasın. Onları təkrarlamamaq üçün orijinal ifadə vasitələrindən, yeni çalarlardan istifadə etməliydik. "Babək" baletində öz fikrimiz, üslubumuz olmalı idi. Bütün bunlar barədə ona məlumat verəndən sonra A.Əlizadə fikirlərimizi düzgün anladı və bizimlə razılaşdı. Onun özünəməxsus musiqi dili, bəstəkarlıq üslubu, orkestr boyaları başqalarından dərhal seçilir. Bəzən elə bəstəkarlar olur ki, musiqini digərlərindən mənimsəyirlər. Aqşin isə musiqisini özü yaradırdı. O, təbiətcə çox ağır adam olduğuna görə hər təkliflə dərhal razılaşmırdı. Sıx yaradıcılıq əlaqələri dostluq tellərimizin qurulmasına səbəb olmuşdu. Biz bir-birimizi sənətdə olduğu kimi, həyatda da düzgün tapmışdıq. Balet hazır olandan sonra 1986-cı ilin 20 may tarixində indiki Heydər Əliyev adına Sarayda əsəri səhnəyə çıxardıq. Opera və Balet Teatrında baş verən yanğınla bağlı olaraq tamaşanın premyerası sarayda keçirilməli oldu. Çətin iş



*"Babək" baletindən səhnə*

şəraitinə düşən balet truppasının və kollektivin böyük əzmi, həmçinin yüksək peşəkarlığı nəticəsində baleti səhnələşdirməyə müvəffəq olduq. A.Əlizadə musiqisinin təbiətini dərindən duyan tamaşanın musiqi rəhbəri Rauf Abdullayevin dirijorluğu ilə "Babək" baletinin premyerası çox böyük müvəffəqiyyətlə keçdi. Quruluşçu rəssamlar Tahir Tahirovun və Tahir Salahovun rəng dünyası da əsərin bütövlükdə yüksək səviyyədə təqdim olunmasına böyük kömək etdi. Baş rolu Ümumittifaq sovet balet müsabiqəsinin laureatı Vitali Axundov canlandırdı.

Onu da qeyd edim ki, 2002-ci ildə ilk dəfə olaraq xaricdə - İsveçin paytaxtı Stokholm şəhərində Qara Qarayevin "Yeddi gözəl" baleti ilə yanaşı, bu əsəri də uğurla təqdim etdik. Les Ballets Persansın təsisçisi və bədii rəhbəri İran mənşəli isveçrəli xoreoqraf Nima Keannın təşəbbüsü ilə bu balet Avropalı tamaşaçılara göstərildi. Beləliklə, "Babək" ilk dəfə Bakıda dünya premyerasından on altı il sonra Qərb aləmində təqdim olundu. Azərbaycanın əməkdar artisti V.Axundov xaricdəki tamaşada da Babək obrazını çox yüksək səviyyədə yaratdı. Əsərə verdiyimiz quruluş musiqi ilə bu dəfə də tam vəhdətdə idi. Rəssam Tahir Salahovun fırçasından süzülüb gələn Şərqə məxsus rəng çaları dekorasiyalara hoparaq əsərin dramaturji inkişafının gözəlliyi ilə harmoniya təşkil edirdi.

**Rəfiqə Axundova:** Aqşin müəllim xasiyyətcə çox ağır, həm də qəliz insan olduğuna görə onunla dil tapmaq heç də asan deyildi. Bu bəstəkarın fikirlərinə

nüfuz etməyi hamı bacarmırdı. O, hər təkliflə razılaşmır, öz düşüncələrini bizimlə bölüşürdü. Xoreoqraf kimi Maqsud müəllim və mənə inamlı münasibət göstərirdi. Bu baxımdan qərarlarımıza hörmətlə yanaşıb təkliflərimizə qarşı çıxmayaraq bizimlə həmfikir olub qəhrəmani səhnənin musiqisini yenidən bəstələmişdi. Qeyd etməliyəm ki, baletin mövzusu çox maraqlı və süjet xətti güclü olduğuna görə xoreoqrafiya bunu tələb edirdi. Biz dramaturji inkişafı qabartmaq üçün təsvir etdiyimiz qəhrəmanın obrazını gücləndirmək istəyirdik.

Onu da bildirim ki, yaradıcılıq nümunələrinin hər birində bəstəkar kimi onun özünəməxsus intonasiyası, üslubu aydın duyulur. A.Əlizadənin digər iki baletinin də musiqisi çox gözəldir. Ancaq həmin əsərlərə quruluş verməklə bağlı bizə müraciət etmədi. “Ümid valsı” və “Qafqaza səyahət” əsərlərinin süjet xətti qəhrəmani mövzuda yazdığı əsərindən tamamilə fərqlənir. Buna görə də həmin baletlərin mövzusu bizə “Babək” əsərindəki qədər cəlbedici görünmədi. Ümumiyyətlə, bir bəstəkarla işlədikdən sonra müxtəlif müəlliflərlə yaradıcılıq əməkdaşlığına təşəbbüs göstərmək lazımdır. Bu xoreoqrafiya sənətinin özünəməxsusluğundan irəli gələn cəhətdir. Biz həmin dövrə qədər dahi bəstəkarımız Q.Qarayevin iki möhtəşəm baletinə quruluş vermişdik. “Babək” baleti üzərində işləyərkən artıq müəyyən qədər təcrübə qazanmışdıq.

Aydın olduğu kimi, balet tamaşasını yaradan xoreoqrafdır. Musiqi əsərin hansı hissəsində xoreoqrafiyanın necə olmağını diqtə edir. Bütün bunların vəhdətdə olması tamaşaçının əsəri orqanik şəkildə qəbul etməsi ilə nəticələnir. Bəstəkarlar adətən simfonizmdən çıxış edərək danışırlar. Ancaq xoreoqraflar tamaşaçılara onun hərəkətlər əsasında məzmununu izah etməlidirlər. Operadan fərqli olaraq balet əsərlərində həm musiqiyə, həm də süjetə əlavə tapmaq asan deyil. Bu baxımdan hər not üzərində diqqətlə işləmək lazımdır. Ona görə də yaxşı mənada bütün bunları bəstəkara anlatmaq, hər səsin və hissənin necə göründüyünü qeyd etmək vacibdir. A.Əlizadə işə çox məsuliyyətlə yanaşan, xoreoqrafın nə demək istədiyini düzgün anlayan bəstəkar olduğu üçün onunla fikir mübadiləsi aparmaq maraqlı idi. O, müəllif kimi əsərin məzmununa görə çox məsuliyyət daşıyırdı.

Sevindiricidir ki, A.Əlizadənin “Babək” adlı ilk epik-qəhrəmanlıq məzmunlu baletinə quruluş vermək bizə nəsib olub. Bu əsərin hələ uzun illər boyu həm respublikamızda, həm də onun hüdudlarından kənarlarda müxtəlif teatrların səhnələrini bəzəyəcəyinə ümid edirik. Tamaşaçılara təqdim olunacaq bu sənət incisi Azərbaycan və dünya musiqi tarixində öz layiqli yerini tapacaqdır.



*“Babək” baletindən “Duet”. Babək rolunda Vitali Axundov, Pərişad obrazında İrina Nizamətdinova*









*“Babək” baletindən kütləvi səhnələr*





*“Babək” baletinin premyerası. 1986-cı il*



*“Babək” baletindən səhnələr*



















*"Babək" baletinin ilk tamaşasından sonra. 20.05.1986-cı il*



*"Babək" baletinin premyerasından*

Министерство культуры Азербайджанской ССР

Азербайджанский Государственный ордена Ленина Академический
ТЕАТР ОПЕРЫ И БАЛЕТА
им. М. Ф. Ахундова

А. АЛИЗАДЕ

# БАБЕК

балет в 2-х действиях, 11 картинах

Либретто — Р. Ахундовой и М. Мамедова

г. Баку - 1986 г.

*"Babək" baletinin 1986-cı ilə aid proqramı*

| | |
|---|---|
| Музыкальный руководитель и дирижер | — **Р. АБДУЛЛАЕВ**<br>Нар. арт. Азерб. ССР,<br>Лауреат премии Ленинского комсомола республики |
| Балетмейстеры-постановщики | — **Р. АХУНДОВА**<br>Нар. арт. Азерб. ССР<br>**М. МАМЕДОВ**<br>Нар. арт. Азерб. ССР |
| Художники-постановщики | — **Т. САЛАХОВ**<br>Нар. худ. СССР,<br>Лауреат Госпремии СССР<br>**Т. ТАИРОВ** |
| Репетитор | — **Л. ПАВЛИЙ** |
| Концертмейстеры | — **И. БРОДОВ**<br>**М. ИХИЗГИЛОВА** |

История каждого народа знает героические примеры, выражающие его дух, устремления, его судьбу.

Такой личностью Азербайджана был Бабек.

На протяжении более чем двадцати лет он возглавлял всенародное освободительное движение против арабского халифата и местных феодалов (IX в). Многолетняя борьба Бабека, нанесшего значительный удар по могущественной империи, навсегда оставила в сердце азербайджанского народа призыв к борьбе против порабощения. Завоеватели сделали все возможное, чтобы стереть имя Бабека со страниц истории. Но жил герой в памяти народной; имя его передавалось из уст в уста, от поколения к поколению и преодолев временную дистанцию в одиннадцать веков, дошло до нас как символ борьбы за свободу.

Легендарный образ Бабека пленил многих и многих художников, вызывая к жизни произведения литературы, театра, изобразительного искусства. Не случайно одной из первых книг, основанной Горьким в 1934 году серии, «Жизнь замечательных людей» была книга о Бабеке.

Идея создания балета о движении бабекидов возникла у меня давно. Но лишь прочитав трагедию И. Сельвинского «Бабек» (во второй редакции «Орла на плече носящий»), воссоздающую один из важных эпизодов истории Азербайджана, я решился к осуществлению своего замысла. Встреча с этим произведением, где по словам П. Антокольского «все выполнено крупно, с отличным знанием материала и с проникновением во временную даль, в дух своеобычного народа», стала для меня большим событием.

И. Сельвинский подчеркивал, что «не смог бы написать («Бабека»), если не видел в нем черты идеального революционера», тем самым глубоко осознав всю величину и значимость фигуры Бабека для всей истории освободительного движения народов.

Я не ставил перед собой задачу подробного воссоздания исторических событий. Меня привлекала, прежде всего незаурядная личность Бабека, — мужественного борца, полководца, ставшего подлинным выразителем национального самосознания своего народа. А любовь героя к простой девушке Перишад отождествляется в его сознании с любовью к Родине, в чем выражается одна из неотъемлемых черт народного характера.

Окончательное решение балета сложилось, когда началась совместная работа с талантливыми балетмейстерами-постановщиками Р. Ахундовой и М. Мамедовым.

К теме, образам балета мы шли долго. И нас объединила в этой работе дань огромного уважения и долг.

Долг перед подвигом — Бабека.

**Акшин АЛИЗАДЕ**

# БАБЕК

**«Да будешь ты вечно,**
**Край отцов моих — мой**
**Азербайджан!»**

## Часть I. «БОРЬБА»

Запрудив дороги, затопив предгорья и равнины идут по земле Азербайджана черные отряды чужеземных завоевателей. Идут, неся разрушение и смерть, оставляя за собой руины и пепелище, обрекая жителей на неволю и рабство. Но чем непосильней гнет завоевателей, тем сильнее зреет в народе дух сопротивления, тем упорнее борется он за свою свободу и независимость.

После неравной схватки умирает вождь повстанцев Джавидан, завещая молодому воину Бабеку возглавить борьбу за свободу народа. Теперь Бабек—вождь повстанцев, в него, по верованиям того времени, перешла душа погибшего полководца. Подняв меч Джавидана, Бабек клянется отстоять свободу, призывает воинов к новым сражениям.

Перед священным огнем — символом вечного света сидит его хранительница Перишад со своими подругами. Лица их озарены трепетными бликами пламени. Соблюдая древний ритуал к ним приближаются девушки с чашами священного огня. Начинается обряд, которым встречают, по обычаю день весеннего равноденствия — обряд встречи солнца, дарующего жизнь всему живому. И, словно услышав заклинания, появляются первые лучи солнца, озаряя вершины гор.

Спешит Бабек к любимой Перишад, чтобы выразить ей свои чувства.

**Похитила покой ты, чей мне облик мил,**
**Светило светлое, светлее всех светил.**
**И небо и земля озарены тобою**
**И жемчуг истины в тебе я полюбил.**

Гимном великому чувству любви звучит дуэт Бабека и Перишад.

**Шатер Эмира.** Окруженный сладострастными соблазнительницами постепенно втягивается в пьянящий танец Эмир. Кажется, этому неистовому, неприкрыто-чувственному танцу не будет конца, но, прерывая разгул, слышатся трубы бабекидов.

Эмир в ярости, он готов к бою, желая навсегда покончить с повстанцами. Бой. Яростный и ожесточенный. Не щадя себя, увлекая за собой соратников, Бабек завершает бой полной победой.

Часть II. **«БЕССМЕРТИЕ»**

Празднуют свою победу бабекиды. Их танец выражает ликование свободолюбивого народа. Затихли вдали праздничные звуки. Бабек в раздумье, ему предстоит поднять на борьбу порабощенных крестьян. В волнении появляется Перишад, она знает о его замыслах. Бабек старается ее успокоить, но предчувствие беды не покидает Перишад. Последний взгляд. Бабек прощается с любимой.

Вот они — рабы чужеземцев, подобно живым мертвецам, измученные отчаявшиеся крестьяне. Сбрасывая с себя тряпье, открывается невольникам Бабек, тайно пробравшийся сюда. Он призывает их на борьбу. Крестьяне колеблются. Однако отчаянье их столь велико, что они следуют призыву Бабека. Но на пути к крепости восставших бабекидов подстерегают войска Эмира. Изнуренные, плохо владеющие оружием крестьяне обречены на поражение. С боем отступают они к твердыне бабекидов. Это скорбный путь — путь смерти, которому, кажется, не будет конца. Один за другим гибнут повстанцы.

Слышится женский плач. Склоняясь над убитыми матери оплакивают сыновей, жены мужей, сестры братьев. Они оплакивают павших защитников родной земли, которые погибли в неравном бою.

Бабек один в окружении врагов. Перед плененным вождем появляется Эмир. Сколько раз терпел он поражение от Бабека, сколько его черных воинов полегли в битвах с бабекидами. Теперь Эмир может, наконец, торжествовать победу. Он велит предать Бабека жестокой казни. Но и казнь не может сломить гордый свободолюбивый дух Бабека. Чем невыносимее уготовленные ему муки, тем тверже встречает их герой.

Борьба и смерть Бабека были непапрасны. На место каждого, погибшего за свободу родины, воина — встают десятки новых героев.

**Цена 13 коп.**

Заказ 2221. Тираж 5000.
Бланочный цех типографии имени 26 бакинских комиссаров.




*"Babək" baletinin 2002-ci ilə aid afişası*




AQŞİN ƏLİZADƏ
BABƏK BALETİNDƏN SÜİTA
ÜZEYİR HACIBƏYLİ ADINA
AZƏRBAYCAN DÖVLƏT SİMFONİK
ORKESTRİ
DİRİJOR
MUSTAFA MEHMANDAROV
15 OKTYABR 2021
SAAT 19:00



*"Babək" baletinin yeni səhnə həyatı davam edir. Baletdən müxtəlif səhnələr. Babək rolunda Anar Mikayılov. Bakı, 30.09.2022-ci il*





*Pərişad rolunda Ayan Eyvazova*









*Babəkilərin bayramı səhnəsi*



*Əmir rolunda Makar Ferştand*





*"Babək" baletinin yaradıcı heyəti alqışlanır. Səhnədə dirijor Orxan Həşimov, baletmeyster Kamilla Hüseynova və balet truppası. Bakı, 30.09.2022-ci il*

Bakı, Azərbaycan.
05.02.2020

**Rauf ABDULLAYEV**
Dirijor, Xalq artisti,
professor

## AQŞİN ƏLİZADƏNİN MUSİQİ DİLİ DİGƏRLƏRİNDƏN HƏMİŞƏ FƏRQLƏNİR

Mən Aqşin Əlizadəni üç-dörd yaşımdan tanıyıram. Uşaqlıq dostum olan Aqşinlə məktəbdə bir yerdə təhsil almışıq. İndi Bülbül adına olan Orta İxtisas Musiqi Məktəbi o vaxt konservatoriya nəzdində xüsusi onillik məktəb adlanırdı. Valideynlərimiz də yaxşı tanış idilər. Biz konservatoriyaya qədər birlikdə orta təhsil aldıqdan sonra Aqşin bəstəkarlıq fakültəsinə daxil oldu, mən isə dirijorluq təhsili almaq üçün Leninqrada getdim. Beləliklə də bir müddət ayrı düşdük. Leninqraddan qayıdanda Aqşin artıq bəstəkarlıq sənəti üzrə təhsilini bitirmişdi. O zaman biz onunla görüşür və söhbət edirdik. Belə görüşlərimiz zamanı həmişə Aqşindən muğamat çalmasını xahiş edərdim. O, royal arxasında əyləşib gözəl muğamat ifa



***Aqşin Əlizadə (ön sırada soldan üçüncü), Rauf Abdullayev (ön sırada sonuncu) və başqaları Bülbül adına onillik musiqi məktəbini bitirdiyi ildə (1954)***

edərkən biz zövq alardıq. Onun ifasında səslənən mahnılarda, muğamlarda bütün melizmlər, xırdalıqlar çox yaxşı alınırdı. Aqşin ifa edərkən zarafatla yoğun barmaqlarının klavişlərə necə yerləşdiyini soruşardım. Beləcə günlərimizi keçirirdik. Çox sadə və təvazökar insan olan Aqşində başqa bəstəkarlar kimi özündən razı olmaq xüsusiyyəti tamamilə yox idi.

Mən Opera və Balet Teatrında işləyirdim və həmin dövrdə Aqşin üçüncü simfoniyasını tamamlamışdı. Bu əsəri 1983-cü ildə ilk dəfə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) nəzdindəki Ş.Məmmədova adına opera studiyasının simfonik orkestrinin ifasında səsləndirdim. Opera və Balet Teatrının orkestri ilə isə həmin simfoniyanı ifa edib (1984) vala yazdırdım.




МИНИСТЕРСТВО
КУЛЬТУРЫ СССР
ВСЕСОЮЗНАЯ ФИРМА
ГРАМПЛАСТИНОК
МЕЛОДИЯ
АПРЕЛЕВСКИЙ ОРДЕНА ЛЕНИНА ЗАВОД ГРАМПЛАСТИНОК
СТЕРЕО
33
ГОСТ 5289-80
С10 21515 004
21515
1
Гр. 2. 1-20
А. АЛИ-ЗАДЕ (р. 1937)
СИМФОНИЯ № 3
Симфонический оркестр
Гос. академ. театра оперы и балета
им. М. Ф. Ахундова
Дирижер РАУФ АБДУЛЛАЕВ
Запись 1984 г.


СТЕРЕО
МЕЛОДИЯ




***"Babək" baletinin valının üz qabığı***

A.Əlizadənin müəllifi olduğu simli orkestr və səs üçün yazılmış "Muğamvari" adlanan dördüncü simfoniyasını 1984-cü ildə Qazaxıstanın Alma-Ata şəhərində SSRİ Bəstəkarlar İttifaqının plenumunda, 1985-ci ildə isə Azərbaycan Bəstəkarlarının VI qurultayında ifa etdim. Beşinci simfoniyanı isə (1990) Azərbaycan Bəstəkarlar İttifaqının plenum konsertində ilk dəfə səsləndirdim.

1985-ci ilin iyun-iyul aylarında "Bəbək" baletini də Opera və Balet Teatrında vala yazdırdığımı bildirmək istəyirəm. Həmin əsər mənim rəhbərliyim ilə ilk dəfə 1986-cı ildə may ayının 20-də tamaşaya qoyuldu.

A.Əlizadənin yaradıcılığı ilə bağlı maraqlı bir hadisəni qeyd etməliyəm. O, 1976-cı ildə qarışıq xor və simfonik orkestr üçün "Azərilər" kantatası adlı əsər bəstələmişdi. Bu əsər ilk dəfə Niyazinin başçılıq etdiyi Ü.Hacıbəyov adına Dövlət Simfonik Orkestrinin və respublika xor kapellasının (baş xormeyster E.Novruzov) ifasında Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin plenumunda səslənmişdi. "Azərilər" kantatası Azərbaycan Bəstəkarlarının V qurultayındakı konsertdə və SSRİ bəstəkarlarının VI qurultayında da uğurla ifa edilmişdi. Həmin əsər 1978-ci ildə dövlət mükafatına layiq görülmək üçün təqdim olunanda mənə zəng edildi və "Azərilər" kantatasını səsləndirmək tapşırıldı. O dövrdə maestro Niyazi özü Dövlət Mükafatı Komissiyasının üzvü olduğuna görə əsəri ifa etmək hüququ yox



*Soldan sağa: Kazım Əliverdibəyov, Rauf Abdullayev, Yuli Əliyev, Aqşin Əlizadə tələbəlik illərində*



*"Azərilər" kantatasının ilk ifası. Bakı, 05.05.1976-cı il*



*“Azərilər” kantatasının premyerası*



БУ ДИПЛОМ

ӘЛИЗАДӘ Агшин Әлигулу оғлуна

ВЕРИЛМИШДИР

№ 037

Әдәбиј̃јат, инчәсәнәт вә ме'марлыг саһәләриндә Азәрбајчан ССР Дөвләт Мүкафатлары Комитәсинин сәдри
И. ГАСЫМОВ

Әдәбиј̃јат, инчәсәнәт вә ме'марлыг саһәләриндә Азәрбајчан ССР Дөвләт Мүкафатлары Комитәсинин катиби
М. НӘЧӘФОВ

ДАННЫЙ ДИПЛОМ ВЫДАН

АЛИЗАДЕ Акшин Али-кули оглы

№ 037

Председатель Комитета по присуждению Государственных премий Азербайджанской ССР в области литературы, искусства и архитектуры
И. КАСУМОВ.

Секретарь Комитета по присуждению Государственных премий Азербайджанской ССР в области литературы, искусства и архитектуры
М. НАДЖАФОВ.

АЗӘРБАЈЧАН ССР
ДӨВЛӘТ МҮКАФАТЫ
ЛАУРЕАТЫНЫН
ДИПЛОМУ

★

ДИПЛОМ
ЛАУРЕАТА
ГОСУДАРСТВЕННОЙ ПРЕМИИ
АЗЕРБАЙДЖАНСКОЙ ССР



АЗӘРБАЈЧАН КОММУНИСТ ПАРТИЈАСЫ
МӘРКӘЗИ КОМИТӘСИ
ВӘ АЗӘРБАЈЧАН ССР НАЗИРЛӘР СОВЕТИНИН
26 апрел 1978-чи ил тарихли
ГӘРАРЫ ИЛӘ

«Иј̃ирмиалтылар» кантатасы үчүн

АЗӘРБАЈЧАН ССР ДӨВЛӘТ МУКАФАТЫ

ВЕРИЛМИШДИР

ПОСТАНОВЛЕНИЕМ ЦЕНТРАЛЬНОГО КОМИТЕТА
КОММУНИСТИЧЕСКОЙ ПАРТИИ АЗЕРБАЙДЖАНА
И СОВЕТА МИНИСТРОВ АЗЕРБАЙДЖАНСКОЙ ССР
от 26 апреля 1978 года
ПРИСУЖДЕНА

ГОСУДАРСТВЕННАЯ ПРЕМИЯ
АЗЕРБАЙДЖАНСКОЙ ССР

за кантату «Двадцать шесть»


Министерство культуры Азербайджанской ССР
Азербайджанская Государственная
ФИЛАРМОНИЯ
им. М. Магомаева
14
ДЕКАБРЯ
1979
„БАХОР"
ДНИ ЛИТЕРАТУРЫ и ИСКУССТВА
АЗЕРБАЙДЖАНСКОЙ ССР В УЗБЕКСКОЙ ССР
КОНЦЕРТ
Заслуженного коллектива республики
АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО
СИМФОНИЧЕСКОГО ОРКЕСТРА
имени народного артиста СССР Узеира ГАДЖИБЕКОВА
ДИРИЖЕР -
народный артист СССР, лауреат Государственных премий СССР, республиканской премии имени Узеира Гаджибекова и Международной премии имени Дж. Неру
НИЯЗИ
Участвуют:
ГОСУДАРСТВЕННАЯ ХОРОВАЯ КАПЕЛЛА АЗЕРБАЙДЖАНА
В программе:
Ниязи - Симфонический мугам „Раст"
Ф. Амиров - „Сказание о Насими„. (Трагическая музыка)
А. Али-заде - Кантата „Двадцать шесть"
Начало в 19 часов вечера
Билеты продаются.


АГШИН ӘЛИЗАДӘ
ТӘНТӘНӘ
ИМФОНИК ОРКЕСТР ВӘ ГАРЫШЫГ ХОР ҮЧҮН
ПАРТИТУРА
АКШИН АЛИЗАДЕ
ПРАЗДНЕСТВО
ДЛЯ СИМФОНИЧЕСКОГО ОРКЕСТРА
И
СМЕШАННОГО ХОРА

Aqşin Əlizadə

# "Ana torpaq"

Qarışıq xor,uşaq xoru və böyük simfonik orkestr üçün

# Oda

Sözləri:

Bəxtiyar Vahabzadə

***Klavir***


16 марта 1984 г.
Большой зал
АЗГОСКОНСЕРВАТОРИИ
ИМЕНИ УЗЕИРА ГАДЖИБЕКОВА
16 марта 1984 г.
КОНЦЕРТ
СИМФОНИЧЕСКОГО ОРКЕСТРА
Государственного Академического театра
ОПЕРЫ и БАЛЕТА им. М. Ф. Ахундова
и
КАМЕРНОГО ОРКЕСТРА
оперной студии АЗГОСКОНСЕРВАТОРИИ им. Узеира Гаджибекова
Дирижер - Народный артист Азерб. ССР -
РАУФ АБДУЛЛАЕВ
I отделение
Уз. Гаджибеков - Ашугское
К. Караев - Третья симфония
II отделение
А. Али-заде - Третья симфония
(первое исполнение)
Начало в 20.00 часов



*Aqşin Əlizadə maestro Rauf Abdullayev ilə birgə. 2003-cü il*





*Aqşin Əlizadənin 70 illik yubiley gecəsində. Bakı, 2007-ci il*





*Bakı Filarmoniyasında Aqşin Əlizadənin anadan olmasının 70 illiyinə həsr edilmiş konsert. 2007-ci il*





*Aqşin Əlizadənin 70 illik yubileyi*

idi və bu düzgün hesab edilmirdi. Buna görə də "Azərilər" kantatasını səsləndirmək mənə həvalə olunmuşdu. Mən də səhəri gün tez getdim, təxminən yarım saat, bir saata kimi orkestrlə məşq etdim və əsəri çaldım. Beləliklə də "Azərilər" kantatası dövlət mükafatına layiq görüldü.

Onu da deyim ki, konsertlərdə ilk intonasiyadan A.Əlizadənin dəsti-xətti dərhal hiss olunur. Onun musiqi dili Azərbaycan musiqisi ilə bağlı olduğuna görə başqa bəstəkarlardan fərqlənir. A.Əlizadənin musiqisinin tər-təmiz büllur kimi olduğunu müəyyən etmək mümkündür. 1991-1997-ci illərdə Türkiyə Cümhuriyyətində işləyib konsertlər verdiyim vaxtlarda onun Beşinci simfoniyasını Ankara şəhərində səsləndirmişəm. O vaxtlar simfonik proqramlar tərtib olunanda Azərbaycan bəstəkarlarının da bir əsərini siyahıya daxil edirdim. A.Əlizadənin əsərlərini Türkiyədəki dinləyicilər tərəfindən çox yüksək səviyyədə qəbul olunurdu.

A.Əlizadə orkestrləşdirməni çox yaxşı bilən bəstəkar olduğuna görə onun orkestr üslubu da fərqlidir. Aqşinin xor musiqisini əla bildiyini qeyd etməliyəm. Bəzən bəstəkarlar xor üçün əsərlər yazsalar da, xorun nə olduğundan anlayışları olmur, keçid not nədir bilmirlər. Aqşinin professional səviyyədə yazdığı xor əsərlərini ifaçılar rahat oxuyurlar. Bu onun bəstəkar kimi çox yaxşı təcrübə qazanmasından irəli gəlir. A.Əlizadə istedadlı insan idi. Onun fiziki olaraq aramızda olmamasına çox heyfsilənirəm. Allah rəhmət eləsin!

Bakı, Azərbaycan.
15.12.2018

**Kamil CƏLİLOV**
Qoboy ifaçısı,
Xalq artisti

## SƏMİMİ, ALİCƏNAB VƏ ÇOX İSTEDADLI BƏSTƏKARIMIZ HAQQINDA XATİRƏLƏRİM

Aqşin Əlizadənin əsərləri Azərbaycan musiqi salnaməsinin dəyərli inciləridir. Mənim onunla tanışlığım Nazim Rzayevin rəhbərlik etdiyi kamera orkestrində işlədiyim vaxtdan başlayıb. Biz başqa bəstəkarlarla yanaşı A.Əlizadənin də əsərlərini ifa edirdik. O, tez-tez orkestrin məşqlərinə gəlib qulaq asırdı. Konservatoriyada oxuduğum illərdə Q.Qarayevin III simfoniyası ilə yanaşı onun kamera orkestri üçün yazdığı əsərlərini də Moskvada ifa etdiyimizi qeyd etmək istəyirəm. A.Əlizadənin digər əsərlərini Bəstəkarlar İttifaqının qurultay konsertlərində də səsləndirmişik. O, qoboyda ifama həmişə heyranlıqla qulaq asırdı. Hətta bəzi əsərlərində mənim üçün solo partiyalar da yazırdı.



**Kamil Cəlilov və Aqşin Əlizadə**

Bir gün məni evinə dəvət etdi və dedi ki, "sənin solo ifan üçün əsər yazmışam". Mən bu xəbəri minnətdarlıq hissi ilə qaşıladım. O, əsərin notlarını mənə verdi. İfa edəndə "Segah" məqamında çox həzin və gözəl melodiyaya malik bir əsər bəstələdiyini anladım. Bu əsəri bir müddət öyrəndim və səsləndirdim. İfama qulaq asanda məni təriflədi, qoboyun təbii səslənməsində fərdi ifaçılıq xüsusiyyətlərimin olduğunu və bütün bunların məni digər qoboy ifaçılarından çox fərqləndirdiyini bildirdi. Dedi ki, "mən özüm də bir müddət V.A.Knyazkovun sinfində qoboyda ifa etmişəm. Amma sənin kimi ifa etməyə nail ola bilməmişəm". Onun mənim ifam üçün yazdığı əsərdə etdiyim bəzi əlavələr çox xoşuna gəlmişdi. Orta hissədə muğamat səsləndirə biləcəyimi soruşmuşdu. Mən onun xahişini nəzərə alıb həmin hissədə "Zabul" muğamını ifa etdim. Bu onun ürəyincə oldu və ifamı çox bəyəndi. Onu da qeyd edim ki, gözəl bəstəkarımız muğamı da çox yaxşı bilirdi. Aqşin müəllimin söylədiyinə görə atasının aldığı qarmonda muğamları ifa edərmiş. Onun bəstəkar kimi muğama yanaşması fərqli idi.

Bir müddət keçdikdən sonra həmin əsəri R.Babayevin rəhbərlik etdiyi Azərbaycan Televiziya və Radiosunun estrada simfonik orkestrinin müşayiəti ilə lentə yazdırmaq istədiyini mənə bildirdi. Orkestrlə məşqdən sonra əsəri lentə yazdıq. Səsyazma studiyasına gedəndə R.Babayevlə oturduqlarını gördüm. İşə başlayanda Aqşin müəllim özü pult arxasında əyləşdi. Əsəri lentə yazdıq və ifam hər ikisinin xoşuna gəldi. R.Babayev özü də məni müşayiət edirdi. Səsyazma qurtarandan sonra Aqşin müəllim studiyaya daxil oldu və məni qucaqlayıb alnımdan öpdü. Rus dilində belə dedi: «*Кямиль, ты выдаюшийся музыкант*». Səsyazma studiyasında məndən əsərə nə ad verəcəyimizi soruşanda Qarabağa oxşadığını dedim. Bunu eşidəndə sevindi və dedi ki, gözəl ad tapmısan. Əsərinin adını "Qarabağ havası" yazdı. Ondan sonra mən həmin əsəri radio və televiziyada ifa etdim. Bu əsəri radionun efirində tez-tez səsləndirirdilər. "Qarabağ havası" xalq tərəfindən çox bəyənilmişdi.

A.Əlizadə insan kimi çox səmimi, alicənab, bəstəkar kimi isə çox istedadlı və əsl peşəkar idi. Onunla görüşlərimiz, maraqlı söhbətlərimiz çox olub. O, yazdığı unikal əsərləri ilə musiqi tariximizdə əbədiyaşarlıq qazanıb.

Bakı, Azərbaycan.
01.02.2019

**Зарифа ИСМАИЛОВА**
Профессор, хормейстер

## НЕЗАБЫВАЕМЫЕ ИМЕНА




Самые светлые воспоминания об Акшине Ализаде побудили меня взяться за написание этих строк. Моё первое знакомство началось очень-очень давно с его семьёй, а точнее с матерью и с женой, благодаря моей близкой приятельнице. А ещё, ранее, с младшим братом Акшина – Кямраном (рано ушедшим из жизни) в 1-й муз. школе – он был скромным, не по возрасту серьезным «светлым» мальчиком. Моя мать, её 4 брата, 2 сестры (карабагцы) и бесчисленное множество кузенов, двоюродных сестер, связавших свою жизнь с шушинскими и впоследствии ставшими все без исключения врачами, справляя дни рождения, юбилеи непременно приглашали маму Акшина - Бике ханум Ализаде, пользующуюся всеобщим уважением. Она долгие годы являлась секретарем парткома одного из престижных вузов страны - АМИ. Ее отличал высокий рост, черный наряд, прямая стать. Вот в такой семье воспитывались Акшин и Кямран. В будущем ближе сталкиваясь с Акшином все эти качества - чувство собственного достоинства, серьезность и в то же время скромность снискали ему уважение очень многих композиторов, студентов. Эти качества, были взращены не только в семье, но и переняты благодаря учителю-педагогу Агшина профессору Д.И.Гаджиеву, одному из выдающихся композиторов, соратников К.Караева, а глав-

ное, долгое время являющегося ректором консерватории. Он сумел сосредоточить самые лучшие педагогические кадры с прицелом на будущее, взрастив плеяду ответственных и активных студентов.

В своем творчестве Акшин Али-заде отдавал большое предпочтение хоровому жанру . Об этом свидетельствует созданные им, не побоюсь этого слова, шедевры в хоровом жанре - как *«a capella»*, так и крупных форм. Его хоровые опусы заняли и занимают достойное место в репертуаре хоровых коллективов. Особенно хочется выделить хоровой цикл «Баятылар» - самобытные, контрастные, с многообразием хоровой фактуры миниатюры. А главное - умелая передача особенностей формы баяты с своеобразными музыкальными интонациями. Каждая из них (10) изюминка, которую можно исполнять отдельно. «Азерилер», «Празднество» свидетельствуют о глубоком подходе к исполнительским возможностям, тембровым особенностям хоровых партий. Опираясь на фольклорные особенности азербайджанской музыки, не цитируя, а умело сочетая талантливой инструментовкой, он создал произведения, с вдохновением исполняемых хоровыми коллективами. Ко всему этому, Ализаде был очень скромным и справедливым человеком. Мне не раз приходилось оказываться рядом с Акшином и видеть, как он реагировал на необоснованные высказывания, каких стоило ему усилий усидеть при этом на месте. Жена Акшина Алиевича обычно напутствовала его «быть сдержанным, терпеливым". Мне пришлось, будучи заведующей кафедрой хорового отделения, близко познакомиться и с сыном Акшина – Фуадом, студентом факультета хорового дирижирования. Мягкость, унаследованная от матери, снискала ему любовь студентов университета в Турции. С Али Ализаде - старшим сыном мне не довелось близко пообщаться, но работая в Турции 28 лет я слышала только положительные отзывы о его работе.

А.Ализаде безвременно ушел из жизни. Его сочинения оставили глубокий след в азербайджанской хоровой музыке. Он будет жить в сердцах и памяти многих поколений.

Турция, Мерсин.
14.10.2021

**Adilə ƏLİYEVA**
Pianoçu, Əməkdar artist,
Fransa Ali Beynəlxalq Musiqi Akademiyasının direktoru,
BMT-nin sülhməramlı səfiri, professor

## AQŞİN ƏLİZADƏ ƏNƏNƏVİ VƏ MÜASİR MUSİQİNİ BİRLƏŞDİRƏN MÜTƏRƏQQİ ŞƏXSİYYƏT İDİ

Mən Konservatoriyada nəzəriyyə-bəstəkarlıq və fortepiano fakültələrində təhsil almışam. Aqşin Əlizadəni bəstəkarlıq kafedrasında oxuduğum dövrdən tanıyırdım. Həmin illərdə professor Cövdət Hacıyevin sinfində bəzi əsərlər bəstələyirdim. Aqşin müəllim isə C.Hacıyevin assistenti idi. Musiqi yazmaq xoşuma gəlirdi. Lakin bir müddətdən sonra ifaçılıq sənəti fəaliyyətimdə üstünlük təşkil etməyə başladı. Qara Qarayevin də söylədiyi kimi, “bir əldə iki qarpız saxlamaq çətindir”. Fortepianoda yaxşı ifa edirdim. Ona görə də Cövdət müəllim məni tələbələrinin əsərlərini səsləndirməyim üçün dəvət edirdi. Məhz tələbəlik çağlarımdan etibarən müasir Azərbaycan bəstəkarlarının yaradıcılığına müraciət etməyə başladım ki, bu ənənə indiyə qədər davam olunmaqdadır. Rauf Hacıyev də Mədəniyyət Naziri və Azərbaycan Bəstəkarlar İttifaqının sədri olduğu dövrdən məni plenumlarda çıxış etmək üçün tez-tez konsertlərə dəvət edirdi. Əsərlərini ifa etməyim barədə təklif A.Əlizadə tərəfindən də oldu. O, mənə “Muğam”, “Sonata”, “Dastan” (1986) və digər fortepiano əsərlərinin notlarını vermişdi. Hələ tələbə olduğum illərdən A.Əlizadənin bəzi kiçik həcmli əsərlərindən prelüdiyalarını və digərlərini ifa etməyə başladım.

Aqşin müəllim çox ağıllı, ziyalı, yaradıcı, yaraşıqlı və olduqca maraqlı insan idi. Buna görə bəstələdiyi musiqi də böyük maraq doğururdu. Məlum olduğu kimi, o, Cövdət müəllimlə yanaşı qiyabi olaraq Q.Qarayevin də sinfində təhsil alıb. Hər iki ustadından - Q.Qarayevə məxsus yaradıcılıq, C.Hacıyev üçün isə səciyyəvi olan konstruktiv prinsipləri mənimsəyib. Onun Azərbaycan mövzusunda bəstələdiyi musiqi əsərləri ciddi məntiqə söykənir.

Aqşin müəllim bəstəkarlıq kafedrasında tədris edən gözəl professorlardan biri idi. O, hafizəmdə ciddi və zəhmətsevər insan kimi yaşayır. Onunla Moskvada Bəstəkarlar İttifaqının Plenumunda birlikdə səfərdə olduğumuzu xatırlayıram.

Təxminən 10-15 il bundan əvvəl Fransada yaşadığım dövrdə A.Əlizadə telefon vasitəsilə mənimlə əlaqə saxladı və bütün fortepiano əsərlərinin notlarını oğlu Fuad müəllimin vasitəsilə ifa etməyim üçün göndərdi. Onun fortepiano yaradıcılığı maraqlı olduğu üçün ifa etmək xoşuma gəlir. Aqşin müəllim ifamı bəyənirdi. Mən onun əksər əsərlərini səsləndirdim və müxtəlif ölkələrin radiolarında lentə yazdırdım. O, əsərlərinin avropalı, amerikalı ifaçılar tərəfindən də ifa olunmasını istəyirdi. Buna görə də göndərdiyi fortepiano əsərlərinin notlarını öz yetirmələrimə



verirdim. Beləliklə, tələbələrim də A.Əlizadənin yaradıcılığına müraciət edirdilər. Onlar arasında kiçik prelüdiyalar və digərləri var idi. Həmişə çox çalışırdım ki, A.Əlizadənin əsərlərini Almaniya və Fransa radiolarının səsyazma studiyalarında lentə yazdırım. Buna nail olduğumu bildirmək istəyirəm.

Fransadan qayıtdıqdan sonra Aqşin müəllimlə görüşdüm və bir qədər söhbətləşdik. O, həmin dövrdə xəstə idi və bağda yaşayırdı, demək olar ki, evdən ümumiyyətlə çıxmırdı. A.Əlizadə musiqi formasının çox böyük ustadı idi. Serqey Prokofyevdəki kimi, onun da fortepiano əsərləri ciddi məntiqə söykənir və formasına görə lakonik qurulub. A.Əlizadənin bəstəkar kimi çox maraqlı prinsipləri var. O, özünü musiqisi ilə gözəl ifadə edən yaradıcı şəxsiyyətdir. Müxtəlif janrlarda yazdığı maraqlı əsərləri Aqşin müəllimin daxili dünyasının təzahürüdür. Əlbəttə ki, bütün bunlar onun tərəfindən forma çərçivəsində məntiqə uyğun qurulub. Buna görə də A.Əlizadənin yaradıcılığına müraciət etmək maraqlıdır.

Təmkinli olmaq Aqşin müəllimin təbiətinə xas cəhət idi. Bu onda hiss olunurdu. Ənənələrə inanmağına baxmayaraq A.Əlizadə çox müasir dünyagörüşlü insan idi. Çox şadam ki, onun kimi böyük bəstəkarı, dəyərli ziyalını, ədalətli və ləyaqətli şəxsiyyəti tanımışam və yaradıcılıq təmasında olmuşam. A.Əlizadə çox yaxşı insan, ənənəvi və müasir musiqini birləşdirən mütərəqqi bəstəkar kimi xatirələrimdə canlanır. Onun musiqi irsi XX-XXI əsr bəstəkarlarının yaradıcılığı arasında gözəl və möhtəşəm ifa nümunələrindən birini təşkil edir.

Bakı, Azərbaycan.
09.04.2021

**Ramiz MƏLİKASLANOV**
Dirijor, Xalq artisti, professor

## AQŞİN ƏLİZADƏ AZƏRBAYCAN MUSİQİ TARİXİNDƏ ÖZ YERİ OLAN BƏSTƏKARDIR

Biz Aqşin Əlizadə ilə eyni məktəbdə təhsil almışıq. Hal-hazırda Bülbül adına Orta İxtisas Musiqi Məktəbi əvvəllər konservatoriya nəzdində xüsusi onillik məktəb adlanırdı və indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının binasında yerləşirdi. Həmin illərdə məktəbə Kövkəb xanım Səfərəliyeva rəhbərlik edirdi. Məndən beş yaş böyük olan Aqşin ilə konservatoriyanın qarşısında tətil vaxtı futbol oynayırdıq. Çox gözəl oyunçu olan Aqşin fiziki cəhətdən də güclü idi və hamı ondan qorxurdu. Biz konservatoriyaya qədər məktəb illərimizi belə keçirmişik. Konservatoriya illərində o, bəstəkarlıq sinfinə daxil oldu, mən isə Sabir Əliyevin violonçel sinfinə qəbul edildim. Sonradan təhsilimi Leninqradda (indiki Sankt-Peterburq) davam etdirməyə başladım və 1970-ci ildə Bakıya qayıdanda Dövlət Teleradio Komitəsinin simfonik orkestrinin bədii rəhbəri və baş dirijoru təyin olundum. Yeni yaradılan orkestr ilə müxtəlif bəstəkarların, eləcə də A.Əlizadənin əsərlərini ifa etməyə başladım. “Kənd süitası” onun yaradıcılığına müraciət etdiyim birinci əsər oldu. İlk dəfə Nazim Rzayevin idarəsi ilə ifa olunan bu əsər sonradan mənim rəhbərliyim ilə səsləndi.



***Azərbaycan bəstəkarlarının V qurultayı. Soldan sağa: Serafim Tulikov, Tofiq Quliyev, Oqtay Zülfüqarov, Aqşin Əlizadə***



*Azərbaycan və Ukrayna bəstəkarlarının görüşü. Soldan sağa: Musa Mirzəyev, Aqşin Əlizadə, Tofiq Quliyev və başqaları. Kiyev, 1978-ci il*

1977-1979-cu illərdə Misir və İraqa yaradıcılıq səfərləri etdim. 1990-cı ildə Bakıya qayıdanda A.Əlizadə Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru, mən isə kamera orkestrinin bədii rəhbəri idim. 1990-1994-cü illərdə A.Əlizadənin bütün simfonik əsərlərini orkestrlə ifa edirdim. Hər ay onun bir, yaxud da iki əsərini səsləndirirdim, konsertlərimiz çox gözəl keçirdi. Bəzi əsərləri bir neçə dəfə ifa etdiyimi bildirmək istəyirəm. Əfsuslar olsun ki, o dövrdə səsləndirdiyim əsərlərin lent yazıları yoxdur. Həmin illərdə Aqşin ilə çox yaxın yaradıcılıq münasibətlərimiz yaranmışdı. Sonradan təsadüfən Türkiyəyə getdim, Aqşin isə Filarmoniyadan ayrıldı və dünyasını dəyişənə qədər görüşə bilmədik. Bəlkə bir-iki dəfə telefonla əlaqə saxladığımızı qeyd edə bilərəm.



A.Əlizadə Azərbaycan musiqi tarixində öz yeri olan çox gözəl bəstəkardır. Onun "Babək" baleti indiki Heydər Əliyev adına sarayda böyük təntənə ilə səhnəyə (1986) qoyulmuşdu. İşlədiyim başqa ölkələrdə - Misirdə, İraqda, Makedoniyada, Türkiyədə bütün Azərbaycan bəstəkarlarının əsərlərini ifa edirəm. İnşallah əsərlərin partituraları ilə yanaşı orkestr səslərini əldə edə bilsəm A.Əlizadənin də simfonik yaradıcılığını təbliğ edəcəm. Mən A.Əlizadəni həm şəxsiyyət, həm də bəstəkar kimi yüksək qiymətləndirirəm və çox sevirəm. Onun gözəl musiqisi Azərbaycan bəstəkarlıq məktəbinin ən dəyərli səhifələrini təşkil edir.

Bakı, Azərbaycan.
11.01.2020

**Dr. H. K. Simon KAMARTİN**
İsveçrəli dirijor

**YANĞIN ALOVLANDI...**

Aqşin Əlizadə haqqında çox az məlumatlı idim. Təkcə onun adını və 4 nömrəli „Muğamvari" simfoniyasının partiturasını bilirdim. Bu cüzi biliklərlə mən 2005-ci ilin noyabrında oradakı kamera orkestrinə dirijorluq etmək üçün səbirsizliklə Bakıya yola düşdüm.



*Simon Kamartin, Aqşin Əlizadə və başqaları*

Bildiyiniz kimi, bəstəkarların əsərlərinin məşqlərinə gəlişini biləndə dirijorlar elə də sevinmirlər. İkinci məşqdə Aqşin Əlizadənin iştirakının elanı bildiriləndə eyni şeyi hiss etdim. Bu barədə xəbər verilməzdən əvvəl cüssəli bir cənab zaldan keçərək dirijor pultuna sarı gəldi, daha sonra konsert səhnəsinə qalxdı, nur saçan sifətlə mənə yaxınlaşdı və məni təsəvvür etdiyim Qafqaz qəhrəmanlıq eposunun qəhrəmanı kimi möhkəm və ürəkdən qucaqladı. Daxilimdəki buzlar əridi və artıq Aqşinlə mənim aramdakı qarşılıqlı hörməti və dostluğu heç nə sarsıda bilməzdi.





*Simon Kamartin və Aqşin Əlizadə*



*Simon Kamartin Aqşin Əlizadənin ifasını dinləyərkən*

Eyni dildə danışmasaq da, bir-birimizi ortaq könül dili vasitəsilə anladığımız üçün dostluq tellərinə bağlı olduğumuzu hiss edirdik. Aqşinin ecazkar musiqisi sayəsində o zaman alovlanan atəş hələ də içimdə odlanır. Cənnətin hədiyyəsi.

Disentis, İsveçrə.

09.01.2022

**Yusif AXUNDZADƏ**
Dirijor, Xalq artisti, professor,
general-mayor

## LAYİQLİ ÖMÜR YAŞAMIŞ NOVATOR BƏSTƏKAR AQŞİN ƏLİZADƏ HAQQINDA

Aqşin Əlizadə xalqımızın görkəmli bəstəkarlarındandır. Onun haqqında fikir bildirmək, yazmaq çox maraqlıdır. Olduqca səmimi insan, maraqlı həmsöhbət idi Aqşin müəllim. Bəzən yaradıcılıq tədbirlərində, televiziya çəkilişlərində, xeyir-şər məclislərində görüşərdik.

Düz danışan, gözütox, zəhmətkeş, dərin düşüncəli, eyni zamanda vətəninə, xalqına bağlı insan idi. Xarici səfərlərdə olduğu zaman Bakının həsrətini çəkər, darıxardı. Onun üçün dünyada Xəzərin sahilindən, Şüvəlandan gözəl yer yox idi.



***Azərbaycan televiziyasında çəkiliş zamanı. Soldan sağa: Mobil Babayev, Eldar Mansurov, Yusif Axundzadə, Vaqif Gərayzadə, Yeganə Axundova, Aqşin Əlizadə və Ələkbər Məmmədov***

Xalqımızın tarixi, mədəniyyəti, milli özəlliyi, arxaik kökləri A.Əlizadənin bir musiqiçi, peşəkar, yaradıcı insan kimi daim düşüncə və maraq dairəsində idi. O, xalq musiqisinin, muğamlarımızın mahir bilicisi olaraq bu xəzinədən köklü surətdə yararlanmış, millilik və müasirliyin qovşağında əvəzsiz əsərlər yaratmışdır. Xalqın ağrı-acısını dərindən duyduğuna görə əsərlərində də bunu



***Soldan sağa: Aqşin Əlizadə, Zümrüd Dadaşzadə, Yusif Axundzadə***

göstərə bilirdi. Musiqimizin kədərli, qəmli ovqatını xalqımızın kəşməkeşli tarixi ilə əlaqələndirirdi. Hətta “Vağzalı” rəqsini belə göz yaşları axıtmadan dinləmək olmur” deyirdi.

A.Əlizadə uşaqlıqdan həm xalq, həm də dünya musiqisini dinləyib. O, ailənin yaxın dostu Süleyman Dadaşovun (Xalq artisti Məlik Dadaşovun qardaşı) onların evində qonaq olarkən fortepianoda ifa etdiyi “Tərəkəmə” rəqsini xatırladığını deyirdi. Bu ifa ona çox təsir edib və musiqiçi olmağına böyük həvəs yaradıb. Musiqi məktəbində oxuduğu illərdə isə fortepiano dərslərini Vaqif Mustafazadənin anası Zivər xanımdan alıb. Belə bir mühitdə böyüyüb Aqşin müəllim...

İkinci Dünya müharibəsi yenicə bitmişdi. Aqşin o zamanlar uşaq olsa da müharibənin dəhşətləri onun yaddaşında ciddi iz buraxmışdı. Sonralar biz bu təsiri onun yaradıcılığında aydın eşidəcəyik. Məsələn, “Tütək səsi” filminin musiqisini qeyd etmək istəyirəm. Hər kəsə bəllidir ki, 1975-ci ildə çəkilən film İkinci Dünya müharibəsinin arxa cəbhə həyatından bəhs edir. Filmdə bəstəkar müharibənin rəngini, səsini, hətta barıtın qoxusunu tamaşaçıya hiss etdirir. Elə təəssürat yaranır ki, sanki bəstəkar hələ də müharibənin içindədir, faciə, savaş davam etməkdədir. Bəlkə də Aqşinin daxilində müharibə bitməmişdi.

Digər bir nümunə ... “Rəqiblər” filmi. “Tütək səsi” filmindən bir il öncə çəkilib. Bu filmlər kədərin, hüznün musiqi ifadəsi baxımından bir-birinin davamıdır. Film qəhrəmanlarının simasında gülüş, təbəssüm ifadə olunduğu halda musiqi tamamilə başqa ovqat yaradır. Bəstəkar təbəssümün alt qatlarında olan kədəri səsləndirir.

A.Əlizadə musiqisi filmlərin canı, qanıdır. O, əlliyə yaxın bədii və sənədli filmə, cizgi filminə, teatra tamaşasına musiqi yazıb. Hamısı da biri-birindən qiymətli və bənzərsiz...

A.Əlizadə folklorun dərin qatlarına enən, arxaizm elementlərini fərdi musiqi dilində cəmləşdirən bəstəkardır. Onun ən böyük özünəməxsusluğu da bunda idi. Yeniliyə can atan, təkrarçılığı sevməyən, dəyərlərə böyük hörmətlə yanaşan biri kimi layiqli həyat yaşadı Aqşin müəllim. Uzun illər pedaqoji fəaliyyətlə də məşğul oldu, neçə-neçə tələbə yetişdirdi. Oğlu Əli Əlizadə də atasının yolu ilə gedərək bəstəkar kimi fəaliyyət göstərir. Ürəkdən arzu edirəm ki, A.Əlizadənin əvəzsiz irsi, orijinal bəstəkarlıq ənənəsi daim yaşasın və davam etdirilsin.

Bakı, Azərbaycan.<br>20.09.2021

**Ramiz QULİYEV**
Tar ifaçısı, Xalq artisti,
professor

## AQŞİN ƏLİZADƏNİN TƏBİƏTİNDƏ CƏNGLİK RUHU VAR İDİ



***Adil Babirov, Aqşin Əlizadə, Arif Məlikov (əyləşib)***

Mən Aqşin Əlizadəni gözəl insan, unudulmaz bəstəkar və dost kimi xatırlayıram. 1964-cü ildə konservatoriyaya daxil olanda gördüyüm bəstəkarlardan biri də Aqşin müəllim olmuşdu. Çox mehriban və rəsmi insan olan A.Əlizadənin xasiyyətində iki cəhət birləşmişdi. O, sənətə düzgün xidmət edən insanların həmişə dostu idi. Tələbə vaxtı onu diqqətlə müşahidə edirdim. Aqşin müəllimi görəndə dayısı Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə haqqında çəkilmiş film gözümdə canlanırdı. Mənim uşaqlıq dövrümdə, gənclik illərimdə baxdığım ən gözəl filmlərdən biri də "Uzaq sahillərdə" idi. Aqşin müəllimin simasında böyük rəşadət, qəhrəmanlıq göstərmiş doğma dayısını görürdüm. Bir gün yaxınlaşıb onunla görüşdüm. Məndən on yaş böyük olmasına baxmayaraq ilk anlardan aramızda mehriban münasibət yarandı. Daha sonra onun yaradıcılığını izləməyə başladım. A.Əlizadənin əsərlərində milli ruhun olmağı mənim diqqətimi cəlb etdi. Onun Bəstəkarlar İttifaqının plenumlarında, qurultaylarında çox fəal olduğunu müşahidə edirdim. Hər dəfə yeni əsər təqdim etdiyinin dəfələrlə şahidi olmuşam.

Moskvada Kremlin Qurultaylar Sarayında SSRİ-nin yaranmasının 50 illik yubileyi ilə bağlı möhtəşəm bir tədbir həyata keçirilirdi. On beş respublikanın incəsənət xadimləri həmin qurultayda iştirak edirdilər. Digər respublikalarla yanaşı həmin tədbirdə Azərbaycan Respublikasının da musiqisi, rəqsi, ansamblı və xoru təqdim edilməli idi. 1974-cü ildə Moskvada estrada artistlərinin beşinci müsabiqəsində laureat olandan sonra filarmoniyada solist kimi işə qəbul olunmuşdum. Həmin illərdə gördüyüm filarmoniyaya rəhbərlik edən

böyük direktorlardan biri də maestro Niyazi idi. Məşqlərdə maestro ilə daha yaxın əlaqələrimiz yarandı. Bizim yaş fərqimiz çox idi. Amma maestro Niyazi gələcəyinə ümid bəslədiyi gənclərə daha yaxşı diqqət göstərirdi.

1982-ci ilin əvvəllərində Moskvaya komsomolun (kommunist gənclər ittifaqı belə adlanırdı) 30-cu qurultayında çıxış etmək üçün getməli idik. Aqşin müəllim vokal-xoreoqrafik lövhə olan "Təntənə" adlı əsərini həmin tədbirdə ifa etmək üçün yazmışdı. Məşq zamanı o, həmişə simfonik orkestrin yanında dayanar və qulaq asardı. Tədbirdə dövlət rəqs ansamblının da iştirakı nəzərdə tutulmuşdu. A.Əlizadə xoreoqraf Qəhrəman Nəsirovun təkliflərini həmişə nəzərə alırdı. Bəzən xoreoqraf ona əsərin hansısa hissəsində xanə sayını artırmasını və ya ixtisar etməsini təklif edirdi. O, bütün bunlara səbirlə, təmkinlə yanaşırdı. Digər tərəfdən də, maestro Niyazinin hökmü bu işdə mühüm rol oynayırdı. Bəzi vaxtlar bəstəkar bu rəqsi başqa konsertdə səsləndirmək və ya digər üslubda işləmək barədə düşünürdü. Ancaq maestro Niyazi buna yol vermir və belə deyirdi: "Sənin rəqsində milli ruh var. Bunu etmək olmaz! Başqa ruha keçmə!".




Onu da qeyd edim ki, ümummilli lider Heydər Əliyev Azərbaycan incəsənətinə böyük diqqət göstərirdi. O, həmin tədbirdə iştirakımız ilə bağlı Mərkəzi Komitənin katibi Kamran Bağırova tapşırıq vermişdi. Buna görə də iştirakçılar üçün xüsusi geyimlər tikilib hazırlanmış, insanlarda yaxşı əhval-ruhiyyə yaratmaq üçün şərait yaradılmışdı. Bütün bunlar Rusiyada Azərbaycanın dövlət rəhbərliyinə olan hörmətdən irəli gəlirdi. İndiki H.Əliyev adına sarayda məşqlərimiz keçirilirdi. O vaxt İqor Moiseyev bizim nömrəni qəbul etmək üçün bura gəlmişdi. Bakıda həmin konsertin ilk təqdimatından sonra biz Moskvaya yola düşdük. Tədbirdə uğurla iştirak etdik və başımız uca oldu. Çıxış üçün hər respublikaya təxminən 3-4 dəqiqə vaxt ayrılmışdı. Konsertdən sonra Azərbaycanın layiq olduğu yüksək səviyyədə adımız çəkildi.

Həmin dövürdə ovçuluğa çox həvəsim var idi. Bakıda tüfəng satılan mağazadan ov etmək üçün tüfəng almağı arzu edirdim. Ancaq onu Moskvadakı müxtəlif

çeşidli tüfəng mağazalarından almağımı məsləhət bildilər. Mən Moskvada komisyon mağazadan sənəd ilə qoşalülə ov tüfəngi aldım. Noyabr, dekabr, fevral aylarında ova çıxmaq və hansısa dovşanı, tülkünü ovlamaq istəyirdim. İnsana yaxşı ruh verən tüfəngin səsini yaxşı mənada eşitməyin arzusunda idim. Konsertdə simfonik orkestrdə tar partiyalarını mən ifa etmişdim, uğurlu çıxışımızdan sonra böyük fərəh hissi keçirirdim. Təyyarəyə qalxanda bir əlimdə tar, o biri əlimdə isə palıd rəngində futlyarı olan tüfəngim var idi. Aqşin müəllim məni belə gördükdə soruşdu. “Bu nədir belə? Kimi vuracaqsan? Nə vuracaqsan..?”



***M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında A.Əlizadənin 70 illik yubileyində. Soldan sağa: Qalina Əlizadə, Lalə Hüseynova, Aqşin Əlizadə, türkiyəli tələbə və Ramiz Quliyev. Aprel, 2007-ci il***

Dedim heç kimi Aqşin müəllim. Balaca bir tülkü olsa onu, ya da dovşanı.

“Həəə. Onda olar. Bilirsən niyə? Ola bilər ki, başqa nəisə nəzərdə tutmusan?”

Dedim yox. Qismətdən təyyarədə yerimiz yanaşı oldu. Allaha and olsun, o böyük insan, çox hörmətli bəstəkar mənim tüfəngimə kömək etdi. Aqşin müəllim kənarda oturub əlində tüfəngi tuturdu. Stüardessa soruşduqda mən tüfəngin sənədini təqdim etdim. Bakıya qayıdanda ailə üzvlərim tüfəng barədə mənə suallar verirdilər. Onlara cavabım belə oldu: “Aqşin Əlizadənin əsərinin



***A.Əlizadənin 70 illik yubileyinə həsr edilmiş yaradıcılıq gecəsi. Aprel, 2007-ci il***

yüksək səviyyədə ifasından sonra mənə tüfəng bağışladılar". Adını belə qoydum ki, daha heç nə deməsinlər. Çünki, atam bununla nə etmək istədiyimi soruşurdu. Dedim ağa (biz ona belə müraciət edirdik) mən kiminsə heyvanını vurmayacağam. Bunu mənə Aqşin Əlizadə bağışlayıb. Onda olar, sağ olsun, - deyə atam öz münasibətini bildirdi. Həmin əhvalatdan bir neçə il sonra Aqşin müəllim ilə yenidən görüşdük. O, bir müddət Türkiyə Respublikasına işləməyə getmişdi. Qayıdandan sonra mənə belə dedi: "Qulağım səsdə idi ki, birdən heyvan vurmazsan adam vurarsan. Elə adamlar var ki, xatakardılar". Aqşin müəllim çox zarafatcıl insan idi. Görüşlərimizdə yaxşı ağsaqqal kimi söhbətlər edirdi. O, 28 may küçəsində kilsənin qarşısında yerləşən binada yaşayırdı. Sonralar səhhəti ilə bağlı olaraq bir qədər bikef oldu. Bağda yaşadığı vaxtlarda da ona zəng vurub hal-əhval tuturdum. Ayağının ağrısından şikayət edirdi. Bir gün dedim ki, Aqşin müəllim ayaq əsas deyil. Əsas olan başdı, bir də əl. Siz də onunla yaratmısınız. Bütün bunları ayaqla etməmisiniz. O, da bu zarafatıma gülürdü. Bir gün mənə "Cəngi" adlı əsərini təqdim etdikdə belə dedi: "Ramiz sən milli üslubda olan əsərləri sevərsən". A.Əlizadədə gözəl cəngilik ruhu var idi. Bu əsəri vaxtı ilə kamera orkestri ifa edib. O, əsərin yaranma tarixçəsi barədə mənə belə demişdi: "Ramiz mən bunu 10 dəqiqə də edə bilərdim. Cəngi üç-dörd dəqiqədən artıq olmaz. Bunun balaca əsər olmağına baxma. Mən onu iki il gözləmişəm. Əvvəlcə kiçik bir cümləni sonra isə orta hissəni yazdım. Ara-bir yenidən həmin əsərə qayıdıb göz gəzdirirdim. "Cəngi" tədricən




yarandı. Mən belə yolla əsərlər yazıram. Amma bəzi adamlar var ki, xeyirdə-şərdə oturub nə edir bilmirsən". Deyirdim Aqşin müəllim vallah onların əsərləri qalmır. Belə hallar ona çox pis təsir etdiyinə görə bərk əsəbiləşirdi.

A.Əlizadə Bəstəkarlar İttifaqının birinci katibi olduğu illərdə (1985-1990) obyektivliyini qoruyub saxladı. Sənət dostları arasında olan xoşagəlməz halları həmişə aradan qaldırmağa çalışırdı. O, hamı ilə yaxşı münasibətdə olmağa cəhd edir, əlaqələri kəsmirdi.

2007-ci ildə onun 70 illik yubiley konsertində "Cəngi" əsərini ifa etdim. Yubileyə qədər mən bu əsəri Əyyub Quliyevlə Polşada, Vyanada, Avstriyada, Türkiyədə, İranda, Almaniyada, Rusiyada və digər ölkələrdə ifa etmişdim. O, həmin konsertlərə televiziyanın efiri vasitəsilə tamaşa etmiş və çox bəyənmişdi. Milli alətlərimizdən olan tarın simfonik orkestrdə səslənməsi çox xoşuna gəlmişdi. Əyyub o vaxtlar tarda ifa edirdi. 1993-cü ildə mən bu əsəri iki tar üçün işlədim və çap etdirdim. İkinci tarın partiyasını Əyyub ifa edirdi. O, dirijor sənətinə yiyələnəndən sonra beynəlxalq səviyyədə çıxışlar etməyə başladı. Həmin dövrdə Aqşin müəllim "Aşıqsayağı" əsərini ifa etmək təklifini mənə bildirdi. Əlbəttə ki, mən böyük məmnuniyyətlə razı oldum.

Aqşin müəllim Əyyubun istedadına, bacarığına çox inanırdı. Bir gün Əyyubun onun əsərlərinə dirijorluq etməsi istəyini mənə dedi və bir neçə əsərini ona verdi. Əyyubla zəngləşdikdən sonra görüşdülər və xahiş etdi ki, onun yetmiş yaşının tamam olması münasibətilə Azərbaycan Dövlət Filarmoniyasında keçirilən müəllif konsertinə dirijorluq etsin. Əyyub gənc dirijor olsa da Aqşin müəllim onunla razılaşırdı. Onun Əyyuba verdiyi məsləhətlərin şahidi olmuşam. Nəticədə gözəl konsert proqramı yarandı. Onun Əyyubla söhbət edərkən gözəl arzularını dilə gətirdiyini yaxşı xatırlayıram.

A.Əlizadənin Qarabağın azadlığına həsr olunmuş əsər yazmaq arzusu var idi. O, həmişə deyirdi: "Mən çox əsər yazmamışam. Düşünüb, axtarıb, məqsədəuyğun əsər yazmaq istəyirəm". Fikrimcə, onun yazdığı əsərlər vətən üçün ruh verdi. A.Əlizadə azərbaycançılıq təəssübkeşliyini qoruyub saxlaya bildi, musiqi dünyasında olan bəstəkarlıq borcunu şərəflə, ləyaqətlə yerinə yetirdi. Mən həmişə Aqşin müəllimi əsərləri, gözəl söhbətləri, insana xoş təsir bağışlayan zarafatları ilə xatırlayıram. Onun Əli və Fuad adlı iki övladı var. Onları görəndə həmişə Aqşin müəllimin gözəl ruhunu övladlarında yad edirəm. A.Əlizadə davranışları, yüksək insani keyfiyyətləri, əxlaqı, zəhmətkeşliyi, istedadı ilə bizim musiqi tariximizdə yaxşı ad qoydu. Sənətkar və onun yazdığı dahi əsər heç vaxt ölmür. Ona görə də mənim üçün A.Əlizadə əsərləri, övladları, nəvələri və ruhu ilə həmişə yaşayır. Ruhu şad olsun. AMİN!

Bakı, Azərbaycan.
30.01.2019

**Şəfiqə EYVAZOVA**
Kamança ifaçısı, Xalq artisti, AMK-nın professoru

## AQŞİN ƏLİZADƏNİN MUSİQİ DÜNYASI AZƏRBAYCAN MİLLİ MƏDƏNİYYƏTİ TARİXİNƏ BÖYÜK HƏRFLƏRLƏ YAZILMIŞDIR

Mən Aqşin Əlizadəni bəstəkar və çox savadlı müəllim kimi xatırlayıram. Onun əsərlərinin müasirliyi xoşuma gəlir. Aqşin müəllimin xalq musiqisindən ustalıqla istifadə etmək bacarığı var idi ki, yaradıcılığında aşıq musiqisinə, muğamlara gözəl müraciət etmişdi.

Onunla bir dəfə xarici ölkədə - Avstriyada dövlət tədbirində səfərdə olmuşuq. Nazirlik tərəfindən göndərildiyimiz tədbirdə Aqşin müəllim Azərbaycan nümayəndə heyətinə rəhbərlik edirdi. Brilyant Dadaşova, Ağasəlim Abdullayev və başqa musiqiçilərlə birlikdə olarkən A.Əlizadəni özüm üçün həmin səfərdə yenidən kəşf etdim. Əvvəlcə ünsiyyətimiz olmadığına görə onu doğurdan da tanımamışdım. O, çox sadə, mədəni, mehriban və gülərüz insan idi. Birlikdə səfərdə olarkən mehriban ünsiyyətimiz yarandı. Onun insanlarla çox gözəl ünsiyyət qurmaq qabiliyyəti var idi.

1990-cı ilin aprel ayında Vyana və Zalsburq şəhərlərində verdiyimiz konsertlərdə biz əsasən bir sıra Azərbaycan xalq mahnılarını - "Laçın", "Qubanın ağ alması" və s., eləcə də bəstəkar mahnılarını ifa etdik. Səfərdə olarkən



*Aqşin Əlizadə İraq bəstəkarı və ud ifaçısı Münir Başirlə. Bakı, 1988-ci il*

A.Əlizadə ilə birlikdə çox yaxşı günlərimizin keçdiyini xatırlayıram.

Aqşin müəllimin yaradıcılığı göz önündədir. Təəssüf ki, onun çox gözəl "Babək" baletinin tamaşasında olmamışam. Ancaq həmin əsərə efir vasitəsilə baxmışam. Baletin premyerası indiki H.Əliyev sarayında keçib. A.Əlizadə böyük bəstəkar Cövdət Hacıyevin tələbəsi olub. Onun baletləri də Qara Qarayevin, Fikrət Əmirovun əsərləri kimi milli ruhdadır. A.Əlizadə əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin bacısı oğlu olduğuna görə onun daxilində həmişə qəhrəmanlıq ruhu var idi.

Mən Aqşin müəllimin bir xüsusiyyətini də qeyd etmək istəyirəm. O, nə qədər sadə insan olsa da, bir o qədər də sözü üzə deyən sərt xarakterə malik şəxsiyyət idi. Əgər kim isə yerini bilmirdisə A.Əlizadə ona öz münasibətini bildirirdi. Fikrimcə, belə insanlardan qorxmaq lazım deyil, onun kimi şəxsiyyəti yada salmamaq həm cinayət, həm də günahdır. A.Əlizadə Azərbaycan bəstəkarlıq sinfinin nəhəng sütunlarından biri kimi musiqisi və əməlləri ilə yaşayır. Allah ona rəhmət eləsin.

Bakı, Azərbaycan.
16.04.2019

**Хагигат МАГЕРРАМОВА**
Пианистка, доктор философии по искусствоведению,
профессор факультета изящных искусств Университета им. Ататюрка

## ПАМЯТИ АКШИНА АЛИЗАДЕ

*"...Вопреки скептикам, реалистам, прагматикам и т.д. я верю в Другую жизнь. Я говорю «другую», а не потустороннюю, ибо неизвестно еще, кто из нас находится «по ту» сторону, а кто – «по эту».*

***Анар***



***Акшин Ализаде в Англии. 1969 г***

Шел 80-ый год прошлого столетия. Профессор Тарлан Сеидов, не терпящий никаких возражений, предложил мне принять участие в одном из концертов организованного им цикла «Фортепианные и органные сонаты азербайджанских композиторов», исполнив сонату Акшина Ализаде. Никакие возражения, связанные с болезнью мамы и подготовкой к сольному концерту, не принимались. Сегодня я благодарна Т. А. Сеидову за радость встречи с произведением, заслуженно вызывающим интерес исполнителей. Соната создана композитором еще в годы студенчества в 1959г. и отмечена дипломом 1-ой степени на Всесоюзном смотре творчества молодых композиторов. В дальнейшем, на основе авторского проекта фортепианных сонат азербайджанских композиторов были изданы методические разработки к исполнению, где мною был выполнен музыковедческий и исполнительский анализ данного произведения.

Итак, началась волнующая работа. Соната притягивала блестящей виртуозностью, эмоциональной насыщенностью, национальным своеобразием, яркостью и красочностью. Приближался день концерта. Понимала, что нужно связаться с композитором, но что-то удерживало меня от знакомства. Я была наслышана о бескомпромиссности Акшина Ализаде, его принципиальности и обостренном чувстве справедливости, неумении притворяться. И честно говоря, трусила. Наконец, набравшись храбрости, позвонила маэстро. И сегодня с нежностью благодарю судьбу, что эта первая встреча состоялась. К сожалению, встреч этих было не так много, как хотелось бы.




В назначенный час я пришла в 309 класс. В аудитории были студенты класса А. А. Ализаде и сев рядом с ними, он предложил мне начать игру. Закончив исполнение, услышала аплодисменты и обернувшись, увидела удивительно доброе и светлое лицо маэстро. И первые слова, произнесенные им (да простится мне моя нескромность): «Благодарю вас, я и не знал, что у меня такая хорошая соната», - привели меня в некое замешательство. Сказать, что я была счастлива, это все равно, что ничего не сказать.

Наиболее ярко всплывает в памяти вторая наша встреча, когда Акшин Алиевич зайдя ко мне в класс, со скромностью, присущей истинно талантливым людям, предложил ознакомиться с его новым произведением для фортепиано под названием «Старинные игры», подчеркнув при этом, что ему интересно мое мнение специалиста. Это был новый этап нашего сотворчества. В дальнейшем мне выпала честь в 1991г. на одном из концертов цикла «Музыкального вернисажа» в зале Азгосфилармонии стать первой исполнительницей данного произведения.

Говоря о глубинных истоках этого яркого сочинения, следует отметить, что оно, несомненно, обладает собственной аурой, а экспрессивный стиль данной пьесы тесно связан с красочностью народной музыки и восходит к древним старинным играм. В век космополитизма композитор сумел сохранить свое национальное лицо и национальную стилистику. В «Старинных играх» А.Ализаде сталкивает две контрастные образно-эмоциональные сферы - стихию пляски воинов и женского лирического танца. Относительно трактовки данного опуса у нас возникли

некоторые разногласия. Я мыслила стихию пляски воинов, как бы издалека, постепенно наращивая звучание. Автор же требовал, именно требовал, начинать сразу же с активной подачи силы и яркости эмоционального импульса. И надо сказать, что убедил меня в этом.

В 90-е годы XX века Акшин Ализаде, один из эрудированных, авторитетных и высококвалифицированных представителей композиторской школы Азербайджана был приглашен на работу в Турцию. На протяжении ряда лет он проработал в Университетах городов Трабзона и Вана, передавая свой богатый опыт подрастающему поколению турецких музыкантов. Сегодня, работая в Турции вместе с его прошлыми учениками, я каждый раз с восторгом наблюдаю, с каким пиететом они вспоминают своего неординарного учителя.

С болью вспоминаю нашу последнюю встречу (если бы знать!) в фойе филармонии. Он был как-то особенно грустен и на мой вопрос: «Как вы?», вдруг резко ответил: «Как я могу вам сейчас на ходу сказать как я». Испытывая преклонение, любовь и уважение к памяти творца, могу сказать, что Акшин Ализаде был самобытен и индивидуален во всем. Для меня лично, искренний и открытый Акшин Ализаде являлся камертоном нашего времени и всегда был символом принципиальности и ответственности художника. Такой невероятно чистый человек запоминается на всю жизнь и хочется верить, что, по «ту» или «по эту» сторону Маэстро всегда и дальше будет с нами!

Турция, Эрзурум.
14.01.2019

**Arif ƏSƏDULLAYEV**
Kamança ifaçısı, Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor

## ƏVƏZOLUNMAZ BƏSTƏKAR

Azərbaycan bəstəkarlıq məktəbinin elə nümayəndələri var ki, onları heç kiminlə əvəz etmək olmur. Üzeyir bəy kimi bəstəkarlar həyatdan gedəndən sonra onun qoyduğu yolu bu günə kimi davam edirlər. Həmin məktəbin nümayəndələrindən biri də Aqşin Əlizadədir. Mən onu təxminən 1972-1975-ci illərdən Əhsən Dadaşovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblının üzvü olduğum



dövrdən tanıyırdım. Bir dəfə Aqşin müəllimin "Tülkü həccə gedir" adlı cizgi filminə yazdığı musiqini ansamblla ifa etdik və Fioletov küçəsində (indiki Əbdülkərim Əlizadə küçəsi) yerləşən səsyazma studiyasında lentə yazdıq. Əhsən müəllim özü də ansamblda ifa edirdi. İndi o cizgi filmini efirdə verəndə həmin xatirələr yadıma düşür. "Tülkü həccə gedir" cizgi filminin səsyazmasında iştirak edən Aqşin müəllim gənc olmasına baxmayaraq tanınmış bəstəkar idi. Mən sonradan Əhsən müəllimə onun əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin bacısı oğlu olduğunu dedim. O zamanlar artıq "Uzaq sahillərdə" filminə baxmışdıq. Həmin vaxtdan A.Əlizadə ilə ünsiyyətimiz yarandı. Tələbə vaxtı onu bəstəkarlıq kafedrasının müəllimi kimi tanıyırdım, sonradan yaradıcılığı ilə tanış olanda gördüm ki, Aqşin müəllim sadəcə cizgi filminə musiqi yazan bəstəkar deyil. O, Azərbaycan musiqi mədəniyyəti tarixində öz yerini tapmış şəxsiyyətdir.

Bir dəfə Aqşin müəllimlə dayısı SSRİ qəhrəmanı M.Hüseynzadə haqqında xeyli söhbət etdik. O, mənə M.Hüseynzadənin qəhrəmanlığından bəhs edən "Uzaq sahillərdə" filminin çəkilməsindən əvvəl, demək olar ki, xalqımızın onu tanımadığını dedi. Aqşin müəllimin qeyd etdiyinə görə, M.Hüseynzadənin bacısı oğluyam deyəndə tanınmış şəxslər də onu tanımırdılar. "Ancaq bu filmdən sonra elə bil məni də tanımağa başladılar" deyən Aqşin müəllimin həmin söhbətini yaxşı xatırlayıram.

A.Əlizadədə həmişə bir xüsusiyyəti görmüşəm. O, kənardan ilk baxışda çox qaraqabaq, ağır təbiətli insana bənzəyirdi. Fikirləşirdim ki, onunla oturub danışmaq, zarafat etmək mümkün deyil. Amma bir qədər ünsiyyətdə olandan sonra onun necə mülayim insan olduğunu başa düşmüşdüm. Artıq əlli ilə yaxın idi ki, onunla görüşürdük. O illərdə Aqşin müəllimi tanımamışam, həmişə ondan çəkinmişəm. Sonralar isə ondan çəkinməyimə çox təəccüb etməyə başladım.

O dövr bəstəkarlarımızın əksəriyyəti - Qara Qarayev, Zakir Bağırov, Cövdət Hacıyev, Xəyyam Mirzəzadə ilə ünsiyyətim olub, onlarla salamlaşmışam. Amma bəstəkarları dəhlizdə görəndə sütunların arxasında gizlənərdim. Hərdən danışanda tələbələrimə gülməli görünür. Görəndə ki, çarə yoxdur, əksinə,

yoldaşları da məcbur edirdim ki, söykənib dayanın Aqşin müəllim gəlib keçsin görüşək, salam verək. Biz belə tərbiyə almışıq. Baxmayaraq ki, Aqşin müəllim məndən çox böyük deyildi, amma mən həmişə ondan ehtiyat edirdim. Düşünürdüm ki, bəlkə onun xasiyyəti ağır olar. Sonradan onunla daha çox ünsiyyətdə olmadığıma görə peşmançılıq hissi keçirdim. Tələbə vaxtı rəsmi salamlaşarkən məndən dərslərimin necə olduğunu soruşardı. İşlədiyim dövrdə isə işlərin necədir, evdə nə var, nə yox deyə maraqlanardı. Sonralar hal-əhval tutanda onu çox qayğılı görürdüm. Artıq hiss edirdi ki, yaş gəlib çatıb. Şair dediyi kimi insanlara sağlığında qiymət vermək, belə şəxsiyyətlərə sağlığında heykəl ucaltmaq lazımdır.

Mən Avropa, Asiya ölkələrində çoxlu yaradıcılıq səfərlərində olmuşam. O vaxtlar xarici ölkələrdə bizim musiqiçilərimizdən Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Arif Məlikov, Rəşid Behbudov, Müslüm Maqomayev, Zeynəb Xanlarova tanınırdı. 1985-ci ildən sonra isə Avropaya etdiyim səfərlərdə gördüm ki, Aqşin müəllimi də tanıyırlar.

O, xalq musiqisini çox yaxşı bilirdi. Onu da qeyd edim ki, xalq musiqisindən bəhrələnən bəstəkarlarımızın yaradıcılığı demək olar ki, illərlə həm araşdırılacaq, həm də yaşayacaqdır. A.Əlizadə Azərbaycan muğamlarını da yaxşı bildiyinə görə onunla bu mövzuda söhbətlərimiz olurdu. Muğamlara çox bağlı olan A.Əlizadə bütün əsərlərində onlardan müxtəlif şəkildə istifadə edirdi. Bəstəkarlarımız arasında muğamları çox səlis, dürüst bilənlər tək-tək olur. O, mənim muğamları nota salmağımın tərəfdarı idi. Muğamları notlaşdırmağıma ən çox sevinən bəstəkarlardan biri də A.Məlikov idi ki, o da bu işdə məni A.Əlizadə kimi çox dəstəkləyirdi. Aqşin müəllim həmişə muğamları notlaşdırmaq işini yarımçıq qoymamağı tövsiyə edirdi. Deyirdi ki, “sən bəstəkar olsan nota salma işinə vaxtın qalmayacaq. İfaçı olduğun üçün vaxtın var, başqa əsərlər yazmırsan, ancaq muğamları nota salırsan. Yaz ki, bunlar qalsın. Bizim bu işi görməyə imkanımız, vaxtımız yoxdur. Əlimizdə iş çoxdur, mənim yaradıcılıq sifarişlərim, əsərlərim qalır. Muğamı nota salmaq üçün gərək yenidən o mühitə düşəsən, çərçivədən kənara çıxmayasan. Ona görə sən bu işlə məşğul ol”.

A.Əlizadə Azərbaycan bəstəkarlarının Üzeyir bəy, Q.Qarayev, F.Əmirov kimi yaşlı nəsil nümayəndələrinin davamçılarından biri olmuşdur. Biz onun yaradıcılığını gənclik illərimizdə Q.Qarayevin, F.Əmirovun, C.Cahangirovun, T.Quliyevin, R.Hacıyevin əsərləri qədər tanımırdıq. Aqşin müəllimi kəşf edəndən sonra məhz onun böyük sələflərinin davamçısı olduğunu anladıq.

A.Əlizadənin yaradıcılığını ailəmizdə hamı əzbərdən bilir. Efirdə onun əsərləri səslənən kimi Şəfiqə xanım A.Əlizadənin musiqisi olduğunu dilə gətirəndə Mehri də təsdiq edir. A.Əlizadənin öz dəsti-xətti olduğuna görə onun yolu seçilir. Ona görə belə bəstəkarlar həmişə yaşayırlar. Xalqımızın ən gözəl



***Aqşin Əlizadə. 27.11.1968-ci il***

nümayəndələrindən biri olan A.Əlizadənin musiqi sənətində öz zirvəsi var.

Ailəmizdə hansısa bəstəkarın əsəri ifa ediləndə, yaxud da haradasa musiqi eşidəndə biz onu hansı muğamdan istifadə etməsi, filan hadisəni əks etdirməsi barədə 3-4 saat təhlil edirik. Bu maraqdan, peşəkarlıqdan, bir qədər də istəkdən irəli gəlir. Ailəmizdə hansısa bir yeni bəstəkarın əsərini ifa edəndə və ya qulaq asanda fikirləşirik ki, görəsən Əhsən müəllim buna necə qiymət verərdi? Cahangir müəllim bu mahnıya nə fikir söyləyərdi? Yaxud A.Məlikov bu əsəri eşidəndə hansı hissləri keçirərdi? Həmçinin, Aqşin müəllim necə münasibət bildirərdi? Bu əsəri A.Əlizadə belə yazardı? Bu cür mübahisələr ailəmizin əsas prinsiplərdən biri olub, evimizdə həmişə müzakirə obyektinə çevrilən mövzulardandır.

Mən Aqşin müəllimin yaradıcılığı haqqında dissertasiya işlərinin yazılmasını çox istərdim. Onun musiqisində dərin xəlqilik olduğu üçün hər əsəri haqqında sonsuz sayda elmi işlər meydana gələ bilər. Azərbaycan musiqisini sabaha çatdıran on nəfər bəstəkar varsa onlardan biri də A.Əlizadədir. Allah ona rəhmət eləsin. Amin!

Bakı, Azərbaycan.
14.03.2019

**Cavanşir CƏFƏROV**
Dirijor, Xalq artisti, professor

## AQŞİN ƏLİZADƏ NOVATOR ƏSƏRLƏRİN MÜƏLLİFİ KİMİ MUSİQİ TARİXİMİZDƏ İZ QOYUB




Mən Aqşin Əlizadə ilə 1976-cı ildə tanış olmuşam. Həmin ildə o, Akademik Dövlət Opera və Balet Teatrına "Babək" baletinin premyerasını keçirmək üçün müraciət etmişdi. 1977-ci ildə həmin teatrda xormeyster kimi təcrübə qazanmaq üçün işləyirdim. Filarmoniyada kapellanın rəhbəri olduğum ildə (1980) Aqşin müəllim xor üçün "Bayatılar" əsərini yazmışdı. Bu əsərin ayrı-ayrı nömrələrini Eduard Novruzovun rəhbərlik etdiyi kapella ifa edirdi. Bir gün Aqşin müəllim mənə "Bayatılar"ı bütövlükdə ifa etməyimi təklif etdi və bu əsəri vala yazdırmaq fikrini bildirdi. Əlbəttə ki, onun təklifini məmnuniyyətlə qəbul etdim. 1983-cü ildə "Bayatılar"ı radio komitəsinin və televiziyanın iştirakı ilə vala yazdırdıq. Beləliklə, Aqşin müəllimlə həm də dostluq əlaqələrimiz quruldu. Sonralar dirijorluq fəaliyyətimi Musiqili Komediya Teatrında davam etdirdiyim dövrdə Aqşin müəllimlə görüşlərimizdə yeni əsərlər üzərində işlədiyini deyir və bəzən də məsləhətlər alırdı. Opera və Balet Teatrına qayıdandan sonra A.Əlizadə mənə "Qafqaza səyahət" baletini tamaşaya qoymaq üçün təqdim etdi. Bu əsərdə XIX əsrdə Şərq ölkələrini səyahətə çıxmış Aleksandr Dümanın Qafqazı gəzməsindən və Şuşada, Bakıda, Şamaxıda gördüklərini qələmə almasından bəhs edilir. Mən baletin ayrı-ayrı nömrələrini işlədikdən sonra əsər 2002-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının quruluşçu


AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRI

101-ci
mövsüm

AQŞİN ƏLİZADƏ
"QAFQAZA SƏYAHƏT"
Libretto müəllifi Aqşin Əlizadə
(BALET)

PREMYERA
"ÜMİD VALSI"
Libretto müəllifi Aqşin Əlizadə
(BALET)
Bakı - 2009-2010-cu illər teatr mövsümü

***"Qafqaza səyahət" və "Ümid valsı" baletlərinin proqramının üz qabığı***

baletmeysteri xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Tamilla Şirəliyevanın quruluşunda tamaşaya qoyuldu. Gözəl musiqisi və rəqs quruluşu olan baletin premyerası çox yaxşı keçdi.

Bu tamaşadan sonra Aqşin müəllimlə yenidən görüşəndə "Ümid valsı" adlı yeni balet yazdığını bildirdi. Hacı Zeynalabdin Tağıyevin mesenat kimi gəncləri təhsil almaq üçün xarici ölkələrə göndərməsindən bəhs edilən bu baletin musiqisi çox gözəldir. Sevindirici haldır ki, 2006-cı ildə onun ilk ifasında dirijor kimi çıxış etmək mənə nəsib olub. A.Əlizadənin 70 illik (2007), 2017-ci ildə isə 80 illik yubileyi münasibətilə həmin əsərləri orkestr və balet truppası ilə ifa etdiyimi bildirmək



***"Qafqaza səyahət" baletinin premyerasından səhnələr. Bakı, 30.11.2002-ci il***













*"Ümid valsı" baletindən səhnələr. 2008-ci il*









istərdim. Qafqaza səyahət" və "Ümid valsı"ın həmin ifada bir balet kimi təqdim olunduğunu qeyd etmək lazımdır.

Mən Aqşin müəllimlə çox sıx yaradıcılıq təmasında olmuşam. Bizim əlaqələrimiz musiqi sahəsində həmişə davam edirdi. Onun ailə üzvləri ilə də yaxşı tanışam. Oğlu Fuad Əlizadə ilə birlikdə təhsil almışam. Digər oğlu Əli Əlizadə ilə yaradıcılıq əlaqəmiz olub. Musiqili Komediya Teatrında işlədiyim illərdə Ə.Əlizadənin əsərini ifa etmək üçün təqdim etdiyini yaxşı xatırlayıram.

Gözəl insan və böyük bəstəkar olan A.Əlizadə novator əsərlərin müəllifi kimi musiqi tariximizdə dərin iz qoyub.

Bakı, Azərbaycan.
11.02.2019

**Fəxrəddin KƏRİMOV**
Dirijor, Xalq artisti, professor

## GÖRKƏMLİ BƏSTƏKARIMIZ AQŞİN ƏLİZADƏNİ HÖRMƏTLƏ ANIRAM...



Görkəmli şəxsiyyət Aqşin Əlizadə Azərbaycan bəstəkarlıq məktəbi sahəsində öz sözünü demiş parlaq simalardan biridir. Onun səmimi və milli hisslərlə dolu olan əsərləri Azərbaycan və ümumdünya musiqi mədəniyyəti xəzinəsinə daxildir. A.Əlizadə bəstəkar kimi musiqinin müxtəlif janrlarına müraciət etmişdir. O, dahi Üzeyir bəy Hacıbəylinin əsasını qoyduğu Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələri olan Q.Qarayev və C.Hacıyevin sinfində mükəmməl təhsil almışdır.

A.Əlizadənin əsərlərinin həm Azərbaycan Dövlət Simfonik və Kamera Orkestrində, həm də Azərbaycan Dövlət Opera və Balet Teatrında, həmçinin Azərbaycan Dövlət Xor Kapellasında səsləndiyini qeyd etmək istəyirəm. Məşhur Azərbaycan dirijorlarından Ni-



***Soldan sağa: Yuri Korev, Vladislav Uspenski, T.Ssoy və Aqşin Əlizadə***

yazi, Nazim Rzayev, Rauf və Kamal Abdullayevlər həmişə onun yaradıcılığına üz tutaraq rəhbərlik etdikləri musiqi kollektivlərinin repertuarını zənginləşdirmişlər.

Çox təvazökar olan A.Əlizadə onunla təmas quran insanlarla təmkinli davranırdı. XX əsrin sonunda bütün dövlət tədbirlərində, Azərbaycan Bəstəkarlar İttifaqının təşkil etdiyi plenum və qurultaylarda onun əsərləri həmişə səslənər və özünəməxsus yer tutardı.

Gənclik illərimdə Aqşin müəllimi bir bəstəkar kimi tanıyırdım. Ali təhsilimi Rusiyada aldığım üçün və sonralar qardaş Türkiyə ölkəsində dirijor kimi çalışdığım illərdə onun əsərlərini dinləyirdim. Bilirdim ki, bu insan Azərbaycan Bəstəkarlar İttifaqının I katibi (1985-1990) kimi çox yüksək vəzifəni icra edir. Sonralar onu yaxından tanıyanda və bir neçə əsərini həm simfonik, həm də kamera orkestrində idarə edəndə A.Əlizadənin böyük bəstəkarlıq qabiliyyətinin şahidi oldum.

Aqşin müəllim Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında, sonralar bir neçə il Türkiyə Cümhuriyyətində Trabzon Universitetində pedaqoji və yaradıcılıq fəaliyyəti ilə məşğul idi. O, Bakıya qayıtdıqdan sonra ABİ-nın katibi, BMA-nın isə professoru kimi işini davam etdirirdi. A.Əlizadənin tələbələri və iki övladı onun sənətinin davamçılarıdır. Peşəkar dirijor kimi onun əsərləri ilə tanışam və mənim üçün sevindirici haldır ki, A.Əlizadənin simli orkestr və səs üçün yazdığı IV simfoniyasına ("Muğamvari") Beynəlxalq Muğam festivalı (2009) çərçivəsində dirijorluq etmişəm. Onun Violin və orkestr üçün bəstələdiyi konsertini (1990) Azərbaycan Dövlət Filarmoniyasında səsləndirmişəm. Oğlu Əli Əlizadənin "Serenata

Dolore" (1999) əsərini isə Q.Qarayev adına Beynəlxalq Müasir Musiqi Festivalında idarə etdiyimi bildirmək istəyirəm.

A.Əlizadə musiqi mədəniyyətimizin mütəfəkkiri kimi xatirimizdə qalacaqdır.

Bakı, Azərbaycan.
22.06.2019

**Gülbacı İMANOVA**
Xormeyster, Xalq artisti,
professor

## AQŞİN ƏLİZADƏNİN YARADICILIQ İNCİLƏRİ AZƏRBAYCAN XOR MUSİQİSİNİN ƏN PARLAQ NÜMUNƏLƏRİ SIRASINDA LAYİQLİ YER TUTUR




Aqşin Əlizadənin 60 illik yubileyi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının böyük zalında qeyd olunurdu. Bu münasibətlə bəstəkarın "Bayatılar" *a capella* silsiləsini Azərbaycan Dövlət Xor Kapellası tərəfindən yubiley gecəsində təqdim etmişdik. Konsertdən sonra Aqşin müəllim yaxınlaşıb mənimlə öz fikirlərini bölüşmüş və çox xoş sözlər demişdi. Bu əsərin kapella tərəfindən əvvəllər ifa olunmasına baxmayaraq, müəllif hazırkı interpretasiyanı çox bəyəndiyini bildirmişdi. Aqşin müəllim onun musiqisində milli intonasiyaların, incəliklərin, Avropa notlaşdırması ilə çox gözəl milli xasiyyətin, xalq ruhunun, qədim ab-havanın mövcud olduğunu özünün də gözləmə-



*Soldan sağa: Gülnarə, Fuad, Qalina və Aqşin Əlizadələr, Gülbacı İmanova, yubilyarın nəvələri Sənan (ortada) və Məryəm bəstəkarın 60 illik yubileyində. Bakı, 1997-ci il*



*Filarmoniyada Aqşin Əlizadənin anadan olmasının 70 illiyinə həsr edilmiş yaradıcılıq gecəsi. Aqşin Əlizadə, Gülbacı İmanova və maestro Rauf Abdullayev. Bakı, 2007-ci il*

diyini dilə gətirmişdi. Bəstəkarın ifamıza yüksək qiymət verməyi məni hədsiz sevindirmişdi.

Sonralar da bir neçə dəfə kapella ilə onun xor nümunələrini - “Təntənə”, “Ana torpaq”, “Azərilər” kantatası, “Qədim lay-lay”ı ifa etmişəm. Əsərlərini səsləndirdikdən sonra hər dəfə bəstəkar öz razılığını və təşəkkürünü bildirirdi. Aqşin müəllim kapellanın ifasını yüksək səviyyədə dəyərləndirirdi. Hətta ifamızdan ruhlandığına görə kollektivimiz üçün əsər yazmaq fikrində olduğunu demişdi. Lakin, çox təəssüf ki, yeni əsərini görə bilmədik.

A.Əlizadə bir müddət səhhətində yaranan problemlərə görə işə gələ bilmirdi. Həmin dövrdə mənə zəng vurub onun xor musiqisindən bəhs edən kitab yazmağımı təklif etmişdi. Mən isə bunun musiqişünasların işi olduğunu onun nəzərinə çatdırmışdım. Aqşin müəllim əsərlərini dəqiq ifa etdiyim üçün daha müfəssəl təhlillər aparacağımı düşündüyünü bildirmiş və buna görə də kitabı məhz mənim yazmağımı istədiyini dilə gətirmişdi. Əfsus ki, onun bu təklifini həyata keçirə bilmədim. Bir müddət sonra A.Əlizadənin vəfat etməsi barədə xəbər aldım.

Onun musiqi irsi, xüsusilə də xor əsərləri indiyədək həm kapellamız, həm tələbə, həm də uşaq xorları tərəfindən ifa olunur. İnanıram ki, bundan sonra da onun yaradıcılıq inciləri həmişə Azərbaycan xor musiqisinin ən parlaq nümunələri sırasında layiqli yer tutacaq və səslənəcəkdir.

Bakı, Azərbaycan.
26.09.2021

**İlqar İMAMVERDİYEV**
Tar və saz ifaçısı, sənətşünaslıq elmləri doktoru,
professor

## AQŞİN ƏLİZADƏ HAQQINDA XATİRƏLƏRİM

Mən Prof. Dr. İlqar İmamverdiyev 1976-cı ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olduğum günlərdən Azərbaycanın Xalq artisti istedadlı bəstəkarımız Aqşin Əlizadəni tanımış oldum. Tələbəlik illərindən Konservatoriyada bir çox bəstəkarları - Qara Qarayev, Cövdət Hacıyev, Arif Məlikov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Elmira Nəzirova, Nazim Əliverdibəyov, Səid Rüstəmov, Hacı Xanməmmədv, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Fərəc Qarayev, İsmayıl Hacıbəyov, Emin Sabitoğlu, Dadaş Dadaşov,



***Aqşin Əlizadənin V simfoniyasında saz partiyasını səsləndirən İlqar İmamverdiyev. Bakı, 05.05.1991-ci il***

Ramiz Mirişli, Azər Rzayev və Həsən Rzayev kimi məşhur musiqiçilərlə yanaşı Aqşin Əlizadəni həftədə bir neçə dəfə bu ali musiqi ocağında görə bilməyimi, bu şəxsiyyətlərin yerişini, duruşunu, digər müəllimlərlə olan münasibətlərini, şirin söhbətlərini uzaqdan seyr etməyimi heç zaman unuda bilməyəcəm, könlümə yazılan ülvi xatirələr kimi daim xatırlayacağam. Adlarını zikr etdiyimiz müəllimlər mənim üçün hərəsi bir dünya idi. Xoşbəxtəm ki, tələbəlik günlərimin ən gözəl anlarında mən bu insanlarla üz-üzə görüşüb söhbət etmək şərəfinə nail olmuşam. A.Əlizadənin istedadlı bəstəkar övladları, Əli və Fuad ilə də tələbəlik illərindən dostluq münasibətlərində olmağımı xoş xatirələrlə anmaqdayam. A.Əlizadənin “Babək” baletinin səhnə təcəssümünü tapmasını da unuda bilmirəm.

A.Əlizadə ilə yaradıcılıq münasibətimizin yaranması tar ilə yanaşı Azərbaycanın qədim telli aləti olan sazı çala bilməyim olmuşdur. Qeyd etməliyəm ki, 1981-ci ildə Aşıq Alının 180 illiyi səbəbi ilə Cahangir Cahangirov bəstələdiyi “Aşıq Alı” kantatasında xüsusi saz par-



***İlqar İmamverdiyev və 4-cü kurs tələbəsi Əminə Asma. Kozan Bələdiyəsi Kino salonu. Türkiyə, 08.03.2019-cu il***



*Kozan Bələdiyyəsi Kino salonu. İlqar İmamverdiyev və II kurs tələbəsi Zişan Türkmən. Türkiyə, 08.03.2019-cu il*

tiyasını səsləndirməyi məhz mənə təklif etmişdir. Azərbaycan Aşıqlarının 1984-cü ildə Bakıda keçirilən IV qurultayı üçün Süleyman Ələsgərovun saz üçün bəstələdiyi "Aşıqvarı" adlı əsəri xalq çalğı alətləri orkestrinin müşayiəti ilə çalmağım A.Əlizadənin diqqətini cəlb etmiş, bu alətin bədii-texniki ifa imkanlarına bilavasitə şahid olmuşdur. Daha sonralar C.Cahangirovun "Papaq", Emin Sabitoğlunun "Atları yəhərləyin", "Bəyin oğurlanması" filmi üçün yazılmış xüsusi musiqi partiyasını, "Mosfilm" nəzdində fəaliyyət göstərən Dövlət simfonik orkestrinin müşayiəti ilə sazda ifa etməyim Aqşin bəyin diqqətindən yayınmamışdır. Bu səbəbdən də 1990-1991-ci illərdə yazdığı V simfoniyasında saz partiyasını ifa etməyi məhz mənə məsləhət görmüşdü. "Dilqəmi" adlı klassik saz havasının intonasiyası əsasında bəstələnmiş bu qəmli musiqini canlı olaraq çalmaq üçün tələbəm Mübariz Əliyevlə birlikdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında, xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə bir neçə dəfə məşq etməli olduq. Bu möhtəşəm əsərin çəkiliş tarixi 5 may 1991-ci ildə gerçəkləşdi və xalqımızın rəğbətini qazandı. Qeyd etməliyəm ki, bəstəkar həmin əsərində sazla yanaşı ney və zurna alətindən uğurla istifadə edə bilmişdir.

Türkiyəyə dəvət aldığım 2000-ci ildən istedadlı bəstəkarımızın Qaradəniz Texnik Universitetində türk tələbələri ilə musiqi sahəsindəki uğurlu fəaliyyətini Osman Sarıvəllinin oğlu, hörmətli alimimiz, fəlsəfə elmləri doktoru professor Babək Qurbanovdan duymuş oldum. Bu qardaş ölkədə A.Əlizadənin ciddi bir bəstəkar olması, möhtəşəm əsərləri ilə ictimaiyyətin diqqətini özünə cəlb etməsi

qürurvericidir. A.Əlizadə yaradıcılığı orijinallığı ilə fərqlənir, onun musiqi dili heç bir bəstəkara bənzəmir. Çünki əsərlərinin hər biri onun fərdi münasibəti, özünəməxsus dəst-xətti, baxışı, dünyagörüşü və fantaziyası ilə fərqlilik qazanmışdır. Bu baxımdan da A.Əlizadə əsərləri öz bəstəkarlıq texnikası ilə səciyyələnən yaradıcılıq hadisəsidir.

Bəstəkarın çoxlu sayda tələbələri onu heç vaxt unutmur, hər zaman ülvi duyğularla xatırlayırlar. 2019-cu ildə “8 Mart Beynəlxalq qadınlar günü” münasibəti ilə Adananın Kozan bölgəsində konsertə dəvət aldığımız zaman onun istedadlı və vəfalı tələbəsi Müzəffər Atıcının təşəbbüsü ilə müəlliminə hörmət ehtiramının əlaməti olaraq A.Əlizadənin fotosunu böyüdüb ulu öndərimiz Heydər Əliyev, professor Babək Qurbanovla bir sırada qoyması əsl etibarlılığın simvoluna çevrilmişdir. Bizim üçün xoşhal sürpriz olan bu hadisə tələbələrimlə birgə çəkdirdiyim fotolarda əks olunub. A.Əlizadə ilə bağlı yayınlanacaq kitabda bu fotoların yer almasını arzulayıram. Nə qədər ki, Azərbaycan adlı xalq var, onun A.Əlizadə adında bəstəkar övladının əsərləri zaman-zaman səslənəcək, gələcək nəsillərə çatdırılacaqdır.

Gaziantep, Türkiyə.
13.03.2019

**Alim QASIMOV**
Xanəndə, Xalq artisti,
professor

## AQŞİN ƏLİZADƏ GÖZƏL MƏNƏVİYYAT RƏMZİ KİMİ



Aqşin Əlizadə çox gözəl mənəviyyata malik insan idi. Onun musiqisində həm qədimlik, həm də müasirlik var. A.Əlizadə ilə gənclik illərimdə Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik etdiyi dövrlərdə həmişə dövlət tədbirlərində görüşür, hal-əhval tuturduq. Bir gün məni yanına çağırıb Səmərqənd şəhərində keçirilən simpoziuma dəvət edilməyim barədə məlumat verdi. Həmin şəhərə mən ilk dəfə (1983) tarzən Bəhram Mansurovla birlikdə getmişdim. O, dünyasını dəyişəndən sonra isə A.Əlizadə simpoziumda iştirak etmək təklifini bildirdi. 1987-ci ildə Ramiz Quliyev, Şəfiqə Eyvazova, Arif Babayev, Səkinə İsmayılova

ilə birlikdə bir qrup incəsənət xadimi Səmərqənd şəhərinə gedəndə Aqşin müəllimin məni Özbəkistana göndərməyinin səmimiyyətini orada çox gözəl anladım. Onun təbiətində kiməsə minnət qoymaq və təmənna gözləmək xüsusiyyəti yox idi. Mən o vaxt A.Əlizadənin əsl kişilik simasını gördüm.

Səmərqənddə III Beynəlxalq musiqişünaslıq simpoziumu çərçivəsində “Çahargah” muğam dəstgahı ilə yanaşı A.Əlizadənin IV simfoniyasında vokal partiyanı səsləndirdim. Əsəri uğurla təqdim etdik. Simfoniyanı səsləndirməzdən əvvəl Aqşin müəllim məni Konservatoriyaya (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) dəvət etdi və bəstəkarlıq kafedrasında səmimi görüşümüz oldu. Xanəndə (vokal) partiyasını notla oxumadığım üçün o, melodiyanı çalıb mənə göstərdi, əsərin hansı hissəsində pauza etməyin lazım olduğunu bildirirdi. Sonra isə orkestrlə məşq edəndə mən hissiyyatla əsərin pauza yerlərini yadda saxladım. Bu simfoniyada xanəndə partiyası azdır. Ancaq “Gül açdı” xalq mahnısı üzərində olan müəyyən zümzümələr var ki, Aqşin müəllim şur məqamı əsasında olan bu mahnını bir qədər dəyişilmiş şəkildə istifadə etmişdir.

Ümumiyyətlə, Aqşin müəllim xalq musiqisinə və musiqiçilərə çox hörmət və məhəbbətlə yanaşırdı. Səmərqənd simpoziumundan sonra A.Əlizadənin əli yüngül oldu və mən Amerikaya dəvət edildim. Bununla da yaradıcılıq həyatımda dönüş baş verdi. A.Əlizadəni hər zaman minnətdarlıq hissi ilə xatırlayıram.

Bakı, Azərbaycan.
14.03.2019

**Arif MANAFLI**
Violin ifaçısı,
Əməkdar artist

## AQŞİN ƏLİZADƏNİN MUSİQİSİ SƏMADAN QİDALANIRDI

Sankt-Peterburqda (o vaxtkı Leninqradda) aspiranturanı bitirib (1985) Azərbaycana qayıtdıqdan sonra çox fəal ifaçılıq fəaliyyəti ilə məşğul olmağa başladım. Həmin illərdə müxtəlif bəstəkarların ifa etdiyim əsərləri televiziyanın efiri vasitəsilə geniş kütlələrə yayımlanırdı. Aqşin Əlizadə ilə əyani olaraq o dövrdə oğlu Fuadın vasitəsilə tanış oldum. O, məni yanına çağırıb violin və piano üçün “Portret” (Rəssam T.Salahova həsr olunub) adlı əsərini Azərbaycan Bəstəkarlar İttifaqındakı tədbirdə səsləndirməyimi təklif etdi. İlk dəfə həmin konsertdə mənimlə birlikdə pianoçu Teymur Şəmsiyevin ifasında musiqi ictimaiyyəti bu əsəri dinləməyə müvəffəq oldu. Beləliklə, Aqşin müəllimlə ilk yaradıcılıq təmasımız başlandı. Onunla sonralar da konsertlərdə


*Arif Manaflı*

görüşürdük. Həmsöhbət olarkən yaradıcılığından bəhs edər, qəhrəmanlıq mövzusunda yazdığı "Babək" (1979) adlı ilk baletinin səhnələşdirilməsi barədə məlumat verərdi. Həmin əsəri haqqında danışarkən Babəkin çox böyük şəxsiyyət olduğunu vurğulayardı. "Babək" baleti onun tərəfindən Azərbaycan musiqi tarixində yeni səhifənin açılışı idi. Əsərin premyerası (1986) indiki H.Əliyev adına sarayda keçirilmişdi.

Bir dəfə Aqşin müəllim mənə "sənin ifan üçün əsər bəstələmişəm" dedi. Bu Violin və orkestr üçün yazdığı konsert (1990) idi. Əsərini ifa etməyimlə bağlı istəyini bildirəndən sonra məşqlərə başladıq. Onun o qədər də yaxşı pianoçu olmadığını məşqlərdə müşahidə etdim. Lakin müəllif qırıq-qırıq ifa etməyinə baxmayaraq, nə hiss etdiyini büruzə verə bilirdi. Beləliklə, bir ay ərzində həmin əsəri hazırladıqdan sonra 1991-ci ilin plenumunda konserti ifa etdim. Filarmoniyada keçirilən gecədə ilk dəfə olaraq A.Əlizadənin əsəri ilə yanaşı ikinci gecə Sevda İbrahimovanın kamera orkestri üçün konsertini, növbəti gün isə Leonid Vaynşteynin əsərini Yalçın Adıgözəlovun dirijorluğu ilə səsləndirdik. Bu konsertdən sonra 1991-ci ildə mənə L.Vaynşteyn, Sevda xanım və Aqşin müəllimin təşəbbüsü ilə əməkdar artist fəxri adı verildi. Ondan əvvəl isə C.Cahangirovun Violin konsertinin ikinci versiyasını (1987), S.İbrahimova və A.Rzayevin sonatalarını, sonralar isə konsertini və başqa bəstəkarların əsərlərini ifa etdiyimə görə Lenin komsomolu mükafatına (1990) layiq görülmüşdüm.

Aqşin müəllimlə yaradıcılıq təmasım sonralar da davam edirdi. 1990-cı ildə Çex Respublikasından dəvət olunmuş bir qrup usta Kirxada orqan musiqi alətini qurmuşdu. O illərdə Rəna İsmayılova da ifaçı kimi çox fəal idi. Ona mənimlə birlikdə klassik əsərlərdən ibarət konsertdə iştirak etmək təklifini bildirəndə razılaşmışdı. Kamera və orqan musiqi zalında keçirilən həmin konsertdən sonra A.Əlizadə Rəna xanımın ifasını çox bəyənmiş və onun səsləndirməsi üçün orqan üçün "Muğam sədaları" (1991) adlı əsərini yazdığını və ona həsr etdiyini demişdi. İkimizin birlikdə ifamız üçün isə digər əsərini -




violin və orqan üçün "Dialoq"u bəstələdiyini dilə gətirmişdi. İllər ötsə də müəllifin həmin əsərin ifası ilə bağlı mənə tövsiyə verərkən "bunu dağlarda mahnı kimi hiss etməlisən" dediyini yaxşı xatırlayıram. Bu, A.Əlizadənin sayca ifa etdiyim üçüncü əsəri idi. Onları kamera və orqan musiqi zalının yeni açılış konsertində ictimaiyyətə təqdim etmişdik. Aqşin müəllimlə isti münasibətimiz davam olunurdu. Ona böyük mövzularda müraciət edərkən həmişə köməklik göstərər, öz qiymətli tövsiyələrini əsirgəməzdi. Aqşin bəylə Azərbaycan Bəstəkarlar İttifaqının Birinci katibi olduğu dövrdə (1985-1990) və sonralar da əlaqə saxlayırdım. Telefonla zəngləşərkən yaradıcılıqla yanaşı Qarabağ müharibəsi, həmçinin Sovet İttifaqının dağılması kimi mövzularda maraqlı fikir mübadiləsi aparardıq. Onunla bu mövzuları müzakirə edərkən böyük ustadın qiymətli düşüncələri ilə həmfikir olduğumu anlayırdım. Biz həm də ailəvi yaxın idik. Aqşin müəllimin oğlu Fuad qardaşımla orta məktəbdə eyni sinifdə təhsil alırdılar. Onların çox yaxın dost kimi münasibətləri bu gün də davam olunmaqdadır. Mən də Fuadla yaxşı münasibətdəyəm. Yeni ildə, ad günlərində, toylarda əlaqə saxlayır, bir-birimizi təbrik edirik.

Həyat elə gətirdi ki, mən 1993-cü ildə Türkiyə Cümhuriyyətinə köçdüm. Bütün bu illər ərzində A.Əlizadənin musiqisini Azərbaycandan kənarda təbliğ etmək istəsəm də məndən asılı olmayan müəyyən çətinliklərlə rastlaşdım. Əfsus ki, Türkiyədə, xüsusilə də yaşadığım İzmir şəhərində kilsə orqanı olmadığı üçün onun əsərlərini indiyə kimi ifa edə bilməmişəm. Digər tərəfdən isə burada hələ ki, belə böyük bəstəkarın musiqisini qavraya bilən dinləyici

kütləsinin formalaşmadığını qeyd etmək istəyirəm. Fikrimcə, A.Əlizadənin yaradıcılığını ancaq Azərbaycanın havasını alan və muğamı dinləyənlər dərk edə bilərlər. Çünki onun yazı üslubu fərqlidir. “Kənd süitası” (1973) əsəri klassik üslubda yazıldığına görə kütlə tərəfindən qavranıla bilər. Mənim ifa etdiyim üç əsər, xüsusilə də Violin və orkestr üçün konsert isə klassik üslubdan tamamilə kənar yazılmış musiqi incisidir. Onları ifa etmək üçün muğamı bilmək və anlamaq vacibdir. Bu əsərləri indi Türkiyədə məşqlərə çıxarmağa təşəbbüs göstərsəm nəinki anlamazlar, heç dirijorluq da edə bilməzlər. Violin və piano üçün “Portret” (1987) əsəri isə təxminən klassik üslubda bəstələnib. Ancaq ifa etsəm də bəstəkarın fəlsəfi düşüncələrini anlamayacaqlar. Həmin əsərlər bəlkə də onlara Y.Ksenakis, V.Lütoslavski, K.Penderetskinin musiqisi kimi təsir bağışlayacaq. Hazırki türk dinləyiciləri Ü.Hacıbəylinin musiqisini anlayır, T.Quliyevin əsərlərini sevir, A.Rzayevin konsertini qavrayır, S.Ələsgərovu qəbul edirlər. A.Rzayevin Violin ilə simfonik orkestr üçün konsertini Türkiyədə 17 dəfə ifa etmişəm. Əsərin artırılmış sekundalarla dolu olan motivləri türk musiqisində də olduğuna görə xalqa daha yaxındır. Digər tərəfdən isə A.Əlizadənin musiqisinin ab-havasına daxil olmaq üçün mənə fərqli mühit lazımdır. Bu bəstəkarın yazı üslubu çətin olmasa da onun özülü, fondakı akkompanimenti fərqlidir. Əsəri ifa edərkən sanki ayaqların yerdən kəsilir və uçursan, özünü həqiqətən buludların arasında hiss edirsən. Dərin konsentrasiyaya daxil olursan. Mən onun musiqisini ifa edərkən uçurdum. Digər bəstəkarlarımızın əsərlərini ifa edərkən bunu hiss etməmişəm. A.Əlizadədən fərqli olaraq onlar yerdən qidalanan şəxslərdir. Ancaq A.Əlizadənin musiqisi isə göylərdən yerə ələnmişdi. İnsanın daxilindən belə musiqinin necə çıxdığına heyrətlənirəm. O, Türkiyəyə gəlməmişdən əvvəl son əsərlərini yazarkən artıq yaxşı mənada uçmuşdu. A.Əlizadədən bu barədə soruşanda “Mən belə eşidirəm. Nə edim?” deyirdi. Onun musiqi dili çox seçilirdi. Fərqlilik həm də bu şəxsiyyətin xarakterində özünü göstərirdi. Aqşin müəllim susqun insan idi. Ağzından bir kəlmə söz güclə çıxırdı. Danışarkən fikrini ifadə etmək tərzi çox fərqli olurdu. Düşünərək və fasilə verərək çox nəzakətlə fikrini çatdırırdı. Pauzalarla danışığı həmsöhbətini onun fikrinin davamını gözləməyə sövq edirdi. Amma not yazısına baxanda bu bəstəkarın V.A.Mosartdan, İ.Haydndan daha sadə yazı dilinə malik olduğunu aşkar edirsən. Fəqət o sadəliyin daxilində o qədər dərinlik var ki... Onu dilə gətirmək mümkün deyil. Bu ayrı bir zövqdür. Onu hər kəs duya və hiss edə bilməz. Buna görə də A.Əlizadə yaradıcılığı mənim üçün fərqlidir. Onun “Kənd süitası”, “Babək” baleti yerdən qidalanaraq yazılmış əsərlərdir. Mənim ifa etdiyim əsərləri isə sanki səmadan yerə süzülüb. Biz




bu şəxsiyyətin böyüklüyünü hələ də anlamırıq. Mən Azərbaycan bəstəkarlarının hamısını sevirəm. Lakin onların arasında üç, dörd nəfər daha çox bəyəndiyim şəxs var ki, mənim fikrimcə dahidirlər. Amma dərinliyə getsək klassik üslubda yazanlardan fərqlənən A.Əlizadənin musiqisinin başqalarından seçildiyini görərik. Onun yeri mənim üçün çox fərqlidir.

Aqşin bəylə sonuncu dəfə görüşdüyümdə səhhətində problemlərin yarandığını müşahidə etdim. Heyif ki, artıq xəstə idi. 2010-cu ildə Azərbaycana yeni ailə qurduğum əslən Ankaradan olan türkiyəli həyat yoldaşımla gəlmişdim. Onu bibilərimlə tanış etmək üçün Bakıya gətirəndə Aqşin müəllimi də görmək istəyirdim. Fuada zəng edib atasının yanına getmək niyyətimi bildirdim. A.Əlizadə o vaxt 28 may küçəsində Kirxanın qarşısındakı binada yaşayırdı. Bir gül dəstəsi alıb yoldaşımla birlikdə beşinci mərtəbəyə qalxdıq. Aqşin müəllim divanda oturmuşdu, hərəkət edə bilmirdi. Yoldaşı bizə çay və qəhvə hazırladı. Oturub söhbətləşdik. Ona baş çəkməyə gedəndə söhbət əsnasında bir alətlə qanında şəkərin dərəcəsini ölçdüyünü yaxşı xatırlayıram. Aqşin müəllimdən mənim də qanımı ölçməsini xahiş etmişdim. Hətta, baxım görüm mən nə qədər şirinəm,- deyə söhbətarası zarafatlaşmışdım. O, xəstə vəziyyətdə öz əlləri ilə qan şəkərimi ölçmüşdü. Həmin günkü görüşümüz mənim üçün gözəl bir xatirəyə çevrildi. Onunla söhbət etdiyimiz bir saat ərzində vəziyyətinin qənaətbəxş olmadığı fikrinə gəldim. Böyük bəstəkar bağ evindən, orada bəslədiyi toyuqlardan danışırdı. Onların nə qədər gözəl həyatı olduğunu deyirdi. Fikrini ora yönəltmişdi. Artıq onun son illəri olduğu sezilirdi. Evində olarkən A.Əlizadə imzaladığı notlarını mənə bağışladı. Bunlar vaxtı ilə onun ifa etdiyim əsərlərinin əlyazması idi. O qədər səliqəli yazılmışdı ki, sanki



Aqşin Əlizadə

Dialoq

Skripka və orqan üçün

Klavir

Bakı-1991

kompüterdə not proqramında yığılmışdı. Vaxtı ilə Aqşin bəyin mənə bağışladığı əsərlərinin notlarını və sonuncu dəfə görüşümüzdə imzaladığı "Portret", "Muğam sədaları" və Violin ilə orkestr üçün konsertin not yazılarını dörd il əvvəl Türkiyədə fəaliyyət göstərən Azərbaycan əsilli gənc istedadlı violin ifaçılarına təqdim etdim. Onlar həmin əsərləri ifa edəcəklərinə söz verdilər. Mən 60 yaşımda konsert ifaçılıq fəaliyyətimi dayandırdığım üçün bu işləri gənclərin davam etdirməsini arzulayıram. Fəqət zənn etmirəm ki, hazırkı tamaşaçı kütləsi onun musiqisini qavraya bilər. A.Əlizadənin əsərlərini bəlkə Almaniyada və İsraildəki dinləyici auditoriyası anlayar. Amma türk dinləyiciləri üçün bunu dərk etmək ağır olar.

Fikrimcə, A.Əlizadənin adı XX əsr musiqi cərəyanlarının nümayəndələri ilə bir sıradadır. O, da K.Penderetski, V.Lütoslavski, A.Şömberq kimi çox fərqli yazı texnikasına malik bəstəkarımızdır. Mən Aqşin bəyi həm də Azərbaycan musiqisinin klassiki kimi qəbul edirəm. Çünki onun yaradıcılığının müəyyən bir mərhələsi həmin dövr üzərində qurulub. Bunu Q.Qarayevin də yaradıcılığında izləmək mümkündür. Onun "Yeddi gözəl" baleti, sonradan isə "III simfoniyası" və "violin konserti" müxtəlif yaradıcılıq dövrlərinin təzahürüdür. Bunu A.Əlizadənin həm klassik, həm də müasir yaradıcılıq mərhələlərində görürəm. Hansı dövrün daha yaxşı olduğunu isə əlbəttə ki, gələcək tarix müəyyən edəcəkdir. Fəqət Q.Qarayevin bütün axtarış illəri dahilik timsalıdır. Bunu Aqşin bəyin də yaradıcılığına aid etmək olar. Muğamı anlamayan insanların onun əsərlərini başa düşə bilməyəcəyini vurğulamışam. Çünki bu onun muğam anlayışının fərqli olduğundan irəli gəlir. Məsələ "Bayatı-şiraz"da, "Rast"da, "Segah"da, "Şüştər"də, "Hümayun"da və s. deyil.

Aqşin müəllim böyük şəxsiyyət olmaqla yanaşı həm də çox təmiz insan idi. O, həmişə musiqi axtarışları aparırdı. Heç vaxt inzibati işlərdə çalışmaq

arzusunda deyildi. Sadə həyat tərzinə malik böyük bəstəkar övladlarını da vətənpərvər ruhda tərbiyə etmişdi. Bütün bunlar A.Əlizadənin şəxsiyyətinin zənginliyini səciyyələndirən keyfiyyətlərdir.

Aqşin müəllim də bir dövr (1994-2002) Türkiyə Cumhuriyyətində çalışmış, qardaş ölkənin musiqi təhsilinə və mədəniyyətinə gözəl töhfələr vermişdi. Ancaq Bakı üçün, Şüvəlandakı bağ evləri üçün həmişə darıxırdı. Vətəninə, doğma xalqına bağlı bu böyük bəstəkar Azərbaycan musiqi mədəniyyətinə göstərdiyi yüksək xidmətlərinə görə bir çox fəxri adlara layiq görülmüşdü. Şəxsən ulu öndər H.Əliyev tərəfindən “Şöhrət” ordeni ilə (1997), 2012-ci ildə isə “Şərəf” ordeni ilə təltif olunmuşdu. Allah ona rəhmət eləsin.

İzmir, Türkiyə Cümhuriyyəti.
13.12.2021

**Рена РЗАЕВА**
Пианистка, Заслуженная артистка Азербайджана

## БЕГУЩИЕ К НАМ ЗВУКИ АКШИНА АЛИЗАДЕ...

*“Бывают отдельные случаи, отдельные судьбы людей, которые становятся достоянием многих, ибо цена того урока настолько высока, так много вмещает в себя та история, что то, что было пережито одним человеком, как бы распространяется на всех, живших в то время, и даже на тех, кто придет следом много позже.”*

*Чингиз Айтматов.*




Почему я привела слова Чингиза Айтматова? У меня всегда шла ассоциация прозы Чингиза Айтматова с музыкой Акшина Алиевича и как мне кажется, эти слова великого писателя как



***Рена Рзаева и Акшин Ализаде. Кирха***

нельзя лучше подходят к личности и к музыке Акшина Ализаде.




Музыка этого замечательного композитора заставляет задуматься о многом...В ней есть все- и какая-то задумчивая печаль, и отчаянная смелость, и отвага, и безумная любовь, и невероятная грусть... Его музыка безгранична и всегда современна, в ней отражается его светлая душа и огромное доброе и отзывчивое сердце.

Что я могу сказать о музыке Акшина Ализаде? Она мне всегда нравилась, потому что она очень живая и настоящая...Еще будучи студенткой Консерватории, я услышала его третью симфонию, она меня потрясла... и я подумала тогда, что обязательно буду играть про-

изведения этого композитора, если действительно стану пианисткой. Могла ли я тогда подумать, что не просто буду играть его музыку, а буду записывать ее на диски, исполнять везде, где только возможно...В одной только Вене я исполняла произведения Акшина Алиевича несколько раз. А кроме Вены были другие австрийские города, был Роттердам и Маастрихт, был Лондон, Москва и Санкт-Петербург, Вашингтон и Сан-Франциско, Женева и Сион, и много других городов...И каждый раз, играя музыку Акшина Алиевича, я находила и нахожу в ней какие-то новые краски и ощущения... это просто удивительно...

"Дастан" — это была первая пьеса, которую он предложил мне сыграть. Я уже тогда работала в Филармонии и готовила сольную программу из произведений азербайджанских композиторов для концерта в Вене, где до концерта я пообещала сделать небольшую лекцию о музыке, которая будет мной исполняться. Акшин Алиевич рассказал мне о пьесе, о чем она написана, и что его вдохновило. "Дастан" на тот момент уже был издан, и я до сих пор храню у себя эти ноты, которые он мне надписал. Я тут же его спросила, а может у вас есть что-то еще для фортепиано? Акшин Алиевич сказал, что есть, но они в рукописи. Я сказала, ничего страшного, я разберусь. Это были "Старинные игры", которые я с огромным удовольствием играю до сих пор, как цикл, вместе с "Дастаном". В той моей первой сольной программе из азербайджанской музыки, которая исполнялась в Вене, было много интересных композиций, но именно "Дастан" произвел наибольшее впечатление на австрийских профессионалов. Приехав, я рассказала об успехе, особенно "Дастана", и Акшин Алиевич был очень растроган.

Мне бы хотелось вкратце описать, что лично я слышу в этой удивительной музыке, которую нам оставил этот замечательный и талантливый азербайджанский композитор Акшин Ализаде.

"Дастан" — это сказание ашуга, который рассказывает свою удивительную историю под звуки своего саза... Он рассказывает ее только мне, потому что я ее сейчас играю, и я ее сейчас показываю слушателю. Я вижу перед собой наши горы, красоту нашей страны, бесконечный горизонт музыки и звуков, извлекаемых из саза... и я пытаюсь передать все это с помощью рояля. Когда играла недавно снова в Вене, так и чувствовала этот рассказ.

"Старинные игры" мне всегда напоминают Гобустан, я представляю этих танцующих человечков.... их души как бы открываются в этой удивительно правдивой музыке. Они танцуют и пляшут, они смеются и плачут, они живут в своем времени и получают от этого удовольствие. И как же это все точно пе-

редано в звуках, сочиненных композитором ...Во всяком случае я это слышу.

“Воспоминания”...эта пьеса вроде бы простая, но такая душевная... здесь вспоминаешь все только хорошее, что с тобой было, кажется, что душа композитора слышала души тех, кто будет играть эту волшебную пьесу...

“Печальный вальс”... Я играю его несколько по-своему...он у меня не просто печальный, я его слышу с какой-то болью и даже с отчаянием, мне слышится в этом вальсе пережитая трагедия...не знаю, как бы Акшин Алиевич отнесся к такой интерпретации, но думаю, он был бы не против...

Воспоминания и Печальный вальс он передал мне уже когда не работал, и сказал по телефону, если будет возможность, сыграй! Я, конечно, пообещала, что обязательно исполню. Впервые я их исполнила в музее Ниязи, ну а позже включала во многие свои программы. Я их также записала на диск.

Хочу сказать, что музыка Акшина Алиевича не надоедает, а наоборот, она приносит каждый раз что-то новое, и хочется этим новым поделиться со слушателями. Ее хочется исполнять снова и снова. А это для исполнителя огоромное удовольствие.

Как-то я прочла у Чингиза Айтматова: *“А ведь еще перед каждым человеком стоит неизбывная задача-быть человеком, сегодня, завтра, всегда”.* Эти слова как нельзя лучше подходят к личности Акшина Алиевича. Он был очень простой и добрый человек. Я была приятно удивлена, когда он вызвал меня к себе в кабинет (Акшин Алиевич был в те годы Художественным Руководителем Филармонии), стал спрашивать, как мои дела, что нового я собираюсь играть, какие мои дальнейшие планы. С ним было очень приятно беседовать, и тогда же он предложил мне сыграть свою пьесу “Дастан”. Я, конечно, обрадовалась, и сказала-да. После этого мы не раз с ним беседовали, обсуждали мои планы, концертные программы, Акшин Алиевич часто делился со мной своими наболевшими проблемами, мы делились впечатлениями о недавно сыгранных концертах, о талантливых исполнителях и бесталанных дирижерах, короче - обо всех и обо всем. Акшину Алиевичу можно было рассказать все, попросить совет, поделиться чем-то личным, он всегда спрашивал о здоровье моей мамы.

Когда он ушел из Филармонии, мне его очень не хватало, и как руководителя, с которым можно было посоветоваться обо всем - и по поводу программы для концерта, и по поводу, как себя вести с очередной бездарностью, дорвавшейся до власти, и по поводу гастролей, и так

далее. Акшин Алиевич был незаурядной личностью, безумно талантливым композитором, и просто замечательным человеком. Он навсегда останется в нашей памяти и в сердцах тех, кто его знал. Мы всегда будем ощущать его присутствие, когда будем исполнять или слушать его чудесную и неподражаемую музыку...

Возвращаясь к Айтматову: *"По сравнению со скоростью мышления скорость света - ничто; мысль, что, уходя в прошлое, может двигаться в обратном направлении во времени и в пространстве, быстрее всего..."* Так и звуки, написанные когда-то композитором Акшином Ализаде бегут сегодня, торопясь, к нам и, напоминая, что нет ничего на свете прекраснее и чудеснее музыки-этого волшебного и чарующего вида искусства.

Женева, Швейцария.
22.05.2019

**Yalçın ADIGÖZƏLOV**
Dirijor, Xalq artisti, professor

## ÜRƏYİ AZƏRBAYCANLA DÖYÜNƏN BƏSTƏKAR

Orta nəsil Azərbaycan bəstəkarlıq məktəbinin ən parlaq nümayəndələrindən olan Aqşin Əlizadə sənətdə öz sözünü demiş və böyük bir iz qoymuş görkəmli simalarımızdandır. O, Cövdət Hacıyev məktəbini keçmiş çox dərin professional kimi xalq musiqisi ilə yanaşı Avropa simfonizmini də gözəl bilirdi. Qərb musiqi ənənələrinə yaxından bələd olan A.Əlizadənin yaradıcılığında millilik parlaq duyulur və bütün əsərlərində qırmızı qalın xətt kimi keçir. Hərtərəfli yaradıcılıq axtarışları aparan bu böyük bəstəkar təkcə balet janrında yazdığı əsərlərilə deyil, sözsüz ki, digər janr nümunələri ilə də çox böyük uğur qazanmışdır. Onun gözəl vokal və simfonik inciləri Azərbaycan musiqi xəzinəsinin bəzəyidir.

A.Əlizadə çoxşaxəli yaradıcılıq fəaliyyətindən başqa, həm də böyük bir ictimai xadim olmuşdur. O, uzun illər Azərbaycan Bəstəkarlar İttifaqının katibi (1979-1985), sonradan I katib və SSRİ Bəstəkarlar İttifaqının katibi (1985-1990) vəzifələrində məhsuldar çalışmış və səmərəli fəaliyyəti ilə gənc bəstəkarların inkişafına kömək etmişdir.

Aqşin müəllimi ən əsas üstün keyfiyyətlərə malik çox gözəl bir ziyalı kimi də səciyyələndirə bilərəm. Onun sinəsində həmişə azərbaycanlı ürəyi döyünürdü. Vətənini sevən, xalqına, torpağına hər baxımdan bağlı olan bir sənətkar idi. Ona



***Soldan sağa: Vasif Aadıgözəlov, Oqtay Zülfüqarov, Arif Məlikov, Aqşin Əlizadə, Adil Bəbirov tələbəlik illərində konservatoriyanın eyvanında. Bakı, 1957-ci il***

görə də bütün bunlar onun əsərlərində dərhal özünü büruzə verir.

Böyük şəxsiyyət olan A.Əlizadənin musiqisini dinləyərkən və ya ifa edərkən həmişə azərbaycanlı bəstəkara məxsus olması bilinir. Bu çox vacib amildir. Ümumiyyətlə, bəstəkarın fəaliyyətində, yaradıcılığında milliliyin hiss olunmamağı çox böyük bir boşluğun mövcudluğundan xəbər verir. Fikrimcə, yaradıcı şəxslərin fəaliyyətində milli köklərə bağlılıq mütləq duyulmalıdır. Əgər meydana gələn əsər xalq tərəfindən qəbul olunmursa, həmin musiqi geniş musiqi kütləsinə yaxın deyilsə bu böyük bədbəxtlikdir. Eyni dövrdə fərqli üslublarda yazıb-yaradan bəstəkarlar ola bilər. Azərbaycan musiqisinin dahiləri sayılan Qara Qarayevlə Fikrət Əmirovun yaradıcılıq irsi buna nümunədir. Ancaq onları müqayisə etmək olmaz! Çünki bu bəstəkarların hərəsi bir kosmosdur. Bir haşiyə çıxıb onu da qeyd etmək istəyirəm ki, Avropa ölkələrinə yaradıcılıq səfərləri edərkən həmişə eyni konsertdə bu iki fərqli dil üslubuna malik bəstəkarların əsərlərini səsləndirməyə çalışıram. Bütün bunlar xarici dinləyicilər tərəfindən çox böyük rezonans yaradır. Bir tərəfdən Şərq, digər tərəfdən isə Qərbdən – Dmitri Şostakoviçdən gələn bəstəkarlıq məktəbinin ənənələri bu iki sənətkarın fərdi musiqi dilində və üslubunda parlaq təzahür edir. Bu yaradıcılığın inkişafı üçün çox vacib ünsürdür. Bütün bunlar Azərbaycan bəstəkarlıq məktəbinin böyük uğurlarıdır. Bunu qoruyub saxlamalıyıq. Lakin etiraf edək ki, sabahkı gün bizi bir qədər narahat edir. Azərbaycan bəstəkarlıq məktəbinin inkişafının və taleyinin necə olacağı barədə düşünürük. Qazanılan uğurları və dahilərimizdən gələn yaradıcılıq ənənələrini qoruyub saxlamaq üçün əlimizdən gələni edirik. Bu il artıq Ü.Hacıbəyli adına



*Soldan sağa: Aqşin Əlizadə, Nəriman Əzimov, Vasif Adıgözəlov, Telman Hacıyev, Əfsər Cavanşirov. 01.05.1957-ci il*



*Vasif Adıgözəlov və Aqşin Əlizadə. Təxminən 2002-2003-cü illər*

Bakı Musiqi Akademiyasının 100 yaşı tamam olur. Mən bu müqəddəs ali təhsil ocağının 50 illiyini qeyd etməyimizi yaxşı xatırlayıram. Bu baxımdan adları bəstəkarlıq məktəbinin ənənələrini yaradanlar və yaşadanlar sırasında novator sənətkarımız A.Əlizadənin də öz yeri olduğunu vurğulamaq istəyirəm.


*Aqşin Əlizadə. Bakı. Yanvar, 1974-cü il*

Aqşin müəllim ilə yaradıcılıq təmasında olmuş musiqiçi kimi qeyd etməliyəm ki, kamera orkestri üçün bəstələdiyi "Cəngi" pyesi (1978) onun ən çox ifa etdiyim əsəridir. "Cəngi"ni təxminən 20-ə yaxın ölkədə - İngiltərə, İtaliya, Meksika, Braziliya, Almaniya, Vyetnam, Çin və dünyanın bir çox konsert zallarında çox böyük zövqlə ifa etmişəm. Alqışlarla qəbul olunan bu əsər bütün ölkələrdə böyük maraqla qarşılanır. Kiçik həcmli olmasına baxmayaraq çox güclü və böyük təsir qüvvəsinə malik A.Əlizadənin yaradıcılıq tapıntısı hesab olunan bu əsər müxtəlif ölkələrdə lentə yazılmışdır.

Simfonik yaradıcılığına müraciət edərkən isə onu həm də böyük simfonist kimi özüm üçün kəşf etdiyimi dilə gətirməliyəm. A.Əlizadənin böyük fəlsəfi ideya ilə zəngin olan "Violin və orkestr üçün konsert"ini (1990) ilk dəfə 1991-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının Plenumunda səsləndirmişəm. Violin partiyasının ilk ifaçısı Arif Manaflı olmuşdu.

Aqşin müəllim sadə insan, böyük yaradıcı şəxsiyyət və tanınmış ictimai xadim olmaqla yanaşı həm də çox gözəl övladlar boya-başa çatdırmış ata idi. Onun hər iki oğlu mənim dostlarımdır. Həm Fuad, həm də Əli Əlizadələr atalarının sənətini yaşatmaq, inkişaf və davam etdirmək üçün bu gün də əzmlə çalışırlar. Allah Aqşin müəllimə rəhmət eləsin. Ruhu şad olsun.

A.Əlizadənin adı hər zaman yaşayacaqdır. Əgər bəstəkarın əsərləri səslənirsə və dinlənilirsə o yaşayır. Düşünürəm ki, onun müəllifi olduğu böyük sənət nümunələri daima səslənəcək və mədəniyyətimizi bundan sonra da yüksəklərə qaldıracaqdır.

Bakı, Azərbaycan.
08.07.2021

**Ülviyyə HACIBƏYOVA**
Pianoçu, Xalq artisti,
professor

## AQŞİN ƏLİZADƏNİN ŞƏXSİYYƏTİ VƏ PEŞƏKARLIĞI QARŞISINDA BAŞ ƏYİRƏM


УЧАСТНИК ВСЕСОЮЗНОГО
СМОТРА ТВОРЧЕСТВА
МОЛОДЫХ КОМПОЗИТОРОВ
А. Али-Заде
НАГРАЖДЕН
Дипломом
I СТЕПЕНИ
за Сонату для фортепиано

Председатель жюри Всесоюзного смотра
Первый секретарь Союза композиторов СССР
Министр культуры СССР
Первый секретарь ЦК ВЛКСМ

Aqşin Əlizadə Azərbaycan bəstəkarlıq məktəbinin ən parlaq ulduzları sırasında olan sənətkardır. Bir insan kimi onun şəxsiyyətinə, təmizliyinə, peşəkarlığına hədsiz böyük hörmət bəsləyirəm. O, nəinki musiqiçilərə, həm də ailə üzvlərinə gözəl nümunə olan şəxsiyyət idi. Buna görə övladları da onun yolu ilə gedərək təmiz insanlar, böyük musiqiçilər, gözəl vətəndaşlar kimi formalaşıblar. Hətta bu ocağın gəlini olan Gülnarə xanım da onun ailə ənənələrinin davamçısıdır. Aqşin müəllimlə yanaşı oğlumun müəllimi olan bu gəlini də biz hər dəfə ailəmizdə böyük hörmət və minnətdarlıqla yada salırıq. O, gəlini olduğu ocağa layiqli xanımıdır. Başqa müəllimlərə bənzəməyən Gülnarə xanım öz təşəbbüsü ilə dərsdən sonra da şagirdləri ilə məşğul olub onların hamısını irəli aparırdı. Bu müəllimin sinfində oxuyanlar dörd, beş qiymətlər alırdılar. Biz ona Gülnarə Aseldarovna deyə müraciət edirdik. Gülnarə xanım şagirdləri ilə yanaşı mənim də həyatımda çox böyük rol oynayıb. O, məndə özümə inam hissini artırıb. Gülnarə xanıma ömrüm boyu minnətdaram. Qeyd edim ki, onun gəlin köçdüyü A.Əlizadə ocağının insanları da əvvəldən belə olublar.

Mən A.Əlizadənin bir çox fortepiano əsərlərini səsləndirmişəm və "Azərbaycan Bəstəkarlarının əsərlərinin Antologiyası"na (2008) daxil etmişəm. Bəzi əsərlərini imzası ilə mənə bağışladığını da vurğulamaq istəyirəm. Onları çox qiymətli hədiyyə kimi qoruyub saxlayıram.

Aqşin müəllim yol yoldaşı kimi də mənim xatirimdə çox təvazökar, ciddi bir insan kimi qalıb. Onunla tələbə vaxtı Tbilisidə keçirilən "Zaqafqaziya baharı" beynəlxalq musiqi festivalında (1982) iştirak etmək üçün birlikdə səfərə çıxmışam. Aqşin müəllim böyük bəstəkar olaraq musiqimizdə dərin izlər qoyub. Mən bütün Azərbaycan bəstəkarlarının fortepiano əsərlərini ifa edib lentə yazdırmışam. Müqayisə edərkən belə nəticəyə gəlirəm ki, onun yaradıcılığı milliliyi, çətinliyi, həm də çox arxaikliyi ilə seçilir və yadda qalır. Həmişə bütün varlığımla bu insana, onun gözəl ailəsinə böyük hörmət etmişəm. Mən Aqşin müəllimin xatirəsini heç vaxt unutmayacam. Onun işıqlı siması, böyük şəxsiyyəti bizim ailədə daima xatırlanacaqdır. A.Əlizadənin bütün ailə üzvlərinə dərin etiramımı, minnətdarlığımı ünvanlayıram. Onun şəxsiyyəti və peşəkarlığı qarşısında baş əyirəm.

Bakı, Azərbaycan.
08.07.2021

**İlham NƏCƏFOV**
Nəfəs alətləri ifaçısı, Əməkdar artist, sənətşünaslıq
üzrə fəlsəfə doktoru, professor

## KORİFEY BƏSTƏKARIMIZ



Böyük bəstəkarımız Aqşin Əlizadə çox həssas insan və hörmətli şəxsiyyət idi. Azərbaycanda simfonik əsərlər bəstələnərkən bir qayda olaraq Avropa musiqi alətlərində ifa üçün nəzərdə tutulur. A.Əlizadənin 1989-cu ildə yazdığı "Beşinci simfoniya"sının ifası üçün Azərbaycan simfonik musiqisi ifaçılığında ilk dəfə olaraq neydən istifadə olunmuşdur. Əsərdə bəstəkar neyə həzin bir musiqi tapşırıb. Aqşin müəllim zurna və ney partiyalarının ifası ilə bağlı mənə müraciət edəndə evinə getmişdim. Əsərin ifası barədə məlumat verən A.Əlizadə yazdığı musiqinin ney və zurna alətlərində

necə səslənəcəyini daha dəqiq müəyyənləşdirmək üçün simfoniyadan bəzi fraqmentləri səsləndirməyimi xahiş etmişdi. İfamı dinlədikdən sonra fikrini dəqiqləşdirmiş və əsərin notunu vermişdi. Mən 1990-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalının binasında - Kirxada Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında dirijor Rauf Abdullayevin idarəsi ilə səslənən beşinci simfoniyada ney və zurna partiyalarını ifa etdim. Sonralar isə tədqiqat işi apararkən həmin əsəri elmi baxımdan araşdırdım.

Məlum olduğu kimi, kino musiqisində neydən istifadə olunma ənənəsi var. Yaxın və Uzaq Şərq kinofilmlərinin müxtəlif ruhi ovqatlarını nəzərə çatdırmaq üçün bəstəkarlar neyin səsindən istifadə edirlər. Qərb ölkə kinematoqrafçılarının Şərq mövzusunda çəkdikləri filmlərdə də ney aparıcı çalğı aləti kimi səslənir. Təsadüfi deyil ki, İslam Şərqi ölkələrində dini-ruhani, tarixi mövzu əhatəsini canlandırmaq üçün ney əsas çalğı alətləri cərgəsindədir. Azərbaycan kinematoqrafçılarının əsərlərində də doğma neyə tez-tez müraciət olunur. A.Əlizadə də “Ürək yaddaşı” (1981) adlı bədii filmə musiqi bəstələyərkən neydən istifadə etmişdir. Onunla kino musiqisi sahəsində də əməkdaşlıq etmişəm. Kinostudiyada Aqşin müəllimin kinofilmlərə musiqisi mənim ifamda səslənərək lentə alınıb.

1990-cı ildə korifey bəstəkarımızın “Abşeron lövhələri” (qısametrajlı sənədli film, 1990) adlı kinomusiqisinin notlarını mənə verdiyini və ney partiyasını səsləndirməyimi xahiş etdiyini qeyd etməliyəm. Onu da bildirim ki, tədqiqat işimdə kinofilmlərə yazılmış musiqi əsərlərinə həsr olunmuş bölmədə “Abşeron lövhələri”nin də təhlilini əks etdirmişəm. A.Əlizadənin “Abşeron lövhələri” kompozisiyasının musiqisi ney səsi ilə süslənmişdir. Mirzəhüseyn segahı məqamında olan əsər məxsusi olaraq bu alət üçün bəstələnmişdir. Abşeronda bağ mövsümü ilin isti aylarına təsadüf etdiyinə görə bəstəkar istidə dinamikanın azlığının, hərəkətsizliyinin, yeknəsəqliyin ney avazı ilə dinləyiciyə daha qabarıq çatdırmaq imkanından bacarıqla istifadə etmişdir.

Dissertasiya işimi müdafiə edərkən (2008) rəyçilər arasında A.Əlizadənin olduğunu da bildirmək istəyirəm. Onun dissertasiya işimə verdiyi rəyin ikinci nüsxəsini indiyədək saxlayıram. O, korifey bəstəkar kimi Azərbaycan musiqi tarixində yeni səhifə açıb. Allah rəhmət eləsin.

Bakı, Azərbaycan.
25.02.2019

**Töhfə BABAYEVA**
Violin ifaçısı, Əməkdar artist,
professor

## AQŞİN ƏLİZADƏNİN MUSİQİSİNDƏ BÖYÜK FƏLSƏFƏ VAR



ЦК ВЛКСМ

ОТДЕЛ ПРОПАГАНДЫ И АГИТАЦИИ

В КОМИТЕТ ПО ПРИСУЖДЕНИЮ ПРЕМИЙ ИМЕНИ ЛЕНИНСКОГО КОМСОМОЛА

ЦК ЛКСМ Азербайджана и Союз композиторов Азербайджанской ССР совместно выдвигают на соискание премии имени Ленинского Комсомола "Камерную симфонию" молодого азербайджанского композитора Али-заде Акшина Али-кули оглы.

СЕКРЕТАРЬ ЦК ЛКСМ АЗЕРБАЙДЖАНА
Э.КАФАРОВА

И.О.ПРЕДСЕДАТЕЛЯ СОЮЗА КОМПОЗИТОРОВ АЗЕРБ.ССР
С.ГАДЖИБЕКОВ

Mən konservatoriyanın ikinci kurs tələbəsi olduğum dövrdə (1985-1986) Rəşid və Dmitri Seyidzadələrin rəhbərlik etdiyi tələbə kamera orkestrinin konsertmeysteri idim. Orkestrin geniş repertuarına daxil edilmiş Azərbaycan və dünya musiqi mədəniyyətindən ən maraqlı və çətin əsərləri müxtəlif konsertlərdə səsləndirirdik ki, onların sırasında Aqşin Əlizadənin "Yumoreska"sı (1957) da var idi.

Bu əsərin gözəlliyinə heyran olmuşdum. "Yumoreska" çox xoşuma gəldiyi üçün hətta yol gedəndə də öz-özümə onun melodiyasını zümzümə edirdim. Maraqlı ştrixlərə malik olan bu ritmik əsərdə simdən-simə keçidlər diqqətimi cəlb edirdi. "Yumoreska"nı böyük həvəslə ifa etməyimə baxmayaraq o dövrdə müəlliflə şəxsən tanış deyildim. Güman edirəm ki, ilk dəfə bu əsər Nazim Rzayevin rəhbərlik etdiyi Azərbaycan Dövlət Kamera Orkestri tərəfindən səsləndirilmişdi. Ancaq bizdən sonra isə "Yumoreska"nı hanısa kollektivin ifasında dinləməmişəm.

1985-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının plenumunun keçirildiyi dövrdə simfonik orkestrə dəvət olundum. Plenum konsertlərində çoxlu əsərlər ifa edirdik ki, onların sırasında ilk dəfə Rauf Abdullayevin idarəsi ilə səslənən A.Əlizadənin IV simfoniyası da var idi. Aqşin müəllimi əyani tanımasam da əsərlərini ifa etmək çox xoşuma gəlirdi. Onun musiqisində kişilik, mərdlik, qəhrəmanlıq və azərbaycançılıq simvolu var. Melodiyası çağırış kimi səslənən və çox yaddaqalan musiqiyə malik IV simfoniyanı ifa edərkən hətta qamətimi dik tutur və stulda düz əyləşirdim. Bu simfoniya həm ifa, həm də forma və dramaturji inkişaf baxımından maraqlıdır.

A.Əlizadənin böyük fəlsəfi ideya ilə zəngin olan Violin və orkestr üçün konserti (1990) ilk dəfə 1991-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının Plenu-

munda səslənmiş, violin partiyasının ilk ifaçısı Arif Manaflı olmuş, əsərə Yalçın Adıgözəlov dirijorluq etmişdir. 2007-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında keçirilən A.Əlizadənin 70 illik yubileyinə həsr edilmiş konsertdə, 2008-ci ildə isə "Qarayevsiz 25 il" festivalında Azərbaycan Dövlət Filarmoniyasında həmin əsər fərqli ifada solist Rövşən Əmrahov və dirijor R.Abdullayevin interpretasiyasında təqdim olunarkən bu konsertin gözəlliyinə bir daha heyran oldum. Onu da qeyd edim ki, əsərin nəinki violin partiyası, həm də orkestr dili çox gözəldir. Violin partiyası orkestr partiyasından tamamilə fərqlənir. Konsertin həm violin, həm də orkestr partiyasının ayrı-ayrılıqda çox gözəl səslənməsinə nail olmaq kimi çətin vəzifə A.Əlizadənin yüksək peşəkarlığından və böyük istedadından xəbər verir. Bu ustalıq hər bəstəkara da müəssər olmur. Violin və orkestr üçün konsert A.Əlizadənin orkestrləşdirməni çox gözəl bilən ustad olmasının əyani təzahürüdür. Onun musiqi dili dərin fəlsəfi düşüncələrlə zəngindir.

A.Əlizadənin fortepinao, violin və violonçel üçün yazdığı "Trio" (1957) əsərini hər il may ayında onun doğum günündə Kirxada səsləndiririk. Əvvəllər mənim (violin), Səbinə İbrahimovanın (violonçel) və Nərgiz Əliyarovanın (fortepiano) ifasında dinləyicilərə təqdim olunan "Trio" indi Azərbaycan Dövlət Fortepiano Triosu tərəfindən (fortepiano - Elnarə Kəbirlinskaya) ifa edilir. Fikrimcə, tələbəlik dövründə bəstələnən bu əsər onun erkən yaradıcılıq mərhələsinin məhsulu olduğu üçün A.Əlizadəyə məxsus üslub o qədər də görünmür. Ancaq onun istedadlı tələbə kimi I kursda bəstələdiyi həmin əsər çox yüksək səviyyədə yazılıb. Bu A.Əlizadənin tələbə işi olsa da böyük əsərdir.

1989-cu ildə Dövlət Simfonik Orkestrində işlədiyim vaxtlarda Azərbaycan Bəstəkarlar İttifaqında gənc bəstəkarların "Üzü zirvəyə" adlı festivalı keçirilirdi ki, həmin konsertdə A.Əlizadənin oğlu Əli Əlizadənin də əsərini ifa edirdik. Aqşin müəllimin necə məsuliyyətli və tələbkar olduğunu əsərlərinin məşqi prosesində müşahidə etmişəm. O, fasilə vaxtı bütün pultlara yaxınlaşıb hər nota baxar, nüansların, ştrixlərin, vurğuların düzgün yazılmasına əmin olmaq istəyirdi.

Məlumdur ki, A.Əlizadənin musiqi dili digər bəstəkarlardan seçilir. Onun təbiətindəki kişilik, cəngavərlik ruhu və hüzn musiqisində də öz əksini tapmışdır. Bəstəkarın daxili aləmi onun musiqi dünyasında özünü aydın büruzə verib. Təəssüflənirəm ki, A.Əlizadənin fortepiano üçün yazdığı "Hüzn valsı" pyesinin trio üçün işlədiyimiz variantını dinləmək ona nəsib olmadı. Azərbaycan Dövlət Fortepiano Triosunun ifasında çox gözəl səslənən bu əsəri ilk dəfə Beynəlxalq muğam mərkəzində mərhum pianoçu Aytəkin xanım Həsənovaya həsr edilmiş xatirə gecəsində (2013) ifa etmişik.

A.Əlizadənin həmişə çox istiqanlı və yaxşı insan olduğunu hiss edirdim. Onunla yolda rastlaşanda həmişə gülümsəyər, hal-əhval tutar və işlərimin necə getdiyini soruşardı. Aqşin müəllim hörmət etdiyi insanlara bunu göstərirdi. Son vaxtlar əsərlərinin ifa olunmasını istəməyən bəstəkardan bunun səbəbini soruşmamışdım. Mənə elə gəlir ki, "Hüzn valsı" A.Əlizadənin simasını əks etdirir.

Bakı, Azərbaycan.
07.12.2019

**Brilyant DADAŞOVA**
Müğənni, Xalq artisti

## BAHAR NƏFƏSLİ BƏSTƏKAR



***Aqşin Əlizadə və Arif Məlikov***

Aqşin Əlizadəni çox səmimi, sadə, mehriban insan və böyük bəstəkar kimi xatırlayıram. 1988-1989-cu illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) II kursunda oxuyarkən Aqşin müəllim tərəfindən onun "Bahar nəfəsli" adlı mahnısını oxumağım təklif olundu. Böyük bəstəkarın dəvəti ilə mən Rafiq Babayevin rəhbərlik etdiyi estrada simfonik orkestrinin müşayiəti ilə həmin mahnını ifa etdim və Fioletov (indiki Əbdülkərim Əlizadə) küçəsində yerləşən səsyazma studiyasında lentə yazdırdıq. Aqşin müəllim özü də səsyazma evinə gəlmişdi. O vaxt belə böyük sənətkarın müxtəlif ifaçılar arasından niyə məhz mənim ifamı seçdiyini o qədər də anlamırdım. Zaman keçdikcə gözəl bəstəkarın böyüklüyünü və mənə etibar etdiyini daha yaxşı dərk etdim və çox yüksək dəyərləndirdim.

A.Əlizadənin kamera orkestrinin müşayiətilə vokal əsərlərindən ibarət konsertdə çıxış etdiyimi bildirməliyəm. Həmin konsertdə onun bir sıra romans səviyyəli mahnılarını səsləndirmişdim. Bura "Qaradır qaşın", "Bir qız gördüm", "Gözü ceyran gözüdür", "Qəmlisən" daxildir. Həmin əsərlərin mənim ifamda olan audio yazıları Azərbaycan Televiziyası və Radiosunun Qızıl Fondunda qorunur.

Mən Aqşin müəllimlə birlikdə xarici ölkədə yaradıcılıq səfərində də olmuşam. 1990-cı ildə bir qrup incəsənət xadimi ilə Avstriyanın Vyana şəhərində konsertlər verəndə o, Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi bizimlə birlikdə getmişdi. Aqşin müəllim səmimi, gülərüz və çox mehriban münasibətli gözəl insan və yüksək mədəniyyətə malik şəxsiyyəti ilə hamıya diqqət göstərirdi. Allah ona rəhmət eləsin.

Bakı, Azərbaycan.
28.03.2019

**Mübariz ƏLİYEV**
Saz ifaçısı, sənətşünaslıq
üzrə fəlsəfə doktoru, dosent

## ÖLMƏZ BƏSTƏKAR

Aqşin Əlizadə böyük sənətkar olmaqla yanaşı, gözəl pedaqoq və bəstəkar idi. Onu təxminən 1981-ci ildən tanımağa başlamışam. Aqşin müəllimdə həqiqi mənada tələbələrə qarşı sadəlik var idi ki, bu da onun ziyalılığından irəli gələn bir xüsusiyyət olmuşdur. O, 1990-cı ilin qara yanvar hadisələri ilə bağlı simfoniya yazmaq qərarına gəlmişdi. Xalqımızın başına gətirilən faciəvi 20 yanvar hadisələri ona böyük təsir göstərdiyinə görə çox narahat idi və buna görə də həmin hadisələri öz əsərində göstərmək istəyirdi. A.Əlizadə "Şur" muğamı üzərində yazdığı Beşinci simfoniyada milli musiqi alətlərimizdən zurna, balaban və sazın öz haqq səsini ucaltmalarına çalışmışdı.

Hazırda Türkiyə Cümhuriyyətində çalışan müəllimim professor İlqar İmamverdiyevlə məni hər görəndə Beşinci simfoniyada saz partiyası ilə bağlı hələlik axtarışlar apardığını deyir və bizi həmin əsəri ifa etmək üçün dəvət edəcəyini bildirirdi. Nəhayət həmin gün gəlib çatdı. Təxminən mart ayı idi, Aqşin müəllim əsərinin saz partiyasının notunu gətirdi və bizi məşqə dəvət etdi. Biz indiki M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında dirijor Rauf Abdullayevin idarəsi ilə simfonik orkestrlə birlikdə məşqə başladıq. A.Əlizadə daxilindəki enerjini çıxartmaq üçün "Yanıq Kərəmi"yə çox qulaq asdığını və müəyyən elementləri götürməyə çalışdığını bizə bildirdi.

Konsertdən sonra Aqşin müəllim əlimizi sıxdı və ürəklə - "çox gözəl alındı" -dedi. Həmin gündən etibarən onunla aramızda səmimiyyət və yaxın dostluq başladığından hər zaman görüşürdük. O, yeni-yeni əsərlər yazacağına söz vermişdi.

Onun Beşinci simfoniyasında doğurdan da çox rəngarənglik var. A.Əlizadə "Şur" muğamı üzərində yazdığı bu əsərdə "Kəsmə-şikəstə"dən və "Yanıq Kərəmi"nin bəzi məqamlarından istifadə edib. Simfoniyada "Şur" muğamından "Segah"a yönəlmə var ki, bu da çox gözəl səslənir. Aqşin müəllim Azərbaycan xalq musiqisini, muğamlarımızı dərindən bilirdi. Onun yazdığı əsərlər çox gözəl, sadə və insanın qəlbinə toxunan, onu oxşayan musiqidir. Bu baxımdan Beşinci simfoniya tamamilə fərqli səslənir. Orada bəstəkar iki sazdan, bir zurna və balabandan istifadə edib. Zurnada səslənən "Cəngi"ni İlham Nəcəfov ifa edirdi. Bu simfoniya bir neçə dəfə maestro R.Abdullayevin idarəsi ilə Türkiyədə də səslənmişdi. Məşqlər zamanı Aqşin müəllim fikirlərimizi öyrənirdi. Hətta simfonik orkestrin ifaçılarına müraciət edir və onlardan məsləhətlər alırdı. Bu mənada da o, sadə insan idi.

Biz Aqşin müəllimin tövsiyəsinə uyğun olaraq sazı öz dilində danışdırmaq üçün do-sol üzrə kökləmişdik. Saz səsinin ahəngini göstərməyimiz onun ürəyincə idi. Belə kökləmə ifa zamanı sazın öz kökündə, həm də yönəlmələr edərkən çox rahat olurdu. A.Əlizadə birbaşa milli ruh ilə bağlı bir insan olduğuna görə simfoniyanı dinləyəndə xalq musiqisi ilə klassikanın vəhdət təşkil etdiyini duyursan. Bu böyük nailiyyət və səriştədir ki, hər bəstəkara müyəssər olmur. A.Əlizadə yaradıcılığının gözəlliyi və böyüklüyü də ondadır.

Bu əsəri daha sonra Bəstəkarlar İttifaqının plenum konsertində də ifa etmişdik. Həmin konsertdə beş bəstəkarın 20 yanvar hadisələrinə həsr edilmiş əsəri səslənmişdi ki, onlardan biri də Cövdət Hacıyevin "Şəhidlər" simfoniyası idi. Aqşin müəllimin mənə dediyi kimi, həmin əsərlərin səslənməsi xalqımıza, millətimizə bir başa böyük təsir etdi. Xoşbəxtəm ki, Beşinci simfoniyanın ifasında iştirak etmişəm. Bu böyük bir tarixdir. Gözəl bəstəkarın əsərini heç olmasa bir dəfə ifa etmək mənim üçün xoşbəxtlik və şərəfdir.

Aqşin müəllim bir müddət işləmək üçün Türkiyəyə getdi və orada yaşadı. Ara-bir vətənə qayıdanda ona Türkiyədə yaşamağına görə çox heyfsiləndiyimi deyirdim. O isə darıxmamağımı, gələcəkdə yeni əsərlər üzərində işləyəcəyimizi bildirirdi. Ancaq Türkiyədən qayıdanda sonra yaşa dolduğunu gördüm, onunla görüşəndə soruşdum ki, Aqşin müəllim bizi xatırlayırsınız? Onun cavabı "niyə xatırlamıram Mübariz, necəsən?" oldu. Dedim maşallah, elə bildim məni unutmusunuz Aqşin müəllim. O, çox gözəl və səmimi insan idi. Bu Aqşin müəllimin daxili zənginliyindən, bəstəkarlığından irəli gəlirdi.

Hesab edirəm ki, musiqişünaslar və bəstəkarlarla yanaşı hər birimiz həmişə onun yaradıcılığını araşdırmalıyıq. A.Əlizadənin sənəti həqiqi mənada hərtərəflidir ki, bu da onun ziyalılığından irəli gəlirdi. Zəngin sənətkarlar tarixdə həmişə çox sadə olurlar. Aqşin müəllim özündən razı insan deyildi.



***Aqşin Əlizadənin V simfoniyasında saz partiyasını səsləndirən İlqar İmamverdiyev və tələbəsi Mübariz Əliyev. 05.05.1991-ci il***

Onun yerişi, duruşu, insanla görüşməyi, səmimiyyəti birbaşa bəstəkarlığının əsas ana xəttini təşkil edirdi. Müasir bəstəkarlarımız özündən çox razıdırlar. “Mən bunu yazmışam, çox gözəl səslənir və yaxud da mənə qiymət verən yoxdur” kimi fikirlər söyləyirlər. Amma A.Əlizadə kimi insanlarda belə hallar görməmişik. Bu insanlar öz dövrünün ən gözəl parlaq şəxsiyyətlərindən idilər. Onlar sovetlər məkanında yaşadıqlarına görə dünyagörüşləri fərqli idi. Doğurdan da o vaxtlar gözəl musiqiçilərimizin nüfuzu var idi. Son illərdə özəl televiziya kanallarının yaranmağı musiqimizi professional, akademik səviyyədən çox aşağı kütlə səviyyəsinə apardı. Fikrimcə, 90-cı illərə kimi xalq musiqisində böyük sıçrayış olmuşdur. O dövrdə musiqi ilə məşğul olan ifaçılar elmli idilər. Demək olar ki, Konservatoriyada cəmiyyətin ən seçilmiş gəncləri təhsil alırdılar. Həmin dövrün bəstəkarları musiqiyə böyük hörmətlə, ciddi və məsuliyyətlə yanaşırdılar. Onlar öz müəllimlərini örnək görmüşdülər. Belə nəhəng sənətkarları mühit yetişdirmişdi. Ətraf mühitin insana böyük təsiri olduğuna görə yaradıcı insanlar cəmiyyətdə gördüklərini öz əsərlərində göstərməyə çalışırlar. Sovet musiqisinin çiçəkləndiyi bir vaxtda bizim bəstəkarlarımızda da müttəfiq respublikaların yaradıcı şəxsləri kimi böyük ruh yüksəkliyi var idi. İndi də təbii ki, gözəl dövrandır. Amma musiqi aləmində çox sürətli və kütləvi

formada tənəzzül mərhələsi başlayıb. Köklə bağlı olduğuna görə əvvəllər musiqi dünyasını musiqiçilər ailəsinin nümayəndələri davam etdirərdilər.

Qiymətli tarix yaratmış bəstəkarlarımız bizim üçün dəyərlidirlər. Aqşin müəllim ölməz bəstəkar kimi yazdığı əsərləri ilə tarixə imza atıb. Mən hesab edirəm ki, onun yaradıcılığı həmişə yaşayacaq. Xoşbəxtəm ki, belə bir dahi sənətkarın, gözəl şəxsiyyətin əsərini ifa etmişəm. Allah ona qəni-qəni rəhmət eləsin, ruhu şad olsun. Çox əfsus ki, belə insanlar tarixə bir də gəlmirlər. Biz, belə bəstəkarları unutmamalı, hər zaman təbliğ etməli və Azərbaycanın necə şəxsiyyətlərinin olduğunu gənc nəsillərə örnək kimi göstərməliyik.

Bakı, Azərbaycan.
16.04.2019

**Nərgiz ƏLİYAROVA**
Pianoçu, Əməkdar artist, sənətşünaslıq üzrə
fəlsəfə doktoru, professor

## SONSUZLUĞA YÜKSƏLƏN MUSİQİ



Azərbaycan Respublikasının xalq artisti bəstəkar Aqşin Əlizadənin yaradıcılığına ilk dəfə 1992-ci ildə "Dastan" əsərini ifa edərkən müraciət etmişəm. Azərbaycan Milli İncəsənət Muzeyinin dahi sənət əsərləri ilə zövqlə bəzədilmiş zalında keçirilən həmin konsert Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunmuşdu. Onda hələ Aqşin müəllimlə şəxsən tanış deyildim, o mənim üçün Azərbaycanın görkəmli bəstəkarı, musiqi xadimi, uzaqdan-uzağa ehtiram bəslədiyim bir şəxsiyyət idi. Tanış olandan sonra Aqşin müəllimin həyata aktiv münasibəti, həmişə yaradıcı ideyalarla dolu zəngin şəxsiyyəti, sadəliyi və alicənablığı ona olan hörmətimi birə on artırdı. Sonralar Aqşin müəllim mənə fortepiano üçün bir sıra əsərlərinin notlarını bağışladı və onların ifası ilə bağlı fikirlərini bölüşdü. Yadımdadır, ilk dəfə çox böyük həyəcan və maraqla onun evinə gedirdim - çoxsaylı ölməz əsərlərin yazıldığı məkanı seyr

edib, yuxusuz gecələrin, yaranan musiqi incilərinin şahidi olan otaqları görmək istəyirdim. Bəstəkar Kirxa (Kamera və orqan musiqisi zalı) ilə üzbəüz tağlı binada yaşayırdı. Zəngi vurdum, qapını açan xoş görünüşlü xanım məni salamlayıb içəri dəvət etdi. Ev sahiblərinin çox mülayim və gülərüz rəftarından mənim həyəcanım yay dumanı kimi əriyib tez yox oldu. Aqşin müəllim məni piano arxasına dəvət etdi, biz “Dastan” və “Qədim oyunlar” əsərləri üzərində işləməyə başladıq. “Təsəvvür elə, əcdadlarımız necə qaval çalıb oynayıb. Çox sadə, amma enerji ilə ifa etməlisən, gözlənilmədən fortissimo çal, sonra isə uzun müddət əks-sədaya qulaq as. Özün bunu hiss edəndən sonra dinləyicilərə də ötürə biləcəksən”. Bəstəkarın təxəyyülümdə Qobustan qayaüstü təsvirlərini canlandırırmağımı xahiş etməsini xatırlayıram. Onun tövsiyələrindən sonra qədim insanların rəqsləri və onların qaval daşına vurmaqları gözlərimin qarşısında canlanırdı, mənə elə gəlirdi ki, köhnə filmə baxıram. Təxəyyülümdə yaranan həmin görüntülər getdikcə musiqi ilə daha çox həmahənglik təşkil etməyə başlayırdı, musiqi sanki canlanırdı.




***Aqşin Əlizadə və Nərgiz Əliyarova***

1997-ci ilin may ayında Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Böyük zalında A.Əlizadənin 60 illik yubileyi təntənə ilə qeyd olunurdu. Aqşin müəllim "Dastan" əsərini yubiley tədbirində səsləndirməyimi məndən xahiş etmişdi. Onu da qeyd edim ki, həmin konsertdə müəllifin bir sıra başqa əsərləri də ifa olunurdu. Aqşin müəllim çox həyəcanlı görünürdü, amma bəstəkarın narahatlığına rəğmən konsert böyük müvəffəqiyyətlə keçdi. Həmin gün müəllifin mənim ifamdan sonra səhnəyə yaxınlaşıb təşəkkür edərək əlimi öpməyi ifaçı kimi aldığım ən yüksək qiymətlərdən biri idi.

İfaçı üçün "doğmalaşmış" əsərlər repertuarın "daimi" qonağına çevrilirlər. "Dastan" əsərini ilk dəfə olaraq Azərbaycan Milli İncəsənət Muzeyində səsləndirsəm də sonralar dəfələrlə bu pyesə yenidən müraciət etmişəm. Həmin pyesi 1994-cü ildə Böyük Britaniyanın Dartington şəhərində keçirilən yay kurslarında, Nyu Yorkun məşhur Culyard məktəbinin professoru Coel Saksın dərsində də təqdim etdiyimi söyləməliyəm. Professorun çox xoşuna gələn bu əsəri kursların sonunda keçirilən konsertdə onun xahişi ilə səsləndirdiyimi qeyd etməliyəm.



Bəstəkarın “Dastan” və “Qədim oyunlar” adlı əsərlərini həm də Darmştadda 48-ci Beynəlxalq yeni musiqi konqresində (1994-cü il, Almaniya) səsləndirmişəm. A.Əlizadənin hər iki əsəri konqres iştirakçıları tərəfindən yüksək qiymətləndirilmişdi.

2011-cu ildə Türkiyə Cümhuriyyətində nəşr olunan sayca ikinci “Nərgiz Əliyarova Azərbaycan musiqisini ifa edir” diskimdə “Dastan” əsərini lentə almışam. Həmin disk üçün bəstəkarla birgə şəkil çəkdirmək üçün onun evinə gedəndə Aqşin müəllimin özünü o qədər də yaxşı hiss etməməsinə baxmayaraq məni qəbul etdiyini deməliyəm. İndi həmin o şəklə baxanda gözlərim yaşarır, böyük sənətkarın yoxluğu məni çox kədərləndirir, onun yeri həmişə boş görünür.

A.Əlizadə haqqında olan digər xatirəm onun həyat və yaradıcılığından bəhs edilən filmin çəkilişi ilə bağlıdır. Bakı Musiqi Akademiyasında bəstəkar haqqında sənədli filmin çəkilişində iştirak etmək mənim üçün çox məsuliyyətli sınaq idi. Anlayırdım ki, bəstəkar mənə əsərlərinin ifasını tapşırmaqla əslində qarşısındakı ifaçıya olan inamını nümayiş etdirir. Aqşin müəllimin inamını doğrultmaq mənim üçün çox vacib idi. Onun videoyazıdan məmnun olduğunu biləndə çox sevinmişdim.

Qeyd edim ki, 2016-ci ildə Amsterdamda yerləşən “*Power*” studiyasında lentə aldığım “Dastan” və “Hüzn valsı” əsəri Belçikanın məşhur *Etcetera* firmasında “Azərbaycan bəstəkarlarının əsərlərinin toplusu” kompakt diskində işıq üzü görüb. Fəxrlə deyə bilərəm ki, həmin disk 2016-ci ildə Avropanın ən yaxşı diski adının qazanılması üçün müsabiqəyə irəli sürülüb.

A.Əlizadənin ən çox sevdiyim əsərlərindən biri olan “Hüzn vals”ını dəfələrlə müxtəlif konsertlərdə səsləndirsəm də təəssüf ki, heç vaxt bu kiçik pyesi Aqşin müəllim üçün ifa edə bilməmişəm. İndiyə qədər də bəstəkardan onu çox fərdi qavradığım və bu əsəri tam fərqli interpretasiya etdiyim üçün icazə almamağım məni incidir.

“Hüzn vals”ı sadə, ilıq və axıcı bir melodiyanın dörd dəfə təkrarından və kiçik kodadan ibarətdir. Nüans baxımından da yeknəsəq olan bu pyesi bir insanın ömür hekayəsinə bənzədirəm. İlk əvvəl mövzunu yüngül, bir qədər işıqlı ifa edərkən sanki kiçik bir uşağın xoşbəxt, qayğısız həyatı gözümün önündə canlanır. İkinci dəfə romantik, canlı səslənən valsın melodiyası gənc insanın həyatını, onun məhəbbətini təsvir edir. Sonra mövzuya yaşlı insanın keşməkeşli, çətin həyatı kimi ağırlıq çökür. Sonuncu dəfə vals artıq çox ağır, yavaş tempdə keçir ki, yaşa dolmuş insanın ağrıları, ölümə müqaviməti musiqidə aydın sezilir. Gözlənilməz səssizliklə əvəz olunan kulminasiyada yoxluq, insanın

ölümə məhkumluğu öz əksini tapır. Çox yüngül, impressionizmə uyğun şəffaf səslə ifa edilən koda isə getdikcə əriyir. İnsanın ruhu bu dünyadan uçaraq uzaqlaşır, göydəki buludlara qarışaraq sonsuzluğa yüksəlir. Bəstəkar Aqşin Əlizadənin ruhu kimi...

Nyu York, ABŞ.
18.11.2019

**Samir MİRZƏYEV**
Pianoçu, sənətşünaslıq
üzrə fəlsəfə doktoru

## AQŞİN ƏLİZADƏ - BÖYÜK MƏNƏVİYYATA MALİK SADƏ QƏLBLİ İNSAN İDİ

İlk dəfə Aqşin Əlizadə haqqında bəstəkar Fərəc Qarayevin tələbəsi olmuş qardaşım Elmir Mirzəyevdən eşitmişdim. O, həmişə Aqşin müəllimin çox demokratik insan olması barədə danışırdı. A.Əlizadənin oğlanlarını onun özündən daha tez tanıdığımı qeyd etmək istəyirəm. Konservatoriyada (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) ilk əmək fəaliyyətimə başladığım dövrdə (1994-1995) bəstəkarın oğlu Fuad Əlizadənin xor-dirijorluq sinfində konsertmeyster kimi çalışırdım. Əli Əlizadəni isə əsərini 2001-ci ildə Berlindəki məşhur "*Young Euro Classic*" beynəlxalq musiqi festivalında Konçertxausda ifa edərkən tanıdım. A.Əlizadənin ailəsi ilə tanışlığım belə baş verdi.

2002-ci ildə Türkiyənin Van şəhərindəki "Yüzüncü il" Universitetinə yeni tədris ilinin başlanması münasibətilə keçirilən konsertdə ifa etmək üçün dəvət olunmuşdum. O illərdə Aqşin müəllimin həmin universitetdə çalışdığı barədə məlumatlı idim. Klassik musiqi proqramı ilə çıxış etdiyim bu konsertə universitetin rektoru və başqa dinləyicilərlə birlikdə Aqşin müəllim də gəlmiş və ilk sırada əyləşmişdi. Onu salonda görəndə çox şad oldum. Konsertin sonunda bis üçün məni səhnəyə dəvət edəndə çox böyük sənətkarımızın salonda olduğunu və hörmət əlaməti kimi onun əsərini ifa etmək istədiyimi söylədim. Həmin konsertdən bir neçə ay əvvəl Türkiyə Cümhuriyyətində Azərbaycan bəstəkarlarının yaradıcılığını təbliğ etmək məqsədilə topladığım əsərlərin notları arasında əvvəlcədən əlyazmasını oğlanlarından aldığım A.Əlizadənin "Hüzn valsı" da var idi ki, onu səsləndirdim. Əsərin əlyazmasını göndərdiklərinə görə bəstəkarın övladlarına təşəkkürümü bildirirəm. Yığcam və effektli olan bu əsər bis ifa üçün çox uyğundur. Həmin konsertdə "Hüzn valsı"nı səs-


*Aqşin Əlizadə. 1971-ci il*

ləndirdikdən sonra Aqşin müəllim səhnəyə çıxdı və məni təbrik etdi. Əsərini ifa etməyimə görə çox şad olan müəllif bunun onun üçün bir sürpriz olduğunu vurğuladı. Həmin konsert və A.Əlizadə ilə görüşümüz haqqında hafizəmdə xoş təəssüratlar qaldı.

Aqşin müəllim böyük bəstəkar olsa da onda bir insan kimi böyüklük kompleksi yox idi. Onda bəzi məşhur bəstəkarlarımızda gördüyümüz yaşayan canlı klassik olmaq ədası və yekəxanalığını müşahidə etməmişəm. Aqşin müəllim hər kəslə səmimi və sadə davranırdı.

Onun yaradıcılığı ilə əvvəlcədən maraqlandığım üçün simfoniyalarını dinləyirdim. A.Əlizadə həmin konsertdə qarşıma sadə qəlbli insan kimi çıxması ilə xoş xatirələrimdə qaldı. Nur içində yatsın.

Antalya, Türkiyə
Cumhuriyyəti.
27.04.2020

**Əyyub ƏLİYEV**
Violonçel ifaçısı,
Əməkdar artist

## ƏSƏRLƏRİNİ HƏR DƏFƏ İFA EDƏNDƏ ONU SANKİ ARAMIZDA HİSS EDİRƏM



Aqşin Əlizadə ilə ilk tanışlığım 2008-ci ilin sonu 2009-cu ilin əvvəllərində olub. Mənimlə danışarkən çoxdan yazdığı bir əsərinin - Violonçel və orkestr üçün poemanın indiyə qədər ifa olunmadığı haqqında məlumat verdiyini xatırlayıram. Mən həmin əsər ilə çox maraqlandım və böyük məmnuniyyətlə onu ifa etmək istədiyimi bildirdim. Onunla növbəti dəfə görüşümüzdə əsərin notunu mənə təqdim etdi. Bundan sonra Aqşin müəllimlə bir neçə dəfə Azərbaycan Bəstəkarlar İttifaqında görüşdük. O, əsərin ifası ilə bağlı öz tövsiyələrini və arzularını mənə bildirdi.

2009-cu ilin noyabr ayında M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Bəstəkarlar İttifaqının 75 illiyinə həsr olunmuş festivalın keçirildiyi konsertdə mənim ifam və əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestrinin ifasında bu əsərin çox uğurlu premyerası oldu.

Aqşin müəllimlə bağlı hafizəmdə bir bəstəkar və insan kimi çox gözəl təəssüratlar qalıb. Böyük təəssüf hissi ilə qeyd edirəm ki, o, fiziki olaraq aramızda yoxdur. Amma müəllifi olduğu əsərləri hər dəfə ifa edəndə onu sanki aramızda hiss edirəm. Allah böyük bəstəkarımıza rəhmət etsin!

Bakı, Azərbaycan.
08.02.2019

**Natavan HƏSƏNOVA**
Qanun ifaçısı, sənətşünaslıq üzrə
fəlsəfə doktoru, dosent

## MUSİQİDƏ AQŞİN ƏLİZADƏ ZİRVƏSİ

Aqşin Əlizadənin böyük şəxsiyyət olmağı onun yaradıcılığından bəllidir. Peşəkar səviyyədə yazdığı gözəl əsərləri ilə ümumdünya musiqi tarixində iz qoyan gözəl ənətkar ilə görüşəndə onun bəstəkarlığı ilə yanaşı, insanlığı ilə də böyük bir zirvədə dayandığını anlamışdım.

A.Əlizadənin qanun aləti üçün işlədiyim (2012) "Cəngi" pyesini 2013-cü ildə Q.Qarayevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş "Təhlil və ifa edir gənc musiqiçilər", həmçinin Ümummilli lider H.Əliyevin anadan olmasının 90 illik yubileyi münasibəti ilə "Gənc musiqiçilər" adlı II Respublika müsabiqəsində şagirdim Zəhra Qəhrəmanova böyük ustalıqla ifa etmiş və laureat adına layiq görülmüşdür. Həmin əsərin ilk dəfə (2012) Azərbaycan Milli Konservatoriyasının IV kurs tələbəsi Leyla Əhmədovanın imtahanda səsləndirməsi böyük maraqla qarşılanmışdı. İnsanın qanını coşduran "Cəngi"nin musiqisinin qanunda gözəl səslənməsi hamının xoşuna gəlmişdi.

Məlum olduğu kimi, "Cəngi" orijinalda qaboy və kamera orkestri üçün bəstələnmişdir (1978). Bəstəkarın dediyinə görə: "...əsər 2-3 il ərzində çox ciddi, məsuliyyətli və gərgin iş prosesi nəticəsində yaranmışdır. Mən çalışırdım ki, 2 dəq. 30 saniyəlik bəstəmdə bir saniyə nə artıq, nə də əskik olsun".

Qeyd etmək lazımdır ki, əsər öz ikinci həyatını "Qafqaza səyahət" baletində tapmışdır. "Cəngi" Azərbaycanın milli rəqsi olmaqla cəngavərlik yürüşünü, meydanda dövr edərək oxumanı, döyüşə çağırışı ifadə edir. Rondo formasında yazılan əsər daxilən şərq-rondo formasında izlənilir (2 epizod yanaşı verilir).

Şagirdim Zəhranın müsabiqədəki iştirakından əvvəl həmin əsərə görə Azərbaycan Milli Konservatoriyasının baş müəllimi, konsertmeyster Svetlana Əhmədovanın təşəbbüsü ilə üçümüz birlikdə A.Əlizadənin şəhərdə 28 may küçəsində yerləşən evinə getdik və onunla tanış olduq. Aqşin müəllimlə bərabər həyat yoldaşı Qalina xanım da bizi çox yaxşı qarşıladı və gözəl ünsiyyət qurdu. Onun çoxlu kitablar, notlar, disklərlə dolu zəngin kitabxanası olan evinə daxil olanda mənə elə gəldi ki, hansısa arxivdəyəm. Yoldaşının da elm adamı olduğu bilinirdi. Aqşin müəllim söhbət əsnasında Qalina xanımı çağırır, ondan hansısa diskləri, notları, kitabları gətirməyini xahiş edirdi. Həmin gün Aqşin

müəllim mənə əsərlərinin bəzilərini qanun üçün işləyə biləcəyimi məsləhət gördü, Zəhraya isə əsərinin diskini bağışladı.

Z.Qəhrəmanovanın "Cəngi" əsəri haqqında hazırladığı məruzəni ürəklə, canfəşanlıqla danışması və ifa etməsi Aqşin müəllimin çox xoşuna gəlmişdi. O, Zəhranın öz ifası ilə saz ab-havasını yaratdığını demişdi. Onun "bir uşaq çalır, amma sanki orkestr kimi səslənir" deməsi yadımdadır. Aqşin müəllim Zəhranın ifasını çox bəyənmişdi və "mən necə təsvir etmişəmsə, siz də elə ifa etmisiniz" demişdi. A.Əlizadənin Peterburqun Marinskiy Teatrının orkestrindən sonra Zəhranın ifasının onun ən xoşuna gələn ifa olduğunu dediyini xatırlayıram. Müəllifin "hər ikinizin ifası mənim ürəyimdən tikan çıxartdı" söyləməyi yadımdadır. Zəhra Aqşin müəllimin orkestrdən sonra onun ifasını bəyəndiyinə görə sevincindən uçurdu. Onunla görüşəndə Marinskiy Teatrının orkestrinin ifasını Zəhraya dinlətdiyini qeyd etmək istərdim. Aqşin müəllim əsərinin hansısa yerində arfa səslənməsini Zəhraya deyir və göstərirdi.

Təqdim etdiyim həmin işləmədə istifadə etdiyim qanun alətinə xas bir çox ştrixlər – hərbi savaşları canlandıran zərb hərəkətləri (əsərin ilk 4 xanəsində alətin sağ və sol çanaqlarında əllərlə ritmin vurulması), tersiyalar və akkordlar yüksək cəngavərlik ruhu yaradır. Əsəri işləyəndə sekundalı akkordlardan, sıçrayışlardan və sürüşdürmələrdən istifadə etmişdim. "Cəngi"də bəzən mülayim, bəzən isə əzəmətli səslənən müxtəlif cür "glissando"lar öz əksini tapıb. Əsəri əvvəldə nağara ritmi ilə yazmışdım ki, onu sonradan 2014-cü ildə nəşr olunmuş ali və orta ixtisas musiqi məktəblərinin qanun sinfi üçün



*Aqşin Əlizadə və Zeynəb Xanlarova. 06.12.2007-ci il*

dərs vəsaitimə də daxil etmişəm. İndi bütün müsabiqələrdə bu əsər şagirdlərim tərəfindən ifa olunur. Müsabiqədən sonra isə həmkarlarım zəng edir, "Cəngi"nin not yazısı ilə maraqlanırlar.

Q.Qarayev adına II respublika elmi-ifaçılıq müsabiqəsində iştirak edərkən Zəhra məruzəsində əsərin obrazında döyüşkənliyin olduğunu deyirdi. O, əsərin əvvəlindəki qəhrəmani obrazı döyüşçülərin qılınc səsinə bənzədirdi. Əlindəki ud mizrabını isə qatlayıb bütün çalğı boyu barmaqlarının üstündə saxlayır və bəzi məqamlarda onunla çalırdı. Əsərin sonunu ifa edərkən sol əli ilə akkorddakı liqalı notları uzatmaqla, liqasız notların üstündə ud mizrabı ilə qaşımaq üsulundan istifadə edirdi. Harmoniyaların dəyişilməsi ilə bu üsuldan istifadə əsərin çox gözəl səslənməsinə səbəb olmuşdu. Pyesi işləyərkən musiqinin ab-havası bunu tələb etdiyinə görə ud mizrabından istifadənin lazım olduğunu anladım. İlk dəfə olaraq Azərbaycanda həmin əsərin ifası ilə biz bunu yenilik kimi göstərdik və bu üsuldan sonralar başqa əsərləri də ifa edərkən istifadə etdik.

Zəhra elmi müsabiqədə bədii tərəfdən təhlil etdiyi əsəri məruzə edərkən orta hissədəki incə mövzunu başqa tərzdə təqdim edirdi. Əsərin əvvəlində döyüş getdiyini deyir, orta hissədə isə döyüşçülərin ailələrini - ana-bacılarını, sevgililərini, yoldaşlarını həmin lirik mövzu ilə səciyyələndirirdi. Onun məruzəsi və ifası müsabiqədə də bəyənildiyinə görə ilk yerin qalibi olmuşdu. Müsabiqədən sonra Aqşin müəllimlə əlaqə saxlayıb ona Zəhranın I yer tutduğunu məlumat verəndə çox sevinmiş və bizi təbrik etmişdi. Bəstəkarla ünsiyyətdə olduğum zaman "Bu eşitdiyim ən yaxşı, professional ifalardan biridir. Sizlərə əhsən" demiş və mənə məxsus olan işləməni yüksək səviyyədə qiymətləndirmişdi. Onu da qeyd edim ki, bu çox uğurlu əsərdir. Z.Qəhrəmanova həmin əsərə görə həm də Moskvada internet müsabiqədə birinci yerin qalibi olmuşdu. Sonralar AMK-nın nəzdində İncəsənət Gimnaziyasının X sinif şagirdi Sevda Cəbrayılova bu əsəri Türkiyədə ifa edib "Qran-pri" almışdı, Qazaxıstanda keçirilən müsabiqədə isə I yerə layiq görülmüşdü.

Daha sonra "Cəngi"ni mən üç qanun üçün ansambl formasında da işlədim. Əsər ilk dəfə olaraq ansambl formasında "İnci qızlar ansamblı" (Ansamblın rəhbəri: Respublikanın əməkdar artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Təranə Əliyeva) tərəfindən ifa olundu. "Cəngi" pyesi ansambl formasında da çox gözəl səslənir. Onu da qeyd edim ki, bu əsər AMK-nın tədris proqramına daxil edilib. İncəsənət Gimnaziyasının şagirdinin də həmin əsəri ifa etdiyini bildirmək istəyirəm.

Aqşin müəllim əsərlərinin çox tez tempdə ifa olunması ilə razılaşmırdı. Onunla görüşəndə bizə müxtəlif disklərə yazılmış "Aşıqsayağı" pyesinin və

"Qafqaza səyahət" baletindən bəzi nömrələrin qanunda gözəl səslənə biləcəyini demiş və həmin gün bu baleti DVD diskdə bizə göstərmişdi. Musiqini gözəl duyan insan onları təxəyyülündə canlandıra bilirdi.

Onu da qeyd etməliyəm ki, atam adımı Qarabağ xanının qızı Xurşudbanu Natəvanın şərəfinə qoyduğuna görə uşaqlıqdan həmişə ziyalı, xeyriyyəçi, vətənpərvər, ağıllı əsl Azərbaycan qadın olan Natəvanın şəxsiyyətinə böyük maraq göstəririəm. Atamın dilindən onun haqqında eşitdiklərim məndə böyük maraq oyatdı və sonralar da bu mövzu ilə bağlı axtarışlar aparmağıma səbəb oldu. Fəxr edirəm ki, Azərbaycan qadınının simvoluna çevrilmiş bu adı daşıyıram.

Natəvanı öz əsərində çox gözəl təsvir edən A.Dümanın Azərbaycan qadınına verdiyi yüksək dəyər xalqımız üçün də qiymətlidir. Aqşin müəllimlə də söhbət edərkən bu obrazla çox maraqlanırdım. Onun musiqisini dinləyəndə və bəstəkarla söhbət edəndə isə A.Əlizadənin Natəvanın obrazını hərtərəfli araşdırdığı qənaətinə gəlmişdim. Aqşin müəllim çox gözəl insan idi. Onun vəfat etməsi barədə gözlənilməz acı xəbəri Zəhradan eşidəndə hamımız sarsılmışdıq. Allah ona rəhmət eləsin!

Bakı, Azərbaycan.
05.04.2019

**Əyyub QULİYEV**
Dirijor, Əməkdar artist

## BİZİM BORCUMUZ BƏSTƏKARLARIMIZIN SƏNƏT İRSİNİ YAŞATMAQDIR

Aqşin Əlizadə bizim həyatımızda, yaradıcılığımızda xüsusi yer tutan bəstəkarlarımızdandır. Çünki biz gənclər onu nəinki bir ağsaqqal və böyük ustad kimi, həm də Azərbaycan bəstəkarlıq məktəbinin ən layiqli, eyni zamanda seçilən, fərqlənən möhtəşəm nümayəndələrindən biri kimi qəbul etmişik. Aqşin müəllim çox zabitəli, sanballı və yaxşı mənada ağır şəxs idi. Fikrimcə, hər insan onunla dil tapa bilməzdi. Xasiyyətinə, düşüncəsinə, tələblərinə görə bu insanda alicənablıq və şəxsiyyətin tamlığı var idi. Aqşin müəllimlə ünsiyyətdə olarkən hiss edirdim ki, onun öz dünyagörüşü və meyarı var. Özünə qarşı tənqidi yanaşdığını mənə dəfələrlə söyləmişdi. Bunu hətta telefon danışıqlarında da vurğulayırdı. "Babək" baletini on ilə yazdığını qeyd etmişdi. Onun söylədiklərini belə xatırlayıram. "Özümdən çox narazı idim. Çox yazırdım, əsəri tamamlayandan sonra dəfələrlə yoxlayır, düzəldir və dəyişikliklər aparırdım. Son dəqiqəyə qədər də əsəri göstərməyə cəhd etmirdim".

Aqşin müəllim mənə məşhur “Cəngi” (1978) əsəri üzərində aylarla işlədiyini söyləmişdi. Bu əsərin ifası dəqiqə yarım vaxt tələb edir. Ancaq bəstəkar onu mükəmməl səviyyəyə çatdırmaq üçün günlərlə, aylarla vaxt sərf etmişdi.

Mən həmişə aramızdakı yaş fərqinə, onun yüksək peşəkarlıq səviyyəsinə, sanbalına görə müəyyən qədər ehtiyat edirdim. Ona həmişə çox böyük hörmətlə yanaşırdım. Düşünürdüm ki, yəqin çox yaxınlıq göstərsəm aramızdakı yaş həddi buna yol verməz. Ancaq onun bir musiqiçi və insan kimi məni qəbul etməsinə çox sevindim.

Azərbaycan Bəstəkarlar İttifaqının 75 illiyinə həsr olunmuş beynəlxalq musiqi festivalının keçirildiyi ərəfədə (2009) proqramı idarə etmək təklifini aldım. Festivalın proqramı çox böyük və zəngin idi. Proqramı idarə etmək başqa dirijora həvalə olunsa da o, bundan imtina etmişdi. Mənə müraciətdə dirijorluq etməyim xahiş olundu. Həmin dövrdə artıq Sankt-Peterburq Dövlət Konservatoriyasını, eləcə də Avstriyada Vyana Dövlət Musiqi və İncə Sənətlər Universitetini bitirmiş, müsabiqələrdə qalibiyyət qazanmışdım. Amma Azərbaycanda o qədər də intensiv çıxış etmirdim. Bu təklif mənim üçün çox sevindirici və məsuliyyətli oldu. Çünki konsert proqramı Azərbaycanın bir sıra yaşlı nəsil bəstəkarlarının yeni yazdığı əsərlərinin ifasına həsr edilmişdi. Eyni zamanda gənc bəstəkarların əsərləri də həmin proqrama daxil olunmuşdu. Proqramda Aqşin müəllimin yeni bir əsərinin ilk ifasının dünya premyerası nəzərdə tutulmuşdu. Çox şadam ki, bu hadisədə bir dirijor kimi iştirak etmək mənə nəsib olub. Bu, onun Violonçel və orkestr üçün yazdığı poema (1993) idi. Burada Aqşin müəllim öz hisslərini göstərib. Eyni zamanda həmin əsərdə müəyyən qədər D.Şostakoviçin və Q.Qarayevin də təsiri hiss olunur. Poema çox maraqlı və özünəməxsus bir əsərdir. Girişdə violonçelin böyük solosu, sonrakı inkişaf mərhələsində isə orkestrdə müəyyən keçidlər, epizodlar və deyişmələr var. Mənim həmin əsərə dirijorluq edəcəyimə çox müsbət yanaşdığını hiss edirdim. O, mənə və əsərin ilk violonçel ifaçısı əməkdar artisti Əyyub Əliyevə görüş təyin etdi. Biz ikimiz Aqşin müəllimlə görüşmək üçün Bəstəkarlar İttifaqına getdik. Həmin illərdə o, katib vəzifəsində çalışırdı. Bizi otağında çox səmimi və mehribanlıqla qarşıladı. Hiss edirdim ki, bizimlə işləməyə özünü sanki kökləmişdi. Fikirləşirdim ki, indi əsərin ifası ilə bağlı tövsiyələr verməyə başlayacaq. Bu əsər mənə çox yaxın olduğu üçün onu ifa etməyə özümü hazır hiss edirdim. Ə.Əliyev ifaya başlayanda onu dayandırdım. Əsərin ifası ilə bağlı bəzi fikirlərimi onun nəzərinə çatdırdım. Əslində bu mənim tərəfimdən atılmış riskli addım idi. Çünki müəllif özü orada iştirak etdiyi halda mən müəyyən təkliflər irəli sürürdüm. Gördüm ki, Aqşin müəllim çox diqqətlə dinləyir, ancaq heç bir söz demir. Təxminən yarım saat keçəndən sonra ayağa qalxdı və dedi: “Mən sizə mane olmaq istəmirəm. Mən gedəcəm siz işləyin. Mən rahatam”.

Ondan öz tövsiyələrini söyləməyini xahiş edəndə isə cavabı belə oldu: "Heç bir şey. Siz artıq o xətti tapmısınız. Özünüz işləyin xahiş edirəm. Bu mənim otağımdır. Mən sizə mane olmaq istəmirəm". O, əsərinin ifasını tamamilə bizə etibar etdi. Templər, intonasiya, artikulyasiya, keçidlər, frazirovka və s. baxımdan bizə səlahiyyət verildi. Şəxsən mənə etibar etdiyinə görə sevinirdim. Əvvəlcə çox təəccübləndim, fikirləşdim ki, yəqin tələsir. Sonra bildim ki, tələsmirdi. Əsərinin inamlı əllərdə olmasına görə arxayın idi. Düşünürdü ki, bu musiqiçilər onun əsərini ifa edə biləcəklər. Biz filarmoniyada həmin əsərin uğurlu premyerasını keçirdik. O zaman Moskvadan, Özbəkistandan, Gürcüstandan qonaqlar gəlmişdi. Keçmiş sovet respublikalarının Bəstəkarlar İttifaqlarının sədrləri həmin konsertə dəvət olunmuşdular. Moskva Filarmoniyasının rəhbəri A.Çaykovski də orada idi. Həmin konsertdə çox premyeralar oldu. Konserti Üzeyir bəyin əsəri ilə başlayıb Q.Qarayevin yaradıcılığı ilə bitirdik. Məqsəd əsas təməli göstərmək, bəstəkarlıq məktəbinin davamçılarını təqdim etmək idi. A.Əlizadənin əsəri də çox böyük maraqla qarşılandı.

Sonralar Aqşin müəllimin təşəbbüsü ilə dəfələrlə əlaqə saxlayırdıq. Görüşlərimizin birində mənə belə dedi: "Əyyub, müəyyən əsərlərim var. Mən çox istəyirəm ki, siz onları ifa edəsiniz". O, "Kənd süitası" (1973) adlı əsərinin ifa olunmasını çox arzu edirdi. Bu əsəri vaxtı ilə maestro Niyazi Ü.Hacıbəyov adına Dövlət Simfonik Orkestrinə rəhbərlik etdiyi dövrlərdə ifa edib. Aqşin müəllim mənə əsərin partiturasını göndərdi.

2013-cü ilin sentyabr ayında Heydər Əliyev fondu, Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə Bakıda V Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı keçirilirdi. Festivalın konserti M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında oldu. Festivalda iştirak üçün məni də dəvət etmişdilər. Konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinə dirijorluq edirdim. Bu beynəlxalq əhəmiyyətli müştərək bir layihə idi. Çünki Sankt-Peterburqun məşhur musiqi kollektivi "Musiqi Olimpi" fondu öz solistlərini də dəvət etmişdi. İnstrumental əsərlər iştirakçılar tərəfindən fondun dəvəti ilə ifa edildi. Ancaq proqramda orkestr əsəri də ifa olunmalı idi. Aqşin müəllimin həmişə çox böyük sevgi ilə, maraqla, xüsusi bir isti münasibətlə "Kənd süitası" əsərinin adını qeyd etdiyini xatırladım. O, həmişə bu əsərdə xüsusi bir auranın, atmosferin olduğunu qeyd edirdi. Bu dörd hissədən ibarət olan süitadır. Həmin əsərdə Azərbaycanın həm musiqisində, həm də məişətində, təbiətində, həyatında olan bütün milli elementlər kompleks şəkildə göstərilib. Orada bayatı üslubu, pastoral, rəqs, oyun havası var. "Kənd süitası"nda A.Əlizadə musiqi əsərlərindən ibarət bir çələng yaradıb. Biz bu əsəri həmin konsertdə ifa etdik. Aqşin müəllim ifanı çox bəyəndi və əsəri proqrama daxil etdiyimizə görə bizə təşəkkürünü bildirdi. Sonralar onun tələbələri




zəng vurur və "Kənd süitası"nın uzun müddət ifa olunmadığını qeyd edirdilər. Onu proqrama daxil etməyimizi müsbət hadisə kimi qiymətləndirirdilər. Festival günlərində Vyana Kamera orkestri ilə bəstəkarın "Aşıqsayağı" və "Pastoral" əsərlərini də ifa etdiyimi qeyd etmək istəyirəm.

Aqşin müəllim sonralar mənə Dördüncü, Beşinci simfoniyalarının partituralarını hədiyyə etdi. Həmin partituraları indiyə kimi saxlayıram. O, əsərlərin üzərində mənə avtoqraf ilə gözəl, xoş sözlər yazıb. Həmin simfoniyaları gələcəkdə yaxşı bir orkestrlə ifa etməyi nəzərdə tutmuşam. Hesab edirəm ki, bu bizim üzərimizə düşən mühüm vəzifədir. Böyük və gözəl insan həmin əsərlərin ifa olunmasını arzulayıb və bunu mənə vəsiyyət edib. Bizim borcumuz belə bəstəkarlarımızın yaradıcılığını təbliğ etmək, qoyduqları sənət irsini yaşatmaq, inkişaf və davam etdirməkdir. Çünki bəstəkar vəfat edəndən sonra övladları, tələbələri və ifaçılar onun musiqi irsini yaşatmalıdır. Bəstəkarın yaradıcılığı xalqa ötürüldükdə, onlar informasiyanı qəbul etdikdə və ona reaksiya verdikdə bu irs yaşayır.

Slovakiyada səfərdə olarkən atam Dövlət Mükafatına layiq görülmüşdü. O vaxt Dövlət Mükafatı Komitəsinin üzvü olan Aqşin müəllim mənə zəng vurdu, bu münasibətlə təbrik etdi və bir xatirə danışdı. "Çox uzun zaman öncə, təxminən 80-ci illərdə, Niyazi sağ olarkən "Şənlik rəqsi" adlı əsər yazmışdım. Onu təntənəli bayramlarda və dövlət tədbirlərində ifa etmək üçün bəstələmişdim və mən xüsusi olaraq Ramiz müəllim üçün tar partiyası yazmışdım. Simfonik orkestr öz yerində, əlbəttə, dahi dirijorumuz maestro Niyazi orkestrə dirijorluq edirdi. Bu əsərə çox gözəl balet quruluşu da verilmişdi. Amma tarın səsi eşidiləndə elə bil günəş parlayırdı". Onun bu fikirlərini həmişə xatırlayıram.

Aqşin müəllim milli kökünü heç vaxt unutmayıb və bütün əsərlərində milli ruhu həmişə qoruyub saxlayıb. Mən çox sevinirəm ki, bu bəstəkarın həyat və

yaradıcılığında iştirak edən ifaçı və dirijor olmuşam. Onun "Cəngi" əsərini atam və mən çox sevirik. Atamın arzusu həmin əsəri iki tarla birlikdə ifa etmək idi. Əvvəllər bu əsəri repertuarımıza daxil etmişdik. Bunun üçün xüsusi olaraq ikinci tar partiyası işləndi. Əsəri 2004-cü ildə Dövlət Televiziya və Radio Komitəsinin simfonik orkestri ilə lentə aldıq. Bu, simfonik orkestr üçün işləmə oldu. Aqşin müəllimin buna necə reaksiya verəcəyi bizim üçün çox önəmli idi. Bir qədər ehtiyat edirdik. Çünki o, hər variantı qəbul etmir və əsərlərinin traktovkasına çox ehtiyatla yanaşırdı. Əsəri lentə yazdırsaq da səslənmə, alətlər arasındakı balans, səslərin quruluşu və bir-birinə olan uyğunluğu məni qane etmirdi. Atam onu Aqşin müəllimə göndərməyi təklif etdi. Fikirləşdik ki, bu variantı o, qəbul etməyəcək. Amma zəng vuranda çox bəyəndiyini söylədi. Biz ona tarların partiyasında səsin bir az qabarıq olduğunu söylədik. Onun cavabı isə belə oldu: "Xoşuma gəlir. İstəsəniz yenidən balansı artıra bilərsiniz. Amma obrazın, templərin, xarakterin yerli-yerində olmağı mənim xoşuma gəlir. Yaxşı ki, çox tez temp götürülməyib". Biz orta temp götürmüşdük. O, həmişə bu əsəri orkestrin tez tempdə ifa etməsindən şikayətlənirdi: "Mən şəxsən müəllif kimi orada əsərin melodiya xəttini izləyə bilmirəm, anlaya bilmirəm. Əsərdə çılğınlıq elementi, qarışıqlıq yaranır". Orta templə əsərin xarakterini, mərdliyi, şücaəti göstərə bildiyimizə görə bizə xüsusi təşəkkür etdi. "Çox zaman ifaçılar elə bilir ki, əsərdə kəskinlik, şücaət, iradə hamısı yalnız sürətlə həll olunur. Orta sürətlə və aramlı tempdə də əsərin xarakterini vermək olur. Siz orta tempi götürməklə xarakteri göstərmisiniz. Yəni çılğınlıq yoxdur, konkretlik, akademizm, mənalılıq var" kimi fikirlərini bizə söylədi. Onun istəklərini nəzərə alaraq və balansı düzəldərək həmin əsəri yenidən lentə yazdırdıq. Əsərdə kanonvari deyişmələr etməyimizi bəyənmişdi. Biz "Cəngi"ni belə traktovkada ifa etmişik. Onu da qeyd edim ki, böyük bəstəkarımızın həmin əsərini 2016-cı ildə Slovakiyanın paytaxtı Bratislava şəhərində Slovak Dövlət Filarmoni-


AQŞİN ƏLİZADƏ

BEŞİNCİ SİMFONİYA

*partitura*

2010.

AKSHIN ALIZADEH

FIFTH SYMPHONY

*score*

BAKI 2006 BAKU

yasının “Reduta” salonunda Azərbaycanın müstəqillik gününə həsr olunmuş təntənəli gecə və qala konsertdə ifa etmişəm.

Aqşin müəllim mənə Qarabağ mövzusu ilə bağlı olan tar və orkestr üçün “Aşıq rapsodiyası” (2009) əsərini yazdığını demişdi. Onu atamın ifa etməsi üçün bəstələyirdi. “Aşıq rapsodiyası” Aqşin müəllimin son əsərlərindəndir. “Orada milli elementlər olacaq. Əsərdə Qarabağın təsvirini verirəm” kimi söylədiyi fikirləri yaxşı xatırlayıram. Atamla mən həmin əsərin tamamlanmasını çox gözləyirdik. A.Əlizadənin “Aşıq rapsodiyası” əsərini gələcəkdə ifa etməyi düşünürəm. Gözəl bəstəkarımıza Alladan rəhmət diləyirəm. Ruhu şad olsun!

Bakı, Azərbaycan.
03.02.2019

**Fəqan HƏSƏNLİ**
Pianoçu

## AQŞİN ƏLİZADƏ - İŞIQLI SİMALI BƏSTƏKAR

2010-cu ildə IV kursda təhsil alarkən Aqşin Əlizadənin fortepiano üçün “Dastan” (1986) və “Qədim oyunlar” (1990) əsərlərini Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının böyük zalında ifa etmək üçün hazırlaşırdım. Konsertdən bir müddət əvvəl onunla görüşmək üçün bəstəkarlıq kafedrasına gedəndə bizi çox mehribanlıqla qarşıladı. Mən “Dastan”ı ifa edəndən sonra Aqşin müəllim öz fikrini bildirdi və kiçik tövsiyələr də verdi. Onun tövsiyələri segah məqamı üzərində olan qammavari passajları tələsmədən ifa etməyimlə bağlı olmuşdu. Aqşin müəllim mənə hər nota diqqətlə qulaq asmağı, passajları texniki imkanları nümayiş etdirmək üçün deyil, onun rəngini hiss edərək işıqlı ifa etməyimi məsləhət bildi. Onun ifasında mənə daha aydın olması üçün həmin əsərdən səsləndirdiyi akkord tamamilə fərqli təsir bağışlayırdı. Görünür ki, bu Aqşin müəllimin müəllif kimi daha fərqli eşitmə duyumu ilə əlaqədar idi.

“Dastan” əsəri sanki pazllar şəklində qurulub. Aqşin müəllimin digər istəyi pazllarda tələsmədən bir-birinə keçməklə bağlı idi. Bu tövsiyəni o, “Qədim oyunlar”ı ifa edərkən eyni frazanın bir neçə xanə təkrarlanmasında da qeyd etmişdi. Həmin əsərdə eyni motiv 8 xanə təkrar olunur ki, bu da A.Əlizadəyə xas səciyyəvi xüsusiyyətdir. Onu da qeyd edim ki, mən əsəri ifa edərkən tempi bir qədər tələsdirirdim. O isə nisbətən ağır ifa etməyi, kütləvi rəqs mənasını bildirmək istəyini vurğulamışdı.



***Aqşin Əlizadə Türkiyə Cumhuriyyətində - Trabzonda olarkən***

Sonradan mən həmin əsərləri Q.Qarayev adına I beynəlxalq elmi-ifaçılıq müsabiqəsinin ikinci turunda, 2015-ci ildə isə Moskva Konservatoriyasında *"Музыкальное наследие современных композиторов", «Чайковский-наследие»* adlı beynəlxalq müsabiqə-festivalda səsləndirdim və onlar haqqında konfransda məruzə ilə çıxış etdim. A.Əlizadə gözəl tövsiyələri və işıqlı siması ilə hər zaman qəlbimdə yaşayacaqdır.

Bakı, Azərbaycan.
31.08.2019

## KİNO VƏ TEATR XADİMLƏRİ XATIRLAYIR

**Elmira ŞABANOVA**
Aktrisa,
Xalq artisti

### AQŞİN ƏLİZADƏ ÇOX TƏVAZÖKAR VƏ SADƏ İNSAN KİMİ XATİRƏLƏRİMDƏ YAŞAYIR

Aqşin Əlizadənin həyat yoldaşı ilə birinci sinifdən eyni məktəbdə oxusaq da onun xanımı olduğunu sonradan öyrəndim. Qalina Krimisova ilə münasibətlərimiz məktəb illərindən çox yaxşı idi, o da əla qiymətlərlə oxuyurdu.

Aqşin müəllim ilə uzaqdan-uzağa görüşsək də 1983-cü ildə Moskva Mərkəzi Televiziyasının sifarişi ilə çəkilən "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Ötən ilin son gecəsi" tammetrajlı bədii filmində yaxından tanış



*"Ötən ilin son gecəsi" filminin çəkiliş prosesindən*

olduq. O, kinostudiyaya həmin filmdə səslənən Mənsur Vəkilovun sözlərinə yazdığı "Lay-layı" oxumağımı təklif etmək üçün gələndə çox mədəni, sakit və yaxşı insan kimi xatirimdə qaldı. Mən ona peşəkar müğənni olmadığımı söyləsəm də o, "siz oxuyun, mən yoxlayım" dedikdən sonra musiqini ifa etməyə başladı və mahnını səsləndirməyim üçün qısaltdı. Bir qədər həyəcanlı olsam da mahnını oxudum. Aqşin müəllim ifam qurtarandan sonra "bax mənə bu lazımdır" deyərək çox bəyəndiyini bildirdi. Həmin ildə filmi Moskvaya təqdim edərkən ifamı vermişdilər. Əfsuslar olsun ki, Bakıda bu mahnı Həmidə Ömərova tərəfindən Azərbaycan dilində səsləndiriləndə isə qəbul etmədilər və öz səsimlə bu dildə oxumağımı məsləhət bildilər. Görünür, film Azərbaycan dilində təqdim olunarkən mahnını rus dilində vermək istəmədilər. Buna görə də Həmidə xanım səslənən musiqi fonunda poetik mətni reçitativlə deməli oldu. Ancaq filmin rus dilindəki variantına baxanlar onu yüksək qiymətləndirdilər. O vaxt çox səs salan bu ekran əsəri hamı tərəfindən bəyənilmişdi.

Moskvada göstərildiyi illərdə tamaşaçılar tərəfindən film barədə çoxlu məktublar yazılmışdı. Bu filmin müsbət təsiri ilə bayramı bundan sonra həmişə anası ilə qeyd edəcəyini yazanlar da olurdu. Yaratdığım Həmidə adlı ana obrazına görə də çox xoş sözlər söyləyirdilər. Həmin illərdə belə filmlər az çəkilirdi. A.Əlizadə tərəfindən mülayim və olduqca həlim musiqi bəstələnmiş



bu ekran əsəri rejissor Gülbəniz Əzimzadənin təklifi ilə işıqlı sonluqla əvəz edilmişdi. Bildiyimiz kimi, yazıçı Anarın pyesində əsərin baş qəhrəmanı olan Həmidə xanımın övladları onun yanına qayıtmırlar. Ancaq filmin rejissoru Gülbəniz xanım belə qərara gəlmişdi ki, uşaqlar evə qayıtsalar yaxşıdır.

"Ötən ilin son gecəsi" filmi həmin illərdə çox böyük sensasiyaya səbəb olduğuna görə yolda gedərkən də tamaşaçılar tərəfindən xoş sözlər eşidirdim. Oğlum Moskvada hərbi xidmətdə olarkən yoldaşımla onu görməyə getdiyimizdə taksi sürücüsünün Moskva hava limanında "baxın-baxın, bu xanımı heç Bakıda tapa bilmirlər" deyərək məni yoldakı insanlara təqdim etdiyi yadımdadır.

O vaxtlar yoldaşım kinoya çəkilməyimə razılıq vermirdi. Demək olar ki, bu filmdə yaratdığım obraz mənim uzun illərdən sonra ilk ekran işim idi. "Ötən ilin son gecəsi" filmində canlandırdığım ana obrazını sənətdə ilk böyük uğurum kimi dəyərləndirirlər. Bu təkcə mənim deyil, həm bəstəkarın, həm də bütün yaradıcı kollektivin nailiyyətidir. Bu gözəl ekran əsərinin ssenari müəllifi yazıçı Anar, operatoru Valeri Kərimov, rəssamı Mayis Ağabəyov idi. Onu da bildirim ki, sifariş Moskva televiziyasından olsa da, çəkilişlər əsasən Bakıda aparılıb. Rusiyanın birinci kanalında yazıçı Anarın əsərinə baxdıqdan sonra Moskva televiziyası filmin çəkilişi üçün sifariş vermişdi. Təəssüf hissi ilə qeyd edirəm ki, keçmişdə çəkilmiş gözəl filmlər indi elə də qəbul olunmur.



"Ötən ilin son gecəsi" filmindən başqa A.Əlizadə ilə digər ekran əsərlərində yaradıcılıq ünsiyyətimiz olmasa da, uzaqdan-uzağa danışırdıq. Onunla tez-tez görüşməsək də, həmişə bir-birimizə böyük hörmət bəsləyirdik.

A.Əlizadə böyük bəstəkar olmaqla yanaşı həm də gözəl ailə başçısı idi, onun iki övladı var. Böyük oğlu Əli Əlizadə ilə birlikdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində çalışmışıq. O, musiqi kafedrasında işləyirdi. Mən isə nə kinoda, nə də teatrda fəaliyyət göstərə bilmədiyim üçün universitetin dosenti, sonralar isə professoru kimi təhsil sahəsində öz bacardığımı əsirgəmirdim. Çox şadam ki, ömrümün 35 ilini incəsənətə qurban verib pedaqoji fəaliyyətlə məşğul oldum və çoxsaylı tələbələr yetişdirdim. Fərəhlənirəm həm də ona görə ki, A.Əlizadə kimi böyük bəstəkarla yaradıcılıq təmasında olmuşam. "Ötən ilin son gecəsi" filminin çəkiliş prosesində gördüyüm A.Əlizadə yaradıcı şəxsiyyət kimi çox xoşuma gəlmişdi. O, çox yaxşı insan, əsl sənətkar kimi isə olduqca təmkinli xasiyyəti, təvazökarlığı və sadəliyi ilə seçilirdi. Allah ona rəhmət eləsin!

Bakı, Azərbaycan.
22.01.2020

**Məsud PƏNAHİ**
Azərbaycan və Almaniya animasiya rejissoru,
kino rəssamı, animatoru və ssenari müəllifi

## "BULUD NİYƏ AĞLAYIR?" CİZGİ FİLMİ İLƏ BAŞLANAN YARADICILIQ TƏMASIMIZ

Mən Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda rəssamlıq fakültəsində və institutun nəzdindəki animasiya üzrə quruluşçu-rejissor kursunda təhsil alarkən (1972-1977) diplom işi olaraq "Bulud niyə ağlayır?" cizgi filmi üzərində işləyirdim. Bu ekran əsərinin yaranmasının maraqlı tarixçəsi olmuşdur. Bir gün yağışlı havada dərsdən qayıdırdım. Özü də bərk acmışdım. Tez yataqxanaya gedib yemək hazırlamaq istəyirdim. Aramsız yağan yağışa görə metronun qarşısında dayanıb onun kəsilməsini gözləyirdim. Yağış yağdıqca fikirləşirdim ki, görəsən bulud niyə ağlayır? Haradan gəlir bu bulud topası? Necə olur ki, bulud göz yaşı axıdır? Bütün bunları düşünə-düşünə özümə suallar verir və fantaziyalarımla yeni ssenarini xəyalımda canlandırırdım. Yağış kəsəndə süjet xətti fikrimdə artıq tam hazır idi. Beləliklə də yataqxanaya gedib iyirmi dəqiqə ərzində ssenarini yazıya aldım və "Bulud niyə ağlayır?" adlı cizgi



***Soldan sağa: Gülşən Abdullayeva, Qalina Lybçenko, Məsud Pənahi, Lalə Məmmədova, Sima Qurbanova, Zakiyyə Mahmudova***

filmini diplom işi kimi (1973) təqdim etmək qərarına gəldim. Bu ekran əsəri üzərində ssenari müəllifi, rejissor olmaqla yanaşı həm də quruluşçu rəssam kimi çalışmağa başladım.

Film üzərində işləyərkən Azərbaycandakı kino musiqisi yaradan bəstəkarların çoxunu tanımırdım. Məlumdur ki, iri həcmli ekran əsərləri üçün musiqi yazıb-yazmamağından asılı olmayaraq bütün bəstəkarlar animasiya filmlərində də iştirak edə bilərlər. Lakin onlarla oyun filmlərinin arasında başlıca fərq mövcuddur. Böyük filmlərdə musiqi motivləri bəzən bir dəqiqə davam edir. Belə filmlərdə musiqini bir qədər ixtisar etmək, və ya görüntünü tədricən qaranlığa aparmaq üsullarından rejissorların əksəriyyəti çox istifadə edirdilər. Musiqi elementləri kinoda dəqiqə ilə gedir, animasiyada isə saniyə ilə hesablandığına görə cizgi filmlərini digərləri kimi işləmək çətindir. Ancaq mən öz filmimdə əvvəlcədən bu və ya digər səhnənin necə görünəcəyinə dair ümumi fikir verən kiçik cizgilər cızırdım.

“Bulud niyə ağlayır?” animasiya filmi üzərində işləyərkən bəstəkar axtarırdım. Hətta bir-iki müəllifə qulaq asmışdım. Yadımda deyil, bir gün kim isə studiyada məni cizgifilmə yazılmış musiqini dinləməyə dəvət etdi. Hansı animasiya filmi olduğunu indi dəqiq xatırlamıram. Musiqiyə qulaq asdım və çox bəyəndim. Müəllif bəstəkar Aqşin Əlizadə idi. Mənə elə gəldi ki, gördüyüm etüdlərə yazılmış musiqi filmimə çox yaxındır. Əlbəttə ki, A.Əlizadə ilə o vaxta kimi qarşılaşmamışdım. Lakin ekran əsərlərinə musiqi yazanlar arasında onun da animasiya filmlərində işləməyi barədə məlumatım var idi. Aqşin müəllimi

bir neçə cizgi filminə musiqi bəstələmiş müəllif kimi qiyabi olaraq tanıyırdım. “Bulud niyə ağlayır?” animasiya filminə də onun musiqi bəstələməsini istəyirdim. Studiyada olarkən xahiş etdim ki, Aqşin müəllimlə əlaqə saxlayıb ona təklifim barədə məlumat versinlər və onunla görüşmək istəyimi bildirsinlər. Bəstəkarın mövzu ilə tanış olduqdan sonra filmimdə iştirak edib-etməyəcəyini müəyyənləşdirməliydim. Aqşin müəllim dəvətimi qəbul edib studiyaya gəldi, onunla kabinetdə oturub söhbətləşdik. Əvvəlcə bəstəkara qısa formada ədəbi ssenarini təqdim etdim. Oxuduqdan sonra xoşuna gəldiyini və çox maraqlı süjet xəttinə malik olduğunu dedi. Biz hələlik eskiz variantı üzərində dayandıq. Ona tam dolğun məzmunda olmasa da filmdə hansı fiqurların iştirak edəcəyi barədə məlumat verdim. Sonra isə bəstəkarla ilk variantı nə vaxt təklif edəcəyi barədə müzakirə apardıq. Təxminən iki həftədən artıq vaxt ötdükdən sonra Aqşin müəllim studiyaya yenidən təşrif buyurdu. Hələ ki, xeyli vaxtımız var idi. Onu çox da tələsdirmirdik. A.Əlizadənin təqdim etdiyi musiqi çox maraqlı idi. Ancaq rejissor kimi mən filmdə gedən bəzi səhnələri musiqiyə uyğunlaşdırıb bir qədər də dəqiq işləməli idim. Bəstəkara musiqili eksplikasiyanı, yəni filmin musiqisinin kağızda qrafik təsvirini hazırlayıb təqdim edəcəyimi söz verdim. Bildiyimə görə bu üsulu həmin dövrdə bizim studiyada heç kim tətbiq etmirdi. Mən animasiya filmlərinin istehsal edildiyi Sovet və Rusiya Dövlət Kinostudiyasında işlədiyimə görə bunun nə qədər vacib olduğundan xəbərdar idim. Aplikasiya (təsviri texnikanın növlərindən biri.: M.P) isə belə idi ki, başlanan hər səhnənin və hansısa bir fiqurun öz aləti var idi. Pozitiv və neqativ fiqurların musiqisi bir-birindən fərqlənirdi. Əlbəttə ki, bunların arasında böyük fərq onları məhv etmək istəyən bir qüvvənin yaxınlaşdığı ilə dərhal hiss olunmalı idi. Üç saniyədə musiqini səsləndirmək isə o qədər də asan deyildi. Bu, beş və ya on saniyə də ola bilər. Amma o xanələri vermək yenə də çətindir. Bizim xanələrimiz isə on iki-on iki bölünməli idi. Yəni bir saniyədə iyirmi dörd kadr vardısa, biz onu ikiyə bölürdük ki, on ikidə vurğu olsun. Deməli hər altı kadrdan sonra bir vurğu olmalı idi. Oyun filmdə musiqinin bölünməsi belə gedirdi. Animasiya filmlərində ekspozisiyon vərəqlərin hazırlanması bu sahə ilə maraqlananlara yaxşı məlumdur. Orada hər fiqurun neçə saniyə hərəkət edəcəyi, nə vaxt başlayacağı və qurtaracağı, həmçinin onun vurğuları qeyd olunur. Mən bütün bunları Aqşin müəllimə təqdim etdikdən sonra o, təəccübləndi və “Bu da çox maraqlı sistemdir. Mən bu sistemlə işləməmişəm. Amma ümidvaram ki, problem olmayacaq” dedi və bunu sonradan musiqisində də əks etdirdi.

Həmin görüşdən iki həftə vaxt keçdikdən sonra A.Əlizadə apardığı musiqili eksplikasiyanı özü ilə studiyaya gətirdi və filmə yazdığı musiqini səsləndirdi. Səs rejissoru ilə birlikdə A.Əlizadənin bəstələdiyi musiqiyə qulaq asdıq. Əla musiqi yazmışdı. Səs rejissoru Aqşin müəllimə "möhtəşəm alınıb, dahiyanədir" kimi fikirlərlə münasibətini bildirdi. Həmin gün A.Əlizadənin filmlər üçün çox musiqi işlədiyinə görə burada gözəl tanındığının şahidi oldum.

Beləliklə biz, filmi yekunlaşdırdıq. Əvvəlcə A.Əlizadə musiqini yazdı, sonra səs rejissoru ilə birlikdə onlar həmin səs mətnini saniyələrə böldülər. Bütün bunları müəyyən etdikdən sonra ekspozisiyon vərəqləri hazırlayıb həmin fiqurları hərəkətə gətirməkləri üçün animatorlara təqdim etdik. Animatorlar metraja baxarkən filmin hansı yerində əjdahanın qalxacağını, partlayışın baş verəcəyini və ya quşların uçacağını müəyyənləşdirirdilər. Beləliklə də A.Əlizadənin yazdığı musiqi ilə bütün nüanslar öz yerinə düşmüşdü. Tətbiq etdiyimiz bu sistemdən sonralar başqa həmkarlarım da istifadə etməyə başladılar. Amma rejissorlar üçün bunun bir qədər ağır iş olduğunu vurğulamaq istəyirəm. Hər halda "Bulud niyə ağlayır?" adlı ilk filmimiz uğurlu alındı və 1974-cü ildə Bakıda keçirilən VII Ümumittifaq kino festivalında 1-ci mükafata layiq görüldü. Fəxr edirdim ki, Azərbaycanda o vaxtı festivalda bizim filmimiz ilk yer tutdu. A.Əlizadə ilə yaradıcılıq görüşlərimiz, maraqlı fikir mübadilələrimiz gözəl və işıqlı xatirələrlə yadımda qaldı. O, filmin kollektivindəki bütün əməkdaşlardan daha təcrübəli idi. Qeyd edim ki, film üzərində işləyən bütün qrup üzvlərini bu işə mən cəlb etmişdim və onların hamısını hazırlamışdım. Bu, həm mənim A.Əlizadə ilə, həm də bütün yaradıcı kollektivlə ilk filmim idi. Sonralar isə digər filmlərə musiqi yazmaq üçün müxtəlif bəstəkarlarla yaradıcılıq təmasına başladım. Gənc rejissor olduğum üçün hər mövzuya yeni sənətkarı cəlb etmək, yaradıcılıq palitramın diapazonunu genişləndirmək istəyirdim. X.Mirzəzadə ilə "Günlərin bir günündə" (1975), A.Bəbirovla "Pəncə... Qulaq... Palaz... Tikan..." (1976), M.Babayevlə "Xoruz" (1977), A.Məlikovla "Qız qalası əfsanəsi" (1978) filmində və başqa bəstəkarlarla digər yeni-yeni ekran əsərləri üzərində işlədim. A.Əlizadə ilə başlanan uğurlu yaradıcılıq yolum bu günə kimi davam etməkdədir. Allah ona rəhmət eləsin.

Berlin, Almaniya.
26.01.2022

**Oqtay MİRQASIMOV**
Rejissor, Xalq artisti

## MUSİQİ ALƏMİ VƏ YARADICILIQ AXTARIŞLARI ONUN HƏYATININ AYRILMAZ HİSSƏSİNİ TƏŞKİL EDİRDİ

Aqşin Əlizadə çox məhsuldar bəstəkardır. O, heç zaman nə əsərlərinin sayı, nə qazanc və ya şöhrət uğrunda özünü incitməyən, belə məqsədlər qoymayan əsl ziyalılarımızdan olmuşdur. Musiqi aləmi və yaradıcılıq axtarışları həqiqi mənada onun üçün əhəmiyyətli idi.

A.Əlizadənin kino musiqisi zəngin bir aləmdir. Bəzi bəstəkarlar vaxt itirməmək üçün bəlkə daha da intuitiv işləyirlər. Yazdıqları musiqi bəzən çox uğurlu alınır. Amma mən deyərdim ki, Aqşin dərindən düşünən və işə olduqca ciddi yanaşan mütəxəssis, akademik olmuşdur. O, ssenarini düşünüb, oxuyub və bütün xırdalıqları nəzərə aldıqdan sonra uzun zaman axtarışlar edirdi. Axtarışlar nəticəsində ilk intonasiyaları, mövzuları tapır və ondan sonra iş başlayırdı.

Elə filmlər var ki, onlar səslənən musiqiyə görə sevilir, tanınır və bəzi epizodlar sanki musiqiyə qulluq edən bir fona çevrilir. Məncə heç kəs bundan inciməməlidir. Əgər bəstəkar filmdə kimdənsə güclü görünübsə ona baş əymək və onu daha çox sevmək lazımdır. Qəribədir. A.Əlizadə o qədər sakit, həm də qaya kimi güclü insan olsa da bəzən elə incə, sentimental, insanın lap nazik simlərinə həmsəs olan musiqi yazaraq doğurdan da adamı kövrəldirdi. Bu artıq insanın fərdi təbiəti ilə bağlıdır. Bir rejissor kimi deyə bilərəm ki, bunu planlaşdırmaq mümkün deyil. Bu bir ilhamdır, şansdır hansı ki, bəzən olur, bəzən isə yox. İnsanın həyatı belə olmalıdır. A.Əlizadə bütöv insan idi. Nə varsa bu onundur, başının ucalığıdır. O, iradəli, mətin insan kimi hər bir çətinliyə dözüb. Digər tərəfdən onu kiçik məsələlər o qədər də maraqlandırmayıb. A.Əlizadə musiqi aləmində olan yaradıcı şəxsiyyət kimi böyük ideyalarla - vətəni Azərbaycanın eşqilə yaşayıb.

Bütün Azərbaycan ziyalıları onun xətrini çox istəyirik. A.Əlizadənin ətrafında hər zaman çox sağlam və gözəl atmosfer var idi.

Bakı, Azərbaycan.
04.12.2019

**Elxan QASIMOV**
Aktyor, Əməkdar artist,
kinorejissor

## YAXŞI İGİD DAYISINA ÇƏKƏR



***Aqşin Əlizadə.***
***27.11.1968-ci il***

Mənə elə gəlirdi ki, Aqşin Əlizadəni sanki uşaqlıqdan tanıyırdım. Onun Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin bacısı oğlu olduğunu eşitmişdim. "Uzaq sahillərdə" filmi cəsur kəşfiyyatçı, Mixaylo ləqəbli ölməz qəhrəmanı kino aləmindən xalqa daha geniş tanıtdığı üçün A.Əlizadəni də sanki özümə yaxın hiss edirdim. Gənc kino işçisi olduğum illərdən onunla görüşməyi çox arzulayırdım. İlk dəfə qarşılaşanda Aqşin müəllimin zahiri görkəmi, qıvraq yerişi, duruşu, sol əl jestləri diqqətimi cəlb etmişdi. Aramızda səkkiz yaş fərq olsa da Aqşin müəllim idmançı görkəmi ilə məndən daha yaxşı görünürdü. Mənə elə gəlirdi ki, o, dayısı qəhrəman Mehdi Hüseynzadəyə bənzəyir. Həmişə deyirəm ki, A.Əlizadə dayısının adının üstünə ad gətirdi. M.Hüseynzadəni Azərbaycanda və onun hüdudlarından kənarda da sevirlər, böyük ehtiramla yad edirlər. Onun qəhrəmanlığı bir tərəfə, daxili və zahiri gözəlliyi, incəsənətə münasibəti də hamıya bəllidir. Bu mənada qan yaddaşı özünü büruzə verir. A.Əlizadə də qəhrəmanlıq, yüksək intellekt, sənətə məftunluq timsalı idi. Bütün bunlar onun genlərində möhürləndiyinə görə həyat və yaradıcılıq yolunun müxtəlif mərhələlərində özünü parlaq büruzə verirdi.

Aqşin müəllimlə ilk dəfə əyani olaraq C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının musiqi şöbəsində tanış olmuşduq. O vaxt kino musiqisi bəstələyənlər filmin ssenarisi ilə tanış olmaq, onun materialına baxmaq, çəkilişlər barədə maraqlanmaq və öz partituralarını təqdim etmək üçün kinostudiyaya dəvət olunurdular. Yaradıcılıq polemikaları sayca 40-60 nəfərdən ibarət kollektivin gözləri qarşısında baş verirdi. Aqşin Əlizadə ilə təmasımız 1980-cı ildə İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" pyesinin motivləri əsasında çəkdiyimiz "Gözlə

məni" tammetrajlı bədii filmi ilə başladı. Bu ekran əsərində rejissor təcrübəçi kimi fəaliyyətim sonradan yeni mərhələyə - bədii filmlərin çəkilişinə keçid üçün imkan yaradırdı. Kamil Rüstəmbəyov həmin dövrdə "Aygün" (1960), "Dağlarda döyüş" (1967), "Axırıncı aşırım" (1971) və digər bir-birindən maraqlı ekran əsərlərinin quruluşçu rejissoru kimi tanınırdı. A.Əlizadəni "Gözlə məni" bədii filminə musiqi bəstələməyi o, özü dəvət etmişdi. Aqşin müəllim ssenari ilə tanış olub, uzun müddət filmi rejissorla müzakirə etdikdən sonra epizodlara uyğun musiqi yazmışdı. Filmin ssenarisində metrajlar dəqiq göstərildiyi üçün epizodları fərqləndirmək aydın olurdu. Aqşin müəllimin təqdim etdiyi musiqi demək olar ki, reqlamentə tam uyğun idi.

Film üzərində işləyərkən bütün yaradıcı heyətlə ünsiyyətdə olurduq. Rejissorlar, musiqi redaktoru bir otaqda oturar və eyni iş üzərində qrup formasında çalışardıq. Çəkilişlər bitdikdən sonra isə SSRİ Dövlət Kinomotoqrafiya simfonik orkestrinin ifasında musiqini lentə yazdırmışdıq. Film üzərində bir il boyunca davam bütün işlər başa çatdıqdan sonra onu ümumittifaq ekrana qəbul etmişdilər. Filmi Moskvada rus dilində səsləndirmək mərhələsində Kamil müəllimin səhhətində problemlər yaranmışdı. Ona görə də bu işlərlə mən məşğul olurdum. Film 30 dekabr 1980-cı ildə tamaşaçılara təqdim edilmişdi.

"Gözlə məni" böyük və ağır film idi. Onu eyniadlı tamaşanın əsasında çəkmişdik. Rusiyada efirə verilərkən ara-bir filmi "Qayıdış" adı ilə təqdim edirdilər. Onun bəzi hissələrini Qubada, müəyyən yerlərini isə milyonçu Şəmsi Əsədullayevin saldırdığı yaşıl bağda lentə almışdıq. Əlbəttə ki, dekorasiyalardan istifadə də labüd idi.

A.Əlizadənin çox təmiz, saf, təmkinli və şəxsiyyətini qoruyan insan olduğunu yaradıcılıq prosesində müşahidə edirdim. Səsyazma zamanı musiqi şöbəsinə daxil olan şəxs müəllifin A.Əlizadə olduğunu bilməzdi. Adətən bəstəkarlarda, mən rejissorlar da daxil olmaqla bəzi sənət insanlarında bir qədər çılğınlıq olur. Bəziləri sakit kimi görünsələr də onların daxili təmkinliyi tamamilə fərqlənir. Mən iş prosesində heç vaxt A.Əlizadənin uca səslə danışdığını nə eşitdim, nə də gördüm. O, alicənablığı ilə yanaşı təmkinli davranışları ilə də həmkarlarından seçilirdi. Bəzən ifaçılar tempi dəqiq götürməyəndə, əsəri yüksək peşəkar səviyyədə səsləndirməyəndə və s. hallarda müəlliflər onlara qarşı emosional davranırlar. Aqşin müəllimdə isə belə halları heç vaxt müşahidə etməmişəm. O, sakit oturar, sol əlində qələmlə, özünəməxsus əl hərəkətlərilə fikrini izah edərdi.

Aqşin müəllim ümumiyyətlə heç yerdə yaradıcılığını təbliğ edən insan deyildi. O, özünü bütünlüklə sənətinə həsr etmişdi. Həmişə axtarışda olan, çox çalışqan və zəhmətsevər insan idi. Allah ona həm gözəl sima, böyük



***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Aqşin Əlizadə ilə vida mərasimi. 03.05.2014-cü il***

istedad, əsilli-nəcabətli nəsil, eyni zamanda xoşbəxt ailə bəxş etmişdi. A.Əlizadə nitqində və musiqi üslubunda olduğu kimi, geyimində də fərqlənirdi. O, çox yaraşıqlı zahiri görkəmə malik idi, həmişə gözəl zövqlə geyinərdi. Onunla bəzən Azərbaycan Bəstəkarlar İttifaqında görüşərdik. Söhbətimiz tuturdu. Hərdən zarafat edər, ona sənin çox gözəl zahiri görkəmin var, bir qədər də yaxşılaşmısan deyərdim. Aqşin müəllim çox ağır və sanballı kişilərdən idi.

Məlumdur ki, Azərbaycan musiqisində dahilər çoxdur və hər birinin də öz yeri vardır. Onların hərəsi ayrı-ayrılıqda bir aləmdir. Hər birinin yaradıcılığı çox gözəl və özünəməxsusdur. A.Əlizadənin isə istər kamera həcmli, istərsə də iri həcmli səhnə əsərləri, simfoniyaları, vokal-instrumental yaradıcılıq nümunələri bizim milli sərvətimizdir. Onun müraciət etdiyi mövzuların dairəsi çox genişdir. Müxtəlif olan həmin mövzular yaradıcı insanın gözündən tariximizə və xalqımızın böyük şəxsiyyətlərinə özünəməxsus retrospektiv baxışdır. Diqqət yetirsək görərik ki, "Babək" (1986) adlı qəhrəmanlıq baletindən sonra "Qafqaza səyahət" (2002) kimi tanınan səhnə əsərinin meydana gəlməsi və sonuncu "Ümid valsı" (2008) adlandırılan baletin səhnə təcəssümü sanki bəstəkarın enişli-yoxuşlu həyat və yaradıcılıq yolunun səhifələrini qarşımızda vərəqləyir. Bu mənada fikrimcə, Azərbaycan mədəniyyət məkanında musiqiçilər yazıçılardan da, rejissorlardan da irəlidə addımlayırlar.

A.Əlizadə ən yüksək epitetlərə layiq sənətkardır. O, təmiz adı və yüksək peşəkarlığı, özünəməxsus musiqi üslubu ilə əbədiyaşarlıq qazanmış böyük bəstəkardır. Aqşin müəllim bu gün də gözəl əməlləri və yaratdıqları ilə dinləyicilərinin, onun xatirəsini əziz tutanların qəlbində yaşayır. 2014-cü ilin hüznlü may günündə onu uzun illər çalışdığı Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasından sonuncu dəfə yola salıb dəfnində iştirak edərkən böyük şəxsiyyətin əbədiyaşarlığını bir daha özüm üçün təsdiq etdim. Ruhunuz şad olsun qüdrətli sənətkar.

Bakı, Azərbaycan.
26.01.2022

**Лейла САФАРОВА**
Кинорежиссер

## ШТРИХ К ТВОРЧЕСКОМ ПОРТРЕТУ КОМПОЗИТОРА АКШИНА АЛИЗАДЕ

В 1987 году по заказу Госкомитета по телевидению и радиовещанию (ЦТ) СССР на киностудии «Азербайджанфильм» был запущен в производство кинофильм по сценарию Эльдениза Кулиева «Курица под гипнозом». По окончании работы над фильмом худсоветом к/с «Азербайджан-фильм» по предложению кинорежисера Расима Оджагова, фильму было дано другое название, а именно: «Больше 40 градусов тени». Фильм с этим названием



*Акшин Ализаде и режиссер Таир Алиев*

неоднократно транслировало ЦТ на территорию СССР. Режиссер-постановщик фильма - выпускница ВГИКа Лейла Сафарова. Оператор - постановщик - также выпускник ВГИКа - Кянан Мамедов, художники- постановщики - выпускники ВГИКа Франгиз Курбанова и Фикрет Ахадов. Композитор - Акшин Ализаде.

В главных ролях: Тельман Адигезалов, Нурия Ахмедова, Алескер Алескеров, Давуд Иманов, Фикрет Мамедов, Маяк Керимов и др. Директор фильма - Али Мамедов.

В архиве к/с «Азербайджанфильм», в папке документов, собранных после окончания работы над фильмом, находятся фотографии рабочих моментов работы над фильмом. Те же документы, вместе с копиями кинофильма, хранятся в Москве, в Архиве ЦТ на Шаболовке. В этих архивах находится и одна из фотографий съемки эпизода фильма с Тельманом Адигезаловым и местным парнишкой на центральной площади посёлка Бильгях на автобусной остановке.

Изменение названия фильма было вызвано тем, что в процессе его создания первоначальный сценарий фильма был изменен самым кардинальным образом (морализаторства, примитивизма сюжета, характеров и идей, жесткости конструкций и схематизма) и обрёл необходимые прозрачность, легкость и свободу в трудном поиске правды и добра. Кажется, что именно эти качества фильма, после его просмотра, стали решающими для композитора, приглашенного для создания музыки к этому фильму. Именно новизна фильма была понята и принята композитором, осуществившим замысел и идею фильма в музыке, в фактуре звука и его свободе - Агшину Ализаде был духовно близок главный персонаж фильма, образ которого ему предстояло создать в звуке. Он сам был с большой и свободной душой, гуманный, мягкий, интеллигентный, бескомпромиссный в вере в высокие идеалы и человечность.

А.Ализаде сумел решить задачи фильма в звуке, набросав музыкальный эскиз, полностью соединившийся с киноизображением и замыслом фильма. Музыка к к/ф «Больше 40 градусов в тени» органична и свидетельствует о кинематографическом таланте киномузыки композитора.

Гянджа, Азербайджан.
27.11.2019

**Azər Paşa NEMƏTOV**
Rejissor, Xalq artisti,
professor

## ÖZ DÜNYASININ SƏNƏTKARI



Rejissor kimi mən Həsən Adıgözəlzadə, Leonid Vaynşteyn, Cavanşir Quliyev və başqa bəstəkarlarla maraqlı tamaşalar hazırlamışam. Birlikdə çalışdığım rəssamlar kimi, bəstəkarların da hər biri mənim üçün çox doğma və əzizdir. Tanınmış bəstəkar Aqşin Əlizadə də onların sırasındadır. Onunla yaradıcılıq təmasım "Tufandan əvvəl" (Arif Süleymanovun pyesi) tamaşası ilə bağlıdır. Bu əsər üçün ona musiqi yazmağı təklif edəndə Aqşinin insan kimi çox sadiq, maraqlı və yüksək mədəniyyətə malik bir şəxs olduğunu gördüm. O, C.Hacıyev və Q.Qarayevin bəstəkarlıq məktəbini bitirmiş çox savadlı və istedadlı yaradıcı şəxsiyyətlərimizdən idi. Musiqi üslubuna görə dövrünün bütün bəstəkarlarından tamamilə fərqlənən A.Əlizadənin orkestrləşdirməsi, harmoniyası, melodik dili mükəmməlliyi ilə seçilirdi. Ümumiyyətlə, o, öz sənətinin peşəkarı idi.

Aqşinlə bir qədər yaxın olduğumuz üçün ona heç vaxt müəllim deyə müraciət etmirdim. O, mənə rejissor kimi qiymət verirdi, mən də onu bəstəkar kimi yüksək dəyərləndirirdim. A.Əlizadə həm də çox təvazökar insan idi. O, bu xüsusiyyətinə görə başqalarından seçilirdi. Heç vaxt kimdənsə irəliyə çıxmaq istəmirdi. Aqşinin əsl sənətkar kimi öz dünyası var idi. Onunla yaradıcılıq əməkdaşlığı etdiyimiz vaxtlarda zalda oturub tamaşanın məşqlərinə baxar, fikir mübadiləsi aparar, daha sonra söhbətimizi çayxanaya gedib orada davam etdirərdik. Tamaşa ilə bağlı müzakirələrdə mənimlə həmfikir olduğunu deyirdi.

"Tufandan əvvəl" əsərinə quruluş verdiyim dövrdə (1987-ci il) güclü kollektivlə çalışırdım. Pyesdə V.İ.Lenin və N.K.Krupskaya obrazları canlandırılırdı. Tamaşada V.İ.Lenini ağlını itirmiş xəstə insan kimi göstərirdim. İlk variantda o, sözsüz obraz olduğu üçün səhnədə burdan-ora, ordan-bura gəzişirdi. Əsər üzərində işləyərkən V.İ.Leninin həyatı ilə maraqlanmış, sifilis xəstəliyinin onun




beyninə təsir etdiyinə görə ağlını itirdiyini öyrənmişdim. N.K.Krupskaya ona kömək etməyə çalışsa da buna nail ola bilməmişdi.

Tamaşaya rəhmətlik Elçin Məmmədov tərəfindən maraqlı dekorasiya hazırlanmış, A.Əlizadə isə yüksək professional səviyyədə cəlbedici musiqi yazmışdı. Ancaq təbii ki, iş prosesində müəyyən məqamlarda mən də fikirlərimi dilə gətirirdim. Əvvəllər musiqi təhsili aldığım üçün əsərin hansı yerində modulyasiyalar tələb edildiyini, harada musiqinin daha təmtəraqlı olmasını və s. duyur və bunu bəstəkara söyləyirdim. Beləliklə, bizim tamaşa üzərində rejissor və bəstəkar kimi birgə axtarışlarımız davam edirdi. Ancaq bütün bunlara baxmayaraq premyeradan sonra tamaşanın yenidən səhnədə göstərilməsi üçün nazirlik tərəfindən məhdudiyyətlər qoyulmuşdu. Sovet dövləti bəhanə olaraq guya müəllifin faciəli ölümünü səbəb kimi göstərərək əsərin təkrarən təqdim olunmasına icazə vermirdi. Əslində tamaşanın göstərilməsinə qoyulan məhdudiyyətin əsas səbəbi SSRİ ölkəsinə zidd olan düşüncə ilə quruluş verilməsində idi. Bütün bunlara baxmayaraq yaradıcı kollektiv ilə birlikdə sonradan V.İ.Lenin obrazını monoloq hesabına bir qədər genişləndirmək və sözlü obraza çevirmək şərtilə tamaşanı ikinci dəfə səhnədə göstərməyə nail olduq. SSRİ-nin davam etdiyi dövrdə, M.S.Qorbaçovun Azərbaycana qarşı sui-qəsdlər hazırladığı ərəfədə, qanlı yanvar cinayət hadisəsindən əvvəl belə tamaşa təqdim olunmamalı idi. Bütün bunlar xalqda SSRİ ölkəsinə qarşı qığılcım saçan ziddiyyətli fikirləri daha da alovlandırırdı. Təzadlı düşüncələr üzərində qurulmuş tamaşada Lenin tənqid olunurdu. Əsərin təmtəraqlı finalı və səhnədə dekorasiyaların camaatla birlikdə yoxa çıxması, axırda isə səhnədə boş divarların əksi, Leninin tək sütun üstündə dayanıb monoloq söyləməsi, bütün səhnənin sökülərək yox olması Sovet İttifaqının dağılıb məhv olacağına işarə verirdi. Lenini isə xəstə obraz kimi əks etdirməyimizdən nazirlik əməkdaşları narazı idilər. Onlar Leninin belə göstərilməsinin əleyhinə olduqları üçün tamaşanı premyeradan sonra

dayandırmışdılar. Amma bir müddətdən sonra yenidən həmin tamaşa ilə maraqlanmağa başlayanda V.İ.Leninin sözsüz obraz kimi təqdim edilməsinin əleyhinə olduğunu söylədilər. Buna görə də final səhnədə ona monoloq əlavə etməli olduq. Tamaşanın son səhnəsində onun “kommunizm olacaq, gözəl həyat bizi gözləyir” fikirləri ilə səhnənin yerlə-yeksan edilməsi, ağlını itirmiş Leninin vəd etdiyi gələcəyin olmayacağını göstərirdi. Ona görə də tamaşaya quruluş vermək çox qəliz və çətin məsələ idi. Hökumətə qarşı əks fikirlər oyadan bu əsərə görə bizi həbs edər, üstümüzdən xətt çəkə bilərdirlər. Ancaq biz üçümüz - A.Əlizadə, E.Məmmədov və mən bunun öhdəsindən gəldik, həmçinin aktyorları da buna inandırdıq. 1987-ci ildə səhnədə göstərilən bu tamaşadan sonra çox keçmədi ki, nəhəng Sovet İttifaqı dağıldı.

Tamaşanın 1990-cı illərdə Azadlıq meydanına axışan xalqımıza da böyük təsiri oldu. Meydandakı mitinqlərə toplaşan insan axını SSRİ hökumətini tənqid edir, rəhbərliyin istefa verməsini tələb edirdilər. Sözsüz ki, bütün bunların hamısında yaradıcı qrup kimi bizim də rolumuz və əhəmiyyətimiz var idi.

Tamaşada obrazları tanınmış aktyorlar - Lütfü Məmmədbəyov, Həsənağa Turabov (V.İ.Lenin rolunda), Amalya Pənahova (N.K.Krupskaya rolunda) və Safura İbrahimova canlandırırdı. Məlik Dadaşov, Hamlet Qurbanov və başqaları həm də dublyor kimi çıxış edirdilər. Onların əksəriyyəti artıq dünyasını dəyişib. Adlarını sadalamadığım aktyorlar da var idi ki, tamaşanın səhnələşdirilməsində mühüm rola malik idilər.

Çox təəssüf ki, bu əsərdən sonra A.Əlizadə ilə yaradıcılıq əməkdaşlığımız davam olunmadı. O vaxt mən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında deyil, Gənc Tamaşaçılar Teatrında çalışırdım. Əfsus ki, onun kimi yüksək səviyyəli peşəkar bəstəkarla işləməyimə icazə vermədilər.

A.Əlizadə demək olar ancaq öz yaradıcılığı ilə məşğul olan və daima axtarışlar aparan bəstəkar idi. O, bir müddət Azərbaycan Bəstəkarlar İttifaqına sədrlik də etmişdi. Lakin sonra uzaqlaşdı və yoxa çıxdı. Onun 2014-cü ildə dünyasını dəyişdiyi xəbərini eşitdim. A.Əlizadə yaddaşımda bəstəkarlıq səviyyəsi çox yüksək olan maraqlı insan kimi qaldı. Allah ona rəhmət eləsin.

Bakı, Azərbaycan.
26.09.2021

**Vaqif BEHBUDOV**
Rejissor,
Xalq artisti

## AQŞİN ƏLİZADƏ AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ TARİXİNDƏ CİZGİ FİLMLƏRİNƏ MUSİQİ YAZMIŞ İLK BƏSTƏKARDIR

Aqşin Əlizadə ilə şəhərdə müxtəlif məktəblərdə oxusaq da, uşaqlıqdan tanış idik. Bizi birləşdirən Şüvəlan bağlarında evimiz onların evinin yaxınlığında yerləşirdi. A.Əlizadə çox gözəl ailənin nümayəndəsi idi. Tibb Universitetində anatomiya kafedrasının dosenti olan anası Bikə xanım Əlizadə bibimin həyat yoldaşı Kamil Babakişiyevin rəhbərlik etdiyi kafedrada onunla birlikdə çalışırdı. Biz həm də ailəvi yaxından tanış idik.

Milli musiqini gözəl ifa edən Aqşin fiziki baxımdan çox güclü idi. Dostlar arasında Adil Bəbirovun da xalq musiqisini gözəl ifa etmək məharəti var idi. Öz aramızda həmişə Aqşinə barmaqlarının çox yoğun və kobud olduğunu deyər, onların klavişlərə necə sığışdığını soruşardım. Bu zarafata həmişə gülürdük.

Mən 1961-ci ildə Sank-Peterburqda Dövlət Kino və Televiziya Universitetində təhsilimi başa vurub vətənə qayıdandan sonra cizgi filmlərin çəkilişi ilə məşğul olmaq qərarına gəldim. Sədrimiz çox gözəl insan, böyük şəxsiyyət Teymur Elçinin köməkliyi ilə həcmli filmlərin çəkilişinə başladım. O vaxtlar 1965-1969-cu illərdə SSRİ miqyasında “*soyuzmultfilm*”dən başqa heç bir respublikada animasiya filmləri çəkilmirdi. A.Əlizadə ilə dostluğumuz möhkəm idi, ondan ilk animasiyanın musiqisini yazmağını xahiş etdim. 1969-cu ildə “İlham” adlı ilk film üzərində işləməyə başladıq. Ondan sonra isə “Göyçək Fatma” (1972) adlı ikinci filmi ərsəyə gətirdik. Filmlər üzərində bir il çalışdıq və hər ikisi 1970 və 1972-ci illərdə Daşkənddə Ümumittifaq kino-telefilmlər festivalında mükafata layiq görüldü. Biz iki gözəl film üzərində işləyərkən mən bacardığımı etdim, ancaq A.Əlizadənin yazdığı musiqi yüksək səviyyədə idi. O vaxtlar biz bütün filmləri Moskvaya təqdim edirdik. Onda Aqşinin musiqisinə böyük qiymət verilmişdi. A.Əlizadənin adı həm də cizgi filmlərə musiqi yazmış ilk bəstəkar kimi Azərbaycan musiqi mədəniyyəti tarixinə həkk olundu.

Digər 15 cizgi filmi çəkdiyim illərdə isə A.Əlizadə “Babək” baleti üzərində gecə-gündüz çox gərgin işlədiyinə və başqa filmlərə musiqi bəstələdiyinə görə bir saniyə də vaxtı olmurdu. İki filmi bitirdikdən sonra onun “Ustalar qızıl əllər” filmimə musiqi bəstələməsini çox istəyirdim. Ancaq onun vaxt məhdudluğuna görə həmin filmin musiqisini Oqtay Zülfüqarov yazdı.

O illərdə Aqşinin səhhətində müəyyən problemlər meydana gəlmişdi. Həmin dövrdə o, Vətən kinoteatrının arxasında Qoqol küçəsində (indiki Əbdülkərim Əlizadə küçəsi.: V.B) yerləşən evdə yaşayırdı. Mən ona baş çəkmək üçün evinə gedirdim. Sonralar Kirxa ilə üzbəüz olan 28 may küçəsində yerləşən əmimin evi ilə qonşu olan binaya köçəndə də görüşürdük.

Mən A.Əlizadənin bütün simfonik yaradıcılığını yaxşı bilirəm. Həyat yoldaşım Xavər Rəhimova kamera orkestrində çalışdığı illərdə onun bütün əsərlərini ifa edərkən mən də həmişə konsertlərə gedib Aqşinlə yanaşı əyləşib onun əsərlərinə qulaq asırdım. A.Əlizadənin "Babək" baletinin çox gözəl səhnə təcəssümü tapdığını (1986) da qeyd etmək istəyirəm. O, gecə-gündüz çalışan çox məhsuldar bəstəkar idi. Onun yaradıcılığı Qara Qarayev, Cövdət Hacıyev, Fikrət Əmirov və digər böyük bəstəkarlar ilə yanaşı yüksək səviyyədədir. A.Əlizadə həmişə gənc həmkarları arasında seçilirdi. Olduqca ləyaqətli, təmiz, ideal kişi və oğul olan A.Əlizadə insan kimi möcüzəli bir şəxsiyyət idi. O, həmişə "anam məni döyə-döyə bəstəkar elədi" deyirdi. Aqşinin bildirdiyinə görə özü çalmaq istəmirdi. Ancaq çox tələbkar olan anası Bikə xanım onu çalmağa məcbur edirmiş. Aqşin insan kimi qayğıkeş və çox gözəl dost idi. Xalqını, bayrağını, torpağını sevən azərbaycanlı oğluna ünvanlanacaq nə qədər yaxşı sözlər varsa hamısı onda cəmlənmişdi. O, çox qeyrətli, namuslu, vətənpərvər şəxsiyyət idi.

Mən o vaxtlar onun Türkiyə Cümhuriyyətinə getməsini istəmirdim. Ancaq vəziyyətlə əlaqədar olaraq o, Türkiyəyə getməli oldu, qardaş res-



***Aqşin Əlizadə dayısı Sover İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin döyüş yoldaşı Ştefan Kafol ilə***

publikanın musiqi təhsilinə və mədəniyyətinin inkişafına böyük fayda verdi, xeyli sayda tələbə yetişdirdi.

Aqşin unikal insan və ölməz bəstəkardır. Biz bu dünyaya gəlmişik və hamımız bir gün gedəcəyik. A.Əlizadə isə izi qalan bəstəkardır. Onun adı Üzeyir Hacıbəylinin yaratdığı bəstəkarlıq məktəbinin digər parlaq nümayəndələri ilə bir sırada çəkilir. Fəxr edirəm ki, iki filmimin musiqisini A.Əlizadə yazıb və xoşbəxtəm ki, həmin ekran əsərləri onun adı ilə də bağlıdır. Mən peşəkar musiqiçi olmasam da onun əsərlərini özünəməxsus üslubuna və gözəl musiqi dilinə görə fərqləndirə bilirəm. A.Əlizadənin musiqisi ilk intonasiyadan dərhal seçilir. O, parlaq şəxsiyyət və böyük bəstəkar kimi ən gözəl sözlərə layiqdir. Əfsuslar olsun ki, tez dünyasını dəyişdi. Ruhu şad olsun!

Bakı, Azərbaycan.
04.01.2020

**Mehriban ƏLƏKBƏRZADƏ**
Rejissor,
Əməkdar incəsənət xadimi

## AQŞİN ƏLİZADƏ BÖYÜK İNSAN İDİ

XXI əsr öz dinamikliyi, yüksək sürəti ilə incəsənətin bütün növlərində çoxqütblü sistemlər, fərqli baxışlar, yeni texnologiyalar mərhələsinə yol açdı. Zamanın tempi, sürəti, xaotik mənzərələri, qlobal ictimai-siyasi problemləri fonunda SEVGİ xətti labüd olduğu qədər də mübahisəli vurğu mahiyyətinə keçir. Üstəlik bir tərəfdən ənənəvi yanaşmalar, digər tərəfdən fərqli və bəzən fərdi üslublar rəngarəngliyi mütləq hala gəldiyi vaxtda... Bu özü özlüyündə bəzən müəyyən mənada postmodernizm kimi görünsə də, belə deyildi. Belə bir zamanda İNCƏSƏNƏT - daha azad, məntiqli və yeni bir forma, yeni baxış tələb edir. Belə bir zaman keçidində (2006-2007) mən Azərbaycanfilm kinostudiyasında məşhur yazıçı Çingiz Abdullayevin “MƏHKUMLAR” (Məhkumların cənnəti) kinossenarisi ilə film çəkilişlərinə başlamaq ərəfəsində idim. Mənim üçün bu filmdə musiqi qəhrəmanların insan kilidini açmaq, onun iç dünyasını sərgiləmək, ən əsas da onun faciəsi ilə bizə - insanlara yaxınlaşdırmaq tələbində idi. Doğrusu filmin musiqi həlli üçün fikrimdə iki-üç bəstəkar haqqında müəyyən düşüncələr vardı. Doğrusu iki bəstəkarla (onlar da yetərincə tanınmış bəstəkarlar idi) görüşüm, onlarla ssenari ilə bağlı söhbətlərim məni məyus etmişdi. Əsas leytmotivi daha

sönük və sıradan bir sevgi hekayəti kimi görmələri məni qane etmirdi. Standart yanaşma, sadəcə sevgi xətti kimi dəyərləndirilən musiqi həlli filmin rejissoru kimi mənim musiqi siyasətimlə uyğun gəlmirdi. Aqşin müəllimlə görüşəndə, artıq düşünürdüm ki, bu dəfə də ötəri baxış sərgilənəcək. Bir növ bəstəkar öz gizli qovluğundan hansısa hazır musiqi nümunələri ilə məni "yola vermək" istəyəcək. Amma belə olmadı. Bir rejissor kimi məni daha çox tarixi sənədli filmlərdən tanıyan A.Əlizadə əsl yaradıcılıq azadlığı ilə məni heyrətləndirdi.

Artıq ilk musiqi nömrələrini təqdim edəndə əmin oldum ki, Aqşin müəllim materiala sıradan bir sevgi hekayəti deyil, sosial və mənəvi XİLAS mesajlı sevgi xəttini əsas tutub. Bu sonuc dəqiq idi. Mən onun bu qədər gənc, fərqli, bu qədər həssas və fərqliliklə milli ruhuna heyran olmaya bilməzdim. Bu filmdə musiqi müasir insanının - cəmiyyətdən təcrid olunan insanın bütün bu qələbəlik içində yalnızlığına üsyanı rolunu daşımalı idi.

Təbii ki, A.Əlizadəyə müraciət etmək böyük cəsarət tələb edirdi. O zaman Azərbaycan filmlərinin (həmçinin, tamaşalarının) musiqi həllinə məsul olan bəstəkarların işləri etiraf edək ki, bir o qədər də uğurlu sonuclanmırdı. Belə bir zamanda, artıq özünü təsdiq etmiş, isminin ardında külliyyatı yatan bir bəstəkarla işləmək, ona tabe olmaq, yeni və fərqli nələrisə gözləməmək mütləqliyi kimi anlaşıla bilərdi. Bu əslində ənənəvi baxışa qayıdış təhlükəsi yaradırdı.

Filmdə tez-tez dəyişən vəziyyət tələbləri, yeni qəhrəman psixologiyasının açımı üçün fərqli və bənzərsiz ruhi inikas, yaxud kəskin dəyişən montaj tələbi,



*Nadir Əliyev, Rasim Ocaqov, Mehriban Ələkbərzadə*

əsas leytmotivin bu qədər tələbi özündə ehtiva etməsi etiraf edək ki, çətin tapşırıq idi.

Aqşin müəllim mənim istək və tələblərimə təmkinlə qulaq asdı, əvvəlcə lirik xəttin mütləq olduğunu söyləsə də sonra bu xətti amansız lirik xətlə sintez etməyi bacardı. Onun musiqidə Sevgi xəttinin bütün başqa nəsnələri məhv edəcək dəsti xətti məni o qədər qane etdi ki, mən ondan daha başqa versiyanı məhz bu xəttin üzərində qurmağı xahiş etdim. Olduqca böyük insan idi Aqşin müəllim.

Bəllidir ki, dahi sələflərinin ənənələrinə dayaqlanaraq sənətdə öz yolunu tapmış, öz üslubunu yaratmış A.Əlizadə Azərbaycan mədəniyyətinin ən istedadlı və özünəməxsus simalarından biridir. Ədəbiyyat və incəsənətə yeni nəfəs, əhəmiyyətli dəyişiklər, əsl yaradıcılıq azadlığı gətirən, milli şüuru dirçəldən, xalqı özünə, tarixinə, soykökünə qaytaran 60-cı illər Azərbaycan musiqisində də yeni mərhələ açmışdır. Amma bu təklif olunmuş vəziyyətdə məni çox təəccübləndirdi. Əvvəla bir yaradıcı şəxsiyyət kimi məhz ona xas gözəllik və nəciblik, həssas forma duyumu, sözün əsl mənasında, klassik təfəkkür tərzi A.Əlizadənin yaradıcılığında artıq danılmaz təzahür idi. Bütün bunlarla yanaşı onun daha yeni səpkidə, müasir görümdə davamını axtarmaq, yorulmadan axtararaq daha başqa keyfiyyətlərə meyli məni sevindirdi.

Mənim tanıdığım A.Əlizadə təkrarçılıqdan, təqlidçilikdən uzaq, sənətdə ciddi, tələbkar, müstəqil düşünmək istedadına malik bəstəkardır. O, müasir görünmək xatirinə müasirlik yolunun yolçusu olmadı. A.Əlizadə bəstəkar kimi yersiz güzəştlərə getmədi. O, rejissorla birgə, məzmun və məntiq vəhdətini əsas götürərək yazdı. Belə bəstəkarla işləmək məmnuniyyətdən başqa hiss doğurmur. Gəldiyim sonuc bu oldu ki, ən gərgin və çıxılmaz vəziyyət (atmosfer) çərçivəsindən cəsarətlə kənara çıxmaq gücü A.Əlizadəyə məxsusdur. Onun bənzərsiz musiqi təxəyyülü vardı. A.Əlizadə təbiəti, təfəkkür tərzi baxımından lirik bəstəkardır. Amma onun musiqisində insanı cəlb edən gözəlliyin, səmimilik və həyatiliyin sirri bir YOL - mütləq tələb kimi də oxuna bilər.

A.Əlizadənin daha müasir və fərqli musiqi istedadı olduğu qədər sərgilənmədi məncə. Yaşasaydı daha yeni və özünəməxsus musiqi həlli ilə bizi daha çox sevindirərdi. Allah rəhmət etsin. Ruhu şad olsun.

Bakı, Azərbaycan.
11.12.2019

## AQŞİN ƏLİZADƏ TƏLƏBƏLƏRİNİN DÜŞÜNCƏLƏRİNDƏ

**Məryəm ƏLİBƏYLİ**
Bəstəkar-musiqişünas

### AQŞİN ƏLİZADƏ SEÇİLMİŞ İNSANLARDAN İDİ



*Aqşin Əlizadə. 1994-cü il*

Mən Azərbaycan Dövlət Konservatoriyasında - musiqişünaslıq fakültəsində oxuduğum dövrdə (1987- 1992) bəstəkar Aqşin Əlizadədən dərs almışam. O, yuxarı kurslarda bizə orkestrləşdirmə fənnini tədris edirdi. Həmişə mənə deyirdi ki, səni iki səbəbdən çox istəyirəm. Birincisi sən istedadlı qızsan, ikincisi isə nəvəmin də adı Məryəmdir. Aqşin müəllim çox ciddi xasiyyətli şəxsiyyət olsa da, eyni zamanda uşaq kimi saf və səmimi insan idi. Ancaq zəhmli olduğuna görə müəllimimizdən çox çəkinirdik. Onunla olan dərslərimiz böyük səmimiyyətlə, mehribancasına və zarafatla keçirdi.

Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin bacısı oğlu olan Aqşin müəllim bakılı ləhcəsində şirin şivə ilə danışardı. Mədəniyyətdən kənar, artıq-əksik söhbət edənləri heç sevmirdi. Lazım gələndə döyüşkən olur, mübarizkar insana çevrilirdi. Özünə və yaradıcılığına qiymət verməyi bacarırdı. Eyni zamanda savadlı insanları da dəyərləndirirdi. A.Əlizadəyə baxanda bilinirdi ki, o, seçilmiş şəxsiyyətlərdən biridir.

Aqşin müəllimin həyatımda çox böyük rolu olduğunu qeyd etmək istəyirəm. Biz sonuncu kursda oxuyarkən o, Azərbaycan Dövlət Televiziya və Radiosunun “Musiqi Birliyi”nə rəhbər (1993) təyin edilmişdi. Həmin dövrdə televiziyada belə bir departament yaradılmışdı. A.Əlizadə bu vəzifəyə seçilən kimi məni axtardığını və görüşmək istədiyini söylədi. Sinif otağımıza keçəndən sonra dedi ki, “Məryəm, sən istedadlı və bacarıqlı qızsan. Sənə bir təklifim var. İstəyirəm səni özümlə ya televiziyanın, ya da radionun musiqi redaksiyasına redaktor kimi işləmək üçün aparım. Hansını istəyirsən seç!”. Mən televiziyanı istədiyimi, bunun mənim arzum olduğunu dedim. Aqşin müəllimin təklifi, köməyi və böyük müəllim qayğısı ilə televiziyanın musiqi redaksiyasına redaktor vəzifəsinə işə düzəldim. O vaxt 23 yaşım var idi. Həmin dövrdə bir çox mahnılar yazmışdım ki, onlardan biri 20 yanvar

şəhidlərinə həsr etdiyim el arasında “Ağlama Bakı” kimi tanınan “Bakı-1990-Yanvar” (Ofelya Babayevanın sözlərinə) adlanırdı. Bu mahnını “Odlar Yurdu Bakı - 90” beynəlxalq musiqi festivalında Azərin xanım ifa etmişdi. “Səni itirəndən” adlı mahnım da həmin dövrdə geniş populyarlıq qazanmışdı. Digər mahnım isə Xocalı faciəsinə həsr etdiyim, Vidadi Babanlının sözlərinə olan “Hoydu dəlilərim, hoydu!” (Elxan Əhədzadənin ifasında) adlanırdı ki, qısa müddətdə televiziyada işləyərkən məşhurlaşdı. Demək olar ki, bu mahnını üç, dörd, hətta beş dəfə efirə verirdilər. “Gülümsə üzümə, Azərbaycanım” (Flora Kərimovanın ifasında) adlı mahnım da vətənpərvərlik ruhunda yazdığım populyar nümunələrdən idi. Bu mahnını uşaqların timsalında Xəyalə Manaflı da oxuyaraq onların da Azərbaycanın dərdinə şərik olduqlarını göstərmişdi. Həmin mahnılar 1990-cı illərin əvvəllərində əsgərlərimizin döyüş ruhunun yüksəlməsinə çox böyük kömək edirdi.

Televiziyada çalışarkən müharibə və döyüşçülərimiz ilə bağlı “Durna teli” verilişinin redaktoru oldum. Qeyd edim ki, həmin dövrdə hər insan televiziyaya rahatlıqla, tapşırıqsız, tanışsız işə qəbul edilə bilməzdi. Nə qədər istedadlı, bacarıqlı olsan da buna əhəmiyyət verməyəcəkdilər. Aqşin müəllimin böyüklüyü həm də onda idi ki, tələbəsinə etimad göstərdi, inandı və maraqlı, yaradıcı bir işlə məşğul olması üçün ona köməklik etdi. Heç yadımdan çıxmaz Aqşin müəllim həmişə deyirdi ki, “gənc, istedadlı, bacarıqlı kadrlar, düşünən beyinlər televiziyaya cəlb olunmalıdırlar ki, xeyir versinlər”. Beləliklə mən doqquz ilə yaxın orada çalışdım. Daha sonra radionun “Xarici ölkələrə verilişlər” şöbəsinə keçdim. Hələ tələbəlik vaxtlarında radioda müxbir kimi işləyərkən bir çox sənət adamları ilə yanaşı A.Əlizadə haqqında da materiallar hazırlayıb efirə vermişdim. Əfsus ki, o dövrdəki texniki imkanların məhdudluğundan həmin verilişlər bu günə kimi qalmayıb.

A.Əlizadə həqiqətən çox seçilən, sayılan, fərqlənən, özünün üslubu olan müasir Azərbaycan bəstəkarlarındandır. Hesab edirəm ki, o da Ü.Hacıbəyli, M.Maqomayev, Q.Qarayev, F.Əmirov, C.Hacıyev, S.Hacıbəyov və başqaları kimi Azərbaycan musiqisinin klassiklərindəndir.

Azərbaycan bəstəkarlıq məktəbinin dahilik timsalı olan Ü.Hacıbəylidən başlayaraq digər sənətkarlarımızın da yaradıcılığını sevirəm və yüksək dəyərləndirirəm. Onların arasında Bül-bül adına orta ixtisas musiqi məktəbinin direktoru, böyük hörmət bəslədiyim Nazim Əliverdibəyov mənə çox əziz olan, heç vaxt unuda bilməyəcəyim bəstəkardır. Ancaq A.Əlizadə isə ömür boyu minnətdarlıq duyduğum və yüksək qiymətləndirdiyim Azərbaycan bəstəkarlıq məktəbinin layiqli nümayəndəsi olan sənətkardır. Mən Aqşin müəllimi həmişə ehtiramla yad edir və ona rəhmət diləyirəm.

Bakı, Azərbaycan.
23.08.2021

**Könül NƏSİROVA**
Musiqişünas, Əməkdar müəllim,
professor

## SİLİNMƏZ XATİRƏLƏR



*Aqşin Əlizadə və Flora Xəlilzadə. 2003-cü il*

Dünyada elə insanlar olur ki, işıq saçan günəşə bənzəyir. Təbiətin onlara bəxş etdiyi heyrətamiz keyfiyyətlərə malik, hər zaman mehriban və öz böyüklüyünü qabartmayan insanlar. Tanıdığım belə şəxsiyyətlərdən biri xalqımın qüdrətli sənətkarı, xatirəsi mənə əziz olan unudulmaz müəllimim Aqşin Əlizadədir.

Artıq illərdir ki, Bakı Musiqi Akademiyasının bəstəkarlıq kafedrasında, müxtəlif tədbirlərdə ünsiyyətdə olduğum, dərs aldığım, hər dəfə yenidən kəşf etdiyim Aqşin müəllim bizimlə yoxdur. Lakin xoşbəxtlikdən, insan yaddaşında xatirələr yaşayır, bizi keçmişə bağlayır, hərarəti ilə qəlbimizi isidir. Aqşin müəllim haqqında xatirələrimi bölüşmək istərdim...

Onu düşünəndə nəzərimə xalqına, sənətinə, ailəsinə bağlı bir insan və "Babək" baletinin dönə-dönə xatırladığım ilk tamaşası gəlir. A.Əlizadəni yaxından tanıyanlar təsdiqləyərlər ki o, necə həssas və alicənab insan kimi seçilirdi. Bütün məziyyətləri özünəməxsus idi, yumşaqlığı ilə qətiyyəti arasında məsafənin azlığı onu çoxundan fərqləndirirdi.

A.Əlizadənin hörmətini qazanmaq çox çətin idi. O, bizim xeyirxah, mənəvi müəllimimiz idi və onlu günləri yada salanda kövrəlsəm də, qürur hissi keçirirəm. Fəxr edirəm ki, istər musiqi sənətimizin, istərsə də musiqi təhsilimizin belə görkəmli nümayəndəsi olub.

Pedaqogika Aqşin müəllimin xüsusi sevgiylə yanaşdığı, zövq aldığı iş idi. Onun davranışı, hər kəsi öz dilində, özünə uyğun dindirməsi də onun xüsusi istedadının, insanlığının göstəricisiydi. O, hər bir tələbəyə diqqətlə yanaşar, onlar üçün əlindən gələn köməyi göstərərdi. Gənclərlə işləməyi, təmasda olmağı çox sevərdi və zarafatla deyərdi ki, "sizinlə çalışmaq mənə xoşdur. Çünki özüm də cavanlaşıram".



***AMK nəzdində Musiqi Kollecində***
***Aqşin Əlizadə ilə görüş. 19.11.2004-cü il***

Həqiqətən, təhsil fədaisi, uğurlarımıza sevinən müəllim idi. O, bizim elm və yaradıcılığa gedən yolda uğur salnaməmizi yazacağımıza, musiqi təhsilimizə layiqli töhfə verəcəyimizə inanırdı. Hər sənətkarın öz yaradıcılığında yetəcəyi bir zirvə olur. Bu mənada unudulmaz bəstəkarımız A.Əlizadənin "Babək" baletini, musiqi aləmindəki zirvəsini dönə-dönə xatırlayırıq. Konservatoriyada oxuduğum illərdə ilk dəfə onun sinfinə partituraların qiraəti dərsinə gələndə, bu balet haqqında silinməz xatirələrimlə bölüşdüm. Əsərin musiqisinin heyranedici olduğunu, Şər qüvvələrinin qəribə hisslər aşıladığını bildirdim. Mənə elə gəldi ki, o, bu sözlərdən razı qaldı və sonra dedi: "Bir həkim dostum söyləyir ki, Şər qüvvələrinin təsviri onda qorxu, Babəkin ölümü isə inam hissi oyadır, çünki bu əsl mənada qəhrəmanın ucalması və əbədiyyətə qovuşmasıdır". O, azacıq düşünəndən sonra əlavə etdi: "Mən şadam ki, bunu musiqidə ifadə edə bilmişəm, bu, musiqidə duyulur".

Aqşin müəllim dərslərdə yeni mövzunu izah edərkən çoxsaylı musiqi nümunələrini misal gətirirdi. Əslində bu dərslər daha çox musiqi sənəti, yaradıcı insanlar haqqında düşüncələrə bənzəyirdi. Onda orta mövqe yox idi, mərd insan olduğundan, düşündüyü səmimi fikirləri yerində-yatağında işlədərdi. Dərs zamanı bir çox müxtəlif problemlərə toxunurdu, lakin hansısa naməlum səbəbdən söhbət daima Üzeyir bəyə qayıdırdı. Hədsiz dərəcədə sevdiyi sənətkar haqqında həmişə dəyərdi: "O, təkcə dahi bəstəkar və alim deyil, həm də böyük humanist idi. Heyrətamiz mənəvi saflığa, mehribanlığa, incəliyə malik dahi insan idi"...

Aqşin müəllim bizim suallara tələsmədən, yavaş-yavaş cavab verirdi. Müasir yazı texnikası barədə də söhbətlərimiz olurdu. O, musiqişünas-tələ-



***Soldan sağa: Züleyxa İsmayılova, Gülzar Hətəmzadə, Aqşin Əlizadə, Zeynəb İsmayılzadə. 2005-ci il***

bələrə onları diqqətlə öyrənməyi tövsiyə edirdi. Özü də yeniliklərlə maraqlanan bir insan idi. Tez-tez sevdiyi İ.Stravinskinin yaradıcılığındakı müxtəlif təmayüllər və dodekafoniya yazı texnikasından söz açırdı. O, bəstəkarın "Petruşka" və "Müqəddəs bahar" baletlərini, hansı ənənəvi orkestr vasitələri ilə maraqlı effektlər əldə etməsini misal göstərirdi. Aqşin müəllim deyirdi ki, sənətkarın müasirliyi yeni yazı texnikası ilə ölçülmür, onun musiqi düşüncəsi, həyata baxışları, fantaziyası ilə müəyyən edilir.

O, bizim diqqətimizi partituraların ən kiçik detallarına yönəldirdi, bəstəkarların hansı yeni üsullarla bu və ya digər bədii effekti əldə etməsini açıqlayırdı. Dəfələrlə vurğulayırdı: "Orkestr partituralarının qiraəti fənninin əsas məqsədi ondan ibarətdir ki, siz musiqi mətninin bütün elementlərini anlayasınız".

Aqşin müəllim orkestr fakturasına diqqətlə yanaşaraq, əsərlərin obraz aləminin ifadəsində alətlərin nə dərəcədə böyük rol oynamasını göstərməyə çalışırdı. Bədii təmayüllərin təkamülü, musiqi mədəniyyətinin əsas tarixi mərhələləri, bəstəkar üslubları və hətta eyni əsərin müxtəlif redaktələrinin fərqini izah edirdi. Bu biliklər biz musiqişünas-tələbələr üçün olduqca vacib idi, çünki musiqi əsərlərinin qanunauyğunluqlarını, özəlliklərini dərindən anlamağa imkan yaradırdı. O, həmişə söyləyirdi ki, "orkestr və fortepiano fakturası bərabər deyil, fortepiano pyesini orkestrləşdirəndə və ya hansısa partituranı fortepiano

üçün işləyəndə, faktura, registr, ştrixlərin fərqini nəzərə almaq lazımdır". Melodiyanı dəyişməyi tövsiyə etmirdi, lakin vurğulayırdı ki, "həm melodik, həm də bas xətlərində ikiləşmələrin ixtisarı mümkündür". Geniş akkord fakturasında akkompanement və digər səslər müxtəlif registrlərdə yerləşəndə, arpecio çalınma tərzini seçməyi tövsiyə edirdi. Deyirdi ki, fortepiano pedalı – orkestr pedalını əvəz edə bilir və funksional bas səsini, harmonik funksiyaların ardıcıllığını qorumağa çağırırdı, çünki onun fikrincə, fortepiano işləmələrində ən çox dəyişikliklərə uğrayan məhz harmonik strukturdur.

Maraqlıdır ki, Aqşin müəllim öz əsərlərindən heç vaxt misal gətirmirdi və bu heyrətamiz təvazökarlıq çox cəlbedici idi. Onun müəllimlik fəaliyyətində "mən" anlayışı tamamilə yox idi.

A.Əlizadə qətiyyən əmin idi ki, təkcə "texniki hazırlıqla" musiqişünas yetişdirmək mümkün deyil. O, tələbələrin biliyinin dərinliyinə, ümumi mədəni səviyyəsinə böyük əhəmiyyət verirdi. Musiqi əsərlərini konsertlərdə qulaq asmaq, dərindən öyrənmək mədəniyyətini aşılayırdı, orkestr məşqlərinə getməyi, fortepiano üçün orkestr işləmələrini çalmağı tövsiyə edirdi. Heyrətamiz asanlıqla müxtəlif musiqi misallarını gətirirdi.

Aqşin müəllim musiqişünasın formalaşmasında bədii ədəbiyyatın əhəmiyyətini yüksək qiymətləndirirdi. Onun məsləhətləri özünün ədəbiyyata olan böyük marağı və biliyinə əsaslanırdı. Xüsusi sevgi ilə Azərbaycan yazıçı və şairləri Nizami, Füzuli, Cəlil Məmmədquluzadə, Mikayıl Müşfiq, Əliağa Vahidin əsərləri barədə danışırdı. Səməd Vurğunun "Vaqif" dramından parçaları əzbər oxuyurdu. Rus ədibləri arasında Fyodor Dostoyevski, Lev Tostoy və Sergey Yesenini sevirdi. Həmişə deyirdi ki, sözlərdən qorxmaq lazım deyil, sadəcə onların arxasında nə olduğunu aydın başa düşmək lazımdır. Aqşin müəllim söyləyirdi: "Kitabsız insan həyatını təsəvvür etmirəm. Gənclik illərində hansısa kitabı əldə etmək üçün saatlarla kitab mağazasının qabağında dayandığımı, Qara Qarayevin mənə yeni maraqlı kitabları verdiyini yaxşı xatırlayıram".

Bu zaman o, ədəbiyyatda və incəsənətdə şərtiliyin mühüm əhəmiyyət kəsb etdiyini qeyd edirdi. Onun fikrincə, incəsənəti şərtiliksiz təsəvvür etmək olmaz. Baletin şərtiliyi barədə danışaraq, burada plastik hərəkətlər vasitəsilə sevinc, kədər hisslərinin insanlar tərəfindən qəbul olunmasını vurğulayırdı: "Biz bütün bunları dərk edə bilirik, baxmayaraq ki, reallıqda insanların rəqs vasitəsilə ünsiyyət qurmadıqlarını anlayırıq. Musiqidə, incəsənətin digər növlərində olduğu kimi, şərtilik güclüdür, lakin mən əsəri bəstələyəndə çalışıram ki, onda həddən artıq simvollar olmasın". O deyirdi ki, "yaradıcı insan müxtəlif janrların sərhədlərini və öz imkanlarını bilməlidir. Sənətkar nə dərəcədə təcrübəli olsa da, yeni əsəri bəstələyəndə, yolun başlanğıcındadır, sanki ilk dəfədir ki, qələmi əlinə alır. Böyük təcrü-

bəyə malik ola bilər, lakin hər yeni əsər özünəməxsus şəkildə yaranır. Musiqi obrazı düşüncədən, hərdən isə elə bil kortəbii, təsadüfi təəssüratdan formalaşır. Demək olmaz ki, onlardan hansı daha yaxşıdır, lakin hər birinin dərin məzmunu olur".

Çox güman ki, A.Əlizadənin bu fikirləri onun təxəyyülündə musiqi obrazlarının hansı yolla yaranmasını göstərir. Sonrakı illərdə də simvol anlayışından tez-tez istifadə edirdi. Mən hər zaman düşünürdüm ki, o simvol deyəndə, nəyi nəzərdə tutur. Lakin onun fikirlərinin axınına mane olmaq istəmədiyim üçün bunun nə olduğunu soruşmadım. Yalnız bir məqamı anladım ki, simvol – Aqşin müəllim üçün çoxmənalı anlayış idi, çünki o, etnik, milli, obraz, dini, melodik və s. simvollar haqqında danışırdı...

İllər keçdi, Q.Qarayevin melodikasına həsr olunmuş dissertasiya üzərində çalışmağa başladım. O, həmişə iş prosesi ilə maraqlanırdı, böyük sənətkar haqqında xatirələrini bölüşürdü, dəyərli məsləhətlər verirdi. Əslində, Aqşin müəllimin fikirləri melodika probleminə olan münasibətini ifadə edirdi. Əksər Azərbaycan bəstəkarları kimi, melodik amil onun üçün olduqca vacib idi və "melodik etalon" kimi Üzeyir bəyin əsərlərini misal gətirirdi. Lakin müəyyən obraz aləminin ifadəsində melodiyanın "yersiz" olduğunu vurğulayırdı və Ü.Hacıbəylinin "Koroğlu" operasında mənfi qəhrəmanların reçitativlər vasitəsilə səciyyəsini məhz bununla bağlayırdı.

Poetik mətnin melodikada tətbiqi yolları onu düşündürən problemlər sırasında idi. C.Cahangirovun "Füzuli" kantatasında əruz vəzninin melodikada nə dərəcədə düzgün ifadə olunması A.Əlizadəni valeh edirdi. O, deyirdi ki, "biz əruz vəzninin Azərbaycan musiqi dilinə təsirini öyrənməliyik ki, melodik və ritmik proseslərlə bağlı "gizli" məqamları özümüzə aydın edək". Bu və digər çoxsaylı fikirlər onun dərin ədəbi biliklərindən, düşüncələrindən xəbər verən müşahidələr idi.

Aqşin müəllimin fikrincə, musiqi sənətini məhdudlaşdırmaq olmaz, melodik düşüncə üfüqlərini genişləndirmək, stereotipləri qırmaq, musiqidə sərhədlərin olmadığını sübut etmək lazımdır. Lakin məqam, melodik və ritmik arxitipləri qorumağa çağırırdı, inkar edirdi ki, melodik musiqi - səsin təbiiliyinə əsaslanır, harmoniya anlayışı yanlış deyil və hər kəs musiqinin emosional təsirini duyur.

...Rəfimdə A.Əlizadənin dəsti-xətti ilə avtoqraf yazdığı əsərlərinin siyahısı sıralanıb. Yaxşı yadımdadır, onu bağışlayanda, necə həyəcanlı və eyni zamanda, qürurlu idi. Söylədi ki, bəzi əsərləri burada yer almayıb və yeni siyahını hazırlayacaq...

Görkəmli bəstəkarı və müdrik insanı, 1990-cı illərdə ölkədə baş verən xaos çox sarsıtdı. Onun qəlbində Qarabağ nisgili yaşayırdı və təəssüflər olsun ki, o doğma torpaqlarının qayıdacağı günü görmədi. Lakin Aqşin müəllim hər zaman gələcəyi nurlu görən, xalqının qələbəsinə, mərdliyinə, iradəsinə inanan

insan idi. Yalnız belə şəxsiyyət qəhrəmani "Babek" baletini, parlaq simfonik əsərləri və milli "Cəngi"lərimizin ən gözəl nümunələrindən birini yarada bilərdi. Bu bir daha sübut edir ki, sənətkar ömrü bitmir və davam edir.

Özəl məziyyətləri olan Aqşin müəllimin, bu böyük insanın qəlbimizdə elə bir abidəsi var ki, biz heç zaman onu unuda bilmərik. Bu bir həyat fəlsəfəsidir ki, insanlar yaddaşlardan silinmir. Xatirələrdə, könüllərdə özünə əbədilik qazanır. Aqşin müəllimin xatirəsi Azərbaycan xalqının, tələbələrinin, sevənlərinin qəlbində görkəmli bəstəkar, gözəl insan və pedaqoq kimi həmişə yaşayacaq.

Bakı, Azərbaycan.
10.12.2021

**Rəna HİDAYƏTZADƏ**
Musiqişünas

## AQŞİN ƏLİZADƏ – ƏVƏZSİZ MÜƏLLİMİM



*Aqşin Əlizadə tələbələri Seva Mamedova və Leyla Zöhrabova ilə. 2004-cü il*

Həyatda elə şəxsiyyətlər var ki, onlar haqqında danışmaq, fikir yürütmək çox çətin və məsuliyyətli olduğu qədər, həm də şərəflidir. Onlardan biri də Azərbaycanın görkəmli bəstəkarı, mənim əvəzsiz müəllimim Aqşin Əlizadədir. Qüdrətli sənətkarımız böyük pedaqoq olmaqla yanaşı, həm də bir çox bəstəkarlar nəslinin tərbiyəçisidir.

Azərbaycan Dövlət Konservatoriyasında (hazırkı Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) təhsil aldığım dövr 1985-1990-cı illərə təsadüf edir. Böyük

fəxrlə deyə bilirəm ki, biz həmin dövrdə korifey sənətkarlardan, böyük müəllimlərdən təhsil almışıq. Mən musiqişünaslıq fakültəsində oxusam da, bilavasitə görkəmli bəstəkarlarımızla da ünsiyyətdə olmuşam. Məsələn, sərbəst polifoniya fənnindən mənə dahi bəstəkar Qara Qarayevin oğlu tanınmış sənətkar Fərəc Qarayev, alətşünaslıqdan isə A.Əlizadə dərs demişdir.

Onun haqqında danışarkən ilk öncə səmimiyyəti, sadəliyi, təvazökarlığı gözlərim önündə canlanır. Aqşin müəllimin sadə və maraqlı söhbətlərini dərsdən sonra da saatlarla dinləyə bilərdim. O, söhbətlərində yaradıcı şəxsiyyət kimi həmişə yeni-yeni əsərlərinin ərsəyə gəlməsində çəkdiyi əziyyətləri xüsusi ilə vurğulayırdı. Bir dəfə yeni simfoniya yazmaq haqqında düşünərkən məndən dahi bəstəkar Dmitri Şostakoviçin 10-cu simfoniyasını dinləyib dinləmədiyimi xəbər aldı. Cavab verdim ki, bu simfoniya o qədər də məşhur olmadığı üçün indiyə kimi dinləməmişəm. O, isə böyük həvəslə “mütləq dinlə! Bu simfoniya şedevr əsərlərdəndir” - dedi.

Vəfatından bir-iki il əvvəl isə Bakı Musiqi Akademiyasının dəhlizində onunla rastlaşanda çox sevindim və yaradıcılıq fəaliyyəti haqqında maraqlandım. Mənə opera yazmaq fikrində olduğunu, son zamanlar dahi bəstəkarların səhnə əsərlərini dinlədiyini söylədi. Ona yaradıcılıq uğurları arzuladım.

Aqşin müəllim həmişə cəsur kəşfiyyatçı, partizan, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin bacısı oğlu olması ilə fəxr edirdi.

Tələbəlik dövrümdə mənə müəllifi olduğu “Təntənə” adlı vokal-simfonik əsərinin partiturasını bağışlamışdı ki, onu bu günədək müəllimimin ən böyük hədiyyəsi hesab edirəm. Mənim üçün əziz olan bu kantatanı hər dəfə sevərək dinləyərkən maraqla səhifələyirəm. Axı, həmin əsər sevimli bəstəkarımız A.Əlizadənin zəhmətinin bəhrələrindən biridir.

Təsadüfi deyil ki, məhz onun yaradıcılığına olan böyük marağım konservatoriyanı bitirərkən diplom işimi IV simfoniyasına həsr etməyimlə nəticələndi. Nə gözəl ki, Aqşin müəllimi tanımışam, belə sənətkardan dərs almışam. Allah sizə rəhmət eləsin böyük bəstəkar! Ruhunuz qarşısında baş əyirəm.

Bakı, Azərbaycan.
18.09.2021

**Müzəffər ATICI**
Kozan Kolleci Eytim Kurumlarının Müzik Öğretmeni

## MUHTEREM HOCAM AKŞİN ALİZADE HAKKINDA

1998-2003 yılları arasında yüzüncü yıl üniversitesi güzel sanatlar fakültesi müzik öğretmenliği okurken değerli hocam derslerime girdi. Bir gün birlikte piyano dersi yaparken aynen şöyle dedi... "Evladım tane tane çal hissederek ve yaşayarak çalmalısın. Her eseri çok dinlemelisin; dinlemelisin ki sende çalarken hatırlamalısın ve hâkim olmalısın" dedi. O nasihat kulağıma küpe oldu. Tüm çaldığım eserler ile bütünleşmemi sağladı. İyi ki sizi tanımışım güzel insan büyük insan.




***Muhterem hocam Akşin Alizadeyi hər zaman anıyorum***

Adana, Türkiye.
13.03.2019

**Fatih MARUFOĞLU**

## MÜZİKLE YAŞAMAYI ÖĞRETEN HOCAM



*Aqşin Əlizadə. Van, 1999-cu il*

Akşin Hocam birgün derste bana Türk ve Dünya edebiyatından birkaç yazarın eserleri hakkında sorular sordu ve edebiyata ne kadar ilgili olduğumu, okuma alışkanlığımın olup olmadığını anlamaya çalıştı. Müziğin sadece enstrüman çalmak olmadığını bir müzisyenin ve öğretmenin okuyan, araştıran, aydın bir insan olması gerektiğini her fırsatta vurgulardı. Bestecilerin yaşamlarını, eserlerini öyle güzel bir üslupla anlatırdı ki, sınıfın kapısını açıp dışarı çıktığımızda onlarla karşılaşabileceğimiz hissine kapılırdım. Onların eserlerindeki sevinçleri, acıları hüzünleri bize en güzel şekilde anlatır ve hissettirirdi. Müzikle yaşamayı öğreten hocam... Ruhunuz şad olsun.

Van, Türkiye.
17.01.2019

**Nərminə ZEYNALOVA-ÖZLÜK**
Bəstəkar

## BÖYÜK MÜƏLLİM, TƏVAZÖKAR VƏ MEHRİBAN İNSAN

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında magistraturada təhsil aldığım illərdə (2005-2007) Aqşin Əlizadə mənə orkestrləşdirmə fənnini tədris edib. Aqşin müəllim fənnimizin orkestrləşdirmə olmasına baxmayaraq dərslərdə bizə musiqi tarixi, bəstəkarlar və incəsənətə dair bir çox mövzularda maraqlı məlumat verirdi. S.Prokofyev musiqisindəki dərinlik, partituralarda nələrin əsas olması, R.Vaqnerin siyasi baxışları, öz əsərləri və onların üzərində iş prosesi və s. onunla dərslərdə müzakirə etdiyimiz mövzular idi. Uzun söhbətdən sonra isə bəzən artıq yorulduğunu və zehninin çox dolu olduğunu deyərdi. Onun dərslərdə olduqca maraqlı və müxtəlif mövzularda etdiyi söhbətləri, ömür boyu bizə dərs olacaq məsələlər haqqında söylədiyi fikirlər yaxşı yadımdadır.



***Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində tədbir. Soldan sağa: Polad Bülbüloğlu, Vasif Adıgözəlov, Tofiq Bakıxanov, Aqşin Əlizadə. Arxa sırada: Azər Rzayev və başqaları***

A.Əlizadədə diqqətimi cəlb edən xüsusiyyət onun uzun və müvəffəqiyyətli yaradıcılıq yoluna malik bəstəkar kimi təvazökar və eyni zamanda mehriban olması idi. Hər dəfə dərsə gələndə üşüməməyimiz üçün dərhal yerindən sıçrayıb pəncərəni bağlamağı, yaxud da məni yolun qarşı tərəfində görəndə əgər sözü varsa yolu keçməyimə razı olmayıb, özünün yaxınlaşması kimi gözəl davranışları onun böyük şəxsiyyətindən, yüksək insani keyfiyyətlərindən irəli gəlirdi.

Bir gün dərsimiz yox idi. Sinfin yanında dayandığımı görən Aqşin müəllim söhbət etmək üçün məni yanına çağırdı. Uzun söhbətdən və sorğu-sualdan sonra isə belə dedi: "İnsanla danışmaq vacibdir, çünki səninlə bu söhbəti etməzdən əvvəl adi bir tələb qız idin. Kim bilər ki, sənin düşüncələrində nə var?"

Aramızdakı xoş və səmimi münasibət təhsilimi başa vurduqdan sonra da davam edirdi. Hətta Türkiyə Cümhuriyyətinə köçdükdən sonra da əlaqə saxlayırdıq. Bir gün anam Türkiyədəki konsertimlə bağlı afişanı Azərbaycan Bəstəkarlar İttifaqına apararkən Aqşin müəllimə rast gələndə böyük müəllimim onun vasitəsilə mənə öz salamını və xoş sözlərini çatdırmışdı. Bu ondan aldığım son xəbər idi. Sonralar səhhəti ilə bağlı bikef olduğunu eşitdim. A.Əlizadənin sinfində oxuduğum və onunla bir qədər də olsa ünsiyyət qura bilmək imkanım olduğu üçün Tanrıya minnətdaram.

İzmir, Türkiyə.
04.01.2020

**Pikə AXUNDOVA-TALIBLI**
Bəstəkar, sənətşünaslıq üzrə
fəlsəfə doktoru

## SADƏ VƏ ALİCƏNAB TƏBİƏTİLƏ BİZLƏRƏ ÖRNƏK OLAN BƏSTƏKAR

Aqşin Əlizadə mənim həyat yolumda əvəzsiz rol oynamış bir şəxsiyyətdir. Ondan dərs almaq mənə nəsib olduğu üçün özümü çox şanslı hiss edirəm. Çünki Aqşin müəllimlə nəinki dərs, söhbət əsnasında da çox biliklər toplayırdım və bu bilikləri bu gün də öz fəaliyyətimdə tətbiq edirəm. Olduqca təvazökar, sadə insan olan Aqşin müəllimin yaradıcılığına xas olan orijinal üslub tərzi onun pedaqoji fəaliyyətində də özünü açıq-aydın göstərirdi. Mən onun sinfində "Partitura oxunuşu" və "Orkestrləşdirmə" fən-



***Soldan sağa: Oqtay Zülfiqarov. Ayaq üstə: İbrahim Məmmədov, Aqşin Əlizadə (beşinci), Ramiz Mustafayev, Hacıxan Məmmədov, Nazim Əliverdibəyov və xarici qonaqlar***

nindən dərs almışam. Orkestrə düzgün münasibət, alətlərin tembr uyğunluğu, onlardan qənaətlə istifadə və bu kimi bir sıra orkestr prinsiplərini bizə öyrədən Aqşin müəllim eyni zamanda sadə, alicənab təbiətilə bizə örnək idi.

Orkestr bilikləri ilə yanaşı Aqşin müəllimdən milli musiqimizdən düzgün yararlanmaq, onları orijinal şəkildə müasir bəstəkarlıq texnikası ilə uzlaşdırmaq kimi mühüm məqamları da öyrənirdik.

Mərhum anası Bikə xanımın adını daşıdığım üçün mənə hər zaman onunla bağlı xatirələrini də danışardı. Bu söhbətlər zamanı onun saf, təmiz təbiəti, qəlbinin genişliyinə heyran qalırdım.

Aqşin müəllim bütün bunlarla bərabər mənim Bəstəkarlar İttifaqına üzv olmağımda da böyük rol oynamışdır. Onun mənim üzvlüyüm üçün verdiyi rəy sənədini bu gün də ən dəyərli xatirəm kimi qoruyub saxlayıram.

Onunla son görüşümüz evində oldu. Artıq səhhəti ilə əlaqədar işə gəlmirdi. Xeyli söhbət etdi, nəsihət verdi. Sonda isə yeni çapdan çıxmış 5-ci

simfoniyanın partiturasını mənə bağışladı. Mənə öyrətdiyi bütün biliklər üçün Aqşin müəllimin ruhu qarşısında baş əyirəm.

Bakı, Azərbaycan.
14.06.2019

**Kərəm ƏKBƏROV**
Bəstəkar

## AQŞİN ƏLİZADƏNİN QİYMƏTLİ TÖVSİYYƏLƏRİ VƏ MÜDRİK FİKİRLƏRİ MƏNİM ÜÇÜN HƏYAT MƏKTƏBİDIR


*Aqşin Əlizadə. Şüvəlan, 2003-cü il*

Aqşin Əlizadə böyük bəstəkar və sənətkar olmaqla yanaşı çox yüksək keyfiyyətlərə malik gözəl insan idi. Xoşbəxtəm ki, Aqşin müəllimin tələbəsi olmuşam və belə bir böyük insandan dərs almışam. Mən A.Əlizadəni əyani olaraq II kursda oxuyarkən tanımışam. O, bizə alətşünaslıq fənnindən dərs deyirdi. Aqşin müəllimin söhbətlərindən doymadığım üçün həmişə dərsə çox böyük həvəslə gedirdim. Dərslərimiz hədsiz dərəcədə maraqlı keçir, həm alətşünaslığı, həm də musiqinin, həmçinin incəsənətin bütün sahələrini əhatə edirdi. Biz əsasən dünya və Azərbaycan bəstəkarlarının əsərlərini təhlil edir, onların partituralarını nəzərdən keçirirdik. Mən hər dərsə yeni partitura aparardım. Yadımdadır bir dəfə M.Ravelin "İspan rapsodiyası" əsərini gətirmişdim. Aqşin müəllim həmin əsəri bizə incəliklə izah edirdi. "Burada simlilərin bölünməsinə baxın, burada formaya fikir verin" və s. deməyini xatırlayıram. Biz tələbələr də diqqətlə ona qulaq asardıq. Gözəl günlər idi...

A.Əlizadənin gözəl xüsusiyyətlərindən biri də çox təvazökar insan olması idi. O, öz əsərlərindən çox söz açmaz, hər dəfə başqa bəstəkarların təhlil etdiyimiz partituralarını kənara qoyarkən "Görürsünüz necə dahi bəstəkarlar yaşayıb bu dünyada ?" deyərdi. Dərslərimiz bitəndən sonra adətən Aqşin müəllimlə sinifdən birlikdə çıxar, söhbət edə-edə pilləkənləri enərdik. Bir dəfə S.Prokofyev haqqında söhbət açıldı. Pilləkanları enərkən Aqşin müəllim dayandı və mənə dedi: "Kərəm bir dəfə burada Qara Qarayevlə birgə yuxarı qalxarkən S.Prokofyevdən danışırdıq. Mən ona S.Prokofyevin ən dahi əsərinin onun üçüncü simfoniyası olduğunu dedim. Qara müəllim bir az düşündü və söylədi ki, düz deyirsən". Onu da qeyd edim ki, Aqşin müəllim S.Prokofyevin yaradıcılığını çox sevirdi. Mən ona P.Çaykovskinin simfoniyaları, L.V.Bethovenin sonataları və s. haqqında çoxlu suallar verirdim. O da suallarımı həvəslə cavablandırırdı. Biz Üzeyir bəyin heykəlinin yanına çatıb dayananda Aqşin müəllimdən hansı tərəfə gedəcəyini soruşdum. O, mənə Şüvəlanda bağ evində yaşadığını söylədi və ora gedəcəyini bildirdi. Müəllimimdən çox xahiş etdim ki, onu bağa qədər maşınımla aparmağıma icazə versin. Bir qədər təkid etdikdən sonra Aqşin müəllim razılaşdı və maşına əyləşib yola düşdük. Mən çox sevinirdim ki, belə böyük, dahi şəxsiyyətlə yolda söhbət etmək imkanım yaranıb. Biz yol boyu musiqi barəsində danışırdıq. Mən o zaman A.Əlizadənin "Kənd süitası" əsərinə yenicə qulaq asmış və heyran olmuşdum. Buna görə də fürsətdən istifadə edib Aqşin müəllimə həmin əsərlə bağlı suallar verdim və bu əsəri çox sevdiyimi bildirdim. Aqşin müəllim gülümsəyərək bu əsəri özünün də bəyəndiyini dedi. O, Azərbaycan kəndlərinin həyatını, yaylaqları, kəndin soyuq qış gecələrini, bayramlarda uşaqların əyləncəsini və s. təsvir etmək istədiyini söylədi. Mən söhbət əsnasında ona əsərin *Adajio* hissəsində valtornada səslənən melodiyanın sanki soyuq qış meşəsinin sədasını əks etdirdiyini bildirdim. Aqşin müəllim mənimlə razılaşdı və "düz deyirsən bu belədir" deməklə fikrimi təsdiqlədi. Beləliklə, biz Şüvəlana çatdıq, amma səmimiyyətlə qeyd etmək istəyirəm ki, mən yolun daha uzun olmasını arzu edərdim. Çünki dahi bəstəkarla vaxt keçirtmək, onun dəyərli tövsiyələrini dinləmək mənim üçün böyük şərəf idi. Aqşin müəllimin evinə çatanda onu qapıda həyat yoldaşı qarşıladı. O, məni yoldaşına təqdim edib "Kərəm mənim sevimli tələbələrimdəndir. O, musiqini çox sevir" dedi. Böyük bəstəkarın mənim üçün belə xoş sözlər söylədiyinə çox sevindim. Aqşin müəllimlə yol yoldaşlığımız bir neçə ay onun mərkəzdəki mənzilinə köçməsinədək davam etdi. O, ailəsinə çox bağlı bir insan idi. Dayısı Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadəni tez-tez xatırlayar, onu çox sevdiyi üçün döş cibində hər zaman

şəklini saxlayardı. Əfsanəvi qəhrəmanın öz bacısına, yəni Aqşin müəllimin anasına bağışladığı fotonun arxasında “Aqşinimə yadigar” sözləri yazılmışdı. O, həmin şəkili bizə hər dəfə qürurla göstərirdi.

İsti yay günlərinin birində A.Əlizadə mənə zəng edib onun haqqında sabah sənədli filmin çəkiləcəyini bildirdi, həmin filmdə tələbələrinin də iştirakını istədiyini dedi. Böyük bəstəkarın özündən əlli yaş kiçik tələbəsinə zəng edib onun haqqında çəkiləcək filmə dəvət etməsi təklifi məni çox sevindirdi. Bu onun çox böyük insani keyfiyyətindən irəli gəlirdi. Aqşin müəllim mənə Fərdin adlı tələbəsini də dəvət etdiyini söylədi və onunla görüşüb sabah birlikdə bağa gəlməyimizi xahiş etdi. Biz səhər Fərdinlə birlikdə Aqşin müəllimin bağına getdik. Evə daxil olanda filmin çəkiliş heyətinin orada olduğunu gördük. Onlar hazırlıq işləri apardıqları zaman biz Aqşin müəllimlə söhbət etdik, ona “Balet eskizləri” adlı yeni əsər üzərində işlədiyimi bildirdim. Aqşin müəllim həmin əsərdən bir fraqmenti səsləndirməyimi xahiş etdi. Mən məmnuniyyətlə onun təklifini qəbul etdim və böyük qürur hissi ilə əsərimdən bir hissəni ifa elədim. Onu da bildirim ki, bu musiqi parçası “Müdrikliyin zirvəsində” sənədli filmində (2012) öz əksini tapıb. Musiqimi dinlədikdən sonra A.Əlizadə əsərim haqqında çox dəyərli tövsiyələr verdi və uğurlar dilədi. Filmin çəkilişi başa çatdıqdan sonra biz Fərdinlə birlikdə şəhərə qayıtdıq.

A.Əlizadə kimi böyük bəstəkarın, dahi şəxsiyyətin tələbəsi olduğum üçün çox fəxr edirəm. Hər zaman qəlbimdə yaşayan gözəl müəllimimin qiymətli tövsiyələri, müdrik fikirləri mənim üçün həyat məktəbidir. Allah o böyük insana rəhmət eləsin.

Bakı, Azərbaycan.
11.11.2019

**Тамилла СУЛЕЙМАН**
Музыковед

## АКШИН АЛИЗАДЕ - ГЕНИАЛЬНЫЙ КОМПОЗИТОР, ДОБРЫЙ, СВЕТЛЫЙ, ИСКРЕННИЙ И ОТЗЫВЧИВЫЙ ЧЕЛОВЕК

Акшин Ализаде — выдающийся композитор, успешно продолживший великие традиции Узеира Гаджибекова и своих учителей — Кара Караева и Джевдета Гаджиева. Борец за развитие азербайджанской музыкальной культуры, за сохранение ее глубинной национальной самобытности, Акшин



***Акшин Ализаде и Тамилла Сулейман***

Ализаде в то же время шел в ногу со временем, используя самые новые средства музыкальной выразительности. Того же ожидал он и от своих учеников. Транслируя свои идеи не только сквозь призму своих произведений, но и своей педагогической и просветительской деятельностью, Акшин Ализаде стал своеобразной путеводной звездой для нескольких поколений музыкантов.

Как известно, Акшин Ализаде долгие годы вел в Бакинской Музыкальной Академии курсы инструментоведения и оркестровки. Нам — студентам-музыковедам первого курса — посчастливилось попасть в класс инструментоведения (2007-2008 гг.), а затем и в класс оркестровки (2008-2009 гг.) Акшина Ализаде. Помню, как прошло наше первое занятие. В аудитории была полная тишина. С уверенностью могу сказать, что восторг и страх охватил всех студентов нашей группы. Однако, уже к концу первого занятия мы осознали, что перед нами не только гениальный композитор, но и добрый, светлый, искренний, отзывчивый человек. А.Ализаде стал для нас — его учеников — другом, наставником.



***Акшин Ализаде и Эсмер Зейналова-Мамедова. Баку, 2008 г***

Из секретов мастерства оркестровки врезался в память и оказался наиболее ценным совет переписывать партитуры гениальных произведений. В эти годы сам Ализаде работал над завершением своего балета «Вальс надежды», который был поставлен на сцене Азербайджанского академического театра им. М.Ф.Ахундова в 2008 году. Композитор делился с нами идеями, фрагментами партитуры.

Поделился он также тем, что неожиданный для него подъем сил и любовь к жизни заставили его сменить название балета («Печальный вальс» на «Вальс надежды»). Благодарю Бога за то, что мне посчастливилось учиться у гениального композитора и выдающегося педагога Акшина Ализаде.

Баку, Азербайджан.
16.10.2021

**Aysel KƏRİM**
Bəstəkar

## SONUNCU GÖRÜŞ – AQŞİN ƏLİZADƏ XATİRƏLƏRİMDƏ

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında bakalavr təhsili aldığım illərdə görkəmli bəstəkar Aqşin Əlizadə ən dəyərli müəllimlərimdən olub. Bir gün dekan tələbələrin toplandığı iclasda bildirdi ki, Aqşin müəllim səhhətinə görə BMA-ya gələ bilmir. Dərslərində iştirak etmək üçün hər dəfə evinə getməlisiniz. A.Əlizadə 28 may küçəsində yerləşən mənzilində yaşayırdı. Hələ də həmin binanın qarşısından keçərkən çox təsirlənirəm.

Təqvim 2013-cü il. Əvəzolunmaz sənətkar A.Əlizadə ilə müəllim-tələbə kimi tanışlığımıza, yəni 8 il əvvələ qayıdıram. Onun səs tembri, gülərüzü, istiqanlı rəftarı, maraqlı həmsöhbət olmağını bu gün də xatırlayıram. Aqşin müəllim bizə simfonik alətlərin orkestrləşdirilməsi fənnini tədris edirdi. İlk dərsimiz tamamlandıqdan sonra əşyalarımı toplayıb tələbə yoldaşlarımla birlikdə getməyə hazırlaşırdım ki, sanki illərdir bir-birimizi tanıyırmış kimi doğma səslə "Aysel qızım, sən qal, sənə deyəcək sözlərim var" deyə Aqşin müəllim səsləndi. Heyrət içində,- əlbəttə Aqşin müəllim, qalaram deyib, qalxdığım stula yenidən



*Aqşin Əlizadə. 2004-cü il*

əyləşdim. Həyat yoldaşını səsləyib bizə çay gətirməyini xahiş etdi. O, çox səmimi xanım idi. Öncə nə baş verdiyini anlamadım. Bir qədər sonra Aqşin müəllim nəfəsini dərib sözə başladı. “Aysel, sənin istedadlı, yaradıcı gənc olduğunu bilirəm”. Utancaq halda əstəğfürullah dedim. O, sözünü davam etdirib belə dedi: “20 yaşındakı gənc qız üçün bu qədər fəlsəfi, mənalı düşüncə, səliqəli ömür hələ tez deyilmi qızım? Sən hər məsələyə çox diqqətli, həssas, məntiqli yanaşırsan. Bu əziyyəti özünə niyə edirsən? Deyib-gülən, əylənən vaxtlarındır. Dövrana əks gedirsən. Qoca dünyanın dərdi sənin o gənc ürəyinə sığmaz, çiyinlərin ağırlığı daşıya bilməz” dedi. Mən isə sükuta qərq oldum, nə söyləyəcəyimi bilmədim. Tövsiyələrinə görə ondan inciyib-incimədiyimdən əmin olmaq üçün dilimdən hansısa sözü eşidib arxayın olmaq istəyirdi. Keçirdiyi təlaşlı hissləri gözlərindən oxuyurdum. Asta səs tonu ilə “çayını soyutma, iç” dedi. Bir qədər düşünüb daha sonra necə oldu ki, bu qənaətə gəldiyini soruşanda üzündə təbəssüm yarandığını gördüm. Əslində dərs arası fasilədə psixoloji söhbətlərlə tələbələrin xarakterini öyrənməyə çalışdığını bildirdi və mənim yanaşma tərzimin yaşıdlarımdan çox fərqli olduğunu vurğuladı. Onu təmkinlə dinləyib,- anlayıram sizi Aqşin müəllim, amma inanın ki, özümdən asılı deyil, söylədim. Çox sıxıldığımı, həyəcanlı olduğumu hiss edib “səni sözə tutmayım, həm də o biri dərsə gecikdirməyim” deyərək yola saldı.

Növbəti dəfə o biri dərsə gecikib gecikmədiyimi soruşdu. Narahat olmaması üçün tam vaxtında çatdığımı bildirən kimi arxayın oldu və biz dərsə başladıq. Həmin dərs bitdikdən sonra yarı zarafat, yarı ciddi halda dedi ki, “bu dəfə səni o biri dərsə gecikdirmək fikrində deyiləm”. O, çox həssas insan idi. Özünü narahat hiss etməməsi üçün gecikdiyimi gizlətdiyimi başa düşmüşdü. Dedi ki, “həftəsonu əgər zamanın olarsa xahiş edirəm gəl, səninlə müzakirə etmək istədiyim mövzular var”. Təbii ki, mütləq deyib, sağollaşdım. Bu dəfə onun evinə dərsdən əlavə ilk dəfə olaraq qonaq kimi gedirdim. Məni görüb çox sevindi. Dərslərimdən yayındırdığını düşünüb məyusluq hissi keçirirdi. Mən isə Aqşin müəllimə narahatlığına səbəb olmadığını, dərslərimi hazırlayıb gəldiyimi bildirdim. Xəstəliyi ağırlaşdığına görə nitqində təngnəfəslik hiss edilirdi. İlk cümləsi bu oldu ki, “sözü çox uzatmadan demək istəyirəm ki, mənim danışdıqlarımı mümkünsə bir kənara yaz, qoy məndən yadigar qalsın. Nə vaxtsa həyatda olmayanda bunları xatirələrində danışarsan” dedi. Bir anlıq tutuldum və çox qəhərləndim. Daha sonra özümü ələ alıb, Aqşin müəllim niyə belə düşünürsünüz? Siz hələ çox yaşayacaqsınız və digər buna bənzər fikirlərlə ona təskinlik verməyə başladım. Halbuki, hər gün bir az daha solduğunun şahidi olurdum.

Aqşin müəllim söhbətlərində orkestrləşdirmənin ən çətin dərs olduğunu deyirdi. Onun qiymətli fikirlərinin bəzilərini oxucuların da nəzərinə çatdırmaq

istəyirəm. "Mən bilərəkdən özüm bu fənni seçmişəm. Musiqidə nədən danışırsan danış mütləq şəkildə gəlib orkestrovkaya çıxacaq. Çünki orkestr elə işdir ki, alətlər olmasa musiqi ola bilməz. Amma onu da bilmək üçün bəstəkarlar illərlə axtarış edirlər".

O, mənə uşaq vaxtlarından bu günədək başına gələn əhvalatlardan da danışırdı. Bəzən gülür, bəzən isə kövrəlirdi. Amma fikirlərini paylaşdıqca özünü yaxşı hiss edirdi. Deyirdi ki, "sən musiqi mədəniyyətində çox gəncsən, bu sahənin nə dərəcədə çətin olduğunu bilmirsən. Ya da bilirsən, bilərəkdən özünü çətinliyə salmaq istəyirsən. Bu yol əzablı yoldur, qızım. Qorxutmaq kimi çıxmasın, amma reallıq budur. Əldə etdiyin uğurlara, hər yaxşı əsərinə qarşı ən az on düşmənin çıxır. Sonradan bildim ki, Üzeyir Hacıbəylinin taleyi də kəşməkeşli olub. Qara Qarayevlə, Cövdət Hacıyevlə, Soltan Hacıbəyovla çalışmışam. Onlar həm də mənim müəllimlərim olublar. F.Əmirovun və Q.Qarayevin evində çox olmuşam. Xəstə vaxtlarında onlara baş çəkmişəm. Onu da deyim ki, Q.Qarayev heç vaxt xoşlamadığı insana onu sevmədiyini bildirməzdi. İnsanların səhvlərini düzəltməyə çalışardı, doğru istiqamət göstərərdi. Rəhmətə qovuşduqdan sonra isə onların yerində işləməyə başladım. Hamısının sənət yolu ağır olub. Amma bunu xalq bilmir. Ü.Hacıbəylini isə doqquz yaşım olanda Opera və Balet Teatrında görmüşəm. Üzeyir bəy musiqimizi düşmənlərdən qoruyurdu".



***Dmitri Şostakoviçin Azərbaycana gəlişi. Bakı, 1972-ci il. Dəmiryolu vağzalı. Soldan sağa: Arif Məlikov, Dmitri Şostakoviç, İbrahim Məmmədov, Fikrət Əmirov, Cövdət Hacıyev, Aqşin Əlizadə, Vasif Adıgözəlov və başqaları***

İstedadı, savadı olmayan insanların fəxri adlar almağı, mükafatlara layiq görülməyi Aqşin müəllimə mənfi təsir göstərirdi. Deyirdi ki, "əsəbimdən efirlərə baxa bilmirəm". Xarici bəstəkarlardan V.A.Mot-

sart, L.V.Bethoven, F.Şubertin əzablı ömür sürməyindən danışıb sanki təsəlli tapırdı. Övladları Əli və Fuad Əlizadələrin peşəkar musiqiçi olmaqlarından, Türkiyə Cümhuriyyətində yaşayıb pedaqoji fəaliyyət göstərməklərindən və bir vaxtlar özünün də orada işlədiyindən söhbət açırdı.

A.Əlizadə söyləyirdi ki, "qiyabi müəllimlərimdən biri də güclü sənətkar S.Prokofyev olub. D.Şostokoviç də bizim müəllimlərimizdən idi. D.Şostakoviçi çox görmüşəm, onunla şəklim də var. İkinci kursda yazdığım əsərimi hətta tərifləmişdi. O, Azərbaycanı çox sevirdi, çünki burada tələbələri var idi. Hər dəfə Bakıya gələndə bizə dərs keçirdi. Onu çox istəyirdik. Hətta sonuncu konsertində də olmuşam".

Beləcə, ustadım A.Əlizadənin evinə ziyarət etməklərimin sayı artırdı. Mənzilində dəfələrlə qonaq olduğum günlərin birində çoxdan bəri fikrimdə dolaşan sualı cəsarətimi toplayıb ona ünvanladım. Aqşin müəllimdən necə oldu ki, mənimlə bütün fikirlərini rahat bölüşə bildiyini soruşdum. Tədris ilinin sonuna çatmışdıq. İmtahanlar bitdiyi üçün kifayət qədər boş vaxtım var idi. A.Əlizadə elmi biliyimi yüksək balla qiymətləndirmişdi. Ona təşəkkür etməli idim. Bu məqsədlə və səhhətini soruşmaq niyyətilə evinə yollandım. Sonuncu ziyarətimdə məni görən kimi gözləri yaşardı. Mənə imzaladığı albomunu hədiyyə etdi. Bu tamamilə fərqli sağollaşmaq idi. Digərlərinə heç bənzəmirdi. Həmin gün əbədi ayrılığın ətri duyulurdu. Özüm də çox yaxşı bilirdim ki, bunun



***Ü.Hacıbəyli adına Bakı Musiqi kademiyasında Aqşin Əlizadə ilə vida mərasimi. Soldan sağa: Siyavuş Kərimi, Sərdar Fərəcov, Rəfiqə Axundova, Musa Mirzəyev, Firəngiz Əlizadə, Əbülfəz Qarayev***

adı əlvida idi. O gün vəsiyyətləri və nəsihətləri bir-birinə qarışmışdı. Ayaq üstə qalxa bilmirdi. Aqşin müəllim hələ də təsəvvürümdə elə canlanır. Xanımına məni yola salmağını söylədi. Qalina xanım alnımdan öpüb, bağrına basdı, “hər şey üçün çox sağ ol” dedi. Nə etdim ki? - deyə soruşanda “çox şey etdin qızım, qısa müddət ərzində onun düşüncəsinə, ruhuna məlhəm kimi təsir göstərdin” deyə cavab verdi. Mən isə gözəl ev sahibliyinə, insanpərvərliyinə görə Qalina xanıma təşəkkürümü bildirdim. O, həm qapıdan, həm də eyvandan mənə əl edib axıracan yola saldı. İçimdəki hiss nədənsə müəllimimlə bu görüşün sonuncu olduğunu deyirdi. Təəssüflər olsun ki, çox keçmədi yanılmadım....

Təbii ki, bütün bunlar A.Əlizadə ilə bağlı xatirələrimin cüzi hissəsi idi. Onunla bağlı hafizəmdə yaşayan bütün işıqlı xatirələri bir yazıya sığdırmaq mümkün deyil. Müəllim kimi müəllim, insan kimi insan, unudulmaz bəstəkar A.Əlizadəni hər zaman dərin ehtiram və rəhmətlə anıram.

Bakı, Azərbaycan.
07.07.2021

**Humay FƏRƏCOVA-CABBAROVA**
Musiqişünas

## AQŞİN ƏLİZADƏNİN İŞIQLI XATİRƏSİNƏ EHTİRAMLA

Musiqiçi ailəsində doğulduğum üçün incəsənət nümayəndələrini qiyabi də olsa yaxşı tanıyırdım. Çünki atam bəstəkar Sərdar Fərəcov bir çox həmkarları haqqında həmişə evdə danışar, onların əsərlərini ifa edərdi. Təxminən on bir yaşım olardı. Bir gün televiziyanın efirində atam ilə mən Azərbaycan ədəbiyyatında postromantizmin ən gözəl nümayəndəsi sayılan yazıçı Anarın ssenarisi əsasında çəkilmiş “Ötən ilin son gecəsi” adlı ekran əsərinə baxırdıq. Filmdə Ayan Mirqasımova (Dilarə rolunda) Həmidə xanımın kiçik qızı rolunu canlandırırdı. Onun piano qarşısında əyləşərək oxuduğu mahnını dilnləyəndə atamın kövrəldiyini gördüm və cürət edib ondan bunun səbəbini soruşdum. Atam bildirdi ki, aydın dildə yazılan və onun qəlbinə toxunan Aqşin Əlizadənin sehirli musiqisi onu təsirləndirib. “Aqşin böyük ruha malik istedadlı bəstəkardır. Özü də bizim kimi Noxvanılıdır, həm də Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadənin bacısı oğludur!” deyərək qürürla əlavə etdi. Həmin gündən etibarən mən A.Əlizadənin yaradıcılığı ilə daha yaxından tanış olmağa başladım. O vaxtlar internet şəbəkəsi ölkə üzrə elə də yayılmamışdı. Atamın şəxsi fonotekasında çoxlu sayda qrammafon valları var idi. Onların arasında A.Əliza-



***Aqşin Əlizadə tələbələri Nigar Babayeva, Könül Quliyeva və Fazilə Nəbiyeva ilə birgə. Bakı, 2004-cü il***

dənin də yaradıcılığına aid bir neçə əsərə rast gəlmiş və beləliklə, böyük bəstəkarın musiqisini dinləməyə başlamışdım. Əsərlərdən çox böyük zövq alırdım. Bəstəkarın “Kənd süitası”, “Aşıqsayağı”, “Pastoral”, “Cəngi”, “Abşeron lövhələri” əsərlərini ilk dəfə həmin vallarda dinləmişdim. Bəzən isə efirdə A.Əlizadənin musiqisi əsasında çəkilmiş filmlərə tamaşa edirdim. Xüsusilə “Rəqiblər” filminin fon musiqisi olan “Romans” mənə daha çox təsir etmişdi. Aqşin müəllimin musiqisi ilə tanışlıq ali məktəbə daxil olduqdan sonra da davam etdi. 2009-cu ildə mən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasına musiqişünaslıq ixtisası üzrə qəbul olundum. Orada vaxtı ilə adlarını atamın dilindən eşitdiyim tanınmış musiqiçiləri gördüm, onları əyani şəkildə tanıdım. Bir gün dərs cədvəlinə baxanda A.Əlizadənin bizə “Alətşünaslıq” fənnini tədris edəcəyini öyrəndim. Bu xəbəri aldıqdan sonra sevinirdim. Böyük bəstəkarla ünsiyyətdə olacağım üçün özümü xoşbəxt hiss edirdim. A.Əlizadə, A.Məlikov, X.Mirzəzadə və başqa korifey sənətkarları görmək, onlardan dərs almaq mənim üçün sanki Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirov, R.Hacıyev, C.Hacıyev kimi böyük bəstəkarları görməyə bərabər idi. A.Əlizadə C.Hacıyevin bəstəkarlıq sinfində təhsil almışdı. Musiqi tarixindən məlum olduğu kimi, Cövdət müəllim D.Şostakoviçin tələbəsi olmuşdu. Beləliklə də C.Hacıyev M.O.Şteynberq və



***Soldan sağa: Jalə Miriyeva, Aqşin Əlizadə, Vəfa Abdulla, Humay Fərəcova, Günel Nəsirova, Çiçək Həsənova, Ləman Xankişiyeva. Bakı, 2010-cu il***

N.A.Rimski-Korsakovdan gələn ənənələri davam etdirirdi. Buna görə də A.Əlizadə mənim üçün böyük bir bəstəkarlıq məktəbinin davamçısı sayılırdı. Əlbəttə, belə şəxsiyyətlə tanış olmaq, ondan müəyyən biliklər əldə etmək 17 yaşlı tələbə üçün taleyinə yazılmış uğur sayılırdı. Səbrsizliklə mən və tələbə yoldaşlarım A.Əlizadənin dərsinə getməyi gözləyirdik.

Onunla bir neçə dərs görüşsək də, sonradan bəstəkarın tədris otağının qapısının bağlı olduğunu görürdük. Aqşin müəllim səhhətində yaranan problemlərə görə işə gələ bilmirdi. Bir gün dekanımız Gülzar Mahmudova bildirdi ki, A.Əlizadə işə qayıdıb və bu gün onun sizə dərsi var. Müəlliminiz sizi bəstəkarlıq kafedrasında gözləyir. Bir neçə dərs idi ki, bu xəbərin intizarında idik. Sevinirdik, hamımız dərsə tələsirdik. Aqşin müəllimin sinfinə daxil olub salamlaşdıq. O, ciddi səslə "... bayaqdan sizi gözləyirəm. Qızlar dərsə niyə gecikirsiniz?" deyə bizə səsləndi. Bir az özümüzü itirsək də, qrupumuzun fəal qızlarından sayılan Günel Nəsirova Aqşin müəllimin könlünü aldı. Daha sonra A.Əlizadə tələbələrini ətrafına toplayaraq bizimlə tanış olmağa başladı. İlk dərsimiz fənnə ümumi giriş oldu. Çox həyəcanlı idik. Aqşin müəllim danışırdı, biz isə sakitcə onu dinləyirdik. Növbəti dərslərimiz də biri-birindən maraqlı keçirdi. O, bizə bəstəkarlardan - xüsusilə



***Bakı Musiqi Akdemiyasının böyük zalında Aqşin Əlizadə ilə vida mərasimi. 04.05.2014-cü il. Soldan sağa: Siyavuş Kərimi, Rəfiqə Axundova, Musa Mirzəyev, Firəngiz Əlizadə, Sərdar Fərəcov və Əbülfəz Qarayev***

Q.Maler, A.Şnitke, G.Kançeli, V.Lütoslavski və C.Hacıyevdən söz açar, onların yaradıcılığına nəzər yetirərdi. Müəllimimizin gözlənilməz sualları maraq doğururdu. Mənim musiqiçi ailəsindən olduğumu bilirdi və suallar verərkən cavab almaq məqsədi ilə gözlərimə baxırdı. Onun suallarına cavab verməyə səy göstərirdim. Aqşin müəllimlə keçən dərslərimiz həyəcanlı və olduqca məsuliyyətli idi. O, bizə "Alətşünaslıq" fənninin incəliklərini müxtəlif bəstəkarların əsərlərinin timsalında izah edir, alətlərin imkanlarından söz açırdı. Bütün bunlarla yanaşı müxtəlif mənbələrlə tanışlığın vacib olduğunu söyləyirdi. Xüsusilə M.Çulakinin "Simfonik orkestrin alətləri" kitabından bəhrələnməyi qeyd edirdi. Aqşin müəllim bizi hər dərsin mövzusu üzrə sorğu-sual edər, alətlərin diapazonu və onların orkestrdəki rolu haqqında söhbət açardı. A.Əlizadə xalq musiqisinin, milli məqamlar əsasında yazılan musiqi əsərlərinin əhəmiyyətli olduğunu deyirdi. Xüsusilə simfonik orkestrə milli alətlərin daxil edilməsini Azərbaycan bəstəkarları üçün həm məsuliyyətli, həm də maraqlı axtrış hesab edirdi.

Aqşin müəllim tələbələrini çox sevirdi. Biz hər dəfə dərsə gedəndə qapıda dayanar, onun ".... qızlar buyurun gəlin" deyə müraciətindən sonra sinfə daxil olardıq. Bir gün o, bizə ".... gəlin şəkil çəkdirək, yadigar qalsın" dedi. Həmin şəkillərə hər dəfə baxanda kövrəlirəm.

A.Əlizadənin yanına tez-tez gənc bəstəkarlar gələr, ondan qiymətli tövsiyyələr alardılar. O, gənclərə tutduqları yoldan, hədəflərdən kənara çıxmamaqlarını məsləhət verərdi. Aqşin müəllim deyirdi ki, bəzi bəstəkarlar ciddi musiqidən

uzaqlaşırlar, yeni-yeni axtarışlara üz tutaraq başqa səmtə yönəlir və bəzən də həmin yolda öz hədəflərini itirirlər. O, müasir gənclərin simfonik musiqini, irihəcmli səhnə əsərlərini dinləmək istəmədiklərini, yüngül janrlara daha çox üstünlük verdiklərini böyük təəssüf hissi ilə qeyd edərdi. Bəstəkar kimi müasir dinləyiciləri ciddi musiqiyə cəlb etmək barədə çox düşünürdü.

Aqşin müəllim bizə tezliklə Opera və Balet Teatrında bir pərdəli "Ümüd valsı" və "Qafqaza səyahət" baletlərinin tamaşası olacağını demişdi. Hər iki baletin librettosunu müəllif məhz özü yazmışdı. Hamını həmin baletlərin tamaşasına baxmağa dəvət etmişdi. Biz tələbələr müəllimimizin dəvətinə əsasən əsərlərə tamaşa etmək üçün teatra getmişdik. Həmin gün Aqşin müəllimi çox həyəcanlı və gərgin gördüm. Mən onun daxilindəki təlatümü anlayırdım. O, əsərlərinin geniş tamaşaçı kütləsinə çatdırılmasını, işıqlı musiqisinin dinlənilməsini istəyirdi. Lakin zala toplaşan tamaşaçı sayı o qədər də ürəkaçan deyildi. Aqşin müəllim sanki buna görə çox pərişan idi. Onun müasir gənclərin ciddi musiqiyə münasibəti ilə bağlı söylədiyi fikirlərinin həmin gün öz təsdiqini tapdığının şahidi oldum.

Tamaşadan sonra yenə də Aqşin müəllimin səhhətində problemlər yaranmışdı. Buna görə də o, işə gələ bilmir, yeni daxil olmuş tələbələri ilə evində dərs keçirdi. Əsərlərinin səhnədə göstərildiyi təqvim mənim müəllimim ilə sonuncu görüşüm oldu. Həmin vaxtdan etibarən Aqşin müəllimin dərslərini kafedranın müəllimi Arzu Məmmədova əvəz etməyə başladı.

2014-cü ilin may ayında A.Əlizadənin vəfat etməsi barədə kədərli xəbər yayıldı. Onunla vida mərasimi Bakı Musiqi Akdemiyasının böyük zalında oldu. Aqşin müəllimi son mənzilə yola salmaq üçün tanınmış şəxslər, musiqiçilər və tələbələr ora axın edirdilər. Bəstəkar haqqında keçmiş Mədəniyyət Naziri Ə.Qarayev və F.Əlizadə çıxış edərək onun xatirəsini hörmətlə yad etdilər. Sonra çıxış atam - Sərdar Fərəcova verildi.

Atamın uşaq olduğum illərdə A.Əlizadənin musiqisini dinləyib kövrələrkən gördüyüm ifadələri üzündə yenə də müşahidə edirdim. Lakin bu dəfə çox böyük fərq var idi. İlk dəfə atam A.Əlizadənin işıqlı musiqisindən danışarkən sanki yaradıcılığına giriş edərək mənə tanışlıq vermişdi. O vaxt hələ A.Əlizadə xoşbəxtlikdən həyatda idi və mənə onu şəxsən görüb-tanımaq qismət olmuşdu. Lakin bu dəfə isə atam nitqi ilə bir növ mənə A.Əlizadənin yaradıcılığı barədə fikirlərinə yekun vurdu. Aqşin müəllim artıq həyata vida etmişdi. Təəssüf ki, biz bir daha onunla görüşməyəcəyik. Müəllimimin işıqlı xatirəsini hər zaman ehtiramla anıram.

Bakı, Azərbaycan.
07.04.2023

## XATİRƏLƏR SORAĞINDA

**Gülarə ƏLİZADƏ**

### BÖYÜK QARDAŞIM AQŞİN ƏLİZADƏ HAQQINDA

Biz ailədə dörd uşaq olmuşuq – Aqşin, Kamran, Hənifə və mən. Aqşin (1937) məndən iki yaş böyükdür. Biz əvvəllər indiki beş mərtəbə yaxınlığındakı Kamo küçəsi 52 (indiki Süleyman Rəhimov) adlanan ünvanda yerləşən iki mərtəbəli binada yaşayırdıq. Aqşinin çox ciddi kişi xasiyyəti var idi. Buna görə də mən küçədə, orada-burada gəzməkdən çəkinərdim.

6 № li orta məktəbdə oxuyan Aqşin musiqi məktəbini 7 illik təhsil üzrə bitirmişdi. Mən özüm də vaxtı ilə 1 № li məktəbdə musiqi təhsili almışam. Aqşin Vaqif Mustafazadənin anası Zivər xanım Əliyevanın fortepiano sinfində oxuyurdu. Uşaqlıqdan bu alətdə gözəl ifa edən qardaşıma atam Əliqulu Əlizadə bütün muğamları və onların şöbələrini, guşələrini, xırdalıqlarını öyrətmişdi. Aqşin həmişə ailəvi yığıncaqlarda Azərbaycan xalq rəqslərini ifa edər, mən isə oynayardım.

Ailəmizdə Aqşin ilə mən musiqi məktəbində oxumuşduq. Biz üçümüz anamız Pikə xanımın yolu ilə gedərək təhsilimizi tibb sahəsi üzrə aldıq və





*Aqşin Əlizadənin uşaqlıq çağları*





həkim olduq. Aqşin isə bəstəkarlıq peşəsini seçdi. O, hələ musiqi məktəbində təhsil aldığı dövrdə Qara Qarayevin bəstəkarlıq sinfində oxumağı çox arzu edirdi. Lakin Konservatoriyaya daxil olanda Cövdət Hacıyevin sinfində təhsil almağa başladı.

Aqşin valideynlərimizə çox bağlı insan idi. Onun ilk nəğməsi anamıza həsr etdiyi "Mənim anam" mahnısı olub. Bu mahnını Sara Qədimovadan oxumağını xahiş edəndə o, bu təklifə məmnuniyyətlə razılıq vermişdi. Aqşinin tez ailə həyatını qurduğunu qeyd etmək istəyirəm. Bir dəfə o, ailəvi yığıncaqların birində gələcək həyat yoldaşı Qalina Krimisova ilə birlikdə gəldi və onu anamla tanış etdi. Biz ona Qalya deyirdik. Qalinanın qırmızı rəngli paltarı və yaşıl paltosu ona çox yaraşırdı. Sonradan yaşlı bir qadın onun milliyətcə rus olduğunu söyləyəndə anamın "eybi yoxdur" deyə cavab verməsini yaxşı xatırlayıram. Aqşin böyük oğluna atamızın adını qoymuşdu. Atam bu xoş hadisəyə görə hədsiz dərəcədə sevinirdi. Sonralar isə qardaşım oğlu Əli qızına anam Pikənin adını qoydu. İndi A.Əlizadənin övladları Türkiyə Cümhuriyyətində yaşayırlar. Aqşin özü də bir müddət orada pedaqoji və yaradıcılıq fəaliyyəti ilə məşğul olmuşdu.

O, dayımız Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseynzadəyə bağlı idi. Onu da qeyd edim ki, Mehdi dayını, Sura xalanı və anamı onların bibisi Kəbleyi Sənəm (Şahmahsənəm) böyüdüb boya-başa çatdırmışdı. Biz ona bibi-nənə deyərdik. Mehdinin yolunu çox gözləyən bibi-nənə hazırladığı yeməkləri çantasına yığıb onu qarşılamaq üçün Biləcəri vağzalına gedərdi. Onun qayıtmadığını görəndə isə apardığı qoğalları və digər yeməkləri oradakı insanlara paylayardı. Bir dəfə ona Mehdinin başqa qatarla gəldiyi barədə



*Soldan sağa: Aqşin Əlizadə, anası Bikə xanım, bacısı Gülarə, qardaşı Kamran və atası Əliqulu Əlizadə*



*Aqşin Əlizadə 29 № li yeddi illik məktəbin V sinfində oxuyarkən. Soldan sağa: əyləşənlər. Saşa Şerbakov, Tedik Leyn, Ramiz Abutalıbov, Yura Şakov, botanika müəllimi Marqarita Nikolayevna, Boris Vinov, Ernest Hüseynov, Məmmədov, Dodik Fiks. Soldan sağa: ayaq üstə duranlar. Aqşin Əlizadə, Xaustov (üçüncü), Faiq Həsənov, Yalçın Əfəndiyev, Zaur Əlizadə (yeddinci), Mosya Qaliçkiy, Portyanskiy. Bakı, 1949-cu il*



***A.Əlizadə Ü.Hacıbəyli adına ADK nəzdində 10 illik musiqi məktəbinin şagirdi olarkən. 1950-ci il***



***Aqşin atası Əliqulu Əlizadə ilə***



*Aqşin Əlizadə anası Bikə xanım və bacısı Gülarə Əlizadə ilə birgə*





*Aqşin Əlizadə anası Bikə xanım və atası Əliqulu Əlizadə ilə birgə*



***Soldan sağa: birinci sırada Xeyransa xanım Dilbazi (Əminə Dilbazinin anası) və qızı Əzizə xanım, C.Hacıyev və üç yaşlı qızı Pərvin Muradova-Dilbazi, Ziba xanımın övladları və pioner dəstəbaşçısı. İkinci sırada Nərminə Hacıyeva (C.Hacıyevin 13 yaşlı qızı), pioner dəstəbaşçıları, Ziba xanımın həyat yoldaşı, özü (Xeyransa xanım Dilbazinin bacısı, Ə.Dilbazinin isə xalası) və qardaşı. A.Əlizadə (arxa sırada ayaq üstə) məktəblilərin istirahət evində. Bakı, 1957-ci il***



*Soldan sağa: Teyyub Dəmirov, Əliqulu Əlizadə, Bikə xanım Əlizadə, Aqşin Əlizadə (ortada beşinci), Püstəxanım Əzizbəyova, Asya Belinkaya*



*Aqşin Əlizadənin dayısı Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 1940-cı ildə bacısı Bikə xanım Əlizadəyə göndərdiyi şəkil*



*Mehdi Hüseynzadə, Əsgər Abesov və Əziz*



*Aqşin Əlizadə dayısı Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadəyə həsr edilmiş tədbirdə çıxış edərkən*



*Aqşin Əlizadə. Moskva, 1950-ci illər*



*Aqşin Əlizadə və xanımı Qalina Krimisova - Əlizadə*



*Aqşin Əlizadə ömür-gün yoldaşı Qalina Əlizadə ilə birgə*



***Soldan sağa: Aqşin Əlizadə, dayısı Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin döyüş yoldaşları Ştefan Kafol və Anton Velikoniya. Şüvəlan***

xəbər vermişdilər. Bibi-nənə bunu eşitdiyi üçün çox sevinir və ümidlə qardaşı oğlunun yolunu gözləməkdə davam edirdi.

1946-cı ildə M.Hüseynzadənin döyüş yoldaşları evimizə gələndə mənim 7 yaşım var idi. Onları qapıda qarşılayanda Cavad Həkimli anamla danışmaq istədiyini mənə bildirmişdi. Mən elə düşünürdüm ki, onlar yenə də nə isə deyəcəklər və anam ağlayacaq. Həmin gün onlar Mehdinin həlak olması barədə anama ətraflı məlumat vermişdilər.

Aqşin də ailəmizin digər üzvləri kimi, Mehdi dayının yolunu gözləyir və həmişə onunla fəxr edirdi. Allah onlara rəhmət eləsin.

Bakı, Azərbaycan.
28.04.2019

**Vasim MƏMMƏDƏLİYEV**
Akademik

## BƏSTƏKAR AQŞİN ƏLİZADƏ HAQQINDA



*Aqşin Əlizadə gənclik dövründə*

Ötən əsrin 60-cı illərinin ortalarında Aqşin Əlizadəni dahi bəstəkarımız Qara Qarayevin onun haqqında yazdığı rəy nəticəsində qənaət hasil etdik. Q.Qarayev məqaləsində və 1968-ci ildə Moskvada Bəstəkarlar evində səslənən "kamera simfoniyası"nı dinlədikdən sonra belə demişdi: "Elə bəstəkarlar var ki, onlar ilk əsərlərindən ictimaiyyətin diqqətini cəlb edirlər. Bu kimi bəstəkarların əsərlərində kamillik, ifadənin səmimiliyi məhz onlar haqqında ustad professional kimi danışmağa imkan yaradır, onların gənc olması unudulur. Kamera orkestri üçün simfoniyanın müəllifi olan Aqşin Əlizadə bu cür ciddi bəstəkarlar sırasına aiddir"[21]. Bu baxımdan, dahi Q.Qarayevin A.Əlizadəyə verdiyi qiymət sonralar da özünü doğrultdu.

Bəzən bəstəkarlar yeni səs tembri və ya çalar yaratmaq üçün müəyyən vasitələrdən istifadə edirlər. Ancaq bu onların yazdığı əsərin ümumi məzmunu ilə uyğun gəlmir. A.Əlizadə bu cür musiqi effektlərindən zahiri gözəllik və təmtəraq üçün deyil, əsəri yazarkən qarşısına qoyduğu mövzunun dinləyiciyə dolğun şəkildə çatdırılması məqsədilə istifadə etmişdir ki, bu da bəstəkarın çox böyük məziyyətlərindəndir.

A.Əlizadənin yaradıcılığı çox zəngindir. Mən onun əsərlərini dinləyəndə xəlqiliklə müasir musiqi texnikasının vəhdətini duyuram. Onun yaradıcılığına xas olan ən səciyyəvi cəhətlərdən biri də müasir bəstəkarlıq texnikasına çox gözəl bələd olmasıdır. Alətlərin fərdi və birlikdə səslənməsindən yaranan tembrləri çox gözəl bilən A.Əlizadə əsərlərində onlardan yerli-yerində istifadə etmişdir.

A.Əlizadə kimi böyük bəstəkarlara bu gün də çox ehtiyacımız var. Biz onun zəngin yaradıcılığını sevirik və yüksək qiymətləndiririk.

Ruhu şad olsun!

Bakı, Azərbaycan.
20.05.2019

[21] A.Tağızadə. XX əsr Azərbaycan musiqisi. Bakı, "Elm və təhsil", 2011, s. 319

**İsa HƏBİBBƏYLİ**
Akademik

## USTAD BƏSTƏKAR AQŞİN ƏLİZADƏNİN XATİRƏSİNƏ



Azərbaycan musiqi sənətinin bəstəkarlıq baxımından bəxti gətirmişdir. XX əsr ərzində Azərbaycanda yetişmiş görkəmli bəstəkarlar bir xalqın əbədi olaraq fəxr edəcəyi qüdrətli sənətkarlardır. Ümumiyyətlə, Azərbaycan professional bəstəkarlıq məktəbinin banisi dahi Üzeyir Hacıbəylinin xidmətləri çoxprofilli olub, musiqi mədəniyyətinin bütün sahələrini əhatə edir. O, Azərbaycan musiqisinin həmişəyaşar əfsanəsidir.

XX əsrdə yetişib formalaşmış Azərbaycan bəstəkarlarının mütləq əksəriyyəti Ü.Hacıbəyli məktəbinin yetirmələridirlər. Haqqında söz açdığımız görkəmli bəstəkar və ictimai xadim Aqşin Əlizadə (1937-2014) də tərcümeyi-halının faktları və sənətinin bir çox xüsusiyyətləri ilə Ü.Hacıbəyli məktəbinə sıx və qırılmaz tellərlə bağlıdır. Əvvəla, hələ doqquz yaşında ikən, anası ilə birlikdə “Koroğlu” operasına tamaşa edərkən (1946-cı ildə) ona Ü.Hacıbəylini görmək xoşbəxtliyi nəsib olmuşdur. İkincisi o, Üzeyir bəyin adını daşıyan Azərbaycan Dövlət Konservatoriyasının (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) bəstəkarlıq fakültəsini bitirmiş, görkəmli sənətkarın sənəti və idealları üstündə köklənmiş milli bəstəkarlıq ənənələrini dərindən mənimsəmişdir. Üçüncüsü isə A.Əlizadə real olaraq Ü.Hacıbəylinin tələbəsi və yetirməsi olmuş məşhur bəstəkar, böyük simfonist Cövdət Hacıyevin sinfində ali təhsil almaqla bərabər, həm də uzun illər onun assistenti kimi fəaliyyət göstərmişdir. Beləliklə, A.Əlizadə həm də müəlliminin müəllimi olmuş Ü.Hacıbəyli məktəbindən dərs almışdır.

Xalq artisti A.Əlizadə çoxşaxəli yaradıcılıq axtarışları aparmış musiqi xadimidir. O, mahnılardan başlamış simfoniya və balet yaradıcılığına, kamera və folklorsayağı musiqi əsərlərinə qədər bütün istiqamətlərdə özünəməxsus professionallıq göstərmişdir. A.Əlizadə axtarışlarını fortepiano musiqisi sferasından, skripka və orqan üçün, həmçinin simfonik yaradıcılıq miqyasınadək genişləndirib inkişaf etdirmişdir. Yaradıcılığında xor musiqisinə meylli

olması onun bir-birindən fərqli çoxsəsli vokal əsərləri yaratmasına meydan açmışdır.

A.Əlizadə Azərbaycanda neofolklor musiqi məktəbinin əsas yaradıcılarından biridir. O, Ü.Hacıbəylinin əfsanəvi "Cəngi"sindən sonra bu mövzuda fərqli üslubda yeni musiqi əsəri yaratmaq istedadını nümayiş etdirmişdir. Görkəmli bəstəkarın "Bayatılar" *a capella* xor silsiləsi, "Dastan", "Qədim oyunlar", "Qədim laylay", "Aşıqsayağı" və digər əsərləri xalq musiqi ritmləri və motivləri ilə müasir musiqi düşüncəsinin üzvi harmoniyasından yoğrulmuş nadir sənət nümunələridir. "Ana torpaq" odası onun xalq musiqi yaddaşı ilə professional musiqinin vəhdətindən meydana gəlmiş mükəmməl sənət əsəridir. "Ana torpaq" A.Əlizadənin ümumiyyətlə musiqi irsinin vətənpərvərlik epiqrafı sayıla bilər. O, sözün əsl mənasında azərbaycançılıq idealları üstündə köklənmiş görkəmli bəstəkardır.

Azərbaycan balet sənəti A.Əlizadənin yaratdığı mükəmməl səhnə əsəri ilə daha da zənginləşdirilərək inkişaf etdirilmişdir. "Babək" baleti azərbaycançılıq və qəhrəmanlıq ruhunda yazılmış nadir sənət nümunəsidir. "Babək" - xoreoqrafiyanın dili ilə ifadə olunmuş bənzərsiz qəhrəmanlıq dastanıdır. Müəllif "Qafqaza səyahət" əsəri ilə də Şərq və Qərb sintezi əsasında azərbaycançı mövqedən əhəmiyyətli balet yaratmışdır. "Ümid valsı" - balet səhnəsində canlandırılan rəqs çələngidir.

O, Türkiyə Cümhuriyyətinin Trabzon və Van Universitetlərində də musiqi fənlərini tədris edərək, qardaş ölkə üçün professional musiqişünasların yetişdirilməsi sahəsində böyük xidmətlər göstərmişdir. Dost ölkədə musiqi sənətinin inkişafına ürəklə xidmət etmiş, neçə-neçə istedadlı mütəxəssislərin hazırlanmasına nail olmuş, qardaş Türkiyədə bu sahədə olan müəyyən boşluğu doldurmaq baxımından geniş iş aparmışdır.

Tanınmış bəstəkar A.Əlizadə Naxçıvan Dövlət Universitetinin Konservatoriyasında ustad dərsləri keçmişdir. O, Türkiyənin Van Yüzüncü il Universitetində müəllimlik etdiyi illərdə hər dəfə qardaş ölkəyə gedib-gələrkən mütləq Naxçıvan Dövlət Universitetində musiqiçi müəllimlər və tələbələrlə görüşmüş, onların qarşısında Azərbaycan musiqi sənəti haqqında mühazirələr oxumuşdur. A.Əlizadə Naxçıvan Dövlət Universitetinin Konservatoriyasında fortepianoda professional ifaçılığını da nümayiş etdirmişdir. Bu, Naxçıvan Dövlət Universitetində yeni yaradılmış Konservatoriyanın formalaşdırılması və yeni musiqiçi nəsillərinin hazırlanması baxımından böyük xidmət idi.

A.Əlizadənin yazdığı (25 dekabr 2001-ci il) lirik melodiyaya malik olan "Mənim Naxçıvanım" mahnısı fortepianonun müşayiəti ilə ifa edilmişdir. Bəs-

təkar həmin dövrdə blokada şəraitində qalan Naxçıvan əhalisinin dəyanətini və mübarizə əzmini mahnının melodik dili ilə daha təsirli tərzdə dinləyicilərə çatdırmağa müvəffəq olmuşdur. Sözləri bu sətirlərin müəllifi tərəfindən yazılmış A.Əlizadənin "Mənim Naxçıvanım" vokal nümunəsi ictimai məzmunlu lirik mahnı kimi bu mövzuda bəstələnmiş əsərlər arasında fərqli yer tutur. "Mənim Naxçıvanım" - XXI əsrin çətin blokada şəraitində mərdanəlik nümayiş etdirən Naxçıvanın musiqinin dili ilə ifadə edilmiş səsidir:

Təkcə durnası köçəri,
Narbənd kimi, Əlincə tək
Əyilməz Vətən əsgəri
Naxçıvan, irəli!
Naxçıvan, irəli!

Böyük bəstəkarın "Mənim Naxçıvanım" mahnısı ilk dəfə 2002-ci ilin aprel ayında Naxçıvan Dövlət Universiteti Konservatoriyasının səhnəsində universitetin tələbəsi tərəfindən tanınmış sənətkarın fortepianoda müşayiəti ilə səsləndirilmişdir.

Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, o zaman Van Yüzüncü il Universitetində pedaqoji fəaliyyətlə məşğul olan Əli Aqşin oğlu Əlizadə ilə də Naxçıvan Dövlət Universiteti arasında səmərəli əməkdaşlıq əlaqələri yaranmışdır. Əli müəllim Naxçıvan Dövlət Universitetinin pedaqoji və tələbə heyəti qarşısında fortepianoda peşəkar ifaçılıq nümunələri təqdim etmişdir. Onun İsa Həbibbəylinin sözlərinə bəstələdiyi "Naxçıvan - Van" mahnısı həmin qarşılıqlı ünsiyyətin yadigarıdır.

XXI əsrin başlanğıc illərində A.Əlizadə ilə Van Yüzüncü il Universitetindəki ilk tanışlığımız az sonra onun Naxçıvan Universitetində ustad dərsləri keçdiyi günlərdəki yaxın münasibətlərimiz nəticəsində dostluğa çevrilmişdir. Aqşin müəllim dost kimi də ictimai-siyasi hadisələrdən tutmuş, sənət dünyasınadək ən müxtəlif mövzularda qarşılıqlı şəkildə fikir mübadiləsi etmək üçün maraqlı, yüksək səviyyəli və etibarlı tərəf müqabili idi. Dünya, Sovetlər İttifaqı və Azərbaycan musiqi sənəti haqqında geniş biliklərə malik A.Əlizadəni bütün hallarda azərbaycançı mövqeyə malik böyük sənətkar kimi xatırlayıram. Onun çoxcəhətli fəaliyyəti Azərbaycan idealına həsr olunmuşdur.

A.Əlizadə böyük və zəngin ənənələri olan Azərbaycan bəstəkarlıq sənətində öz yolunu tapmış, yeni səhifə açmış qüdrətli musiqi xadimidir. O, şəxsiyyət kimi də, sənətkar olaraq da unudulmazdır.

Bakı, Azərbaycan.
26 .09.2021

**Afaq ƏLİYEVA**
Vaqif Mustafazadənin ev-muzeyinin direktoru

## DOĞMA MUSİQİ OCAĞI

Djaz-muğam üslubunun banisi, tanınmış bəstəkar, əsrarəngiz pianoçu Vaqif Mustafazadənin ev-muzeyi böyük ustad, novator sənətkar Aqşin Əlizadənin məktəbli olduğu illərdə tez-tez gəlib-getdiyi doğma ünvan olmuşdur. Vaxtı ilə Üzeyir bəyin sinfində oxumuş V.Mustafazadənin anası Zivər xanım Əliyevadan xalq musiqisinin sirlərini öyrənən A.Əlizadə vəfatından bir neçə il əvvəl muzeyə baxmaq üçün gəlmişdi. Həmin gün o, xoş münasibət ilə mənimlə söhbətləşib muzeyi ziyarət edəndə Zivər xanımın böyük müəllimliyindən, şagirdlərinə qarşı tələbkarlığından, musiqini onlara necə tədris etdiyindən danışdı.

Aqşin müəllim muzeyə təmirdən sonra ilk dəfə idi ki, baş çəkirdi. Uşaqlıq çağlarında bu sənəti ona sevdirən və öyrədən müəlliminin, onu musiqinin sehrinə salan bu doğma ocağın sakinini böyük ehtiramla yad edirdi. O vaxtlar şəhərdən kənarda Şüvəlandakı bağ evində yaşayan A.Əlizadə mənimlə söh-



*Aqşin Əlizadə ilk musiqi müəllimi Vaqif Mustafazadənin anası Zivər Əliyevanın sinfində. 28.04.1945-ci il*

bət edərkən Zivər xanımın ona muğamatın və xalq musiqisinin incəliklərini necə aşıladığını böyük məhəbbətlə dilə gətirirdi. Aqşin müəllim V.Mustafazadənin adını daşıyan hazırkı mənzil muzeyini təmir və yenidənqurmadan sonra çox bəyənmişdi.

Muzeyin ekspozisiyasında Zivər xanımın, Aqşin Əlizadə və bacısı Gülarə Əlizadənin birlikdə çəkilmiş fotoşəkilinə baxanda böyük bəstəkar və gözəl insanın həmin günkü söhbətləri xoş xatirələr kimi xəyalımda canlanır. Allah onlara qəni-qəni rəhmət eləsin.

Bakı, Azərbaycan.
12.10.2021

**Tuna KOÇ**

## AKŞİN ALİZADE İLE ANILAR

Ben Tuna Koç. Van Yüzüncü yıl Üniversitesi Müzik Öğretmenliği bölümü kurucularından ve ilk öğretmenlerindenim. Bölümde Keman ana sanat dalında öğretim görevlisi olarak çalıştım ve emekli oldum. Bölümümüzün kuruluş aşamalarında tecrübeli öğretmen ihtiyacımız çok fazlaydı. 1996 ve 2000 yılına kadar az sayıda öğretmen ve normal bir binada müzik derslerini işliyorduk. 2000 yılında büyük besteci sayın hocamız Akşin Alizade eğitim kadromuza dışarıdan katılan ilk akademisyen oldu. Eski binamızda ona tahsis edilmiş bir piano ile kendine ait özel bir odada piano öğrencileri yetiştirmeye başladı. Sabahları çok erken kalkıp, yağmur, çamur, kar-kış demeden koşarak okula gelir ve derslerini ifa ederdi.

Akşin hoca benim için engin bilgilere ve tecrübelere sahip bilge bir insandı ve onunla çalışma fırsatı benim için gerçek bir şans olmuştu. Köklerini ve bağlılığını Azerbaycan Halk mahnılarından alan eşsiz müzik dağarcığı, benim de Türk Halk müziği üzerinde yaptığım çalışmalara rehber olmuştur. Kendisi müzik bölümümüzde açılan ilk yüksek lisans programının direktörü ve profesör ünvanlı ilk hocası olmuştur. Onunla daha çok “Etkileşimli Müzik Tarihi”, “Armoni” ve “Orkestrasyon” alanlarında dersler çalıştık. İlerleyen yaşına rağmen bitmeyen enerjisi, heyecanı ve disiplini ile bizlere örnek bir hoca olmuştur.

Ortak bir çalışmada bulunma hikayemiz de bana göre ilginçtir. Rektörlük tarafından sipariş edilen üniversite marşını besteledikten sonra, sözleri için



*Aqşin Əlizadə Trabzonda*

diğer bölümlerden çok kişiye teklifler gitmiş fakat şarkı sözü özelliklerine sahip bir çalışma gelmemesi nedeniyle, bana yapabileceğimi söyleyerek benim çalışmamı istemiştir. Cesaret ve güven vererek, amaca uygun birkaç taslak alıştırmadan sonra kısa sürede marşın sözlerini kabul etmiş ve üzerinde küçük çalışmalarla besteye oturmasını sağlamıştır. O yıllardan sonra üniversitenin birçok etkinliğinde koromuz tarafından defalarca seslendirilmiştir. O yıllarda akademisyen eksiğimizi desteklemek amacıyla önce küçük oğlu ve sevgili kardeşim Fuad bey kadromuza dahil olmuş ve birkaç yıl sonra da çok değerli bir besteci olan büyük oğlu sevgili kardeşim Ali bey ekibimize katılmışlardır.

Akşin hocamızın memleketine olan aşkı ve özlemi biraz da yaş almasıyla iyice artar, artık dönme kararı alır ve yıllarca hizmet ettiği Van'dan ayrılmaya karar verir. Oğulları onun kaldığı yerden büyük bir özveriyle çalışmaya devam ederler. Üniversite kampüsünde de komşuluk yaşadığımız Alizade ailesi ile mesleki ve dostluk anlamında da sınırsız iletişim kurduk. Hala kardeşçe iletişimimiz sürmektedir.

Değerli büyüğümüz Akşin Alizade'yi her zaman büyük bir saygı ve minnetle anıyorum. Allah gani gani rahmet eylesin, mekânı nur içinde olsun.

Çalışmalarınızda başarılar diler bu müstesna insanı günümüzde yeni nesillere tanıtma çabanız için sizi tebrik ederim.

Antalya, Türkiye.
01.01.2022

## AQŞİN ƏLİZADƏ: XATİRƏLƏR İŞIĞINDA

### MÜNDƏRİCAT

**Tərtibçilərdən**..........3-4

BƏSTƏKAR SÖZÜ

***Qarayev Fərəc.*** Агшин-мой друг, коллега ..........5-9
***Джафарова Афак.*** Зарисовка в память о композиторе..........10-13
***Rəcəbov Oqtay.*** Azərbaycanın musiqi xəzinəsini zənginləşdirən bəstəkar..........14-15
***Abdullazadə Gülnaz.*** Aqşin Əlizadə azərbaycançılığı, türkçülüyü özündə daşıyan bəstəkar idi ..........16-20
***Mansurov Eldar.*** Azərbaycanın ən böyük bəstəkarlarından biri olan Aqşin Əlizadə haqqında xatirə səhifəm ..........21-26
***Umudov Məmmədağa.*** Aqşin Əlizadə Azərbaycan musiqisinin inkişafına bütün varlığı ilə xidmət edirdi ..........27-32
***Dadaşova Elnarə.*** Füsunkar təbiətli insan..........32-39
***Fərəcov Sərdar.*** Qəhrəmanlıq ruhunu vəsf edən sənətkar..........40-45
***Qəmbərov Salman.*** Gözəl müəllim, böyük bəstəkar və çox təvazökar insan..........46-51
***Мамедова Арзу.*** Нам вас очень не хватает, дорогой Акшин Алиевич ..........52-54
***Ramazanov Rüfət.*** Aqşin Əlizadə təvazökar və intellektual bir şəxsiyyət kimi bizim yaddaşımızda qalacaqdır...........55-58
***Mirzəyev Elmir.*** IV simfoniya fonunda bir payız xatirəsi..........58-62

MUSİQİŞÜNAS SÖZÜ

***Тагизаде Аида.*** С любовью к родной земле..........63-65
***Əfəndiyeva İmruz.*** Şəxsiyyəti örnək olan bəstəkar, ictimai xadim və gözəl pedaqoq ..........66-70
***Babayeva Həcər.*** Mənim əziz müəllimim..........71-74
***Алиева Рейхан.*** Имя, определившее судьбу..........75-83
***Xalıqzadə Fəttah.*** İgid oğlan dayısına oxşayar (Aqşin Əlizadənin unudulmaz xatirəsini anarkən) ..........84-92
***Дадашева Наталья.*** Таким мы запомнили его навсегда (вспоминая композитора Акшина Ализаде)..........92-100
***Hüseynova Lalə.*** Aqşin Əlizadə - sənət yolumuzu nurlandırmış böyük bəstəkar və şəxsiyyət..........101-108
***Axundova-Dadaşzadə Zümrüd.*** "İstərdim Xəzərin sahillərində olum..." *(Aqşin Əlizadənin əziz xatirəsinə ithaf)* ..........109-132
***Səlimxanov Cahangir.*** Aqşin Əlizadənin musiqi irsi Azərbaycan bəstəkarlıq məktəbinin ən dəyərli səhifələrini təşkil edir ..........133-138
***Мамедова-Фараджева Лейла.*** «Одлар йурдунун сяси»..........139-145
***Hüseynova Sevda.*** Görkəmli bəstəkar, əsil vətəndaş, mübariz insan..........145-150
***Фархадов Рауф.*** Акшин Ализаде: версии и предположения ..........150-154
***Əsgərova Nigar.*** Vurğunu olduğum sənətkar..........154-157
***İsmayılova Güllü.*** Aqşin Əlizadə haqqında düşüncələrim..........158-160
***Təhmirazqızı Səadət.*** Aqşin Əlizadə ömrünün kitaba köçən səhifələri ..........161-166
***İbrahimova Aytən***. Aqşin Əlizadə: "xalq musiqisi mənim qanımın içindədir"..........166-169

## İFAÇI SÖZÜ

***Axundova Rəfiqə və Məmmədov Maqsud.*** "Babək"lə başlanan yaradıcılıq tandemi və dostluq telləri ....170-195
***Abdullayev Rauf.*** Aqşin Əlizadənin musiqi dili digərlərindən həmişə fərqlənir ....196-209
***Cəlilov Kamil.*** Səmimi, alicənab və çox istedadlı peşəkar bəstəkarımız haqqında xatirələrim ....210-211
***Исмаилова Зарифа.*** Незабываемые имена....212-213
***Əliyeva Adilə.*** Aqşin Əlizadə ənənəvi və müasir musiqini birləşdirən mütərəqqi şəxsiyyət idi ....214-215
***Məlikaslanov Ramiz.*** Aqşin Əlizadə Azərbaycan musiqi tarixində öz yeri olan bəstəkardır ....216-218
***Kamartin Simon.*** Es brauchte nur wenig bis das feuer loderte....218-220
***Axundzadə Yusif.*** Layiqli ömür yaşamış novator bəstəkar Aqşin Əlizadə haqqında ....221-223
***Quliyev Ramiz.*** Aqşin Əlizadənin təbiətində cəngilik ruhu var idi ....224-229
***Eyvazova Şəfiqə.*** Aqşin Əlizadənin musiqi dünyası Azərbaycan milli mədəniyyəti tarixinə böyük hərflərlə yazılmışdır ....229-230
***Магеррамова Хагигат.*** Памяти Акшина Ализаде....230-233
***Əsədullayev Arif.*** Əvəzolunmaz bəstəkar....233-236
***Cəfərov Cavanşir.*** Aqşin Əlizadə novator əsərlərin müəllifi kimi musiqi tariximizdə iz qoyub ....237-244
***Kərimov Fəxrəddin.*** Görkəmli bəstəkarımız Aqşin Əlizadəni hörmətlə anıram....244-246
***İmanova Gülbacı.*** Aqşin Əlizadənin yaradıcılıq inciləri Azərbaycan xor musiqisinin ən parlaq nümunələri sırasında layiqli yer tutur ....246-248
***İmamverdiyev İlqar.*** Aqşin Əlizadə haqqında xatirələrim....248-251
***Qasımov Alim.*** Aqşin Əlizadə gözəl mənəviyyat rəmzi kimi....251-252
***Manaflı Arif.*** Aqşin Əlizadənin musiqisi səmadan qidalanırdı....252-258
***Рзаева Рена.*** Бегущие к нам звуки Акшина Ализаде....258-262
***Adıgözəlov Yalçın.*** Ürəyi Azərbaycanla döyünən bəstəkar....262-265
***Hacıbəyova Ülviyyə.*** Aqşin Əlizadənin şəxsiyyəti və peşəkarlığı qarşısında baş əyirəm ....266-267
***Nəcəfov İlham.*** Korifey bəstəkarımız....267-268
***Babayeva Töhfə.*** Aqşin Əlizadənin musiqisində böyük fəlsəfə var ....269-271
***Dadaşova Brilyant.*** Bahar nəfəsli bəstəkar....271-272
***Əliyev Mübariz.*** Ölməz bəstəkar ....272-275
***Əliyarova Nərgiz..*** Sonsuzluğa yüksələn musiqi....275-279
***Mirzəyev Samir.*** Aqşin Əlizadə - böyük mənəviyyata malik sadə qəlbli insan idi....279-280
***Əliyev Əyyub.*** Əsərlərini hər dəfə ifa edəndə onu sanki aramızda hiss edirəm....281
***Həsənova Natavan.*** Musiqidə Aqşin Əlizadə zirvəsi ....282-285
***Quliyev Əyyub.*** Bizim borcumuz bəstəkarlarımızın sənət irsini yaşatmaqdır ....285-290
***Həsənli Fəqan.*** Aqşin Əlizadə - işiqlı simalı bəstəkar....290-291

## KİNO VƏ TEATR XADİMLƏRİ XATIRLAYIR

***Şabanova Elmira.*** Aqşin Əlizadə çox təvazökar və sadə insan kimi xatirələrimdə yaşayır ....292-295

***Pənahi Məsud.*** "Bulud niyə ağlayır?" cizgi filmi ilə başlanan yaradıcılıq təmasımız ........ 295-298
***Mirqasımov Oqtay.*** Musiqi aləmi və yaradıcılıq axtarışları onun həyatının ayrılmaz hissəsini təşkil edirdi ........ 299
***Qasımov Elxan.*** Yaxşı igid dayısına çəkər ........ 300-303
***Сафарова Лейла.*** Штрих к творческом портрету композитора Акшина Ализаде ........ 303-304
***Nemətov Azər Paşa.*** Öz dünyasının sənətkarı ........ 305-307
***Behbudov Vaqif.*** Aqşin Əlizadə Azərbaycan musiqi mədəniyyəti tarixində cizgi filmlərə musiqi yazmış ilk bəstəkardır ........ 308-310
***Ələkbərzadə Mehriban.*** Aqşin Əlizadə böyük insan idi ........ 310-312

**TƏLƏBƏLƏRİN DÜŞÜNCƏSİNDƏ**

***Əlibəyli Məryəm.*** Aqşin Əlizadə seçilmiş insanlardan idi ........ 313-314
***Nəsirova Könül.*** Silinməz xatirələr ........ 315-320
***Hidayətzadə Rəna.*** Aqşin Əlizadə – əvəzsiz müəllimim ........ 320-321
***Atıcı Müzəffər.*** Aqşin Əlizadə haqqında tələbəsi Müzəffər Atıcının xatirəsi ........ 322
***Marufoğlu Fatih.*** Müzikle yaşamayı öğreten hocam ........ 323
***Zeynalova-Özlük Nərminə.*** Böyük müəllim, təvazökar və mehriban insan ........ 324-325
***Axundova-Talıblı Pikə.*** Sadə və alicənab təbiətilə bizlərə örnək olan bəstəkar ........ 325-327
***Əkbərov Kərəm.*** Aqşin Əlizadənin qiymətli tövsiyələri və müdrik fikirləri mənim üçün həyat məktəbidir ........ 327-329
***Сулейман Тамилла.*** Акшин Ализаде - гениальный композитор, добрый, светлый, искренний и отзывчивый человек ........ 329-331
***Kərim Aysel.*** Sonuncu görüş – Aqşin Əlizadə xatirələrimdə ........ 332-336
***Fərəcova-Cabbarova Humay***. Aqşin Əlizadənin işiqli xatirəsinə ehtiramla ........ 336-340

**XATİRƏLƏR SORAĞINDA**

***Əlizadə Gülarə.*** Böyük qardaşım Aqşin Əlizadə haqqında ........ 341-350
***Məmmədəliyev Vasim.*** Bəstəkar Aqşin Əlizadə haqqında ........ 351
***Həbibbəyli İsa.*** Ustad bəstəkar Aqşin Əlizadənin xatirəsinə ........ 352-354
***Əliyeva Afaq.*** Doğma musiqi ocağı ........ 355-356
***Koç Tuna.*** Akşin Alizade ile anılar ........ 356-357

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**
Dizayner: **Zahid Məmmədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**
Çapa imzalanmış 31.05.2024
Şərti çap vərəqi 22,5. Sifariş № 162
Kağız formatı 70x100 1/16. Tiraj 130
Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4